# AZƏRBAYCAN

**11'2021**

**1923-cü ildən çıxır**

**AZƏRBAYCAN YAZIÇILAR BİRLİYİNİN
AYLIQ ƏDƏBİ-BƏDİİ ORQANI**

**Baş redaktor:** **İntiqam QASIMZADƏ**

**Baş redaktor müavini: Südabə AĞABALAYEVA**

**Məsul katib:** **Vüsal NURU**

***REDAKSİYA HEYƏTİ:*** **Ağasəfa, Elçin, Vilayət Quliyev, Firuzə Məmmədli, Məmməd Oruc, Əli Əmirli, Vaqif Bəhmənli, Vahid Əziz, Seyran Səxavət, Saday Budaqlı, Yaşar, Afaq Məsud, Paşa Əlioğlu, Asim Yadigar, Rüstəm Kamal, Ənvər Əhməd, Kamil Əfsəroğlu, Əjdər Ol, Vaqif Yusifli, Fəxri Uğurlu**

**Redaksiyanın ünvanı:**
Bakı - Az1000
Xaqani küçəsi, 25

**Telefonlar:**
*Redaksiya –*
498-78-10
493-28-32
493-2834
*Mühasibat –*
493-29-41

**Çapa imzalanıb:**
25.10.2021
**Sifariş 2137**
Tiraj 500
**Kağız formatı**
70x108 1/16 - 6,5
kağız vərəqi
13 çap vərəqi
18,2 şərti çap vərəqi

**E-mail:**
intigam.gasimzade@gmail.com
sudabe334@mail.ru

**Qiyməti**
**1 manat 50 qəpik**

**Bakı şəhəri,**
**"Azərbaycan"**
**nəşriyyatının mətbəəsində**
**ofset üsulu ilə çap olunur**

**Dərc olunmuş yazılar qəbul edilmir.**
**Əlyazmalara rəy verilmir və qaytarılmır.**
**Müəllifin fikirləri redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.**

BU SAYIMIZDA:

# Zəfərin mübarək, Azərbaycan!

RƏŞİD FAXRALI – QƏLƏBƏYƏ SALAM OLSUN! ............................3

## NƏSR

ZAHİD SARITORPAQ – Qiyamət qaziləri (roman-pritça) .....................17
VAHİD MƏHƏRRƏMOV – Dəniz gözlü qız,
Sevgi məktubu (hekayələr) .....................171

## POEZİYA

RAMİZ QUSARÇAYLI – Vətən (poema - son) …...................................72
NAZİM ƏHMƏDLİ – Şeirlər ................................................................112
İNTİQAM YAŞAR – Şeirlər …....................................................…..120
DƏYANƏT OSMANLI – Şeirlər ..........................................................150
NƏZAKƏT MƏMMƏDOVA – Şeirlər .................................................160
GÜLƏMAİL MURAD – Şeirlər ...........................................................168
SEHRAN ALLAHVERDİ – Şeirlər .....................................................179
GÜLNARƏ SADİQ – Şeirlər ...............................................................183

## DRAMATURGİYA

ƏLİ ƏMİRLİ – Bircə addım (6 səhnəli dram) ..........................................87

## NİZAMİ GƏNCƏVİ – 880

NÜŞABƏ ARASLI – "Beş inci"nin sonuncusu ....................................129
YAQUB BABAYEV – Nizaminin imanı və inamı ................................137
PAŞA ƏLİOĞLU – Mənzərə Məmmədovanın
nizamişünaslıq fəaliyyəti .......................................144

## TƏNQİD VƏ ƏDƏBİYYATŞÜNASLIQ

RAHİD ULUSEL – Vətən Müharibəsi və ədəbiyyatda
milli özünüdərk problemi .....................................186

## ƏDƏBİ FRAQMENTLƏR

VAQİF YUSİFLİ – «Əlincədə ətir saçan qızılgül» ……....................…..203

## KİTAB RƏFİ ..............................207

# Zəfərin mübarək, Azərbaycan!




## QƏLƏBƏYƏ SALAM OLSUN!..

***(lirik poema)***

***Əsgər ürəyindən başlanır Vətən!***

İstəyirdim ki, qaynaya,
daşa ruhumun payızı.
Tarix yaza bu torpağa,
daşa ruhumun payızı.

Nə elədin, düz elədin,
Gecəni gündüz elədin,
Sən ki, bizi biz elədin
yaşa, ruhumun payızı!..

***–İgidin igiddən üstünlüyü nədi?***
***–İgidliyi!***

Bir ilahi haray oldu
dağlara dağların səsi.
Ürək-ürək yaxınlaşdı
bizə uzaqların səsi.

“Dərd verənlə əyiş!” – dedi,
“Qılıncını dəyiş!” – dedi,
“Vuruş!” – dedi, “Döyüş!” – dedi
gələn soraqların səsi.

Qara daşı göyərdəcək,
Yan-yanaşı göyərdəcək,
Daşa-daşa göyərdəcək
axar bulaqların səsi.

Hər döyüş bir ərlik olar,
Bu da mötəbərlik olar!
Min ilə üzərlik olar
dillənən çağların səsi.

***–Yolçu, yolun hayanadı?***
***–Döyüşüm səsləyən yerə.***
***–Döyüşün hara səsləyir?***
***–Ruhumuzun işığında***
***Nəfəsimiz dəyən yerə!***

Döyüşçülər bir dan üzü
izi izə bənd eləyib,
cığırı kəmənd eləyib
getdilər üzü dağlara.

Döyüş vaxtı yel əsdi ki,
Əsə-əsə tələsdi ki,
yetirə sözü dağlara.

Döyüş ruhum döyüşdədi;
Ana Vətən, Uğur Dədə
Gün çıxmamış alıb gedə
ürəyimizi dağlara...

***–Niyyətin nədi, igid?***
***–Qılıncımı yağı boyununda***
***itiləməkdi, Dədə!***

Payız əllərini ovxalayırdı,
Göyün gözlərindən göz yaşı düşdü.
Darıxan çiçəklər pıçıldayırdı:
Nə düşdü, sirr ilə yanaşı düşdü.

***–Qardaş, ruhumuzun əsgəri kimdi?***
***–Döyüşən oğula salam verənlər!***

Dağları-daşları dikələn görüb
Döyüşçü qardaşım seçər kilidi,
Sevgi açarıyla açar kilidi...
Tarixə verilən salam kimidi
döyüşdə verilən salam.

Dan üzü Zəfərə sarıdı yönü,
Uğura tən bilir hər gördüyünü...
Düşmənə atılan gülləyə dönür
döyüşdə verilən salam...

***"Bilməyən nə bilsin bizi?***
***Bilənlərə salam olsun!"***

**Yunus Əmrə**

Bu dağların harayına
çatanlara salam olsun!
Düşmən üstə güllə, mərmi
atanlara salam olsun!

Dünya mat qaldı gərdişə,
Boy göstərən titrəyişə...
O döyüşdən bu döyüşə
çatanlara salam olsun!
Hər döyüşün özü – uca,
Odu – uca, közü – uca...
Ucalıqda sözü uca
tutanlara salam olsun!

Dərdi yolundan saxlayıb,
Vuran əlini dağlayıb,

Tutub daşlara bağlayıb
çatanlara salam olsun!

Daş-daşıma,
qar-daşıma
salam olsun!
Dağlar, əsgər qardaşıma
salam olsun!
Salam olsun
Döyüş-döyüş
Qələbəyə varanlara!
Zəfər üçün
təzə cığır salanlara!

Salam olsun,
Dağa-daşa, Yerə, Göyə
salam olsun
İgidliyə, qaziliyə, şəhidliyə
salam olsun!..
Qətiyyətə, dəyanətə salam olsun!
Vətən adlı sədaqətə
salam olsun!
Min illərin yaddaşına
layla olan məhəbbətə
salam olsun!

***–Əlin qılıncının qəbzəsindədi, igid.***
***–Uğur üstəyəm, Dədə.***
***–Uğurun xeyir olsun!***

Bulud axırdı.
göylər baxırdı,
yağış yağırdı
uğur yoluna.

Yellər əsirdi
(nəydi, nə sirdi?!),
çox tələsirdi
uğur yoluna.

Od-ocağıydı?
Ya çırağıydı?
Göyqurşağıydı
uğur yoluna.

Qınından qılınc kimi
sıyrılan döyüşlərə
ellər də dayağıydı,
Yollar boyunca əllər
yellənən bayrağıydı
uğur yoluna.

Yer boylanır, göy baxır,
dağların o üzündə
bir qatar ulduz axır,
Anaların alqışı
axır uğur yoluna.

Gün günorta olunca,
Alqış camı dolunca
döyüş göy gözlü göyün
gözlərinin nurunu
sağır uğur yoluna...

Saçları dağınıq Göyün yağışı
qara daş əzənə uğur suyudu.
Şəri son nəfəsə yetirmək üçün
Mənzillər kəsənə uğur suyudu.

Kirpikdən üzülüb sözə dönən yaş,
Çiçək ləçəyində közə dönən yaş,
İşğalın bağını, işğal bağını
doğrayıb-kəsənə uğur suyudu.

Qayaya söykənən hər xınalı daş,
Səsə boylanırdı gözündə təlaş...
Üzündə köz oldu iki damla yaş,
Ay Rəşid, desənə uğur suyudu!..

Bu uğurun suyu, bu uğur suyu
Dönməmiş göylərin göyqurşağına
gürşad olacaqdı Gün çıxan kimi
yaralı torpağın göy qurşağına.

Oğullar gedirdi üzü dağlara,
Üzü dağlaraydı qələbəmizin.
Boyu boy verirdi sözün boyuna
sözü çağlaraydı qələbəmizin:

...qara bağ,
Qara kəmər, qara bağ.
Döyüşürük!
Gəlirik,
Yollara bax, Qarabağ!

***İgid oğul baş qoyacaq***
***Ruhumuz daş qoyan yerə!***

Payız günü oğullar
mərmilərin səsindən
diksinən ağacların
budağından sürüşən
yellər üçün gedirdi.
Yollarda bayraqlaşan
əllər üçün gedirdi.

Daşı daşa bağlayan,
Sal daşı qundaqlayan,
Sahili qucaq sayan
sellər üçün gedirdi.
Telində meh görünən,
Mehində şeh görünən,
Gah keçən, gah görünən
güllər üçün gedirdi.

Göylərə yağış sərən,
Yerlərə naxış sərən,
Yollara baxış sərən
ellər üçün gedirdi.

Duruş-döyüş,
yeriş-döyüş,
baxış-döyüş
deyirdi ki,
gedirik üzü dağlara.
Qələbənin işığıdı
aparan bizi dağlara.

Gedənlər deyirdi ki,
döyüş istəyir Vətən,
İlləri yorub gələn,
Ovxarlı xəncəriylə

boy göstərən yağının
boyunu silib gələn
sədaqətə tən döyüş,
Bir arzuya tən döyüş,
Bir niyyətə tən döyüş,
Azərbaycan adında
məhəbbətə tən döyüş!
Bu döyüş
Ərənliyin, ərliyin
başına börk olacaq,
Dünyaya görk olacaq
qüdrətin, Vətən, döyüş!..

> ***"Düşmən sərhədlərimizi keçəndən sonra ölsəm, məni dəfn etməyin, qoy ətimi itlər yesin. Düşmən sərhədlərimizi keçməmiş şəhid olsam, sabunum, kəfənim çantamdadır".*** *(İstiqlal savaşında Şükrü paşanın vəsiyyəti)*

Döyüş gedir...
Marığa yatıbdı yağı...
Dağ əsgərin dayağıdı,
Əsgər – dağın...
Döyüş-döyüş əsən yellər
qanad-qanad sığallayır
döyüşçünün
ayaq izi öpən yeri.
Səngər-dağın
                    əsgər-dağın
sinəsini gizildədir
güllə yeri, qəlpə yeri.

Döyüş-döyüş təngiyir
işğalın son nəfəsi...
Güvəncim güllələrin
ölüm daşıyan səsi.

Boz buludlar qaralıb,
Göyün səbri daralıb.
Komandirin baxışı
yenə döyüşçülərin
baxışına sarılıb:
Ay Vətən, sığan deyil,

sözə döyüşlərimiz.
Nə deyir, nələr deyir
ərzə döyüşlərimiz.

Güllə göyü qaraltdı,
Göyün çardağı çatdı...
Şəri ayağı altda
əzər döyüşlərimiz.

Kimin gözü dolacaq,
Kimin rəngi solacaq?!
Vətən, tarix olacaq
təzə döyüşlərimiz!

***–Hara gedirsən, igid?***
***–Döyüşə, gedirəm, Dədə.***
***–Qəzan mübarək, oğul, qəzan mübarək!***

Gecənin qaşları çatılıb...
İndi
Dağlardan sürüşən duman görünür,
Göz açıb-yumunca Ay işığında.
dağlara çırpılan güman görünür.
Payız ovucunda sıxır çölləri,
Dağların gözünün qaçıb yuxusu.
Dan yeri sökülcək necə qarışıb
Çiçək qoxusuna barıt qoxusu?!

...Baş leytenant düşmənin
səngərinə gedirdi,
İllər ilə ləngiyən
Bir qaranlıq gecənin
Səhərinə gedirdi.

Min illərdən sıyrılan
qüdrət kimi gedirdi.
Bir ürəyə sığmayan
nifrət kimi gedirdi.

Gedirdi işğalçının
nəfəsini kəsməyə,
Dünyanı çimçəşdirən
həvəsini kəsməyə...

Daşları çığnayırdı
Mübarizlik yerişi.
Cığırları edirdi
çilik-çilik yerişi...

Necə qılıqlamışdı
görəsən necə, vaxtı?!
Döyüşə tək gedirdi
gecənin gecə vaxtı.

Qəzəb kimi yetirdi,
düşmənin səngərinə.
Hiddət kimi yetirdi
öz catdığı ocağa
düşənin səngərinə...

...güllə atmadı...
Düşmənin növbə çəkən
əsgərinin
boğazından yapışdı...
Sonra birinin də...
Birinin də...
Birinin də...
Başqa bir yağı
silahını alınca
Sıxdı avtomatının
tətiyini barmağı...

Beş düşmən..
Bir səngərin
Bir gecədən doğulan
beş urvatsız ölüsü...
Bu da erməniliyin
Bir gecənin içində
təzə adsız ölüsü...

Şəhid oldu leytenant
şəhidlik döyüşündə.
İşğaldan qurtuluşun
Üzərlik döyüşündə...

### ***Nağılları dəyişəcək uşaqların...***

İndən belə
biri vardı ...

deyiləcək
Nağıl-nağıl böyüyəcək körpələr.
Məlikməmmədlər,
Dərzi şagirdi Əhmədlər,
Ağ atlı Oğlanlar,
Pəri qızından doğulanlar, ...
olmayacaq.
Gerçək qəhrəmanlarımız olacaq
gecələrin yuxusunun ortağı...

...bir də
İman olacaq, Bəhram olacaq
körpələrin nağıl qardaşı.
Yenə nağıl-nağıl yanacaq
nənələrin-babaların
bağrının başı:
İki qardaş döyüşürdü Xocavənddə,
İman, Bəhram.
Döyüşdülər,
sərt yolların inadını əyə-əyə,
işğalçının
baş-gözünə döyə-döyə
Nağılları yetirdilər gerçəkliyə...
Döyüşdülər...
Eyni gündə
qovuşdular şəhidliyə...

***Səlcuqlu sultanı Alparslan (1028-1072) Malazgird zəfəri ərəfəsində ağ paltar geyinərək sərkərdələrinə deyib: "Bu, mənim şə-hidlik kəfənimdir. Savaş meydanında ölsəm məni bu paltarda dəfn edərsiniz".***

O da atışırdı
bayaqdan bəri.
Birdən-birə azaldı
sağda güllə səsləri.
Ürəyinin gözüylə
baxdı daşlığa sarı.
Ruhu candan ayırdı
dar macalda gümanlar.
Ağrı, gizilti oldu
ürəyinə damanlar.

Qıymazdı ki, döyüşdə
son sözü, son kəlməni
ayrı bir güllə deyə.
Dizin-dizin yetirdi
yaralı döyüşçüyə...

Qoltuğundan yapışıb
götürdü qucağına.
Yaşa tamarzılının
yaşaran gözlərindən
yaş düşdü yanağına...

Yola sarı süründü.
O anda yan-yörəsi
Toz-dumana büründü...
Sağa güllə dəyirdi,
sola güllə dəyirdi,
əllərinin çatdığı
yola güllə dəyirdi...

–Qayıt...
Döyüş..., – deyirdi
yaralı,
 döyüşçüyə.
Döyüşlərdən on addım
aralı döyüşçüyə...
–Vaxtı taxtından salıb
çatırıq, lap az qalıb..., –
döyüşçü belə dedi
yaralı döyüşçüyə...
–Çatırıq... – pıçıldadı
döyüşçü döyüşçüyə.
Son nəfəsi çatmadı
sözünü bitirməyə...

Baxdı...
Qırıldı səsi,
Sinəsinə dəymişdi
snayperin gülləsi...

Yaralanmış döyüşçü
Gözlərinə köçürdü,
Göy üzünə köçürdü

gün günorta olmamış
döyüşən əsgərlərin
seyrələn sırasını...
Dirsəkləndi...
Ah çəkib
sinəsiylə sarıdı
şəhidin yarasını...

Döyüşürdü...
Güllələr
Düşmənin
Səngərinə düşürdü...
Barmağı tətiyi isindirirdi,
Səsini atdığı güllənin səsinə qatıb
Mübariz səsiylə belə deyirdi:

Bu, sinəsi dağlının,
Bu, qapısı bağlının,
Bu, dərdi qundaqlının,
Bu, Meşəlinin,
Bu, Bağanıs Ayrımın,
Bu, Qaradağlının, ...
qisası.
Bu, özünü qayadan
atanların qisası,
Əsir düşməsin deyə
qızını güllələyib
özü intihar edən
ataların qisası! –
dirsəkləndi torpağa.
Birdən bir mərmi düşdü
dörd-beş addım uzağa...

> ***"...Şuşa Qarabağın tacıdır! Şuşanın azad edilməsi həm böyük siyasi, həm böyük strateji, eyni zamanda, çox böyük mənəvi məna daşıyır..."*** *(Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqa müraciətindən).*

Gələn qüdrəti görüb
titrəyirdi Daşaltı.
Ərənliyə, ərliyə
baş əyirdi Daşaltı.

Gecə
Gələnlərin ayaq səsinin
hardan gəldiyini bilməyəcəkdi.
Qara heyrətini gözünə sıxıb
dinmədi,
                    səsini içinə çəkdi.

Doğma hənirti duyan
dağ bir boy da dikəldi.
Dirsəklənən qayalar
bir dağ boyda dikəldi.
Döyüş gərnəşirdi...
Burda dan üzü
Gecənin köynəyi söküləcəkdi.
İşığa çıxmamış düşmənin gözü
qoşa ovucuna töküləcəkdi.

Ayaqlar toxunanda
Nərdivana dönürdü
Qayaların daş qolu,
əli – hər çıxıntısı.
Göyə dayaq dağların
Hələ təmas görməyən
təzə-tər çıxıntısı...

Döyüşdülər...
Qayaları
çıxa-çıxa döyüşdülər...
Düşmənlərin sədlərini
yıxa-yıxa döyüşdülər...

Qayaların sərtini
kəmənd bilib döyüşdülər..
Yaralı döyüşçünün
döyüşdə son nəfəsdə
qanı ilə yazdığı
"Qarabağ bizimdi!"
                    kəlmələrini
and bilib döyüşdülər...

Bağırıqan dağının bağrı qan oldu,
Çiyninə baş qoyan duman ağladı...
Yellər qanad çaldı...

Xəzinə qayanın gözləri doldu,
Çəkdiyi ah yenə sinə dağladı...
Döyüşə-döyüşə yetirdilər Şuşaya.
Yaralıları da, şəhidləri də
döyüşə-döyüşə çiyinlərində
gətirdilər Şuşaya!..

Salam, ruhumuzun şəhəri, salam!
9 noyabrın səhəri, salam!
Salam,
                    min illərin ən gözəl ili!
Salam,
                    min illərin ən gözəl ayı!
Dünya gözlərinə sürmə eləsin
İsa bulağından gələn harayı:

Əzizinəm, qara bağ,
Qara kəmər, qara bağ.
Bu gün Zəfər günüdü,
Gözün aydın, Qarabağ!
– Hardan gəlirsən, igid?
– Qazavatdan, döyüşdən.
– Surunuz yerisin, oğul!

Dədə Qorqud dualarından

Döyüşləri uğurlamış
Yerə, Göyə salam olsun!
Azərbaycan əsgərinin
qazandığı
Qələbəyə salam olsun!..

***sentyabr, 2021***

***Rəşid FAXRALI***



*Zahid SARITORPAQ*



# QİYAMƏT QAZİLƏRİ

♦ *Roman-pritça*

...Pənah deyirdi ki, günəşin hardan doğub, harda batdığını hamı bilir, amma niyə doğub, niyə batdığından çoxunun xəbəri yoxdu...

Başından aldığı qəlpə yarasından uzun illərdi, özü demişkən, it əzabı çəkən bu məşhur qazi tez-tez etdiyi belə söhbətlərlə dünyanın altından girib, üstündən çıxmağı xoşlayırdı. Di gəl, təpəsinə güllə də çaxsan, canını qoyduğu müharibədən danışmağı sevmirdi ki, sevmirdi. Vaxtilə iki ali məktəbi yarımçıq qoysa da, savadına söz yox idi, elə şeylər uydururdu, hamı mat qalırdı... Məsələn, deyirdi: "Sübut eləyərəm ki, insanlar haçansa partlamış nəhəng bir bombanın yer üzünə səpələnmiş qəlpələridir. Amma hər biri kainatı necə yaralayıb, ona necə əzab verdiyini bilmir. Di gəl, acısını yenə özləri çəkir..." Sonra da başlayırdı dediklərini bircə-bircə xırdalamağa. Elə çözürdü, elə çözürdü, heyrətdən hamının gözü dörd olurdu.

Hərdən də başı tamam çönürdü, ağlasığmaz şeylər danışırdı. Ən çox da uşaqlıq dostu, qürbətin acısına birlikdə şərik olduğu Qismətdən soruşurdu ki: "De görüm, lap uşaqlıqdan yaxşı tanıdığın Qara nohurun dibində mamırlı bir daş, onun da altında kor bir qurbağa yaşadığından xəbərin var?" Qismət deyirdi: "Yox". Qımışa-qımışa baxırdı üzünə: "Budaqları o nohurun sularına toxunan, uşaq vaxtı tez-tez dırmaşdığımız o qoca söyüd ağacını necə, unutmamısan ki? Unutmamısan yəqin... De görüm, o ağac niyə orda bitib? Bilirsən?" – "Yox – deyirdi Qismət, – Pənah, vallah yox. Nə bilim niyə bitib..." Gözləri oynayırdı. Siqaretini sümürürdü, sümürürdü, bir xeyli başını yırğalayıb sakitcə deyirdi: "O adam danışıb bunları, Qismət, o adam!.. Dəryadı ee, dərya! Qulaq as, gör nə deyir. Deyir, onun da orda bitməsinin səbəbi var. O ağacın oyuğunda bir alacəhrə quşu yuva qurmalıymış. Qurub da! Uzun zamandı o quş hər gün bir çəyirtkə öldürür, xırdaca-xırdaca tikələyir, amma yemir, yığır söyüdün dibinə. Orda bir qarışqa yuvası da var, içindən atlı qarışqalar çıxıb həmin tikələri

bütün gün ərzində söyüdün gövdəsilə üzüyuxarı daşıyır, sonra suya sallanan budaqlardan birinin ucuna doğru endirib, buraxır aşağı. Elə həmin andaca sudan bir qarabel balıq sıçrayıb o yemləri göydə tutur, amma yemir. Hə, Qismət, o balıq da həmin quş kimi, o qarışqalar kimi, yemir onları – bircə-bircə aparıb verir nohurun dibində mamırlı daşın altındakı o kor qurbağaya...” Dostu bilmirdi nə desin, sadəcə: “Pah atonnan! Nağıla bax eey! Hə, noolsun? Bəs sonra?” – söyləyirdi. Çünki o da az aşın duzu deyildi, özü bilə-bilə qızışdırırdı dostunu ki, görsün sonrası necə olacaq; maraqlıydı axı. “Nə noolsun? Nə sonra? – deyirdi. – Mən nağıl danışıram? O adam mənə nağıl danışıb bəyəm?” İnciyib mıs-mırığını sallayırdı. Bir az eləcə durub sözünə davam eləyirdi: “Ay zalım, bilmirsən ki, heç bir canlı, heç bir ot, yarpaq, kol-kos yiyəsiz deyil bu dünyada? Axı, o qurbağanı kor yaradan qüvvə, həm də ruzisini göndərir. Anlamırsan? Yaradanın möcüzəsi bəs nə təhər olmalıdı? Mizan-tərəzi budur da!..”

Qismət bu dəfə təəssüflə başını yelləyib onun bu qədər sadəlövh olduğuna gülürdü. O isə hirslənirdi. Siqaretini sümürüb təzədən qızışır, ciddi-ciddi döşəyirdi dostunun cəmdəyinə: “Belə avam olduğunu bilməzdim heç... Darıxma, qoy o adam gəlsin, görərsən, çox şeyi başa salacaq sənə, çox şeyi. Gör nələr olacaq: niyə döyüşdük? niyə uduzduq? niyə qazi olduq? Özü də, Qiyamət Qazisi ola-ola niyə gəldik bu qürbət xarabaya? – bax, bunların da əsl səbəbini anladacaq...”

Barmaqları arasında siqaretini əzişdirə-əzişdirə bir qullab da vurub odlu-odlu deyirdi ki, “hətta Xocalıdan bir az aralıda, çayı keçən kimi dərənin o üzündəki qocaman ardıc ağacının dibində, gedib gözlərinlə gördüyün, öldürülüb-yandırılan o cavan ana-balanın külü altında qalıb qırılan parabüzənlərin əbədi qiyamətinin necə başladığını da biləcəksən... Fırtına qopacaq eey, fırtına! O qiyamətdə kimin yeri harda olmalıdır, bax, ondan da xəbər tutacaqsan. Hələ Sarıqamışa getmək üçün kəşfiyyata çıxanda vurduğum o yekəbaş dığanın qanı tökülmüş gölməçədə bir dəqiqənin içində çömçəquyruqların niyə qırıldığını da öyrənəcəksən. O adamın dediyinə görə, peysərimdən qəlpə yarası alıb dostlarım məni səngərə sürüyəndə, çəkmələrimin dabanı yerə sürtüldükcə, demə torpaqda neçə-neçə qarışqa yuvası tar-mar olubmuş. O dağılmış yuvaların, o qırılan qarışqaların bədəlini mənmi ödəyəcəm, yoxsa düşmənmi? – kim, haçan, necə ödəyəcək? – bax, onu da bilir həmin adam. Gələcək, hər şeyi başa salacaq, özün görəcəksən, görəcəksən Pənahı nələr gözləyir, təkcə məni yox eey, elə səni də, elə hamımızı... Hələ biləcəksən ki, “Səbətkeçməz”də vurduğum həmin dığanın yanğıyla çağırdığı adamla, mənim həsrətində olduğum eynidi, yoxsa yox... Onda biləcəksən nə var, nə yox. Həm də biləcəksən bura – bu qürbət xarabaya niyə gəlmişik, burda nə itimiz azıb... Biləcəksən, yaşamağa dəyərmi bu bekara dünyada, yoxsa yox...”

Sonra da üzünə məsum bir uşaq təbəssümü qonurdu, meyxanaçılar kimi çırtma çala-çala oxuyurdu: “Biləcəksən söykənib boz arağa, əl atıb da yarağa, atımızı çapmalıyıq... Bəs hara çapmalıyıq, qağa? – düzənə,

yoxsa dağa?.. Bir sözlə, ya yaşamalıyıq, ya da, necə deyərlər, birdəfəlik vur nağara, çıx qırağa, ay qağa! Vur nağara, çıx qırağa, ay qağa, ay qağa!..” Axırda da hönkürürdü: və hıçqırıqlı səsindən Qarabağa aid əzablı bir mahnının ritmləri tökülürdü: “Mən aşiqəm Qarabağ...”

Onun sayıqlamalarından Qismətin gözü kəlləsinə çıxırdı. Dostunun yarıgerçək, yarımüəmmalı nağıl-tapmacaları onu havalandırırdı. Bilirdi ki, bunlar yüz faiz onun başından aldığı qəlpə yarasının fəsadlarıdı. “O adam dediyi kimdi? Kimdi o adam axı? Bunlar hamısı qarabasmalardı, boş və mənasız söhbətlərdi...” – düşünürdü. Amma Pənah hərdən gerçəyə oxşar elə şeylər danışır, elə söhbətlər edirdi ki, Qismət bomboş bir səhrada özü öz meyitinə rast gəlmiş kimi çaşıb qalırdı – bilmirdi ölü canına ağlasın, yoxsa bu müəmmalar önündə çar-naçar qalmış diri ruhunu götürüb qaçsın. Amma necə, necə ağlayaydı axı? Hara, hara qaçaydı? – bax, onu bilmirdi...

Tək özünün tanıdığı, adına “o adam” dediyi həmin sirli, mübhəm bəndəninsə, qürbətin bu qatmaqarışıq aləmində heç izi-tozu da görünmürdü. Ən azından, özü demişkən, o, gəlib çıxmaq bilmirdi. Gəlib çıxmırdı ki, kim olduğu, nəçi olduğu bilinəydi. Bilinəydi ki, bu adlı-sanlı qazi ona niyə bu qədər aşiqdi, niyə bunca inanır, yolunu niyə belə səbirsizliklə gözləyir və o, gəlib bu qürbət eldə bir parça çörək avarası olan bu insanlara nə deyəcək.

Bəlkə də dilinə içki dəyən kimi Pənah qədər hər şeyin dərinliyinə varan ikinci bir kəs gəlməyib yer üzünə. Xüsusilə də axır vaxtlar söhbətlərində göz görüb, ağıl kəsən hər şeydən elə bir “dərya yaradır”, dibinə elə “baş vururdu” ki, adam dəhşətə gəlirdi. Onu dinləyəndə, məsələn, Qismət, istər-istəməz, düşünürdü ki, indicə o, “batıb-boğulacaq”. Sonra görürdü, yoox, bilgisizlikdən özü “oyanlıq” olub, quruyub-qalıb yerində. Pənaha belə məqamlar ləzzət eləyirdi, araq süzə-süzə, ya da siqaretini sümürə-sümürə altdan-altdan qarşısındakına baxıb, gah günahsız bir körpə kimi şirin-şirin, gah da dünyanın hər üzünü görmüş nurani bir qoca kimi acı-acı gülümsəyirdi.

O gecə də aləmi qatmışdı bir-birinə, amma çox kədərliydi.

Moskvanın Balaşixa rayonunda Qismətin kirayədə qaldığı darısqal mənzildə içə-içə, siqareti siqarətə calamaqdan yorulmaq nədi bilmirdilər, köhnələrin sözü olmasın, elə bil porsuq boğurdular – tüstüdən göz gözü görmürdü. Başları dumanlıydı, get-gedə keflənirdilər. Yenə Qisməti uşaq kimi qarşısında otuzdurub “dərs keçirdi”. O isə, əlində çappa stəkan, kirimişcə qulaq asırdı. O gecə xırdalığına varıb ilmə-ilmə çözdüyü məsələlərin çoxu başadüşülən olsa da, elə bil, Pənah Qismətdən yeddi divar o yanda durub hayqırırdı, dostu səsini güc-bəla eşidirdi. Arada söhbətini yarımçıq qoyub həmişəki kimi siqaretdən dərin bir qullab vurur: “O, yenə gəlmədi, Qismət, yenə gəlmədi...” deyirdi. Qismət isə çarəsizlikdən mızıldanırdı:

– Gələr, Pənah, gələr, darıxma...

Oysa elə hey bir ucdan üyüdüb-tökürdü:

– Belə getsə, heç nə, Qismət, heç nə... Lap onun gəlməyini də qoyuram bir qırağa, o başqa məsələdi. Demək istədiyim ayrı şeydi. Qulaq asırsan? Qulaq asırsan nə deyirəm? Gəl sənə adi bir misal çəkim də, adi bir misal... Tutalım, baxanda, cücülərin, böcəklərin hörümçək torunda, balıqların qarmaqda çırpına-çırpına necə öldüyünü görürükmü? – görürük. Düzdü? Deyəcəksən ki, “hə, əlbəttə, düzdü, görürük”. Amma gəl doğrusunu deyək, görəndə heç tükümüz də tərpənmir, elə deyil? Düz demirəm? İndi deyəcəksən, “hə, bu da doğrudu, amma nə dəxli var axı?” Qoy deyim... heç nə, əlbəttə, heç nə. Biz elə ömür sürürük ki, məsələn, boş-boş şeyləri – ancaq əyin-başımızın köhnə, ev-eşiyimizin yararsız olduğunu, gündəlik dolanışığımızın çətinliyini özümüzə dərd eləyirik. Canımızı qoyduğumuz Qarabağ-filan da çıxır yadımızdan... Guya elə bundan ötrü gəlmişik dünyaya. Bütün bunları dəyirman daşına çevirib nağıldakı div kimi boynumuza keçirməyi, onun ağırlığı altında gündə yüz yol ölüb-dirilməyi normal sayırıq. Amma bilmirik ki, o “daşın” üstünə bir alabəzək kəpənək qonsa, ömür-günümüzün tarazlığı necə pozulacaq...

Qismət ta bilmirdi neyləsin, həmişəki kimi öz içində azmasın deyə, belə fikirlərə söykənmişdi: “...İlahi, bu nə danışır? Div... dəyirman daşı... alabəzək kəpənək... Nə demək istəyir axı bu?..”

– Qulaq as eey, guya sadaladığım əyər-əskiklikləri qaydasına salmasaq, dünya dağılacaq? Pah! Bundan ötrü çırpınıb-çabalayırıq, amma sonumuzun qəfil çata biləcəyini qətiyyən fikirləşmirik, həll olunmamış dərdlərimiz qalıb eey, dərdlərimiz!... Elə bil, bu, heç vecimizə də deyil. Guya adına ömür deyilən bu köhnə çul-çuxa həmişəlikdi, geydiriblər əynimizə, bir də heç vaxt soyundurmayacaqlar... Budur haa, oturub qəşəng-qəşəng vururuq da səninlə. Amma nə bilirik bu şüşəsi bər-bəzəkli arağın spirti təmizdi, yoxsa saxta? Nə bilirik içalatımızı nə günə qoyur. Bilirik? Yox... Bədbəxtliyimiz ondadı ki, elə bil, biz məxluqatda ölümü içimiznən anlamaq hissi yoxdu ee, yoxdu, billah... Kirpiyimizin ucunda, nəfəsimizin gedib-gəldiyi bu bir qarış yolda ölümün sərxoş-sərxoş dolaşdığının fərqində deyilik. Sən bilirsən ki, təhsilimi yarımçıq qoysam da, iki institutda oxumuşam, illərlə iki ali məktəbə təpik döymüşəm, yəni diplomum olmasa da, özümə görə az-çox savadım var. Çox şeyi bilsəm də, öləcəyimi anlasam da, o məqama içdən inanmağım olmayıb heç vaxt, olmayıb! Ölüm instinkti yoxdu məndə! Bəlkə də elə ona görə döyüşə canidildən girişmişdim. Nə bilim... Hər halda, səbəbin biri də bu imiş yəqin... Uşaqlıqdan məni tanıyırsan. Bilirsən ki, yalan-palanla aram yoxdu. Yaşayırıq da özümüzçün... Biz də düz bir ömür hörümçək torunda cücü kimi çırpınırıq, qarmaqda balıq kimi çabalayırıq, qağa... Bilirsən necə? Bax belə: get iş yerinə, gəl evə, get iş yerinə, gəl evə, səhər çıx evdən, axşam qayıt geri... ora-bura, ora... bura... bir gün də son!.. Hə, son çatır və... sən gedirsən... gedirsən birdəfəlik... bilirsən də hara? – gora! Hə, əlbəttə, gora! Bax, goru qəti fikirləşmirik. Fikirləşmirik onu. Lap fikirləşsək

də yenə, elə bil öləcəyimiz anı ağlımıza gətirə bilmirik. Gözümüzü ilanlarmı yeyəcək, kərtənkələlərmi? – bax, onu ağlımızın ucundan da keçirmirik. Guya hamı ölə bilər, biz yox... Bütün dərd-sərimizi sonra həll etməyə saxlayırıq. Haçan? Harda? Təkcə vətəndə yox ee, Qismət, bax, həm də burda – qürbətdə, hə, həm də qürbətdə!..

O, stəkanı ağzınacan doldurdu. Nəfəs dərmədən uzunçuluq eləyirdi. Başı çönmüşdü təmiz... Odlu-odlu danışdığına görə dodaqlarının qırağından ağappaq köpük daşdayırdı. Araq süzə-süzə öz-özünə yenə bir ağız mızıldandı: “o, yenə gəlmədi...” Rəngi bəmbəyaz idi. Siqaretdən dərin bir qullab vurub sözünə davam elədi:

– Hər dəfə burda, adına qürbət deyilən bu xarabada yerli camaatın hirslə, hikkəylə: “sən buralı deyilsən!..” çığıran soyuq baxışları var haa, bax, onlar varlığımızı mərmi kimi darmadağın eləyəndə... Qismət, o baxışlar, bax, o göz qumbaraları... – hə, hə, başqa söz tapmıram, başqa ad qoya bilmirəm, – hə, bax o qumbara baxışlar canımızı param-parça eləyəndə, biz qəriblər bilirsən nəynən təsəlli tapırıq? De də... de görüm, bilirsən?..

Qismət ağzını doldurdu ki, nəsə desin, aman vermədi:

– Bilməmiş olmazsan, bilirsən yəqin: yalnız bir şeylə... Bircə şeylə yalnız. Onunla təsəlli tapırıq ki, hardasa bizim də vətənimiz var, bizim də xarabamız var!..

Xeyli susdu. Sonra davam elədi:

– Elə deyil? Özümüzə ürək-dirək veririk... Ürək-dirək veririk ki, toranlıq qarışınca yuvalarına tələsən quşlar var haa, bax onlar kimi günlərin bir günü mütləq viran qalmışımızın doğma ağuşuna qayıdacağıq. Necə deyərlər, yolda “çalağana”, “qırğıya” rast gəlməsək, qayıdacağıq mütləq... Elə bilirik, orda alnımızdan lap güllə də dəysə... hə, lap güllə də dəysə, yeri gül açıb aləmə sevgi qoxuyacaq, eşq qoxuyacaq, ətir saçacaq guya. Düz deyil? Biz həmişə vətənə qayıtmağın xəyallarını sadəlövhcəsinə bir qatarda, bir vaqonun tamburunda siqaret tüstülədə-tüstülədə, ya da bir təyyarənin illüminatoru qarşısında çox-çox aşağıdakı buludları bəxtəvər-bəxtəvər seyr edə-edə qururuq, Qismət, hə, düşük-düşük qapılırıq o xülyalara... Amma bir taxta tabutun içində yolçuluq edə biləcəyimizi heç ağlımızın ucundan da keçirmirik, düşünmürük bu haqda. Çünki, şüurumuzun o qatı qıfıllıdı, qıfıllıdı, qardaş! Açarı isə bizdə deyil, bizdə deyil, billah. O adam da eynən mən deyəni deyir...

İlahi, o, niyə bu şeyləri sadalayırdı, bu qədər uzunçuluq edib yenə nə demək istəyirdi görəsən? Qismət həmişəki kimi başını itirib, gözünü döyə-döyə qalmışdı. Pənah az qala nəfəs dərmədən üyüdüb-tökürdü, əvəzinə Qismət tövşüyürdü. Onu atlı qovmuşdu elə bil. Hə, elə bil onu atdöşü eləmişdilər. Stəkanı ovcunda elə sıxmışdı ki, az qalırdı çiliklənə... Özünü güc-bəla toparlayıb, dostunun sözünü kəsdi. Ərki vardı çünki. Bayaqdan bəri oxuduğu o boyda moizənin qabağında dedikləri nə olsa yaxşıdı? – bunlar:

– Pənah, yekə kişisən, qurtar daa! Bəsdi dəə!.. Bunu da vuraq, görək nağayrırıq. Gecə keçir.

Pənah bircə kəlmə: “Sağ ol...” deyib stəkanı başına çəkdi, dərhal da bir siqaret yandırdı, sakitcə mızıldandı: “Məni ötür. Gecdi.”

Sonra da onu qəribə tərzdə, üzgüncəsinə süzüb, ah çəkdi: “O, bu gün də gəlmədi, Qismət, o, bu gün də gəlmədi...” Qismət əlini onun çiyninə qoydu, bütün vücudu titrəyirdi.

– Darıxma, gələr bir gün...

– Ötür məni... Getmək istəyirəm...

Getdi. Deyəsən, işarə vurduğu, yolunu həsrətlə gözlədiyi o naməlum adamın kimliyi haqda dostundan başqa bilən yoxuydu. Artıq nə zamandı yolunu gözlədiyi, deyəsən, bu müəmma bircə Qismətə məlum idi. Ona dönə-dönə deyirdi ki, “o, gələcək, söz verib, mütləq gələcək. Hər şey ondan sonra dəyişəcək...” Başından aldığı qəlpə yarası öz işini necə görmüşdüsə, dostu da hiss eləyirdi ki, o, özündən xəbərsiz qəribə bir ovqata köklüdür, həmişə acı bir həsrət, əzablı bir intizar içindədir.

Qismət yüngül ürək-dirək verib onu yola saldı.

Səhərə yaxın Validə zəng eləyib, onun ölüm xəbərini çatdırdı. Qismət əvvəlcə heç nə anlamadı. Elə bildi telefonda Validənin hönkürə-hönkürə dediyi qara xəbər-filan deyil. Elə bildi, sadəcə, qapını döyüb adi bir işıqpulu, qazpulu qəbzi verdilər ona. Yəni, əvvəlcə, ona heç nə təsir etmədi. Daha doğrusu, heç cür anlaya bilmədiyi bu bəd xəbəri ruhu, şüuru “kandarından içəri buraxmadı”. Nə qədər yuxulu olsa da, bu xəbər ildırım kimi vurmalıydı onu. Nooldu bəs? Hardasa beş dəqiqə divanda büzüşüb axşamkı içkinin təsirindən bərk ağrıyan başını ovuşdurdu, ovuşdurdu... amma nə baş verdiyini yenə anlaya bilmədi. “Pənah öldü, Qismət, öldü...”, “Pənah öldü, Qismət, öldü...”, “Pənah öldü, Qismət, öldü...” və... bayaq telefonun o başından Validənin hönkürdüyü bu sözlər birdən-birə ruhunun, şüurunun “qapısını təpikləyib qırdı”, hər şeyi içində alt-üst etdi, ona dağ basdı, dəli kimi bağırdı: “Necə yəni Pənah öldü? Necə yəni?!..”

Sonra yenə susub büzüşdü. Nədənsə, gözü önünə birinci növbədə onun axırıncı dəfə söz açdığı hörümçək torunda çırpınıb sonda kiriyən bir böcək, bir cücü, nə bilim, qarmaqda çabalayıb-çabalayıb, axırda toxtayan bir balıq gəldi. Bir anda bu xəbər məsum uşaqlıq çağlarını, dəli-dolu yeniyetməliklərini, odlu-alovlu cəbhə günlərini qəddarcasına varaqladı içində. Ardınca da Pənahın son vaxtlar həsrətlə gözlədiyi o mübhəm varlığı, o müəmmalı insanı düşündü nədənsə, həm də bədbəxtliyin addım-addım izlədiyi zavallı Validəni gətirdi gözü önünə, canı silkələndi. Dönə-dönə öz-özünə: “Necə yəni, Pənah öldü?.. Necə yəni?.. O boyda uşaqlıq dostum, düşmənlərimizə uzun zaman qan uddurmuş keçmiş döyüşçü, o boyda qazi... Niyə axı, niyə?” – deyib, qürbətdə ömrünə yazılmış buz kimi soyuq yalqızlığa qısılıb hönkürdü, çox qəribə bir tərzdə ağladı. Açığı, heç atası da öləndə belə ağlamamışdı... Yaxşı ki, görən olmadı. Yoxsa, elə bilərdilər havalanıb artıq...

## 2.

...Rəfail vağam olmuş yarpağın saplağından ehmallıca yapışıb dibçək gülünün dibindən götürdü, xışmalamaq istəyəndə gördü ki, üstü xırda, sarımtıl qarışqalarla doludur. “Quru yarpağa bu qədər qarışqa niyə daraşıb?” fikirləşdi. Diqqətlə baxıb gördü ki, elə bil, yarpağın üstünə şərbət çilənib – hər tərəfi yapışqandı, şirnidi. Gördü ki, qarışqaların neçəsi ora yapışıb ölüb. Öz-özünə: “Ölümə bax ee...” – pıçıldadı. Yarpağı üsulluca qaytarıb qoydu yerinə. Üşəndi. “Bəs bu nəyə işarədir?” Bir xeyli kirimişcə dayandı, ixtiyarsız acı-acı gülümsündü...

Bu gecə sahibi olduğu restoranda iki azərbaycanlı gəncin toy məclisi olduğuna görə evə getməmişdi, kiçik kabinetində qalmışdı. Özünü yaxşı hiss eləmirdi. İzləmə kamerasından ekrana yansıyan kadrlara baxıb gördü ki, artıq aşpazlar da gəlib, aşağı mərtəbədə hər ikisi cəmdəkləri doğramağa girişib. “Yox, bu gün ora enməyəcəm... Qoy, səhər tam açılsın, çıxıb gedəcəm evə...”

Tezliklə aşpazlar işi bitirdilər. Kötüyün üstünü sıyırıb-kürüdülər, baltaların, çapacaqların ağzını silib mətbəxə keçdilər. Rəfail monitora baxa-baxa düşündü ki, yəqin indi yaşlı aşpaz cavandan soruşur: “Bəs şef harda qaldı, aşağı düşməyəcək?” O da çiyinlərini çəkib, gülür yəqin: “Görünür, başı yenə pişiklərini yemləməyə qarışıb, bizi unudub”. Yaşlı aşpaz da bic-bic qımışır əlbət: “Bizi yox, özünü...”

Canı ağrısa da, quraşdırdığı bu dialoqa özünün də dodağı qaçdı.

O, ayaqlarına dolaşan bir cüt pişiyin yemini verib, tumarladı, təzədən gözünü vağam olmuş yarpağa dikdi. Axır vaxtlar hərdən düşünürdü ki, “yox... qulağına qurğuşun, deyəsən, doğrudan da ölüm beş addımlığımdadı. Bircə dəfə üzümə hovxursa, oyanlıq olacam...” Axır vaxtlar gözü-könlü hər şeyə həssas idi, özü də, olmayan kimi. Ağaverdi həkimi hər gün ürəyində söyürdü: “Atası atamla tonnan çörək kəsib, aramızda o boyda haqq-salam var. Yolu-rizi basa-basa getdim üstünə ki, özümüzünküdür, yəqin sözün düzünü deyər, di gəl, vicdansızın mənə qoyduğu diaqnoza bax: serroz! Ay sən öləsən elə!.. Sergey doktorun yanına gedəcəm, dərdimin çarəsini bilsə, təkcə o bilər. Sənsə, Ağaverdi... sən... sən... heç! Sənə bir quş!.. İçim qəlpə qırığıyla doludu, bu isə dərdimin adına serroz deyir... İki oğul böyüyür ee evimdə, ölümdən qorxum yoxdu. Amma bu tezkən deyirsən rubilnikimi ayıracaq rəbbim? İnanmıram, yox...”

Yenidən əlini uzadıb dibçəyin dibindəki yarpağı götürdü. Üstündə ölü qarışqalardan başqa heç nə yox idi, dirilər qaçıb-dağılmışdı. Elə bil, qarışqalar bəbəklərinin içində ölmüşdü, baxdıqca gözlərinin giləsi qıcıqlanır, alışırdı. Yarpağı xışmalayıb atdı masanın üstündəki külqabıya: “Serroz!.. Yox bir... üç badam, bir qoz!” Siqaretini yandırıb dərindən bir qullab vurdu. Gözlərini zillədiyi fincandakı qəhvənin üzündə qaralan bir səssizlik burulğanı onu sirr dolu girdab kimi içinə çəkirdi... “Heç nə... Heç

nə...” Fincanı dodaqlarına yaxınlaşdırmağına peşman oldu, sağ tərəfindən, qabırğalarının altından qopan kəskin sancıdan qovruldu. Divana uzanıb ikiəlli böyrünü tutdu. Pişiklərin ikisi də miyoldadı. “Vəssalam, Rəfail... Sənin o yapışqanlı yarpağın üstündəki ölü qarışqalardan heç bir fərqin olmayacaq tezliklə... İraq balalarımın – Aslanımın, Hüseynimin gözündən, iraq mənim yoxluğum üzündən günü göy əskiyə düyüləcək Xumarımın gözündən... Yaxşı ki, günün çox vaxtını evdə olmuram, yaxşı ki...”

Ona elə gəldi ki, əzişdirib atdığı o qurumuş yarpaqdakı kimi, bu saxta güzəranın da üstünə sanki şərbət çilənib, bu mənasız həyatın aldadıcı şirinliyi onu da bir qarışqa kimi çəkib yapışdırıb özünə, qurtuluşu isə yoxdu.

Televizoru yandırdı. Hansısa müharibə bölgəsindən canlı yayım gedirdi. Operator qan içində zarıyan bir körpənin üzünə daraşan milçək topasını yaxın məsafədən çəkib göstərirdi. “Səhərin gözü açılmamış bu nədi belə?” Kanalı çevirdi. Amma içində daşıdıqlarıyla ekranda gördüklərinin bir araya gəlməsindən, elə bil ruhunda qəfil bir qəza baş verdi, əhvalı pozuldu. Keçdiyi cəbhə yolu düşdü yadına, canı sızladı. Həmişəki kimi yenə çalışdı ki, o xatirələrdən uzaq olsun, uzaq... Elə bil, içindəkiləri “əl dəysin, ətək dəyməsin” prinsipilə qoruyurdu. Niyə? Sadəcə, istəmirdi, istəmirdi o yaşantıları bir daha canından keçirsin. Məsələn, heç vaxt istəmirdi Malıbəyli kəndi uğrunda gedən o ağlasığmaz döyüşdə gözünün qabağındaca cəbhə dostu Əjdərin minaya düşüb necə tikə-tikə parçalandığını xatırlasın. İstəmirdi oradaca, o döyüşlərdəcə yaşananları bir də gözü önünə gətirsin. İstəmirdi...

Hə, indi canı ağrıyırdı. Gözü baxa-baxa, özü demişkən, o söz... Astadan: “Belə çıxır ki, günləri sadalamalıyam ta, günləri...” – pıçıldadı. Qabırğasının altı elə bil, yenidən şiddətlə oyuldu, uzandığı yerdəcə qıvrılıb inildədi. “Görəcəyin varmış... İçkini də atmalısan day! Döz indi, görüm necə dözürsən...” Ancaq çox keçmədi ağrısı səngidi, özündən ixtiyarsız ayağa qalxdı, qrafindəki suyu dibçəyin dibinə töküb, dərmanını içdi.. Yadına düşdü ki, Validə gecə yarısı zəng etmişdi. “Hə... dayan görüm... dayan, dayan!.. Axı Validə zəng eləmişdi... deyəsən, “Pənah... Pənah...” deyirdi, amma danışa bilmədi, ağladı, sonra da telefonu qapadı... Hə, yəqin onun Pənahla nəsə problemi olub. Savaşıblar yəqin”. Nömrəsini yığdı, tanımadığı bir qadın rusca cavab verdi: “Validə işə gələ bilməyəcək. Pənah ölüb”. Duruxub qaldı. “Necə yəni Pənah ölüb?” Söz tapa bilmədi. Handan-hana özünə gəldi. Bir qurtum qəhvə içib, nömrəni təzədən yığdı, bu dəfə Validə özü cavab verdi: “Hə, Rəfail, Pənah getdi...” – deyib, hönkürdü.

Pişiklərin ikisini də qucağına alıb ixtiyarsız bərk-bərk sinəsinə sıxdı, yerində xeyli beləcə donub qalandan sonra, başlarını sığallayıb buraxdı, bir siqaret yandırdı. “Pənah... Pənah... Səni o vaxtlar şəxsən tanımasam da, haqqında çox şey danışırdılar cəbhədə... Əjdaha kimi bir oğul olmusan vaxtilə, hamı başına and içirdi, səninlə öyünürdülər... Bəs nooldu belə, ay insafsız...”

Siqaretindən dərin bir qullab vurdu, elə bil tüstünü içindən buraxmaq istəmirdi, gözləri yaşaranacan eləcə durdu: "Qurumuş yarpağın üstündəki ölü qarışqalar gözümə təsadüfən sataşmayıbmış..."

Tez-tələsik mətbəxə enəsi oldu. Aşpazlara tapşırıqlarını verib, avtomobilinin sükanı arxasına keçdi, təcili yola düşdü.

## *3.*

O gecə meyitin başı altına balaca bir yastıq qoyub, ayaqlarını cütləmişdilər. Bunu qonşudakı tatar millətindən olan yaşlı qadın Tamara və onunla birlikdə gələn, Validənin tanımadığı bir azərbaycanlı kişi etmişdi. Validənin ürəyini yandıran, gözünün yaşını selə döndərən Pənahın ölümünün gözləri önündə baş verməsiydi. O gecə Pənahın ən yaxın dostlarından Əkrəm gələnəcən Tamarayla o kişi yanında olmasaydı, ürəyi partlardı. Onlar Pənahın üzünü qibləyə çevirib, üstünə mələfə çəkdilər. O kişi uzun müddət dodaqları altında duaya oxşar nəsə oxudu. Meyitin ayaqlarının baş barmaqlarını cütləyib göy rəngli əski qırığıyla bir-birinə bağladı. Böyründə dizləri üstə çöküb əlini sinəsinə qoydu, gözləri qapalı halda nəsə zikr elədi, ardınca başını aşağı salıb bir xeyli susdu, sonra da meyitin alnından öpüb, çıxıb getdi. Tamara isə qaldı. Validə bir anlığa onun üzünə baxdı ki, "yəni, bu, kim idi belə?" Tatar qadını təəccüblə çiyinlərini çəkdi:

– Bəs sizinkilərdən deyildi?

Validə əvvəlcə susdu, sonra ağızucu pıçıldadı:

– Nə bilim. Tanımıram... Elə bildim sən gətirmisən... Yəqin öz dostlarındandır...

Mərhumun yanına döşənmiş əllərinə baxanda zavallı Validənin ürəyi parçalanırdı – onun bütün barmaqları yarıyacan göyərmişdi. Balaca otaqda o qədər ağır hava, o qədər dərin sükut vardı ki, dözə bilmirdi. Elə bilirdi içini yandıran dərddən indicə tavan, divarlar, nə varsa alışacaq, hər şey qurğuşun kimi əriyib üstünə töküləcək, o ağır yükün altında tərpənə bilməyib boğulacaq. Tamara, qolları qoynunda, gözləri yerə dikili bir heykəl kimi oturmuşdu. Əkrəm də gəlmişdi, balkonda siqareti siqaretə calayır, axsaya-axsaya o yan-bu yana gəzişir, otağa girmirdi. Bu biçarə qadının hıçqırtıları kəsiləndən sonra, o ağır havanı, o ağır sükutu sanki bir səs cızıb-tökməyə başlamışdı. Qəribə də olsa, dayanmadan uçub-dızıldayan iri bir milçək vardı otaqda. Bu milçək meyit ab-havasına yüklü darısqallıqda, dərd dolu sükutun içində ora-bura çırpınıb səs salmaqla adamı bezdirirdi. Səsi, elə bil, gah göyün dərinliyindən, gah da bir quyunun dibindən gəlirdi, çaşqınlıq içində donub qalmış Validəni özüylə ora-bura çırpa-çırpa sanki daha ağır bir məşəqqətə sürükləyirdi.

Qızıl boyunbağısını üsulluca açdı, içində Quranın hansısa surəsi yazılmış kitab şəkilli, nəfis işləməli kiçik medalyonu ondan ayırdı, Pənahın sinəsi üstə qoydu. Təzədən gözlərindən sel getdi...

Divarda sürrealizm üslubunda çəkilmiş qəribə bir tablo vardı. Bu, bomboz səhrada yerə sərələnmiş, üzünün bir tərəfi gülüb, bir tərəfi ağlayan çılpaq, iyrənc bir qarı şəkliydi. Uzaqlardan gələn, eybəcər formada çəkilmiş yalın ayaq izləri qarının sinəsindən şəlpə kimi sallanmış döşləri üstündən çəpinə adlayıb keçirdi. Milçək deyəsən yorulmuşdu, qonmuşdu onun ağlayan gözünün giləsinə. Qəfil Validənin ürəyindən keçdi ki, kaş imkanı olaydı, o milçəyin rəsmini qarının gülümsəyən bəbəyinin içinə çəkəydi. Amma bir anlıq niyə belə düşündüyünü heç özü də anlamadı...

Ağlayıb yorulmuşdu. Bir azdan bu qürbət eldə səhər açılacaqdı, amma Pənahsız açılacaqdı bu günün solğun, ölgün, az qala üzünə elə həmin milçək qonmuş çarəsiz günəşi... Meyit qoxuyacaqdı sübhün nəfəsi – Pənahın bu sonuncu qoxusu gələcəkdi qürbətin hər tərəfindən.

* * *

Moskvanın Reutovo qəsəbəsinə gələndə Validə ərindən təzəcə ayrılmışdı. Uzaq qohumları Şahmarla evliliyi uzun sürməmişdi. Kazanın tərəvəz bazarında, Validənin gözünün qabağındaca Şahmar yad qadınlarla əlli oyundan çıxırdı. Onsuz da nigahları rəsmi deyildi. İki il əvvəl Bakıda bir axund kəsmişdi kəbinlərini. Nədənsə, Şahmar rəsmi nigaha meyil göstərməmişdi, yetimliklə böyümüş Validə də bu məsələdə dərin getməmişdi, ağsaqqalı sayılan dayısı Hacı Təhməz də həmçinin. Yaşları keçmiş bu cütlük toy əvəzinə yüngül şadyanalıq keçirdikdən sonra yığışıb gəlmişdilər neçə illərdi Şahmarın yaxşı pul qazandığı, bəy kimi dolandığı Kazana. Elə hər şey də ondan sonra Validəyə agah olmağa başlamışdı. Əri bir gün evə gələndə üç gün başqa yerdə gecələyirdi. Buna isə Validə nə qədər dözsə də, xeyri olmadı. Günlərin bir günü dayısı qızıyla telefonla danışarkən uşaqlıq dostu, köhnə qonşuları Pənahın da Kazanda olduğunu eşitdi, yalvarıb xahiş etdi ki, onun nömrəsini öyrənib desin. İncəvara, o da bunun niyəsini soruşmadı və Pənahın telefon nömrəsini tezliklə öyrənib mesajla göndərdi. Beləliklə, dərddən, nifrətdən içi oyur-oyur deşilən Validə Şahmardan gizlin Pənahla əlaqə saxladı, hər şeyi ona danışdı. Çünki başqa çıxış yolu qalmamışdı. Pənah etiraf elədi ki, İrina adlı belorus əsilli bir qadınla yaşayır. Amma ayrılmaq ərəfəsindədirlər. Çünki xasiyyətləri tutmur. Tezliklə Pənah Validəylə bir araya gəldi, günlərin bir günü də qoşulub Moskvaya köçdülər. Reutovoda kirayə ev tutdular. Pənah ərzaq firmalarından birində cəbhə dostu, Qismətdən də xeyli qabaq eyni səngərdə çiyin-çiyinə döyüşdüyü, mehrini salıb dostluq-qardaşlıq etdiyi can-ciyəri Əkrəmin köməkliyilə menecer kimi işləməyə başladı. Qeyri-rəsmi ailə qurduğu İrinadan xəbər tutmur, onunla heç bir əlaqə saxlamırdı. İrina da işi başa düşüb Pənahı itirib-axtarmırdı. Validə özünü uşaqlıq dostuyla çox xoşbəxt hiss edirdi. Şahmara da mesaj gözdərmişdi ki, "məni axtarma!.." O isə, övladı olmadığına görə, onsuz da Validədən ayrılmaq istəyirdi, odur ki, gedişi vecinə də deyildi. Bu biçarə

qadın çox məşəqqətlər çəkmişdi, hər şeyə dözüb, öz xoşbəxtliyini özü əldə etmişdi, özü qazanmışdı. Buna görə içində ölməz bir bəxtəvərlik abhavası vardı.

Validə çox çəkmədi ki, Əkrəmin şəriki Rəfailin Reutovodakı "Alyona" restoranında işə düzəldi. Mətbəxdə çalışırdı. İşi pis getmirdi. Rəfail çörəkverən adam idi. Həm də Pənaha böyük hörməti olduğunu deyirdi. Həmişə Validəyə bildirirdi ki, "Pənah elə-belə adam deyil haa... Bax, mən də döyüşmüşəm, mən də həmin od-alovun içindən keçmişəm. Amma Pənah oralarda ad qoyub, bunu unutmaq olmaz..." Bu üzdən Validənin bəxti gətirmişdi, iş-gücü sarıdan arxayın idi. Amma bütün bunlara baxmayaraq, digər azərbaycanlı iş yoldaşlarının nədənsə ona ayrı gözlə baxdığını, üzdə bir, arxada başqa cür danışdıqlarını qanıyla-canıyla duyurdu. "Əlimi başıma toplayım, Pənahı da götürüb, çıxıb buralardan gedəcəm... Heç kim də bilməyəcək hara getdiyimizi... Həyatımızı özümüz biləcəyik necə quracağıq, vəssalam..."

Pənah da ki, belə... Yüz dəfə ona dirənsə də ki, "içmə, Pənah, içmə!.. Yıxacaqsan evini! Həkimə get, canının qədrini bil, get, qoy dərdinə bir çarə qılsınlar", – xeyri olmadı. Daim başı ağrıyırdı. Qan təzyiqindən daim əziyyət çəkirdi. Başındakı zədə, bədənindəki qəlpə ona zülüm eləyirdi. Dünən də gecədən keçmiş evə kefli gəlmişdi, televizora baxdığı yerdə qəfil halı pisləşdi. Təcili yardıma xəbər edən kimi özlərini yetirdilər, həkimlər iynə vurub getdilər. Üstündən bir-iki saat sonra qəfil təzyiqi qalxdı, bu dəfə heç təcili yardım çağırmağa macal da olmadı, keçindi. Əkrəmə zəng etməsilə özünü çatdırması bir oldu. "Neyləyək? Kimə deyək indi? – dedi. – Həkimlərə desək, aparıb yaracaqlar, içalatını götürəcəklər... Qoy sabah açılsın, görək neyləyirik..." Amma tatar qadın onları başa saldı ki, "mütləq həkimə, milis işçilərinə bildirmək lazımdır, yoxsa başınız ağrıyacaq".

## *4.*

Rəfail maşını qəzet köşkünün arxasında saxlayıb düşdü. Sərin meh əsirdi. Hər dəfə üzünü belə bir meh yalayanda, içindən bu fikir keçirdi: "Hələ mənim üzümə anamın kəlağayısı sərinliyində meh toxunmayıb... Toxunmayacaq da heç vaxt..." Sonra da bir ah çəkib deyirdi: "Yerin cənnət olsun, ana... buralar cəhənnəmdi ki var... yaşanılası yer deyil..." İndi də elə oldu.

Binanın girişində siqaret yandırdı, fikirləşdi ki, çəksin, sonra çıxar yuxarı. Yolda Əkrəmə zəng eləmişdi, bilirdi ki, artıq Pənahı morqa aparıblar. Bilirdi ki, Validənin halı üstündə deyil. Yəqin Əkrəm də qollarını qucaqlayıb indi otaqda var-gəl eləyir. Neyləyəsiydi ki?... "Hayıf səndən, Pənah... Adamın heç inanmağı gəlmir... Hayıf səndən... O bədbəxt qızı indi sənsiz neyləyəcək?.. Mən heç... Mənim heç olmasa, iki oğlum, Əkrəmin iki oğlu, bir qızı var. Ocağımız soyumayacaq. Amma sənin kimi igid bir oğulun çırağını yandıran tapılmayacaq... Off! Gidi dünya!!!"

– Siqaretiniz olar bəlkə, – yaxınlaşan orta yaşlı adam azərbaycanca soruşdu.

Rəfail handan-hana özünə gəldi:

– Hə... Buyurun...

Sonra da fikirləşdi: “Bu kimdi belə? Hardan bildi azərbaycanlı olduğumu?”

O adam siqareti yandırıb dərin bir qullab vurdu, kədərli bir səslə pıçıldadı:

– Qazi Pənah da belə getdi... – Sonra da yüngülcə əlini tərpətdi, sağollaşmadan dərhal uzaqlaşdı. Gedərəkdə eyni tərzdə astadan: – Növbədə sənsən, – dedi.

Heç nə başa düşməyən Rəfail eşitdiklərindən yerindəcə donub qaldı, nəsə soruşmaq istədi, amma adam artıq binanın tinini burulub qeyb olmuşdu. Özünə ürək-dirək verdi: “Yəqin Pənahın dostlarındandı. Yəqin məni tanıyır”. Dərhal da “növbədə sənsən” demək nə idi bəs? Kim idi bu adam axı?” – fikirləşdi.

Bir qədər sonra Rəfail Əkrəmlə söhbətində belə bir adam gördüyünü söylədi, onun kimliyini soruşdu, amma şərikindən müsbət cavab ala bilmədi.

– Pənah keçinəndə yanında bizimkilərdən təkcə Validə olub. Bir də qonşu tatar qadınla gələn tanımadığım bir nəfər. O adam Pənahın duasını da oxuyub, necə lazımdısa əl-ayağını da cütləyib, üzünü qibləyə çevirib, gedib. Sənin gördüyün kim ola bilər axı?

– Nə bilim...

– Bir az aradan ötsün, Validədən soruşarsan. Hər halda o bilər.

Rəfail “lənət sənə kor şeytan deyib” bu məsələni unutmağa çalışdı. Amma o yad adamın sözləri canına necə yer eləmişdisə, qətiyyən fikrindən çıxmırdı. “Deməli, növbədə mənəm... Olsun. Neynək...” İçindən keçən “Olsun. Neynək...” fikrinin səmimi olmadığını bilsə də, həmin gün dönə-dönə təkrarladı: “Olsun... Neynək...” Tanımadığı o adamın iki kəlmə sözünü heç cür unuda bilmədi. Onun “növbədə sənsən” pıçıldamasından Rəfail bütün günü haldan-hala düşdü. O sözlər içini necə çuğladısa, az qala Pənahın ölümünün üstünə belə kölgə saldı. Bir də yarpağın üstündəki ölü qarışqalar o gün gözləri önündən getmədi, həm də körpələri Aslan, Hüseyn, eləcə də biçarə Xumar...

## 5.

Üç gün sonra qazi Pənahın meyitini Moskvadan vətənə dörd nəfər gətirirdi: Qismət, Validə, qazi Əkrəm, qazi Rəfail. Xərci imkanlı dostlar – Əkrəmlə Rəfail çəkmişdi. Təyyarədə yanaşı oturmuşdular. Yol boyu kəlmə də kəsmirdilər. Hərdən gözucu Validəyə baxanda Qismət o dünyanı görüb-qayıdırdı. Allaha yalvarırdı ki, bircə Bakıya tez çataq. Elə bilirdi, zavallı qız indicə öləcək.

...Qismət yol boyu dərdsiz-qayğısız uşaqlıq illərini xatırlayırdı. Bir dəfə yazbaşı şanapipiklər köhnə baş daşlarının üstünə qonub kədərli-kədərli hop-hoplarını ötəndə, Pənahla birlikdə məhlələrinin yaxınlığındakı qədim qəbiristanlığın yanında top-top oynadıqları gəlirdi gözləri önünə. Qəbiristanlığın qədim hasarının uçuqları arasından boylanıb, məzarlardan birinin həndəvərinə dəmir çəpər düzəldən qaynaqçı Vasya dayının "Ağdam" çaxırını başına necə çəkib qurthaqurtla içdiyini, az keçməmiş, yerə necə sərələndiyini, bir qədər sonra necə öyüyüb-qusduğunu xatırlayırdı. Onda gülmək ikisini də tutmuşdu. O zaman qaynaqçı Vasya uzanıb qaldığı yerdən uşaqları görüncə, barmağını silkələyib, sözləri ağzından tökə-tökə: "Nuu... uşaqlar, nuu!... Get buurrdan!.. Qaç buurrdan!.." demişdi. Onlar da həmişəki kimi bərkdən-bərkdən:

"Vasya dayı piyandı,
səkkiz yazıb oyandı..." – oxuya-oxuya qaçmışdılar.

Düşündü ki, indi nə Vasya dayı var, nə Pənah, nə də o günlər... Amma qəbiristanlıq yerindədi, uşaqlar yenə oralarda top-top oynayır, şanapipklər də həmişəki kimi öz hop-hoplarını ötür. Pənahı da orada uyumağa aparırlar. İndi Vasya dayı kimi "Ağdam" çaxırını deyil, Ağdamın dərdini başlarına çəkib necə sərxoş olublarsa, səkkiz yazıb oyanmaqları qalıb qiyamətə...

Niyə xatırladığını bilmirdi, amma bu, Pənahla etdiyi dəcəlliklərin bəlkə də yüzündən biriydi. Onunla bir sinifdə oxumuşdu. Yeri gəlmişkən, o, həmişə siniflərinin əlaçısı olmuşdu. Divar-divara qonşuydular, uşaqlıq illəri birlikdə keçmişdi. Validə də qonşuluqda yaşayırdı. Qismət uşaqlıqda Pənahla tez-tez dalaşıb-barışardı. Yeniyetməlik çağlarında ikisi də dəliqanlıydı. Qabağından yeməyən, vurub-yıxan olduqları məhlə-küçədə hamıya bəlliydi. Pənahın qəribə oğlan olduğunu Qismət indi yaxşı xatırlayır. Onun təhsilə meyilli olmağına baxmayaraq, dalaşqanlığını hamı bilirdi. Tay-tuşları arasında sözünün dalı da kəsirdi, qabağı da. Bu o vaxtlar idi ki, ölkədə hələ ara qarışıb, məzhəb itməmişdi, o dövrkü uşaqların gəncliyini zülmətlərə sürükləyən erməni-azərbaycanlı məsələsi hələ qara daş olub düşməmişdi ortaya. Onlar sonralar da baş verənləri anlamırdı. Məsələn, şəxsən Qismətin ağlına batmırdı ki, "rivizyor" Joranın oğlu Saşa daha onların məhləsinin uşaqlarıyla bir komandada futbol oynaya bilməz; quşbaz Samvelin göyərçinləri damlarına qonanda icazə verməməlidirlər ki, çıxıb tutsun; ayaqqabıları sökülüb-cırılanda daha çəkməçi Apresə yamatmamalıdırlar; bərbər Ramiz "sevgilisi" Anuşa görə bir də heç vaxt o məhlənin cahıllarıyla "razborkaya" çıxmaz və sair və ilaxır.

Ancaq hadisələrin gedişi onlara çox şeyi anlatdı, dünyanın rəngi dəyişdi, necə deyərlər, xəyallarının dadı-duzu düşüncələrindəcə qaldı. Elə bil, həyat təpədən-dırnağacan qara çarşaba bürünmüş, yalnız bir cüt gözü görünən naməhrəm qadına döndü. Amma bu da var ki, o "qadının gözləri yerə dikilmişdi" – nə dediyini, nə dilədiyini anlamırdılar. Bu müəmmalar içində o nəsil çox sürətlə, həm də elə bil, qəflətən, birdən-birə yaşa doldu...

Bir vaxtlar rəsm dərnəyinə aludə olmuş, qəşəng mənzərələr çəkən Validə daha həmən qız deyildi. Aşağı məhlənin uşaqlarına qoşulub bütün günü Uruzlar çayında, Allı dərədəki Qamışlı göldə balıq tutmağa qurşanan Pənah indi tamam ayrı bir oğlan olmuşdu. Qismət isə uçuq qala divarlarının xarabalığında tək-tənha veyillənməyi tərgitmişdi. Bir vaxtlar dağın döşündəki qədim qalanın yerlə yeksan bürcləri arasında, hər yerindən hörümçək toru sallanan viran qalmış darısqal hücrələrdə nə axtardığını heç özü də bilməzdi. Çox keçməmiş anladı ki, ta o da heç həmin Qismət deyil.

Məsələn, Qismət məhlələrinin üz qarası olan Qız Binəmini o vaxt daha döymək istəmirdi. Düzdür, Qız Binəminin dədəsi də özü kimi bir qəpiklik adam deyildi. Rayon maarif şöbəsində işləyirdi, adına "demaqoq İlyas" deyirdilər. Qismətə evdə dönə-dönə tapşırırdılar ki, onun oğluyla işin olmasın, dədəsi mərdiməzardı. Onu ən çox döyən Pənah idi. Dünya qarışandan sonra adıbatmış gədəni day o da döymürdü. Çünki camaatda bir-birinə qarşı görünməmiş isti bir münasibət əmələ gəlmişdi, elə bil millət mehribanlaşmışdı. İnsanlar sanki getdikcə isnişirdi bir-birinə, doğmalaşırdı və... axışırdı rayon mərkəzindəki meydana... Meydandasa odlu-odlu çıxış eləyən, camaata yol göstərənlərdən biri də tərs kimi elə həmin Qız Binəmi idi...

Mitinqlər başlamışdı. Həyatın belə bir gedişatı bu dostlara qəribə gəlirdi. Başlarını soxmağı heç vaxt ağıllarına gətirmədikləri siyasət indi onları da maqnit kimi cəlb eləyirdi. Qarabağ məsələsi özü boyda bir suala dönüb qaya kimi aşmışdı hamının içinə: ölüm-dirim mübarizəsi başlamışdı. Qismət artıq Pənahla əsgərliyini də çəkib gəlmişdi. Bilmirdi neyləsin. Camaat da ki... Axşamacan çayxanalarda domino oynaya-oynaya dünyanın gərdişini götür-qoy edən camaat, xəyanətkar erməniləri öz aləmlərində hər gün "süpürüb" Qara dənizə tökürdü, ordan da o yana kürüyürdü. Qaçqın köçü isə üzü bəri gəlirdi...

...Pənahın nəşini torpağa tapşırıb qayıdanda, Qismətin gözü qəbiristanlıqdan aşağıdakı Allı dərəsinə sataşdı. Həmişəki kimi Qamışlı gölün susqun üzü göylərə güzgü tutmuşdu. İndi torpağa tapşırdığı bu əziz dostunun bir vaxt kefli-kefli Moskvada ona çox sevdiyi bu göldən danışdığını, orada etdiyi balıq ovu barədə söhbətlərini xatırladı, bir də dediyi bu sözlər qəfil düşdü yadıma: "Qismət, el-obada o "boyuna qamış ölçüm..." deyimi var haa, o elə-belə söz deyil eey... Bax, ölümümə inanmasam da, sahilində oturub suyuna qarmaq atdığım o gölün haçansa qamışlarından birini qoparıb boyuma ölçəcəklərini həmişə düşünürəm... Haqq edəcəklər, dədə qəbri, dünyanı tutub durası deyilik ki..." Elə bil, zalımın ürəyinə damıbmış. O vaxt fərqinə varmasa da, bu gün qəbirqazan qocanın səhər-səhər Pənahgilə gəlib, qamışla tabutu ölçüb getməsi bir daha Qismətin gözü önündən keçdi. Orada kimsə dedi ki, "əşi, metrəylə ölç dəə, ta bu qamış nədi vurub qoltuğuna gəlmisən?" Qoca hirsləndi: "Dədə-babadan belə görmüşəm, həmişə də belə ölçmüşəm. İndi mənə dərs keçəcəksən?" Hamı bu

qocanı qəribə tərzdə süzdüyü halda, Qismət susdu, Pənahın qamışla bağlı dediklərini xatırladı, elə indiki kimi özünü saxlaya bilməyib üzünü əlləriylə qapadı, heç kimə hiss etdirmədən sakitcə hönkürdü...

* * *

Pənah məşhur Uğurbəylilər nəslinin sonuncu törəmələrindən idi. Babası Uğur bəyə 37-də qolçomaq damğası vurub güllələmişdilər. 80-ci illərin ortalarında dünyaya vida etmiş atası Nəcəfxan kişinin isə sağlığında el-obada yaxşı hörməti olmuşdu. Anası rəhmətlik Rəhimə xanım da öz dövründə yaşadıqları kiçik və qədim şəhərdə hörmətli-izzətli bir el ağbirçəyi sayılırdı. Pənah Kazana, sonra da Moskvaya bəziləri kimi kefindən getməmişdi. O, xasiyyəti tutmadığına görə, evli olduğu dayısı qızından ayrılandan sonra birdəfəlik Rusyətə getməyə qərar vermişdi. Anadangəlmə şikəst doğulmuş qızı bir neçə il qabaq yeddi yaşına çatmamış talassemiya xəstəliyindən dünyasını dəyişəndən sonra Pənahı tanımaq olmurdu, tamam başqa bir adama çevrilmişdi, fikri-zikri o dünyayla çarpışmaq idi. Söz yox, öz ölümü qan təzyiqindən də, canında daşıdığı mərmi qəlpəsindən də, hər gün içdiyi, son vaxtlar lap pis qurşandığı araqdan da, keçmiş ailəsinin dağılmasından, şikəst balasını itirməsindən də ola bilərdi. Amma başqa səbəblər də vardı, sözsüz. Pənah Qarabağ döyüşlərində odun-alovun içindən keçib ağır günlər görmüş, məşəqqət dolu anlar yaşamış bir qaziydi. Baxanda bilirdin ki, ruhu üstündə deyil. Bəs nə yıxdı onu? Bəlkə də, özü demişkən, hörümçək toru, balıq qarmağı... nə bilim, bunlara bənzər gecə-gündüz uydurduğu, uydurub da ömür-gününün acı gerçəkləri kimi ən əziz dostu Qismətə danışdığı bu kimi şeylər durdu qəsdinə. Ən əsası isə, güman ki, bir an belə yadından çıxarmadığı, həmişə yolunu gözlədiyi, haqqında ürək qızdırıb sirrini, deyəsən, birinci Qismətə söylədiyi, demədiklərini isə özüylə o dünyaya apardığı “o adamla” bağlı çəkdiyi xiffət öldürmüşdü onu. Bəlkə də beləydi. Kim bilir...

## *6.*

Hələ Pənahın meyitini aparanda, təyyarədə Rəfailin az qaldı ağlı başından çıxa. Yerindən qalxıb arxaya – cərgələrin arasıyla tualetə gedəndə gözü sərnişinlər arasında mürgüləyən bir nəfərə sataşdı, bütün vücudu gizildədi. Bu, Pənah ölən gecə binanın yanında ondan siqaret istəyən, “Qazi Pənah da belə getdi... Növbədə sənsən...” – deyən o müəmmalı adama çox oxşayırdı. Bu, o idimi? Rəfaildə bir əminlik vardı ki, odur. Çünki alışqanı yandırıb siqaretinə tutanda, alatoranlıqda özündən ixtiyarsız gözləri bir fotoaparat kimi onun üz cizgilərini çəkib yaddaşına hopdurmuşdu.

Əvvəlcə bilmədi neyləsin. Ani olaraq ayaq saxlayıb mürgü döyən o adamı bir daha süzdü. “Hə, and olsun, bu həmin adamdı! Odu... özüdü ki var!”

Geri qayıdanda gördü ki, üzünü illüminatora sarı çevirib, gözlərini qapayıb. Yanında adamlar oturmuş olmasaydı, yəqin ki, Rəfail onu silkələyib oyadar, "Sən kimsən? Kimsən axı?" soruşardı.

Rəfail yol boyu çox narahat oldu. Bir yandan Pənahın cənazəsilə bağlı bu ağır səfər, bir yandan da həmin adamın kimliyini düşünmək onu hal-dan-hala saldı. Hərdən qanrılıb bir xeyli geridə oturmuş "o adam"a sarı boylanır, gözü sataşınca: "odu... özüdü ki var!" fikri ona rahatlıq vermirdi. Necə yəni "növbədə sənsən..."? Sonra gün boyu yaşanan gərginlik öz işini gördü, elə bil hər şeyi unutdu, gözlərini yumub büzüşdü və...

...Gördü ki, balaca vaxtlarıdı, on iki-on üç yaşı ancaq olar, uşaqlarla tut bağının arxasındakı göldə çimməyə gedib. Budur, uşaqların hamısı soyunub bircə-bircə suya atılır. O da tullanır, həmişəki kimi dərinliyə ayağının ucuyla toxunub, yuxarı qalxmaq istəyir, amma nədənsə əl-qolunu çətin tərpədir, suyun üzünə zülümlə çıxır, az qalır boğulsun. Görür ki, uşaqlar hamısı gölün qırağında dayanıb ona gülür. O, zülümlə qırağa çıxır, baxır ki, bədəni yapışqan kimidir, uşaqlara yalvarır ki, "mən niyə bu gündəyəm? deyin də noolar..." Onlar gülməklərinə ara verib deyirlər ki, "biz su nohuruna tullandıq, sən bal nohuruna. Ona görə bu günə düşmüsən". "Yapışqanam eey, bütün. Anam məni öldürəcək, bəs neyləyim?" – Hardansa onlara qoşulmuş, tanımadığı bir oğlan gülə-gülə deyir: "Qabaqda bir qan nohuru var, ora baş vurmasan bu şirni bədənindən təmizlənməyəcək, anandan qabaq arılar səni sancıb öldürəcək, qarışqalar daraşıb ətini sümürəcək..." Rəfail yerə uzanıb ağlamaq istəyir, amma gözlərindən yaş gəlmir, çünki kirpikləri qapanan kimi bir-birinə elə yapışır ki, açılmaq bilmir. Artıq bədəninə qarışqaların daraşdığını duyur, qulağının dibində arıların vızıltısını eşidir... "Noolar, məni aparın qan nohuruna, noolar..." Bu zaman dostları onu qaldırıb harasa aparır və yarı yolda qəfil bir boşluğa itələyirlər: "Bu da sənə qan nohuru!.." Ağır bir uğultu içində boşluqla aşağıya doğru sürətlə uçur. Uçhauç, uçhauç... Qəfildən böyrü üstə yerə çırpılıb şiddətli ağrıdan ayılır...

...Gözünü açınca, qabırğaları altındakı sancıdan inildəyib böyrünü qucaqladı, təyyarənin artıq eniş etdiyini anladı, içi şiddətlə oyulsa da bir ağız sakitcə: "şükür..." pıçıldadı. İxtiyarsız o gün üstünə qarışqalar daraşmış yarpağı xatırladı."Hə, bu da sənə qan nohuru!.." deyib zarıdı. "Hələ bir nohura bax... qan nohuru!.. Pah! Ay dadi-bidad!"

Artıq "növbədə sənsən..." deyən "o adam" yadına da düşmürdü heç. Hava limanında sənədlərin təqdimatına, meyitin qeyddən keçirilib xüsusi maşına yüklənməsinə başları necə qarışdısa, bir yandan da qabırğalarının altı necə oyuldusa, Rəfail onu da, elə özünü də unutdu...

## *7.*

Dəfndən sonra Pənahın yas mərasimi axşamdan xeyli keçənəcən çəkdi. Məclisi aparanlar abırlı, ağsaqqal bir mollayla Qismətin də, elə bura yığışanların da çoxunun zəhləsi gedən Qız Binəmiydi. Qız Binəmiyə indi

Hacı Binəmi deyirdilər... Onu görəndə həmişəki kimi yenə Qismətin tüstüsü təpəsindən çıxdı. Qınayan olmasaydı, tutub qulağından rədd eləyərdi çölə. İndi oturub xırıldaya-xırıldaya, həm də abırsızcasına camaata dindən-imandan dərs keçirdi. Bu adam çox kinli, çox da kirliydi... O vaxt öz doğmaca atasının ölüm xəbərini eşidəndə, küsülü olduğuna görə rayona gəlməmişdi, özgələr götürmüşdü nəşi yerdən, özgələr quyulamışdı gora... Anası da öləndə Bakıdan yeddisinə güc-bəla gəldi evin yeganə oğlu Qız Binəmi. O vaxt yadlar bir yana, doğmaca bacılarının – beş bacısının on gözündə heç bir fındıq dənəsi boyda görünmədiyini qanmamışdı bədbəxt. Elə qohum-qonşunun da gözündə həmçinin. Bütün işləri böyük yeznəsi Mirzə yola vermişdi. Onun ən gözəl tərifini də cəbhə dövründə elə Mirzə vermişdi: "Bu düdüyün alnı iki barmaq enindədi, belə adamda kin-küdurət xirtdəkdən olur. Keçi qılına oxşayan cod qaşları altından baxan mağmın bəbəklərinin felinə inanmayın, qardaşlar! Nə deyirsə, hamısı yalandı, saxtadı, saxta!" Mirzə düz deyirdi, Qız Binəminin saxtalığı, nakişiliyi üz-gözünə tatuaj olunmuşdu. Qismət onu görəndə düşünürdü ki, "hər şey cəhənnəmə, belə bir şərəfsizi cəbhə dövründə icra aparatında işləməyə kim götürmüşdü bəs? Bu işi kim düzüb-qoşmuşdu? Bir kimsə bilirdimi? Yox... Bu alçağın bir zamanlar gecə-gündüz söydüyü Allahdan başqa onu kim biləcəkdi ki? – heç kim! İndi də ki... kişinin oğlu hacı olub, Allahlı olub guya, camaata din dərsi keçir. Belələrinin sifətinə dağılır da dünya..."

Mərasimdən sonra, Qismət Əkrəmlə Rəfaili öz evlərinə apardı. Üç gündən sonra Moskvaya qayıdasıydılar, fikri vardı ki, bu müddətdə gecələri onlarda qalsınlar.

Rəfail susqun idi, nə çəkirdisə, içində çəkirdi, dinib-danışmırdı, bu ölüm onu çox pis şaşırtmışdı. Özü də rəngi-ruhu sapsarıydı, iztirab çəkirdi, görkəmindən bilinirdi ki, içini dərd bürüyüb. Yaşantıları başa düşülürdü, çünki o da bir qazi idi. Əkrəm də heç cür bu ölümlə barışa bilmirdi. Bir ayağı cəbhədə ömürlük şikəst olan bu qazi Qismətdən də qabaq Pənahın səngər yoldaşı olmuşdu, birlikdə odun-alovun içindən keçib, acılar, ağrılar yaşamışdılar. Tez-tez yaşaran gözlərinə baxanda adam onun hansı yaşantılar keçirdiyini bütün varlığıyla duyurdu. Necə deyərlər, Pənah hamısının kisəsindən getmişdi.

Evə gəldiyinin elə birinci günü sinirlərinin pozulduğunu, halının yerində olmadığını anası görüb, qabaqlar olduğu kimi yenə çərxi-fələk çiçəyi, oğulotu və yemişan qarışığı dəmlədi, Qismət içib kirimişcə oturdu. Hər gələndə olduğu kimi qayıtdı ki, "sənə qurban, saçın-saqqalın da ağarıb, bəsdi də, tök də bu daşı ətəyindən. Bəs haçan öylənəcəksən? Axı mənim bir ayağım burda, o biri gordadı, bala. Bir "hə" de, gör anan nağayracaq..." Qismət onu qucaqlayıb saçlarından, əllərindən, üzündən-gözündən öpdü. Anası yaxşı bilirdi ki, ciyərparasının yeniyetməlik çağından sevdiyi Gülarə adlı qızı Qismətin cəbhədə olmağından istifadə eləyib əmisi oğlu qaçırandan sonra, o, ölənəcən evlənməyəcəyinə and içib, özü də dəfələrlə... Anasının xatirinə bəlkə də bu yaşda andı pozmaq olardı. Ancaq

cavanlıq geridə qaldığından, artıq belə şeylər onu maraqlandırmırdı. Öpüb bağrına basmaqla kövrək, qəlbiqırıq anasını yola verirdi. Elə o da bu sözlərin heç bir faydası olmayacağını bilib dərin getmirdi.

Pənahın yoxluğu hamısına yer eləmişdi. Yorğun olduqlarına görə birinci gecə ertə yatdılar. Səhər ayılıb gördülər şıdırğı yağış yağır. “Dəfninin birinci günü sabahı leysanla açdın, Pənah... Oralar necədi?..” düşünən Qismətin gözləri doldu... Özünü hönkürməkdən güclə saxladı. Pəncərədən baxıb gördü ki, qardaşı İsmət, əlində kürək, evlərinin böyründən axan selin yolunu dəyişməkdən ötrü həşirdədi, yoldaşı Samirəylə baş-başa verib əlləşir. Səhər yeməyinəcən yağış səngiyib dayandı, gün buludların dalından çıxıb elə şığıdı ki, sanki dünyaya “hələ ölməmişəm, qorxmayın...” mesajı verdi. Qismət kövrələ-kövrələ: “Sən ölməmisən, amma Pənah öldü... Yağışın islatdığı, sənin qucub qurutmaq istədiyin bu mağmın dünyadan indi onun yoxluğunun qoxusu gəlir... O, bir daha sənin işığını görməyəcək...” – düşündü. Elə Əkrəmin də, Rəfailin də ruhu üstündə deyildi, üz-gözlərindən acı bir nisgil yağırdı.

Bu vaxt qardaşı Qisməti həyətə çağırdı, dedi ki, “bir az əvvəl, şıdırğı yağış tökəndə, bir nəfər tanımadığım adam qapımızın ağzında ayaq saxlayıb səni soruşdu, dedim ki, yatıb. Qayıtdı ki, bəs, “duranda denən Qara nohurun yanına ensin, onu orda gözləyəcəm”. – “Axı yağış yağıb, yer palçıq olar, ora getmək olmaz” – dedim. Güldü: “Sən çatdır ona qorxmasın, yay yağışının fəsadı olmaz, indi gün çıxacaq, yol-riz quruyacaq, gəlsin, gözləyəcəm”.

Qismət hiss elədi ki, o adamın kimliyi barədə İsmət nəsə soruşmaq istəyir. Amma aralarında böyük-kiçiklik olduğuna görə, kəsilə-kəsilə qalıb və susur.

Qismətin ürəyindən birinci növbədə ildırım kimi keçən: “yüz faiz həmin adamdı!” fikri oldu. İsmətə heç nə deməyib, hövlnak evə girdi. Birmərtəbəli evləri bəlkə də ilk dəfəydi ona kibrit qutusu kimi darısqal, cansıxıcı gəldi. Qəfil özünü də bir kibrit dənəsi kimi hiss etdi. Bir qədər qorxdu. Elə bil, indicə kimsə onu alışdırıb bu qutunun içinə qoymuşdu. İçəridəkilər də kibrit dənələri kimi göründü gözünə, sandı ki, elə indicə onun ucbatından günahsız-günahsız od tutub yanacaqlar. Yas yerinə gedənəcən çox naqolay hiss elədi özünü, qəribə hallar keçirdi. Deyəsən, vəziyyətinin yaxşı olmadığını Əkrəmgil də duyuq düşdü, amma heç nə demədilər.

Onları yas mağarından içəri ötürəndə Qismət üsulluca: “indi gəlirəm...” mızıldandı. Əkrəm səssizcə başını tərpədib dinmədi, Rəfail üzünə qəribə tərzdə baxıb böyrünü tutdu, çox astadan, ağrılı-ağrılı: “nəsə olub?” soruşdu, “heç nə – dedi, – burda olun, indi gəlirəm...”

* * *

Qocaman söyüdün yanına çatanda, gördü ki, orada heç kim yoxdu. Gözü ağacın gövdəsindəki koğuşa sataşdı, yadına Pənah deyənlər düşdü. Baxmaq istədi ki, görsün orada alacəhrə quşunun yuvasından

əsər-əlamət var, ya yox. Ağaca yaxınlaşmışdı ki, arxadan başına ağır bir zərbə dəydi, ağrı hiss etməsə də, gözlərinə zülmət bir qaranlıq çökdü, səsi də çıxmadı. Kimsə çiyinlərindən tutub onu üsulluca ağacın dibindəki iri bir daşın üstündə otuzdurdu, aradan nə qədər ötdüyünü bilmədi, gözlərini bürüyən qatı zülmət çox güclü şəkildə işıqlanmağa başladı, hətta o qədər güclü ki, bəbəklərinin alışacağından qorxdu. O işığın içində qəfil alacəhrə quşunun asudəliklə uçub belədən-belə keçdiyini gördü, ağacın dibində xırda-xırda tikələnmiş, saman rəngli çəyirtkə ölüsünə sataşdı gözü, bir də onlara daraşmış atlı qarışqalara. Dünya öz işindəydi. Qazi Qismət ağrı hiss eləmirdi. Nə baş verdiyini düşünmək belə keçmirdi könlündən. Deyəsən, hər şeyi unutmuşdu, başlıcası isə özünü... Hə, özünü, kimliyini yaddan çıxarmışdı.

– Başlayaq?

– Hə...

– Hazırsan?

– Hə.

Deyəsən, bu səsdən Qara nohurun seyrək qamışlığı, ardınca da suları iki yarıldı. Gözünün içindəki parlaq işıqdan da gur bir nura bələnmiş, onunla eyni boyda, eyni biçimdə olan bir insan surəti: “Gəl” – deyib arxasınca oraya enməyinə işarə etdi. O, gözqamaşdırıcı surətin arxasınca əmin-amanlıqla elə gedirdi, deyərdin, ömrü boyu bu yolda yerimişdi, özü də onunla birgə. Getdikləri yol nəmişlik olsa da, heç bir çətinlik hiss eləmirdi. Su elə yarılmışdı ki, sanırdı, sağına-soluna şüşə hasar çəkilib. Adama elə gəlirdi ki, sular bu “hasarların” yalnız o üzünü yalayır, bunlar isə bu üzdə – aralıqda dinməzcə gedir. Alacəhrə başları üstən əl çəkmirdi, civildəyə-civildəyə belədən-belə uçub keçirdi. İşıqlı surət onunla zarafatyana belə bir söhbət eləyirdi:

– Cərli-cürlü, çox da şellənmə, bilirsən dəə, tezliklə aclıq başlayacaq.

Alacəhrə isə qanadlarını onları bürümüş işığa toxundura-toxundura başları üstündə iti-iti süzür, cikkildəyirdi:

– Mən tüklərimə daraşmış bitlərlə dolanacam, qorxmuram...

– Cərli-cürlü, bəs bitlər nə yeyəcək?

– Qanımı... Qorxmuram. Çünki hər dəfə mən onları yeyəndə qanım təzədən geri qayıdacaq...

– Səni çox sevirəm, cərli-cürlü!..

– Cərr-cürr! Cərr-cürrrr! Mən də səni!

Mamırlı qara daşın yanından keçəndə bir ağız qurbağa qurultusu gəldi, yəqin bu, Pənahın dediyi həmin kor qurbağaydı. Amma işıqlı surət qurbağanın səsindən çox pis diksindi. Qismət özünü saxlaya bilməyib soruşdu:

– Nooldu? Niyə diksindin?

O, dərindən bir ah çəkdi:

– Elə bildim, bircə anlıq Allahdan ayrı düşmüşəm... Ona görə.

Qismət onun cavabından heç nə başa düşmədi. Çünki belə şeylər onluq deyildi. Yollarına davam etdilər. Qəfil at ayaqlarının tappıltısı gəlməyə

başladı. Deyəsən, vəhşi ayğır ilxısı çapıb keçirdi. Qismət yaxşı bilirdi ki, ətrafları çöl-biyabanlıq deyil. Amma atların ayaq səsləri elə gəlirdi ki, sanırdın ucu-bucağı görünməyən bir çöllükdən nəhəng bir ordu yortub keçir. İşıqlı surət ona: “Dur!” – dedi. Özü də dayandı. Suyun sərini üzünü yaladı. Artıq alacəhrə görünmürdü. O, diz çökdü, təkrarlamağı işarə ilə Qismətə də bildirdi. Arxa tərəfində o da ixtiyarsız diz çökdü. Elə bil, belə də olmalıydı. Qismət qətiyyən narahat deyildi. Özünü də bir işıq kimi hiss eləyirdi. Atların ayaq səsləri, kişnərtiləri kəsildi. Sonra uzun müddət bir uğultu qopdu, onun qulaqları batdı. Bu zaman lap astadan bir pıçıltı eşidilməyə başladı. O qədər asta bir pıçıltıydı ki, elə bilirdin, axşamüstü qırçınlı ləpələr pıçhapıçla sahili öpüb-yalayır. Əslində, burda adamın ağlına nə Qara nohur gəlirdi, nə də onun yaxınlığındakı Allı göl. Sadəcə, bir İşıqlı surət idi, bir də sirri-xudaya dönmüş qazi Qismət. Amma ona elə gəlirdi heç nə yeni deyil, bütün ömrü boyu gördüklərinin, yaşadıqlarının davamıdır bunlar. Uğultunun içindən ayrılan pıçıltı ipək örtük kimi ruhunu bürüdü. Səs onun idi – İşıqlı surətin. O, minacat çəkirdi deyəsən. Hə, bu pıçıltı daha çox minacata oxşayırdı. Bəlkə də elə deyildu. Allah bilir... Bu səs suların sərinini, onları bürümüş gözqamaşdırıcı işığı odlu-odlu yalayırdı:

“– Ya Rəsulullah!.. Nə yaxşı ki varsan! Allahın Günəşə yazığı gəldi. Allahın Aya, ulduza yazığı gəldi. Bizə yazığı gəldi hər şeydən öncə – Səni göndərdi bütün müşküllərin açarı kimi, ya Rəsulullah!.. Sən bir Gülsən, – içimizin çırağı Gül... Adının qoxusu keçdiyi yerdə yaza çarpır ruhumuz hayana getsək. Açılır aləmlər üzümüzə pərdə-pərdə...”

O, bunları pıçıldadıqca, Qismət elə bilirdi, çiyinlərindən bir cüt gözəgörünməz əl yapışıb onu ustuf-ustuf silkələyir, bu sehrli səsin ləpələri qırçın-qırçın sinəsinə çırpılır, isti-isti ruhunu öpür.

“...Ya Rəsulullah! Yanğılı çöl quşları su içməyə necə gəlirsə, eləcə gəldik gətirdiyin Mübarək Dinə. Nuhun gəmisinə sığınırmış kimi tapındıq Əhli-beytinə... Oxuduq ilk dəfə gül dodaqlarından qopmuş Allahın qutsal kəlamlarını, oxuduq dönə-dönə... Bütün şükranlarımızı pıçıldadığımız Göy Qübbəsi kimi cəlalın pak-pakizə olmasaydı, ordan Uca Rəbbin Rəhmət Qapıları açılardımı heç üzümüzə? Eşidilməsəydi Sənə möhtac səsimiz, dolmasaydı içimizə İşığı Haqqın, dadı nə olurdu bu həyatın? Adı nə olurdu bu imanın? Ünvanı hara olurdu bu münacatın, ya Rəsulullah?..”

Hə, bu, minacat idi. Yüz faiz! Özü dindar olmasa da, bu an min ilin ibadətçisi kimiydi Qismət – əriyirdi bu səsin ruhunu yalayan istisinə... O, davam eləyirdi:

“...Doğrudur, Günəş doğmasaydı, onu doğurmaq üçün üfüqləri yırta bilən, göydə ildırımları tutan, hayqırtısı buludları didən ərənləri vardı ulusumuzun... Min illərdi yol gəlirdik bir Tanrıdan bir Allaha – Özündən Özünə gəlirdik Onun – yollar bitib tükənməzdi sanırdıq... Hamının yükü Haqq idi – hamı da çəkirdi guya, əslində, kimsə çəkəmməzdi bu yükü Sənsiz. Sən quran körpüdən keçməliydik çünki, ya Rəsulullah, Qurani-

Kərimə – kərəminə tapınmalıydıq çünki. Biz Sənə, Sənə sarı gəlirdik beləcə...”

O, pıçıldadıqca, Qismət hiss eləyirdi ki, bütün keçmişi, adi insan kimi yaşayıb keçdiyi yolu unudub, heç nə xatırlaya bilmir, get-gedə lap uzaqlaşır ömür deyilən şeydən. Pıçıltı isə artıq giziltiylə titrəyirdi içində. Titrəyib-titrəyib oturuşurdu canında.

“...Cahil bəşər yarıyuxulu gözləriylə hələ də qəflətdədi, söz yox, bilirsən – Savaşlar səngimir fanilərdən ötrü... Bu gün lap ötələrdəki kimi gələrək Ayı barmağınla ikiyə bölsən, kafirlərin gözünə dolmazmı bədri? – düşünür adam.. Ya Şəqqül-Qəmər! Küfr dolu bir bazarda bilinmir Haqq Sözün qədri, bilirsən... Bircə Sən bilirsən, məsələn, nədən qan içindədi düzü-dünya bu gün, nədən qan içindədi insan içinin çöllükləri... Hələ o zaman "Bir möcüzə göstər" demişdi qafillər. Sən bir ovuc suyu götürüb: "Bundan böyük möcüzə olarmı?" söyləmişdin. Duymuşdularmı bu sadə düsturun hikmətini? Yox, Haqq dini gərək deyildi onlara. Bu gün də eynən elədir, ya Rəsulullah! Bu gün də Sənə təşnə, Haqqa sevdalı Söz müştaqları için-için oxuyurlar:

*– On iki mehrablı bu canın*
*Beş tərəfindən gün doğur –*
*İçindədir mürşidimiz*
*“İnsan surəsi”ni oxur...*
*Süzülür Birin işığı*
*On Dörd tərəfdən üstümüzə.*
*Kor aşiqlər, yaxın gəlin,*
*gözünüz açılsın tüstümüzə...*

Amma kimlər gəlir, kimlər eşidir səsimizi? – onu bircə sən bilirsən, ya Rəsulullah! Ey dünyaya Allahın Son Müjdəsi! Ey Haqqın Səsi! Nə yaxşı ki, varsan! Pətəkdə balla varsan, çiçəkdə şehlə varsan... Qiyamət günündə Zamanın Sahibiylə – Həzrəti Mehdiylə varsan, İsa Məsihlə varsan... Nə yaxşı ki, varsan! Bu gün də Sənin cəlalın eşqinə Allahın Günəşə yazığı gəlir. Allahın Aya, ulduza yazığı gəlir. Bizə yazığı gəlir hər şeydən öncə. Bütün müşküllərin açarı kimi bu gün də təkcə Sən açırsan qəlbimizin qıfılını Uca Yaradana – Səndən keçib bizə gələn hər nə varsa, şükür, bizdən keçib qayıdır Ona – demək həm də Səndən keçib qayıdır, ya Rəsulullah! Dünyanı qəflətdən hələ də adın boyda Eşq oyadır! Nə yaxşı ki, varsan!..”

...– Qismət!... Qismət!.. Qalx ayağa, qağa. Palçığın, suyun içindəsən, noolub sənə? Dur görüm, dur, qağa...

Deyəsən, onu səsləyib oyatmaqdan ötrü bu sözləri sonu görünməyən qaranlıq bir lağımın o başından kimsə deyir, işığa dönüb keçdiyi yolda cismini leşə döndərib geriyə sürüyürdü... “Kimsə” deyəndə ki, özü də bilirdi ki, bu, qardaşı İsmətin səsidi. O səs durmadan axıb gəldikcə, məlum işığa

qapqara bir mazut kimi yaxılıb onu məhv eləməkdəydi. Qismət ha çabalasa da bu "mazut" daha pis gurlaşırdı. Ardınca da elə bildi, Pənahın dediyi həmin qarabel balıq işığının olub-qalan paklığında belədən-belə üzüb, quyruğuyla sifətinə çırpıb onu bu sirli-sehirli aləmdən oyatmaq istəyir. Sonra hiss elədi ki, bu elə İsmətdi, yavaş-yavaş üzünü şilləleyib onu oyatmağa çalışır. Bu zaman ürəyini dolduran, ruhunu bürüyən işıq "mazutun" zülmətinə bataraq yoxa çıxmağa başladı, eyni zamanda İsmətin əli, səsi ona toxunduqca, başının arxasından dəhşətli bir ağrı qopdu. Ağrı artdıqca da ağırlaşdı, tərpənməyə, cavab verməyə heyi qalmadı.

* * *

...Onu divana uzatmışdılar. Əvvəl elə bildi otaqda heç kim yoxdu. Gözləri televizorun ekranına dikiliydi. Sevdiyi "Juravli" mahnısını Mark Bernes pəsdən oxuyurdu. Amma televizorun səsini almışdılar heç nə eşidilmirdi. Ekrana baxa-baxa qalmışdı, bu mahnı elə içində səslənirdi. Həm də qəribədir ki, sanki bu möhtəşəm musiqini milyon dəfə dinləmişdi, təsir eləmirdi. Heç nə anlaya bilmirdi. Hiss edəndə ki, yanında oturmuş kiminsə ovcunda çox doğma, tanış bir hərarətdən sağ əlinin barmaqları az qala əriyib gedir, kövrələn kimi oldu, əhvalı dəyişdi. Gözləri... hə, gözləri indi elə gündəydi ki... ancaq televizorun ekranına dikiliydi, qətiyyən sağa-sola çevirə bilmirdi. Onlar indi sərt bir döngəyə tuş gəlmiş, hər an aşmaq təhlükəsi olan, kuzovu ağzınacan dolu azman bir yük maşını durumundaydı. Bu qəzalı "döngədə" onları asta-asta, qorxa-qorxa, çətinliklə də olsa, nəhayət, döndərə bildi və gördü ki, əlini sığallayan anasıdı. Anası onun baxdığını görüb gülümsündü, başını sığallayıb, alnından öpdü: "Can... – dedi. – Ana qurban, nooldu sənə belə?" Cavab verə bilmədi. Hələ key kimiydi. Samirə otağa girdi. Gözlərini açıq görüb, sevindi. Üzünə təbəssüm qondu. Anası nəsə pıçıldadı, o, təzyiqölçəni gətirib sağ qoluna bağladı və ölçməyə başladı. Düzü, heç vaxt təzyiqdən şikayət etməmişdi. Özünə də qəribə gəldi. Gözlərini qapadı. Sonra onun anasına pıçıldadığı sözləri eşitməyə çalışdı. Amma içindəncə qulaqlarına dolmuş, onu uzaqlara aparan sevdiyi mahnının sədaları buna imkan vermədi. Bircə onu eşitdi ki, anası bir neçə dəfə: "Can... Can bala!" – deyib dizinə çırpdı.

Gözlərini açanda İsmətin gəldiyini gördü. Əkrəmlə Rəfail də yanındaydı.

– Necəsən? – Səs həmin səs idi. Yadına ruhunu bürümüş o sirli, o sehirli işığı qaralayan "mazut" axını düşdü.

"Mazut" nədi? Bu hardan gəldi ağlıma? "Mazut" nədi axı? – dumanlı halda fikirləşdi. – Bu ki öz arxa-dayağımın, doğmaca qardaşımın pak-pakizə, büllur kimi saf, məhrəm səsidi..."

Əkrəm də, Rəfail də "keçmiş olsun..." anlamında nəsə pıçıldadı, amma onlara cavab verə bilmədi.

...Axşam hamı yatandan sonra, deyəsən, Qismət bir qədər özünə gəlmişdi, başının ağrısı kəsmişdi. Fikirləşirdi ki, rəhmətlik Pənah ona gör nə-

ləri miras qoyub getdi: “o adamı” nə tanıyırdı axı? Yatsa, heç yuxusuna da girməzdi. Özü də ki, dindar birisi...

Gecə yarısı hiss elədi ki, üşüyür, çimhaçim soyuq bir tərin içindəydi. Eşikdə külək qopdu, alça ağacının budaqları pəncərəyə çırpılınca hər yan işıqlandı. Gözlərini ağır-ağır dolandırıb o səmtə baxdı. Səs bir də gəldi. Bu zaman dağları, düzləri yerindən oynada bilən bir tufan qopdu canında və o acı, qaynar bir aha çevrilib ruhundakı soyuq aləmi viran qoya-qoya əsdi içindən. O, çox dərindən, çox-çox dərinlərdən bir ah çəkdi. Heç vaxt bu qədər içdən, bu dərinlikdə, belə təlatümlü nəfəs alıb-verməmişdi. Deyərdin ki, bununla da bütün ömrü boyu yaşadıqlarını, daşıdıqlarını püskürdü heçliyə və ondan heç nə qalmadı. Dərhal da yüngülləşib qalxdı ayağa. Doğrudan da ondan heç nə qalmamışdı. O boyda adamın cəmi beş-on qram çəkisi vardı. O qədər yüngül hiss edirdi özünü, deyərdin ki, astaca “hüf” eləyən olsa, bir qırıq yarpaq kimi açıq pəncərədən uçub gedəcək. Taybatay olan pəncərəyə yaxınlaşınca gördü eşikdə külək-filan yoxdur, əksinə, hava bürkülüdür. Bəs o taqqıltı nə idi? Deyəsən, heç taqqıltı da deyildi, kimsə dizlərinə çırpırdı var gücüylə; bax, ona bənzər bir səs gəlirdi. İçinin tufanından qulaqlarına elə bir küy dolmuşdu ki, səsləri qarışdırırdı, amma canı o qədər yüngül idi ki....

– Mənəm, gəl.

– Gəldim...

“Hara? Niyə? Nədən ötrü? Sən kimsən axı?” – artıq bu sualların ondan ötrü nə özü vardı, nə də cavabları. Gözünü açıb gördü ki, köynəyini, şalvarını geyinib pəncərədən düşüb eşiyə. Gördü ki “o adamdır”, şalvarının balaqlarını çırmalayır, baxıb o da çırmaladı, ayaqyalın düşdülər yola. O, nəsə mızıldana-mızıldana qabaqda gedirdi, Qismət də yetim quzu kimi arxasınca. Ağıl, şüur, düşüncə deyilən şeyləri, deyəsən, bir an içində yatdığı yerdəcə – yatağındaca köhnə-kürüş paltar kimi soyunub qoymuşdu, amma heç vecinə də gəlmirdi. Bircə onu bilirdi ki, əhvalı düzəlib, kefi göynən gedir.

Gəlib Qara nohurdan bir xeyli aralıda, köhnə dəyirmanın uçuqları yaxınlığındakı cevizliyin yanına çıxdılar. Aylı bir gecəydi. Burada ağaclardan birini kəsib yıxmışdılar böyrü üstə, gövdəsini girdin-girdin doğramışdılar. Üç nəfər girdinləri yanaşı qoyub oturmuşdu üstündə. İkisi onunla tay-tuş – orta yaşlı olardı, biri cavan oğlan idi. Orta yaşlı olanlardan biri şalvarının çırmalanmış balaqlarını açıb səliqəyə salırdı, o biri əllərini üzünə qapamışdı, daz başını görüncə Qismət tay-tuşu olduğunu fəhm etdi, cavan oğlansa, qollarını qucaqlayıb gözlərini yerə dikmişdi. Bu vəziyyətdə heç birini tanıya bilmirdi. Birdən şalvarının balaqlarıyla əlləşən adam başını qaldırdı. Bu, kim olsa yaxşıdı? – gördü Rəfaildi. “Bıy! Bu haçan gəlib bura? Bəs mənimlə bir otaqda yatmamışdı? Bizim evdə deyildi bəs?” Elə soruşmaq istəyirdi ki, o Qisməti qabaqladı, amma sualını qazi yoldaşınayox, “o adama” verdi:

– Harda qaldınız? Gözləməkdən bezdim ta... – bu, onun həmişəki incik səsiydi.

O adam mızıldandı:

– Darıxma, orda vaxt qısa olsa da burda uzundu...

O, girdinlərdən birinin üstə Qismətə də əyləşmək işarəsi verdi.

Qismətin buraya gəlişi heç elə bil Rəfailin, tanımadığı o biri iki nəfərin vecinə də deyildi. Ona görə qəfil özünü çox kimsəsiz, yalqız hiss elədi. "O adam" içindən keçənləri duyubmuş kimi yaxınlaşıb əlini onun çiyninə qoydu, pıçıldadı:

– Qəm eləmə, bizim Rəbbimiz kimsəsizlərin kimsəsidir...

Araya dərin bir sükut çökdü. Qismət hiss eləyirdi ki, Rəfailin qanı qaradı. O, yenə büzüşmüşdü. Dazbaş adam əllərini üzünə necə qapamışdısa, eləcə də oturmuşdu, tərpənmirdi. Yanındakı cavan oğlan deyəsən xəfif-xəfif titrəyirdi. Qəribədi, bürkülü havada niyə titrəsin axı? Yəqin qorxurdu. Qismət gözlərini yerə dikib, buraya ayaqyalın necə gəlib çıxdığını düşünməyə girişmişdi, amma ağlına heç nə batmırdı, çünki o ab-havada deyildi. Hərdən gözucu Rəfaili süzürdü ki, "buna bax ee, heç elə bil məni tanımır..."

O adamın səsi qaranlıqda əks-səda verdi:

– Bura baxın, heç nədən qorxmayın, sizinlə ayrı söhbətlər edəcəm. Quşun, hörümçəyin, nə bilim... qarışqanın, böcəyin, balığın... lap elə o kor qurbağanın da söhbəti qalır sonraya. İndi buraya ağlınıza belə gəlməyən adamlar təşrif buyuracaq. İndicə gəlməlidilər. Bəri başdan deyim ki, mən sizin ölümünüz, əhləd daşınız deyiləm. Olsa, olsa bu gün baş tutacaq ilahi bir zamansızlıq səfərində sizə yol yoldaşı olacaq haqqın bir qırıq işartısıyam.

Qismət düşündü ki, "sözə bax, "ilahi zamansızlıq səfəri... haqqın bir qırıq işığı..." Bu nə demək istəyir axı? Guya bunu başa düşən var".

O, cibindən yaşıl parçaya bükülü balaca bir kitab çıxardı, üç dəfə öpüb gözləri üstə qoydu. Ardınca da oturanlara bir-bir öpdürdü.

Qismət onun Qara nohurun yarılmış sularının arasında elədiyi ibadəti xatırladı. Sən demə, bu qazinin heç də yaddaşı itməyibmiş! Bu adamın gur bir işığa necə çevrildiyini xatırladı. Elədikləri şəkil-şəkil keçdi gözü önündən, pıçıldadıqları söz-söz titrədi içində. Ancaq özlüyündə o dəfəkindən bir az ayıq yanaşdı bu adamın tavrına. "Bu yenə ibadətəmi başlamaq istəyir?.. Nə demək istəyir bu axı? Görəsən nə? Bilmirəm, vallah... Din, iman, minbər, gümbəz, məscid, namaz-dəstəmaz... nə bilim, belə-belə şeylər mənlik deyil, yox, mənlik deyil, mənlik deyil!.. İndi mən nə təhər bu adama başa salım ki, mən qaziyəm eey, qazi! Bu qollarımın üstündə, gözü gözümə baxa-baxa neçə-neçə səngər yoldaşım can verib, neçə-neçə dost itirmişəm – hələ torpağı demirəm... Bu barmağımla neçə-neçə düşmən alnına tətik sıxıb, güllə atmışam! Elə Rəfail də mənim kimi, yəqin tanımadığm bu birilər də... Biz indi yaralardan, zədələrdən əzab çəkən canımızın hayındayıq, bir parça çörək dalınca gedib başqa ölkədə güzəran keçiririk, canımızın künc-bucağında, fikir-düşüncəmizdə itirdiklərimizi qaytarmağın xəyallarını qururuq, day sən işarə vurduğun

şeylərin yox... Artıq gecdi, sən deyənlərə nə vaxtımız var, nə imkanımız var, nə səbrimiz, nə də... nə də ehtiyacımız!..”

Qismətin içindən keçən bu fikirləri, deyəsən, o adam oxudu, üzünə baxıb yüngülcə başını buladı.

Bu vaxt ağacın altından bir az aralıda, hər yeri bürümüş on dörd günlük Ay işığında üç nəfərin mərmər baş daşına oxşayan qaraltısı göründü. O adam gülümsünüb: “Onlardı!..” dedi. Birinin əynində uzun, qara cübbə vardı, boynundan iri bir xaç asmışdı. O biri də əbaya oxşar tünd rəngdə nəsə geymişdi, bir az dombagöz idi, incə, sarımtıl bığları və qıvrım saqqalı vardı, başına qıraqları enli, qara şlyapa qoymuşdu. Üçüncü, yumrusifət, bəstəboy, qıyıqgöz idi, başında araxçına, təsəyə oxşar nəsə vardı. Oturanlar fikir verib gördülər ki, gələnlərin üçü dəonlar kimi ayaqyalındır. Amma qəribədir, üçünün də üzündə adamı özünə çəkən sirli bir işıq, həm də bu aylı gecənin nuru qədər çox məhrəm bir təbəssüm dolaşsa da, onları seyr edənlər üşüyürmüş kimi titrəyirdi. “Bunların fikri nədir? Neyləmək istəyirlər?” – düşünürdü hər biri.

Gələnlər bir qədər aralıda baş-başa verib pıçıldaşır, hərdən də oğrun-oğrun oturanlara tərəf boylanırdılar. O adam əlindəki uzunsov təsbehin dənələrini sakit-sakit çevirə-çevirə astadan nəsə üyüdüb-tökür, o birilərsə hərdən onun söhbətinə münasibət göstərir, eyni tərzdə pıçıltıyla danışırdılar.

Uzaqda itlər hürüşdü, ardınca da eşidilən bir-iki ağız bayquş ulartısı gecənin ruhunu cırmaqladı. Yaxınlıqdan gələn öskürək səsi, deyirdin, qaranlığın yırtıq torbasından tökülürdü gecəyə. O adam və yanındakılar həmin tərəfə heç boylanmadılar, görünür, heç eşitmədilər bu səsi. Az keçməmiş ləpəli sularda yellənən bir qayığın yelkəni kimi Ay işığında taytıya-taytıya bir nəfər gəldi: bu, Əkrəm idi. O da ayaq üstə dayanıb pıçıldaşan həmin müəmmalı adamlara fikir vermədi, əyləşənlərin yanına gəlib girdinlərdən birinin üstə çökdü. Oturunca da “o adama” sarı səsləndi:

– Mən burdayam.

O isə, bu tərəfə baxmadan cavab əvəzinə əlini yüngülcə qaldırdı, başıyla təsdiqləyirmiş kimi işarə etdi ki, “bildim”. Az keçməmiş, yaxınlaşıb kitabı ona da öpdürdü, heç nə demədən gəldiyi kimi də geri qayıtdı...

Qəribədi ki Əkrəm nə Qismətə, nə də Rəfailə heç gözünün ucuyla da baxmadı. Qismət qəfil özündən ixtiyarsız gözlərini yumdu, elə o an da onu Əkrəmlə, Rəfaillə bağlayan, par-par parıldayan bir cüt işıq teli gördü. Ah çəkdi. O tellər titrədi, titrədi... sonra, deyəsən, qısa qapanma oldu, tüstülədi, tüstülədi... qarala-qarala qırılıb yox oldu... Gözlərini açdı. Artıq o da heç kimi tanımırdı: nə Əkrəmi, nə Rəfaili. Aralarındakı bağlar gözü önündəcə qırılmışdı, onlar tamam başqa adamlara çevrilmişdlər. Odur ki, durub key kimi baxırdı üzlərinə.

Çox keçmədi ki, gələnlər onlara yaxınlaşdı. O adam oturanların hər birinə salavat çevirtdirdi, uzun cübbəli boynundan çıxardığı xaçı bir-bir hamısına öpdürdü. Qara şlyapalı təzim etdirdi. Təsəkli qıyıqgöz isə bircə

işarəsiylə bu adamların əllərini cütləyib sinələriə necə qoymağı başa saldı, özlərini də kərən-kərən baş endirməyə vadar etdi. Deyəsən, onlar bütün bunları könülsüz edirdi. Daha doğrusu, elə bilirdilər ki, əvəzlərinə kimsə edir, veclərinə gəlmirdi. Əvvəlcə hissiyyat deyilən şey yoxuydu onlarda, sonra yavaş-yavaş içlərinə nəsə sızmağa başladı. Lap düzünü desək, yavaş-yavaş özlərini az qala dəcəl bir uşağın üfürüb həddən artıq şişirtdiyi şar kimi hiss etməyə başladılar: yüngülcə dalayan, iynələyən olsaydı, o andaca partlamalıydılar. Elə partladılar da!

O adam: "Hə, tez olun, tez olun! Sıraya düzülün! İndi dərgahlar sahibi sizi çağıracaq!.." deyəndə, onun başqa sifəti göründü. Qismət düşündü ki, İlahi, bu, kimdi? Bu, kimdi axı? Hər kimdisə, Qara nohurun dibindəki adam deyil, onun tam əksidi, tam əksi!.. Bir anda hər şey param-parça oldu, partladı! Qismət var gücüylə onun üstünə bağırdı. Yüyürüb bir yumruq da ilişdirdi, adam tir-şap oldu. Baş daşlarına oxşayan cübbəli, əbalı, təsəkli adamlar nəfəsini çəkməyə macal tapmadı, Qismətin ardınca girdinlərin üstə oturanların hərəsi bir yandan tökülüşüb bunları çırpmağa başladı. O adam yıxılanda, yaşıl parçaya bükülü balaca kitab əlindən yerə düşdü, cavan oğlan yüyürüb ona bir təpik ilişdirmək istəyəndə, Qismət imkan vermədi, götürdü. Elə hər şey də ondan sonra başladı. Axırıncı vurduğu təsəkli, qıyıqgöz adam oldu. Vuran kimi mayallaq aşıb dikəldi, qaçıb da getdi. Ardınca yüyürmək istəyəndə Qismətin ayağı nəyəsə ilişdi, dəydi sinəsi üstə yerə, özü də çox pis... Nəfəsi gəlmədi, çığırmaq istədi, alınmadı, barmaqları boşaldı, bərk-bərk sıxdığı kitabı yerə saldı... Cevizlikdəkilər bir andaca qeybə çəkildi. Qismət bircə anlığa Xocalıdan aşağıda axıb gedən Qarqar çayının o üzündə gördü özünü. Gördü ki, qədim-qayim ardıc ağacının dibində qətlə yetirilib yandırılmış ana-balanın külü altından parabüzənlərin köçü başladı, nə başladı! Göz qırpımında uçuşub fırtına kimi göyün üzünü bürüdülər. Ömründə belə şey görməmişdi. Üstü qara xallı, xırdaca, qırmızı cücülər səssiz-səmirsiz qiyama qalxmışdı. Özü də minlərlə, milyonlarla... Bu, nə idi, İlahi? Bunə deməkdi? Anlaya bilmədi, çözə bilmədi... Bir də gördü, Xocalı tərəflərdə deyil artıq. Dərələrin biriylə üzü yuxarı – boş qalmış evləri yala-yamaca tökülüb qurd kimi ulamağa hazır dayanmış susqun, kədərli və bir-birinə qısılmış, bu an kimə – bizə, ya düşmənə məxsusluğunu ayırmaq mümkün olmayan şenliklərin içiylə qaçır... Hara ayağını atırsa, gölməçədi... Qana bulaşmış suları boz-bulanıq olan həmin gölməçələrin içi çömçəquyruqların ölüsüylə doludu... Ayaqları suları şappıldatdıqca burnuna iylənmiş qan qoxusu gəlir, ögüyür, ögüyür, ürəyi gəlib durur ağzının içində, amma heç cür sifrağ edib qaytara bilmir... İncəvara, hardansa təzədən qolu-qanadı qırılmış quş kimi parabüzənlərin fırtınası içinə düşür, bunu öz xilası saysa da, qalır gicəllənə-gicəllənə. Görür necə sovrulubsa, bu dəfə Qarabağda deyil artıq, doğmaca həyətlərindədir, əlindən saldığı kitab yerə yox, kor quyularının dibinə düşüb. Cücülərin tufanından sıyrılıb külək aparan bir payız yarpağı kimi uçuronun dalıınca. Uçhauç, uçhauç... düşür düz quyu-

nun dibinə... Tanış səslər eşidir, kimlərsə çığırışa-çığırışa quyunun qapağını örtmək istəyir, düşdüyü yerdən yuxarı baxır, görür, deyəsən, səhv anlayıb, onlar quyunun deyil, gözlərinin qapağını örtür, çünki yuxarının işığı yavaş-yavaş o ana-balanın külünə girib qaralır və sönür. Canını əsmə tutur. Titrəyir, titrəyir... Onu hiss eləyir ki, kimlərsə əllərindən, ayaqlarından bərk-bərk yapışıb qoymur titrəməyə və qulağına doğma bir çığırtı, məhrəm hönkürtü səsi gəlir: “Anan ölsün, ay Qismət, anan ölsün! Can bala!..” Bir azdan titrəməsi də keçir, artıq heç nə eşitmir, kor quyunun dibində kitabı əl havasına tapıb sıxır sinəsinə, düşüb qalır külün içində, üstünə saysız-hesabsız parabüzən ölüsü tökülür, bu dəm özündən ixtiyarsız pıçıldayır: “Qarabağ... Qarabağ... gör hardan gəlib, hara çıxdım... Ya kitab! Deyəsən, diriyəm axı...” Sonra da görür sinəsinə sıxdığı kitab deyil, anasının əlləridir, anasının əlləri... İndi anlayır ki, külə dönmüş o ana-balanın bir-birinə necə qısıldığını onun kimi duyan olmaz...

## *8.*

Əkrəm Moskvaya qayıdandan sonra da kiriməк bilmirdi, Pənahın ölümünə yanıb-yanıb tökülürdü. “Hayıf...” deyirdi. Səhərdən axşamacan öz-özünə bircə kəlmə söz pıçıldayırdı: “Getdi... getdi...” Hirsindən daşı-divarı yumruqlayırdı. Bu yandan da şəriki Rəfailin halı çönmüşdü, yerləşdirmişdilər xəstəxanaya. Vəziyyəti eləydi ki, üzünə baxanın içindən ancaq bu sözlər keçə bilərdi: “indi gedər, bu saat gedər...”

– Darıxma, Rəfail... Valodyayla danışmışam. Kömək eləməyə söz verib. Ən bərkgedən həkimlər səninlə məşğul olacaq. Tezliklə sağalacaqsan, tezliklə...

Amma ki təəssüf! Rəfail tezliklə komaya düşdü. Bu qürbət eldə Əkrəmin ümidi təkcə Qismətə qaldı. Özü demişkən, göz görəsi hər addımda qəribləri bezdirmək üçün şeytana papış tikilən belə bir qəliz şəhərdə onunla tez-tez görüşüb dərdləşməkdən savayı bu çılğın qazinin başqa bir yolu yox idi. Cinayətkar aləmin bərkgedənləri də bir yandan başını xarab eləmişdi: aylıq aldıqları haqq öz yerində, həm də ikigündənbir dəstəylə gəlib sahibi olduğu kafedə oturub ödənişsiz-filansız yeyib-içirdilər. Əsəbindən bilmirdi neyləsin. Deyirdi ki, “a kişi, bura yerdi bəyəm? Bu şəhərin istənilən bir guşəsində səni diri yeyib, diri də batırarlar. Məsələn, deyək ki, köynəyini asmaq üçün divara bir mıxça vurursan haa, bax, gəlib ona görə də səndən qeyri-qanuni haqq istəyəcəklər, verməsən, tutub özünü asacaqlar o mıxçadan. Asacaqlar, hə, and olsun Allaha... amma o asanların gözünü də üfürən olmayacaq, ömrün boyu damarlarında gəzdirdiyin o dörd litr qan dördcə dəqiqənin içində havayı yerə batıb gedəcək... hə, batacaq qanın, həm də dərd orasındadı ki, heç kimin vecinə də gəlməyəcək: bu ölən adamdı, itdi, ya pişikdi..." Hər dəfə Qisməti görəndə Əkrəm ürəyini ilmə-ilmə, bax, beləcə açıb-tökürdü. Söylədiyi ibarələrlə dolu fikirlər bəzən tam anlaşılmasa da, müəmmalı olsa da, səmimi idi. Pə-

nahdan sonra Qismət də mehrini salmışdı ona... Xüsusilə də ələyi çoxdan ələnib xəlbiri göydə fırlanan bu qazi bir gün qəfil deyəndə ki, "mən öləndən sonra dərin suların dibinə düşmək istəyirəm, Qismət, meduzaya çevrilmək istəyirəm..." – "Suların dibi niyə? Meduza hardan gəldi ağlına?"– deyib Qismət səbəbini soruşanda, o: "bir də bura qayıtmaq istəməzdim. Baxmayaraq ki, canavar kimi iki oğlum – Oğuzla Firuz, mələk kimi qızım Lalə, sən də bağışla, ömür-gün yoldaşım – doğmaca xalam qızı mənsiz yaman günə qalacaq, amma bir də gəlməzdim buralara... Yerin üzü çox iyrəncdi, altı ondan da betərdi yəqin... – söyləmişdi, – hələ başqa səbəb də var, hələ kimin məsləhət gördüyünü desəm, havalanarsan...". Qismət ixtiyarsız kövrəlmişdi, ürəyinin ipliyi üzülmüşdü: "məsləhəti yəqin o adam verib elə..." – düşünmüşdü. Əkrəm gücünü toparlayıb son dəfə püskürmüşdü: "İnanmırsan? Bax, bu dəqiqə, bu şəhərdə o gördüyün zibil yeşiyindən fərqimiz yoxdu, and olsun Allaha, Qismət, yoxdu – deyib, kafenin böyründəki ağzınacan qalaqlı tullantı qabını göstərmişdi, – taleyimiz, bax, o zibil yeşiyi kimi ağzıaçıq qalıb üzü göylərə, gündəlik dərdnən, ələmnən dolur, dolur... daşdayıb üfunət saçanda, gəlib candərdi boşaldan da olmur ki, birtəhər dözək. Ürəkləri haçan istəsə, onda da gəlib təmizləmirlər ee, fərəzən günə çıxarmırlar bizi, elə zibilqarışıq göndərirlər gedər-gəlməzə..."

Ardınca da: "necə ki Pənahı göndərdilər... – dedi.

Bir qədər kirimişcə durdu, sonra: "– O adam... O da gəlib çıxmadı, o da xilas eləmədi bizi... Onun barəsində Pənah sənə də demişdi, hə? Düzünü denən, demişdi?"

Qismət cavab verə bilmədi, gözlərini közərə-közərə sönməkdə olan bu qaziyə zilləyib yerindəcə quruyub qaldı... İlk dəfə həqiqətən də Moskvada deyil, öz dədə-baba ocaqlarında, həyətlərindəki kor quyunun dibində olduğunu, Xocalıda yandırılmış o ana-balanın külü altında çabaladığını, üstünə bəs deyincə parabüzən ölüsünün töküldüyünü duydu. "İndi mən buna nə cavab verim? Görəsən, bu, doğrudanmı belədir?!"

İxtiyarsız:

– O adam gecə-gündüz mənə də çox şey deyir, Əkrəm, mənə də çox şey deyir, – deyib üzünü yana çevirdi. Sonrasından xəbəri olmadı. Bir də ha fikirləşdisə, ayırd edə bilmədi ki, o sözləri bərkdən dedi, yoxsa ürəyində? Əkrəm suların dibinəmi getdi, ya göyün üzünəmi? Amma onun da torpağın altına getdiyinə Qismət yüz faiz əmin idi...

## *9.*

Rəfailin təkcə özü yox, bəxti, taleyi də komadaydı. Bu adamınkı heç cür gətirmirdi. Cəbhədən qayıdandan sonra cənublu bir iş adamıyla Bakıda şərikli açdığı qənd sexini işlədəndə rüşvətxor məmurlar başlarına elə oyunlar gətirmişdilər ki, işi dayandırıb ikisi də ölkəni tərk etmişdi, şəriki Təbrizə, o isə Moskvaya üz tutmuşdu. O qədər qəlbi qırılmışdı ki, vaxtilə yolunda canından keçməyə hazır olduğu doğmaca el-obasına bir daha

geri dönməyəcəyinə, bir daha orada ömür-gün sürməyəcəyinə and içmişdi. Üstündən neçə il sonra şəriki onunla Gürcüstanda görüşəndə bildirmişdi ki, İrandan gedib Yerevanda qənd sexi açanlar ermənilərdən çox razılıq edirlər, bir nəfər də olsun onlardan rüşvət istəmir, əksinə, qənd istehsalını inkişaf etdirmək üçün əllərindən gələn köməyi əsirgəmirlər. Rəfail belə şeyləri eşidəndə xəcalətindən bir az da sınmışdı. “Biz gör nə günə qalmışıq, İlahi!” – deyib yanıb-yanıb tökülmüşdü. Bilməmişdi rüşvətxor məmurlarımı qarğısın, özünümü yamanlasın, ya puldan ötrü düşmənlərimizlə iş birliyinə gedən qonşu ölkənin adamlarınımı söysün. Və... belə-belə şeylərdən sonra özündən ixtiyarsız qurşanmışdı içkiyə. Dostları bir yana, heç ailəsi də ona təsir edə bilməmişdi. Axırı da ki belə...

## *10.*

Dayısı Hacı Təhməz, qızı Nüşabəni göndərib Moskvaya qayıtmamağı Validəyə məsləhət gördü. Binəqədidəki öz ərzaq mağazasında satıcı işləməyi təklif etdi. Validə qaldı düşünə-düşünə. Xəbər tutanda ki, Rəfailin də halı yaxşı deyil, qaldı odla su arasında: “getsin-getməsin?” Axırda da “cəhənnəmə... nə olar olar...” deyib qalmağa razılaşdı. Bir də hərdən rayona gedib Pənahın məzarını ziyarət edə biləcəyini düşünüb qalmağa üstünlük verdi. Beləcə başladı yeganə ağsaqqalı olan dayısının mağazasında çalışmağa. Əslində, Validə bəxtini, taleyini yamanlamağı sevmirdi. Dilinə gətirməsə də, içində ən çox işlətdiyi söz: “yazım belədir...” idi və bununla özünə təskinlik verməyi bacarırdı. Ətrafında baş verənləri diqqətlə izləməyi xoşlayır, nəticə çıxarmağı sevirdi.

İşə təzə başladığı vaxtlar idi, bir dəfə mağazada iki müştəri – iki cavan qadın mübahisə eləyirdi. Biri o birinə kobud, qıza, qadına yaraşmayan səslə qışqırırdı: "Silikonlu dodaqlarla dua etmək omaz, ay bədbaxt, haramdı, haram!" O biri də deyirdi ki, "harda yazılıb, sübut elə!" Az qala, saçyolduya çıxmışdılar. Mağazanın çoxdankı satıcısı, ağbirçək Əfruz qayıtdı ki, "ikinizə də ayıb olsun! Çıxın bayırda dava eləyin!" Onlar çıxandan sonra Validəyə gileylənib dedi: "Bu külbaşdıları yaxşı tanıyıram, biri üç dəfə ərə gedib çıxıb, o biri iki dəfə. Neçə yol dindarlara qoşulub, çadraya da bürünüblər, sonra yenə çıxardıb atıblar, indi də biri dodağını şişirtdirib, o biri paxıllıq eləyir. Özləri də borcun içindədilər. Elə bizim mağazaya nə qədər verəcəkləri var..." Validə “neçə dəfə ərə gedib-çıxıblar” sözünü özlüyündə götür-qoy eləməyə, “yəqin bu sözdən mənə də çatır, mənə də bu gözlə baxırlar” düşünməyə macal tapmadı, çünki mağazada bir-birilə götürüşənlər eşiyə çıxsalar da, davaları hələ səngiməmişdi, o kobud səsli qadın hırıldaya-hırıldaya yenə deyirdi: "Qiyamət günü cavab verəcəksən haaa, yadında saxla!.." Elə bu vaxt köhnə bir “Jiquli” saxladı, maşının pəncərəsindən yekəpər bir oğlan ondan da kobud səslə: "Gəl görüm, aaaz, nə yonub-yırtırsan özüü" – dedi. Qız nəinki dava elədiyini, az qala, özünü də unutdu: "Caaan!! Aşqımmm!!"

bağırdı və maşına yüyürdü. O biri qız baxıb, baxıb köksünü ötürdü, heç nə olmayıbmış kimi: "soruş gör Cahangir məni nə vaxt itirib-axtaracaq? – dedi. – Gəlib baxsın daaa təzə imicimə!"

Rəfiqəsi isə geri qanrılıb sağ əlinin baş barmağını şəhadət və orta barmağının arasına keçirib dolmadodaq rəfiqəsinə sarı uzatdı, yanğı verə-verə bərkdən: “Alaa!! Yazda görərsən bir də!!!” – bağırdı.

Yoldan keçənlər başlarını yellədi. Hətta bir qadın geri qanrılıb onlar tərəfə tüpürdü də.

– Bax, belə-belə hoqqalarına görə öləndə dərin basdırırlar daa arvadları... – Bu sözləri mağazayla üzbəüzdəki həyət evində yaşayan, oğlu Qarabağda öləndən sonra havalanıb ağlını itirmiş qoca dedi. – Haçan ki zəncirdəki it "haf" eləyir, ağzının heç kimə çatmadığını anlayınca, başını qaldırıb göyə hürür, orda nəsə görüb guya... adını da it dilində xalaxətrinqalmasın vəziyyətdən çıxış qoyur... Ay hay! Burmalələk dingiş-lər! Axırınız necə olacaq sizin görəsən? Erməniyə verəcəksiniz daa axırda, erməniyə!... Yazıq mənim balam... Gör kimdən ötrü getdi!..

Nə demək istədiyi anlaşılmayan qoca ağladı. Qapıdan yüyürübbə çıxan yeniyetmə oğlan qoluna girib tez onu darvazadan içəri saldı. Qoca isə içəridə bərkdən-bərkdən hönkürürdü: “Sağsağanlar!.. Gör kimdən ötrü getdi yazıq balam!.. Götatan sərçələr!.. Murdar qarğalar!”

– Off, vallah, adam dəhşətə gəlir eey, günümüzə bax bir. – Bunu da mağazanın ağbirçək satıcısı Əfruz dedi.

Validə düşündü ki, bu gördükləri, eşitdikləri günün alnına möhür kimi vurulmuş, adına faciə deyilən qorxunc və gözyaşardıcı bir səhnədir. O, belə bir tamaşada heç vaxt rol alıb oynamayacağına özlüyündə yüz faiz əmin idi. Bilirdi ki, buna heç vaxt, heç vaxt yol verməz!.. Hərçənd anlayırdı ki, onun da ardınca dodaqbüzənlər çoxdu, durumuna heç də yaxşı baxmırlar. Ona görə yenə içindən keçirdi ki, bir az pul toplaya bilsəydi, bu-ralardan biryolluq çıxıb gedərdi...

...Amma hara?

## 11.

Ağlına “o adam elə mənəm!” fikri gəldiyi andan Qismətin içində ürək deyil, dəli bir külək çırpınırdı. Bu, heç külək də deyildi, onu quş kimi alıbaparan nəsə sirli bir qüvvəydi. Sırxavənd dərəsilə üzü yuxarı gedən yolun sağındakı sərt yoxuşu necə qalxdığına əvvəlcə özü də heyrət elədi. Əlli-altmış metr aşağıda, dərə boyunca səpələnmiş kənd evlərindən birinə dam örtüyü vururdular. İki usta işləyirdi. Biri başını qaldırıb əlindəki çəkici yelləyə-yelləyə ona sarı qışqırdı:

– Hara gedirsən, ay adam?! Ölməyəmi? Aşma yalı o yana! Gədikdəcə gülləyə basacaqlar səni, yazıqsan...

O, gülümsəyib bir anlığa dayandı. “Düzdür, vaxtilə məni bu dərədəcə gülləyə basıb ağır yaralayıblar. Bu günəcən də altını çəkirəm. Amma ta

gecdir. Mən o adamam ta, o adam!..” Aşağıda – həmin evin yaxınlığında on-on iki yaşlarında bir qızcığaz ağlaya-ağlaya ona əl eləyirdi.

Qızı görüncə, içindən ildırım kimi bir hiss adladı: “Gövhər!.. Gövhər də o vaxt bu qızcığaz yaşdaymış, yəqin...”

Ulu nənəsi Yavərin Münəvvər adlı bir bacısı varmış. Onun başına gələnlər barədə nəslindəki adamların bir-birinə ötürdükləri bir göz qırpımında boy verdi içindən. Bu günəcən gəlib çıxmış və yaddaşlara həkk olmuş o faciənin canında necə diri olduğunu duydu. “Hə, mən o adamam elə...” Münəvvərin ermənilər tərəfindən 1918-ci ildə diri-diri yandırılmış qızı, ayaqlarının ikisi də anadangəlmə şil-şikəst olan Gövhərin faciəsi oyandı yaddaşında. Budur, həyətlərindəcə atasını, qardaşını güllələyirlər, evlərini yandırır, şikəst qızcığazı diri-diri atırlar alovun içinə. Namusu ucbatından köhnə, uçuq pəyədə dişlərini dodaqlarına, dırnaqlarını ovuclarına keçirib zahirən titrəyə-titrəyə susan, öz içində isə için-için hayqırıb-zarıyan Münəvvər, balaca nəfəslikdən baxıb gördüklərindən necə havalanırsa, elə bilir uşağın çığırtısı çiliklənDikcə yenicə tumurcuqlamış yaz budaqlarından yarpaq-yarpaq asılır, ağaclardan qanlı hıçqırtı damır... O qırğında ruhən ölüb, cismən sağ qalan havalı Münəvvər ömrünün sonunacan hər il ağaclar tumurcuqlayanda gedib budaqları öpüb-yalayır ki, bəs, “bunlardan balamın çilik-çilik olmuş səsi damır, eşidirəm nə dediyini...” Ağaclar yarpaqlayanda, “ürəyimin işığı balam... can... can...” deyə-deyə onları üzünə sürtür... Payızda da xəzəlləri xışmalayıb basır bağrına, hönkürür ki, “Gövhər!... Gövhər!... Səsinə qurban... Niyə səsin xışıldayır belə? Soyuqlamısan?..”

İndi bunları içində çözdükcənə baş verdiyini ağlıyla deyil, ruhuyla ölçüb-biçirdi, qarşıda yüz yerdən atəş açılmış olacaqdısa da, özünə heç bir təhlükə görmürdü, odur ki, toparlanıb yoluna davam etdi. Gedərəkdə balaca qıza sarı qanrılıb əl elədi, “mən o güllənin qabağına çıxıb susdurmasam, sənə dəyə bilər, cubbulu, sənə... Qarabağda ağaclar doludu Gövhərin çiliklənmiş səsiylə... Bütün meşələrdən onun səsi gəlir. O, hələ də hıçqırır: “Əmi! Əmican! Qurtar məni bu zülümdən!.. Təkcə məni yox, ağacları, çiçəkləri, uşaqları... Səsimdən anamın ürəyi şırım-şırımdı, əmican, şırım-şırım. Unutma!..”

İçində çırpınanların yaratdığı burulğan onu kövrəlməyə qoymadı, qulaqlarında uğultu qoparıb, bəbəklərinə göz yaşı əvəzinə İşıq doldurdu, addımlarını yeyinlətdi, sürətini bir az da artırıb, uşağa bir də əl elədi.

Qızcığaz da artıq ağlamırdı – gülümsəyirdi.

Baxdı, baxdı, onun da dodağı qaçdı...

Bu da gədiyin o üzü. Torpaq yolun üst tərəfində qocaman qarağacların sıxlığından sonra kolluq başladığını görəndə fikirləşdi ki, azca qalıb, onu gözləyənlər yaxınlıqdakı sısqa bulağın yanındakı tənha qarağacın altında olmalıdır. Amma sakitlik idi. Heç bir səs-küy eşidilmirdi.

Yaxşı bilirdi ki, oradakıların hamısını otuzduracaq yerinə. Onların heç biri – cübbəli də, xaçlı da, təsəkli də, şlyapalı da dediklərinə dözüm gətirə

bilməyəcək. İçinin tufanı Gövhərin çiliklənmiş səsinə bürüyəcək onları. Ovxarlana-ovxarlana ülgüc tiyəsinə dönən o səs didik-didik edəcək günah yiyələrinin ruhunu. Sısqa bulaq da suyunu içinə çəkib susacaq o dəm. Hansının əli qana batıbsa, vəziyyətdən çıxmaqdan ötrü, əlli dona girəcək, axırda da məsumların, günahsızların qanınısürtməyə yer tapmayacaq, məcbur olub əlini öz üzünə çəkəcək, etiraf edəcək hər şeyi. Xeyri olmayacaq amma, aşağılarda ağlaya-ağlaya əl yelləyən o balaca qızın hənirtisi, Gövhərin çiliklənmiş səsi elə bir xəritə cızır ki, ondan qırağa çıxanın sonu uçurumların dibində çatacaq. Bir də budaqlar... Gövhərin hıçqırtılı səsi suvanmış, Münəvvərin öpüb-oxşadığı tumurcuqlu budaqlar və onlardan hələ də damcılayan qan... Nə söz tapa bilərlər axı? Nə cavab verə bilərlər?..

– Salam, Dərgahlar Sahibi!..

Onlar İşığa yaxınlaşıb diz üstə çökdülər. İşığın bürcləri üstündən amiranə səs eşidildi:

– Mən Dərgahlar Sahibi deyiləm, Qiyamət Qazisiyəm! Salam olsun!..

Hamısı susmuşdu. Heç biri, heç biri Söz tapıb danışa bilmirdi... Gözgörəsi Söz çox aciz duruma düşmüşdü. Birindən ilmə-ilmə qopmağa gücü çatmayan kəlmələr o birində quruyub puçur-puçur ovxalanır, digərindən toz kimi sovrulub heçliyə qovuşurdu...

O, əlini yellədi: “Budurmu sizə təlqin olunanlar? Beş addımlığınızda kəsilən başlar, yaxılan evlər, yandırılan körpələr nədən tərpətmədi sizi?.. Beləmi buyurulmuşdu sizə?.. Nələr olacağını bilirsizmi heç? Bilirsizmi qan qurşağa çıxanda Haqqın qapıları üzünüzə necə çırpılacaq? Bulama kimi bulayıb, qayğanaq kimi nə qədər çalıb-çalxalasanız da, Sözünüzlə Əməliniz heç vaxt bir-birinə qarışmayacaq, heç vaxt urvata minməyəcək, heç vaxt! Çünki saxtalığınız nəhayətsizdi!..”

O, Sözünü bitirib İşığın bürcləri arasından dikəldi.

Dördü də səcdəyə getdiyi yerdə üzüqoyulu düşüb qalmışdı. Bir-bir arxası üstə çevirib dördünün də sinəsini çərtdi. Amma tələsmədən. Cübbəlinin içindən perikmiş bir quş uçub getdi, ardınca da kəsif saman qoxusu gəldi; təsəklinin içi isə caynaqlarını harasa ilişdirib başıaşağı sallanmış yarasalarla doluydu, həm də çürümüş payız yarpağı qoxuyurdu; şlyapalının çərtilmiş cismindən gələn hənirtini anlamaq olmurdu, döş qəfəsinin altından yaxşılı-yamanlı hər cür qoxu dikəlirdi; xaçlını çərtincə, bulanıq ab-havayla eyni anda, qatmaqarışıq halda ətyeyən quşların və heyvanların səsi onu necə vurdusa, başı gicəlləndi... Onun əlçim-əlçim tük sallanan qıllı sinəsindən gözünü çəkmədən soruşdu: “Sən kimsən? Sən nə millətisən?” Qarşısındakı əvvəlcə susub cavab vermədi, qəribə tərzdə gülümsünüb gözlərini qıydı, sonra çox astadan pıçıldadı: “Özün bilirsən ki, Vazgenəm. Nə milləti olduğumu da yaxşı bilirsən”. O isə başını yırğaladı: “Bu vaxtacan çoxsinələr çərtmişəm... müsəlman, bütpərəst, xaçpərəst sinəsi... Əksəriyyətidə gül kimi olub. Heç kimin içi bu gündə olmayıb...” – “Mənimki deyil, qonşunundu.” – “Nə? İçalatını deyirəm eey...”

– "Hə, onlar... o köçərilər təkcə torpaqlarımızı yox, içalatımızı da oğurlayıblar, əvəzində özlərininkini sırıyıblar bizə, məcbur olub onlarınkını daşıyırıq. Ya Dərgahlar Sahibi!..

İşıqlı surət onun sözünü kəsdi:

– Dedim axı, Dərgahlar sahibi yox, Qiyamət Qazisi...

– Hə, qoy elə olsun, – xaçlı səsinin tonunu dəyişmədən bildirdi. – Amma mənimçün Dərgahlar Sahibisiz! Narahat olmayın, gec-tez biz geri alacağıq hər şeyi, dənizdən-dənizəcən alacağıq, görəcəksiniz. Nə varsa, hamısını alacağıq. Çünki hamısı bizimdi. Alacağıq, and olsun sizə!"

– Necə axı?

– Onu artıq özümüz bilirik necə! Ya Dərgahlar Sahibi, yolunu yaxşı bilirik! – deyib bic-bic gözlərini qıydı.

O adam heç nə demədi, xaçı da, cübbəlidəki yaşıl parçaya bükülü kitabı da, şlyapalıdakı qaim-qədim dini toplunu da götürdü. Təsəklinin ovcunda sıxdığı, bardaş qurub oturmuş, əllərini cütləyib sinəsinə sıxmış balaca qadın fiquruna oxşayan inanclığıda üsulluca əlindən aldı. Ardınca da hər birinin çərtilmiş sinəsinə təzəcə tumurcuqlamış qarağac budağından əl boyda kəsibqoydu:

– Heç biriniz bu budaqlara bələnmiş çilik-çilik olmuş səsi eşitmirsiniz, o səsdən nə damdığını görmürsünüz. Ona görə də içiniz bu gündədir. Di gedin, dözün görüm, necə dözüb yaşayacaqsınız!

Arxasını çevirib getməyə başladı. İşığın bürcləri araya elə bir sədd çəkdi ki, hər şey görünməz oldu. Geri qayıdıb gədiyin o üzünə aşdı, yamacdan üzüaşağı baxdı. Damdakı ustalar gözə dəymirdi. Qızcığaz da görünmürdü. Çiliklənmiş səslərdən öz içinin də şırım-şırım olduğunu duydu. Var gücüylə öz sinəsini də çərtdi. Əllərini salıb döş qəfəsini aralamağıyla aləmi işıq və quş civiltiləri bürüdü, çiçək ətri, torpağın bihuşdar nəfəsi bir anda yerə-göyə sığal çəkdi. Elə o anda da əlindən kimsə yapışdı. Əlindəkilər yerə düşdü. Yorğun-arğın bir səs eşidildi:

– Hə, Qismət, ölüb suların dibinə getmək arzusundayam, meduzaya çevrilmək istəyirəm, meduzaya. O adam da belə məsləhət görüb.

Bayaqdan nə baş verdiyini düşünməyə vaxtı qalmamışdı, odur ki özünü toparlayıb astadan pıçıldadı:

– Darıxma, Əkrəm, səbrli ol. Sənin suların dibində nə işin? Gün gələr... gələr o adam. Onda ölmək də çıxar yadından, suların dibinə enmək də, meduzaya dönmək də. Gələr, gələr o adam, darıxma...

## *12.*

Rəfailin divara söykəyib danladığı adamı Qismət tanımadı, əvvəlcə onu rəhmətlik cəbhə yoldaşı Alikə oxşatdı, amma qəti bir qərara gələ bilmədi. Kirimişcə bir qırağa çəkilib baş verənləri izləməyə başladı, çünki Rəfail özü belə istəmişdi, "qarışma!" demişdi. O an Rəfailin canında elə bil bir mövlanəlik baş qaldırmışdı. Elə şeylər danışırdı ki...

– Ölümü çıxarmışam canımdan. O mənə aid deyil! – deyirdi Rəfail.

O, danışdıqca qarşısındakı başını aşağı salıb qımışa-qımışa ayaqqabısının burnuyla asta-asta yeri eşirdi. – Nə qaralamısan məni? Ölüm mənə aid deyil, başa düşürsən? – Hayqırırdı Rəfail. – O mənim əynimə gəlməz heç vaxt. Çünki haqq yolundayam. Bəlkə səninçün şirniyə daraşmış qarışqa-zadam? – Bunu niyə dedi, heç özü də bilmədi. – Bir də, unutma, Ölüm haqq yolunda olan adamın içindəkilərə dözə bilmir ee, qardaş, tərk eləyir onu. Yəni yadında qalsın, qara ciyərimi qara günə qoysam da, mən ölməyəcəm!!!

Divara söykənmiş adam gülümsəyib, Rəfaildən bir siqaret istədi, çox qəribədir ki, öz-özünə pıçıldadı: “Bu, Rəfail-filan deyil! Bu, elə o adamdır!” Siqareti yandırdı, bir-iki qullab vurub: “Yox eey, deyəsən, o deyil axı... çox qarmaqarışıq danışır, çox qarmaqarışıq... O adam olsaydı, açıq deyərdi hər şeyi.” Ardınca da fikrini dəyişdi, yenə dodağı qaçdı, mızıldandı:

– Pənahdan sonra, budeey, bax, bu dostun Qismət də, şərikin, can-ciyərin Əkrəm də səfərdədi... Xəbərin yoxdu guya? Onlar gedən səmtə yola düşdüyünə görə niyə qorxursan? Bəs sən ərkan sahibi deyilsən? Ərkan yiyəsi deyilsən sən? Niyə qorxursan, axı? Qorxma! Ölüm sənin kimi adamları çox istəyir, diz çöküb əlini duz kimi yalayacaq, mütləq...

Yenə qımışdı, söykəndiyi divardan aralanıb, qəfil cibindən çıxardığı ülgüclə “uf” demədən əvvəlcə öz sinəsini, sonra da eşitdiklərilə barış-mayan Rəfailin köksünü bir göz qırpımında çərtdi. Püskürən işıqqarışıq misilsiz qoxudan Qismətin gözləri qamaşıb başı gicəlləndi, bihuş olubmuş kimi, gözlərini qapadı. Yadına yandırılmış ana-balanın külünün sovruğu, quyunun dibində üstünə tökülən saysız-hesabsız parabüzən böcəklərinin ölüsü düşdü. “Deməli, belə... Deməli, belə... Sən kimsən, kimsən axı?”

Nə soruşmağa bir kimsə, nə də deməyə Söz qalmışdı. O, qarmaqarışıq yaşantıların çözümsüzlüyü ilə barışırmış kimi, susub məyus oldu. Yollar ayrıcında yalqızca dayanıb çarəsizliyə əsir düşdüyünü anladı. Başa düşdü ki, ömrü məsum bir çocuğun divara kömürlə yazmış olduğu və kiminsə qəddarcasına pozduğu bircə kəlmə sözün qaraltısına oxşayır. Anladı ki, artıq onu heç cürə oxuyub dərk eləmək mümkün deyil... Rəfailin gözlərinə baxıb nə düşündüyünü bilmək istədi. Amma həmin an Rəfailin göz qapaqlarını yaşlı bir tibb bacısının soyuqqanlıqla qapadığını gördü...

## 13.

Əlbəttə, Rəfail ərkan sahibiydi. Olmasaydı, o naməlum varlığa həmin cavabları verə bilərdimi? Yəqin ki, yox.

...1989-cu il. 3 sentyabr. Günorta çağı. Ona elə gəlirdi ki, dünyada canlı, cansız – nə varsa, bu dəqiqələrdə kamanda dartılan ox kimi öz hədəfini gözləyir.

Ağdam şəhər qəbiristanlığının yanı. Xocalıya yol buradan gedir. “Əs-gərandan keçəndə ermənilər bizi gülləbaran edəcək!” – deyən ZİL-130

sürücüsü avtomobili oradaca saxlayıb getməmək üçün direniş göstərir. Rəfaillə Gülalı müəllimi buraya yaşadıqları rayondakı bir xalçaçılıq sexinin müdiri xahiş edərək göndərib. Buraya həm də vətənpərvərlik hissi, içlərini od kimi, işıq kimi bürümüş millət sevgisi gətirib onları. Onlar kisə-kisə, yeşik-yeşik ərzağı – unu, yağı, düyünü, qəndi, çayı... və sair məhsulları neçə-neçə erməni kəndinin mühasirəsində gözü yollarda qalmış Xocalıya çatdırmalıdırlar bu maşınla. Gətirdikləri məhsulları böyük ürəkli sex müdiri öz cibinin puluyla alıb, bu vətənpərvər insanların vasitəsilə xeyir-dua verib yola salıb. Sürücüyə isə, necə deyərlər, bir ətək pul ödəyib. İndi o, getmək istəmir, dirənib durub. “Mənim balalarım var! Canımı çöldən tapmamışam!” – deyir. Və... Rəfailin şilləsi onun qulağının dibində güllə kimi açılır... Çox-çox sonralar Rəfail zarafatla deyirdi ki, Qarabağda atdığım ilk güllə bişərəf şofer Bağırın qulağının dibində açılan şilləm olub.

Onlar təzədən QAZ-52 markalı bir yük maşını tuturlar. Ərzağı ona yükləyirlər. Amma sürücülər sonuncu kisələri bir maşından o birinə yükləyəndə, yerli adamlardan kimsə ağsaqqal Gülalı müəllimə yaxınlaşıb sakitcə pıçıldayır:

– Səfəriniz haradı?

– Xocalıya.

– Bəs qorxmursuz?

– Nəydən?

– Nəydən yox, kimdən... QAZ-52-nin sürücüsündən.

– Noolub ki?

– Heç, elə-belə... Bir söz idi, dedim...

O adam dedi və başını bulayıb getdi. Gülalı müəllimin içinə səpilən şübhə toxumu bütün ovqatını qarışdırdı. Özü türmə görmüş adam idi. Vaxtilə, bir iclasda cavab qaytardığına görə raykom katibi şərləyib tutdurmuşdu onu. Katib o rayonu tərk edəndən sonra haqq yerini almış, Gülalı müəllim ora-bura xeyli şikayət ərizəsi yazaraq bəraət qazanıb azadlığa çıxmışdı. Yəni, ayıq adam idi, dünyanın altını-üstünü pis bilmirdi. O, Rəfaili kənara çəkib vəziyyəti anlatdı. Ancaq artıq gec idi, yükləri təzə tutduqları maşına doldurub qurtarmışdılar. Sürücü sükan arxasına keçib gözləyirdi, yola düşmək lazım idi və düşdülər də. Kabinədə Gülalı müəllim ortada, Rəfail qıraqda oturmuşdu. O, hərdən gözaltı sürücünü süzür, həyəcanlı olduğunu anlayırdı. Bir də ki, bu adam ağzını açıb bir kəlmə də danışmırdı, bəs deyincə qaraqabaq idi. Əsgəran qalasının girişindən adlayıb içəri keçəndə, Gülalı müəllim yüngülcə köksünü ötürdü. Yolun qırağında ermənilər bir neçə yerdə topa-topa dayanıb söhbət edirdilər. Sürücünün maşını yavaşıtdığını hiss eləyincə Gülalı müəllim yenə dərindən bir nəfəs aldı. Rəfail dərhal ucadan dedi:

– Gülalı müəllim, qətiyyən narahat olma! Görürsən əlim pencəyimin cibində, barmağım tapançanın tətiyindədi. Gözüm dörddü, qorxma! Yüngülcə hiss eləsəm ki, iş fırıqdı, atacam! Əlini dəbərdənin kəlləsindən atacam! Təpəsindən vuracam, and olsun! Qəti fikir eləmə!

Rəfailin cibində nəinki tapança, heç kibrit qutusu da yox idi, amma bu sözləri elə dedi ki, guya yolun qırağında topa-topa dayanıb söhbət eləyən, keçib gedən maşınlara marıdıb duran erməniləri nəzərdə tutur və nəsə baş versə, onları bu dəqiqə, bir göz qırpımında o dünyalıq eləyəcək.

Gülalı müəllim isə Rəfailin sürücüyə işarə etdiyini başa düşüb, arxayınçılıqla fikrini bildirdi:

– Yox, niyə narahat oluram ki? Sənə arxayın olmasaydım, heç yola çıxardım?

Sürücünün rəngi avazıdı, sürəti yenidən artırdı.

...Əlbəttə, Rəfail ərkan sahibiydi, əlbəttə. Elə o zaman da, o çılğın gənclik illərində də...

Xankəndinə gedən yoldan sağa dönüb Xocalıya girdikdə səngərdən qalxanların arasında əli tüfəngli iki qadın da gördülər. Gülalı müəllim dözə bilməyib gözlərindən ixtiyarsız yaş axıtdı: "Hələ biz millətimizi yaxşı tanımırıq... yaxşı tanımırıq millətimizi..." Dönüb Rəfailin üzünə baxdı. Rəfail özündən xəbərsiz aşağını, yuxarını, yeri, göyü söyüb yamanlayırdı, əsəbindən maşının cihaz panelinə bir yumruq da ilişdirdi, qiyamkar tavrıyla bozardı, sürücü isə susub, mısmırığını sallamışdı.

"...Hardasan, ay adam, hardasan? Ürəyimiz yağır oldu səni gözləmək-dən..." – bu suala axtardığı cavab əvəzinə Rəfailin göz qapaqlarını soyuqqanlıqla örtən yaşlı tibb bacısının barmaqları Qismətin kirpikləri önündə göründü. Onunsa dilindən: "Axı niyə? Tez deyilmi?" – kəlmələri qopdu. Elə o andaca bütün vücudunu tanış bir gizilti bürüdü. Heç kimdən cavab gözləmədən özü özünə: "– Deməli, belə... Deməli, belə... – pıçıldadı, – sən kimsən, kimsən axı?"

Yenidən özünü qaranlıq quyunun dibində, üstünə yağış kimi yağan parabüzənlərin ölüsünün altında, yandırılmış ana-balanın külü içində gördü, özü də bilmədən pıçıldadı:

" – Necə yəni kimsən? Heç kim..."

## 14.

Dünya öz işindəydi.

Gülalı müəllim həyatın hər üzünü görmüş kişiydi. Bilirdi ki, insan öz içinin zülmətlərini arındıra bilməyəndə, ağlına gələni edir. Kimsə kiməsə aşiq olur, kimsə kiminsə güzəranını qısqanır, kimsə kiminsə bəxtini daramaqla məşğul olur, kimsə də... kimsə də kiminsə torpağına göz dikir – özü də misgincəsinə, həyasızcasına.

O, həm də bir müəllim kimi bilirdi ki, gəncliyi düz yola yönəltmək lazımdır. Onlara ağın – ağ, qaranın – qara olduğunu dəqiq başa salmaq gərəkdir. Yoxsa torpaq da əldən gedəcək, namus da, qeyrət də.

* * *

Onları gülər üzlə qarşılayan Xocalı həmkarlar təşkilatının sədri Şamilə çox tez isinişdilər, malları boşaldıb xeyli söhbət etdilər. Onun da birinci sözü bu oldu ki, “bu sürücünü hardan tapıb gətirmisiniz? Bəs, arvadı ermənidir, özü də onlara işverənliklə məşğuldur”. Gülalı müəllim geriyə dönməyə başqa maşın olub-olmayacağını soruşdu. “Düzələr” cavabını alandan sonra sürücünün parasını verib yola saldılar. Rəfail maşının nömrəsini cib dəftərinə qeyd elədi: 50-74 AQT. Həmkarların sədri bunu görüb sürücünün adını da dedi, Rəfail onu da yazdı: Mustafayev İsrafil. Söhbət edə-edə bir qədər Xocalını gəzdilər. Türkiyəli iş adamlarının yaratdığı, hər yandan baxanda görünən toxuculuq fabrikini – göy rəngli modulu seyr edib sevindilər. Qədim qəbiristanlıqdakı günbəzinin kərpicləri uçub dağılmaqda olan yaşıbilinməz bir məqbərəni görüb heyrət etdilər. Ardınca da adına aeroport deyilən bir şülək asfalt yolu və qırağındakı balaca, yosma tikilini gözdən keçirdilər. Şamil istiqanlı adam idi. Camaatın hazırkı ovqatından, iyirmi yeddi erməni kəndinin mühasirəsində olmaqlarından, insanların düşdükləri durumdan ürək yanğısıyla danışırdı:

– İki gün bundan qabaq gecənin bir vaxtı yuxudan qalxıb gördüm ki, beş yaşlı oğlum Səxavət yatağında yoxdu. Elə bil, ildırım vurdu məni. Üzr istəyirəm, heç anasını da oyatmadım ki, havalanar. Başladım axtarmağa. Nə başınızı ağrıdım, uşağı harda tapsam yaxşıdı? Həyətdə, küçə qapısının yanında, quru torpaqdaca oturub divara söykəndiyi yerdə. Taxtadan düzəltdiyi “avtomatı” da qucağında, özü də yatmış halda... Oyadıb soruşuram ki, bəs burda neyləyirsən? Deyir, burda oturmuşam ki, ermənilər evimizə soxulub bizi öldürməsin...

Gülalı müəllim əllərini üzünə qapayıb hönkürdü. Rəfailin dili-dodağı əsdi. Şamilin isə, boğulurmuş kimi, səsi kirəcləndi, kövrəlib susdu.

Deyəsən, hər biri özlüyündə bir daha dərk elədi ki, bu işlərin sonu heç də yaxşı görünmür. Çünki neyləsən də, necə vurub-toplasan da, bu işlərin sonundan qan iyi gəlirdi. Kim bilir, bəlkə də o gecə əlində taxta avtomat olan o körpənin simasında ilahidən dəhşətli və ağır mesajlar ötürüldüyünü heç kim anlaya bilməyəcəkdi. Bu dərd haqqın gözlərinə namərdcəsinə tökülmüş qaynar qurğuşun ərintisiydi, düzü-dünyanı kor qoyub qaranlığa qərq eləmiş və elə bir dövr gətirmişdi ki, nələr baş verdiyini həqiqətdə görməyə hər kəs aciz idi. Rəfail isə geri qayıdarkən yol boyunca gözləri önünə film kimi şeylər gətirir, gələcəkdə nələr ola biləcəyini düşünür, fikirləşirdi. Onları Ağdama aparmaq üçün Xocalı rəhbərliyinin təşkil etdiyi QAZ-69-u artıq vilayətdə xeyli vaxtdır ki, tətbiq olunmuş hərbi vəziyyətin bu işlərə məsul olan bir rus əsilli zabitilə əsgəri zirehli maşınla müşayiət edirdi. Əsgərandan keçəndə bu dəfə də yolun qırağında topa-topa yığılıb söhbətləşən ermənilərin onlara necə kinlə marıtdıqlarını görən Gülalı müəllim özünü saxlaya bilməyib ixtiyarsız söyüş söydü, tez də sürücüdən və Rəfaildən üzr istədi.

Xocalıdan Ağdama, ordan da öz yaşadıqları rayona hərəsi ürəyində çəkilməsi mümkün olmayan dərd deyil, sanki əzablı bir daş yükü apardı.

Üstündən çox keçmədi, Gülalı müəllim o ağrı-acını özüylə götürüb rəhmətə getdi. Bir neçə il sonra isə, çox sevdiyi atasının belə sözünə baxmayan Rəfail könüllülərə qoşulub o yükü dağıtmaq arzusuyla Qarabağ savaşına yollandı.

Bir gözü gülüb bir gözü ağlayan dünya isə, necə var, eləcə öz işindəydi. Əslində, hər iki gözü yaş tökürdü. İşıq deyilən şey ancaq adamların içində eşələnir, elə bir tozanaq qoparırdı ki, nəyin necə olacağını öncədən görməyə heç kimin gücü çatmırdı...

## 15.

Validə pul toplayandan sonra Rusyətə getmədi. Çünki artıq orada yaxın adamı qalmamışdı. Özünə maşın aldı. Elə bil dünyaya təzədən göz açdı. Sükan arxasına keçib, qapını ki örtürdü, elə bilirdi ayrı bir aləmə düşür. Bir özü qalırdı, bir də içindən keçirdikləri. İmkanı olsaydı, sürüb bu dünyadan başqa aləmlərə gedərdi. Amma neyləsin axı? Qırmızı işığa dönüb qarşısını kəsən çox maneə vardı ki, yerini heç cürə yaşıla vermirdi. Dostlarının hamısını bircə-bircə itirmişdi. Ayrı-ayrı yerlərdə də olsa, indi vaxt tapan kimi onların məzarlarını ziyarət edirdi. Hamısının da üstündə göz yaşı axıdır, sinə daşlarına qərənfillər düzürdü. Amma ölümlərinə inanmırdı, “ola bilməz, – deyirdi, – bunlar hamısı nağıldı, nağıldı...”

O gecə gözünə yuxu getmirdi. Mürgü içində xatırlayırdı ki, səhər Qismətlə zəngləşib görüşməlidi. Birlikdə Rəfailin qəbrini ziyarətə getməlidilər. Yataqda çox eşələndi, xeyri olmadı. İşığı yandırıb güzgüyə baxdı, bezmiş kimi üzünü yana çevirdi, özü demişkən: qibləyə sarı. Gözü divardakı şəklinə sataşdı. Özünə xitabən: “Səni heç sevə bilmədim... heç xoşum gəlmədi səndən...” – deyib təzədən yatağa sərələndi. Səhərə yaxın maşınının siren siqnalı çalmağa başladı, hövlnak yerindən qalxıb həyətə düşdü. Pultun düyməsini basıb siqnalı dayandırdı. “Kim toxunub axı buna?” Maşının qabaq şüşəsinə bir kağız yapışdırıldığını gördü. Tezcənə götürüb orda yazılanları oxudu: “...Gözəl, saf, əvəzsiz insan olduğuna şübhə etmə. Etdinsə – heç nəmənə... Demək, öz qətlinə fərman verdin. Heç vaxt yalqızam söyləmə, ən azından, gecələr öz şəklini öpüb, dünyanın son dərəcə xoşbəxt bir insanı kimi rahatca uyuya bilərsən. Baxma ki o şəkildən qan damır...”

Heç nə başa düşmədi. Evə dönüb divardakı şəklinə baxdı. Oradan qan-filan dammırdı. Kağızı masanın üstünə atıb yatağa uzandı. Səhər gözünü açanda birinci baxdığı elə şəkli oldu. Yenə qan görmədi. Kağız isə masanın üstündə yox idi... Dönüb şəkilə lap yaxından baxdı – vardı... Şəkildən daman qan qupquru qurumuşdu. Üşəndi. Amma yenə inanmadı, qaldı şübhə içində...

* * *

Qismət avtobusda oturub yol getməyi xoşlamırdı. İçəridə seyrəklik olsa da, yenə ayaq üstəydi. Qarşısındakı oturacaqda bir qoca gözlərini qapamışdı. Mürgüləyə-mürgüləyə, bəlkə də yeraltı "villasını" yumulu gözləri önünə gətirib gülümsəyirdi. Amma qocanın üzündəki, alnındakı içi işıqla dolu şırımlar yerüstü dünyadakı daxmasının daman damından, çökən tavanından, tökülmüş suvağından xəbər verirdi.

“Bu adam necə də xoşbəxt görünür, İlahi!.. Həyat budur, bax, budur, Qismət!.. Döyüşdün... Kiminin qəlbində taxt-tac qurdun, kiminin də gözündən düşdün. Ömrün isə su kimi axır, lap su kimi. Sən ha onun yolunun lilini, palçığını təmizlə, ha gülə-çiçəyə sarı yönəlt, sonra da otur gözlə ki, axırda necə olacaq, nə baş verəcək... Heç olmasa, heç nə etmədən bax, bu qoca kimi üzünə haçansa gülüş qonacağını düşün hərdən, özünü xoşbəxt hiss eləməsən də, düşün...”

O, bu qarmaqarışıq fikirlər içində mənzil başına yetdi. Qabaqcadan təyin etdikləri görüş yerində Validəni çox gözlədi. Ona nə qədər zəng etsə də, cavab ala bilmədi, dilxor oldu. Bir xeyli düşünüb hər şeyi götür-qoy elədi. “Yox... alınmır nəsə... başqa vaxt görüşərəm” – deyib qarşısına çıxan zirzəmilərdən birindəki bara girib bir parç pivə sifariş elədi ki, vaxtını öldürsün. Hər ehtimala qarşı on dəqiqədən bir zəng etsə də, yenə cavab ala bilmədi. Dalbadal bir neçə parç da pivə içdi. Kafenin alaqaranlıq zalının o başında gitara çalıb lap Vısotski kimi oxuyan bir nəfər oturmuşdu. O adam Qismətin fikri-xəyalını ayrı səmtə yönəldirdi... Hər dəfə o səs gurultuyla zirzəminin boğuq ab-havasında çabalayanda Qismətin ruhu uzaqlara gedirdi:

– Exx, limonçiki!  
Vı moi limonçiki!..  
Qde vı rastyote?  
– U suki na balkonçike...

O, Bakıda darıxırdı. Adətən belə bir ovqatdan qurtulmaq üçün bu şəhərə gələndə, imkan tapan kimi bara, kafeyə girir, bir az boğazını yaşlayıb halını düzəldirdi. İndi də elə oldu. Qismət burada özünü o qədər sərbəst hiss edirdi ki, az qala, Qara nohurun kənarında oturub tilovunu suya atmış kimi bir durumdaydı. Qarmağına isə yaddaşında çırpınıb-çabalayan köhnə xatirələr düşmüşdü...

...O, döyüşə atıldığı ilk vaxtları, Sırxavənd dərəsindən üzü yuxarılaracan gedib çıxdığı günləri içində ələk-fələk eləyirdi. Döyüşçü dostlarıyla Vəng qəsəbəsilə üzbəüzdəki qədim Gəncəsər alban məbədinə az qalmış, aldığı güllə yarasından sonra gözləri göyə dirənəndə, başı üstündə uçuşanların adi quşlarmı, mələklərmi olduğunu günü bu günəcən də anlaya bilmirdi. Sonralar Pənah ona: “Qismət, gözünü göydən çəkmədən elə gülümsəyirdin ki, hamımız dəhşətə gəlmişdik, – deyirdi. – Bilmirdik rezinə burağac verib budundan tökülən qanı kəsək, yoxsa

havalanmağına heyifsilənək...” İndi hamısını xatırlayırdı. Döyüş yoldaşı Mirzənin Kiçan kəndi yaxınlığında qucağında necə can verməsi, Gəncə qiyamından sonra geri dönmək əmri alınca, hirsindən silahını daşa çırpıb necə sındırması və uşaq kimi hönkür-hönkür necə ağlaması heç çıxmırdı yadından. Bax, onda həmin quşların, mələklərin ölü-ölü göydən necə tökülüşdüyünü də indi gətirirdi gözü önünə, “Ay Allah, onları qırma, heç olmasa, qırma onları!” qışqırıb əllərini qaldıraraq üzü yuxarılara, boşluqlara sarı yalvaranda, Pənahın: “Bəsdir, Qismət, bəsdir! Dəli olacaqsan axırda...” – deyib onu ovundurmağa necə çalışması da yadına düşdükcə yarasının közü qopurdu. Xatirindədir ki, üstündən neçə illər sonra Pənahla ona “İgidliyə görə” medalı və “Oka” maşını veriləndə, cəbhədə itirdiyi dostlarını xatırlayıb, kövrələrək necə ağlamışdı. Pənah əlini onun çiyninə qoyub: “Darıxma Qismət, hələ gör nələr olacaq...” deyəndə, qucaqlayıb onu bağrına basmışdı və “nələr olacağını” o da gözləyə-gözləyə qalmışdı. Ömür-gün isə sürət götürüb dabanəllialtı şütüməyindəydi, başı üstündə də yenə həminki quşlar, mələklər...

...Bardan çıxanda, artıq gecəydi. Bir taksiyə əl elədi. Orta yaşlı, qaşqabaqlı sürücü:

– Kuda? – soruşdu.

Qismət bayaqdan yaddaşında perikdirdiklərinin qanadındaca, deyəsən, qəfil Bakıdan Moskvaya uçub, ömrünün bir üzündən o biri üzünə çırpıldı və dərhal da öz-özünə: “Qəzan mübarək!” pıçıldayıb ayıldı, harda olduğunu indi dərk eləyib sifarişini verdi:

– V Balaşixu...

## *16.*

Taksidə bir də özünə: “Qəzan mübarək!” pıçıldadı və hökumətin onlara verdiyi “İgidliyə görə” medalıyla “Oka” avtomobilini Pənahla birlikdə “yuduqları” gün yadına düşdü. Pənahgilin həyətində oturub vururdular. Möhkəm keflənmişdilər. Pənah qayıtdı ki, bəs “biz boyda əjdahalara bu balacalıqda maşını niyə veriblər? Bu, maşın deyil ee, qardaş, çömbəlib oturmuş uşaqdı elə bil. Yoxsa, belindən atdanıb “Ənzəli” oynayacağıq?” Qismətin uşaqlıqdakı kimi ibnəsi tutdu: “Pənah, – dedi, – qağa, heç sən onun belindən atdana bilərsən?” O da, eləmə tənbəllik, öz boy-buxununa arxayınmış kimi yüyürüb həyətdə maşının belindən atılmaq istəyəndə, alınmadı və şappıltıyla dəydi yerə... Qisməti gic bir gülmək tutdu, gəlib dostunu ayağa qaldırmaq istəyəndə, Pənah vaysına-vaysına ombasını ovuşdurdu və gülümsünüb güclə eşidiləcək bir səslə öz-özünə söyləndi: “Qəzan mübarək, qazi Pənah, qəzan mübarək, başıboş adam! Sənin Qiyamət Qaziliyin buracanmış elə!..”

Bu zaman taksidə Qisməti gic bir gülmək tutdu. Sürücü güzgüdə təəccüblə onu süzdü. Deyəsən, qazi özünə gəldi və icazə alıb bir siqaret yandırdı, ixtiyarsız: “ ay gidi dünya!..” – pıçıldadı. Bu dəfə sürücünün onu

yenidən güzgüdə süzməsi heç vecinə də gəlmədi, bərkdən: “gidi yox ee, oğraş dünyadı!” – dedi. Təbii ki, sürücü heç nə başa düşmədi, əlini yelləyib, gözünü güzgüdən çəkdi, sürəti artırdı.

...Baldırğanların qoxusundan az qalırdı başı gicəllənsin. Yaralı-yaralı sifətini torpağa söykəyib bütün bunların yuxu, ya gerçək olduğunu düşünürdü. Amma bir fikrə gələ bilmirdi. “Qoxu hara, yuxu hara? – deyirdi. – Yox, əgər bütün bunlar gerçəkdirsə, bəs mən ölməmişəm? Ölmüşəmsə, bu qoxunu necə duya bilərəm axı...” Özündən ixtiyarsız qoxunu qoxuya qarışdırırdı. Ölçülərinə görə, yekə bir klarnetə oxşayan əlindəki RPQ-7 tankvuran silahını qucaqlayıb ağzıqoyulu qalmışdı. Bir çiynindən Pənah, o birindən Alik adlı əsgər yoldaşı tutub, onu dərə boyu sürüyəndə “yox, hələ ölməmişəm, deyəsən” düşündü və ixtiyarsız gülümsündü: “əlvida, baldırğan qoxusu, görüşənədək...” düşündü və bütün ağrılara rəğmən içinə bir rahatlıq çökdü. Səhərisi günü özünə gələndə Ağdam xəstəxanasında olduğunu bildi, altı nəfər silahdaşının Canyatağ kəndi yaxınlığında şəhid olduğunu eşitdi... Yerindən tərpənə bilmədi və öz-özünə: “Qəzan mübarək!” – zarıdı.

...Qapını açıb yerə düşəndə, taksi sürücüsü onu bir anlığa saxlayıb, soruşdu:

– Şto takoe “kazan mubarak”?

Qismət diksinən kimi oldu, niyə bunu soruşduğunu sual edərkən, sürücü anlatdı ki, bayaqdan bəlkə əlli dəfə həmin sözləri təkrar etmisən.

Cavabında Qismət ona öz dilində: “fikir vermə” – dedi və pulunu ödəyib getdi.

Amma bu gen dünyada getməyə bir ünvan belə yox idi...

## *17.*

O adam kim idi axı? Sərkərdəydimi? Ya hökmdardımı? Ya yoldan keçən birisiydimi? Kim idi ki? Amma o adamı deyəsən, hər kəs öz düşündüyü kimi təsəvvür edib yolunu gözləyirdi. O isə, elə gün olmurdu ki, hər birinin içindən keçib getməsin, keçərəkdə içlərini silkələməsin, gülünü dərib, xəzəlini üfürməsin... Amma hamısı da deyirdi ki, o, gəlib çıxmaq bilmir.

Hamısı bir otağa yığışıb oturmuşdu. Pənah gözünün ucuyla səngər yoldaşlarına – gah Qismətə, gah da Əkrəmə baxıb qəribə bir qürurla köks ötürürdü. Rəfail də, Validə də buradaydı. Onların da ovqatı dəyişmişdi. Tamam başqa vəziyyətdəydilər. Dindarların dördü də lal-dinməz idi. Hər biri öz təbirincə zikr içindəydi.

“Hanı? Hanı bəs? Hanı oadam?” – demək olar ki, bu fikirlər sözlərin sonundakı sual işarələri kimi əyilib dəryaza, orağa dönüb hamısının içini biçib yaralamışdı. Giriftar olub qalmışdılar. Baxanda elə bilirdin çıxış yolları qalmayıb. Amma Pənah heç özünü sındırana oxşamırdı:

– O, mütləq gələcək! – pıçıldayırdı.

Qismət onu sakitcə süzüb başını yırğalayırdı:

– Mən də bilirəm mütləq gələcək. Amma burda hamının sinəsi çərtilib, hamının içi görünür... Səncə, o bura gələrmi? Darıxmaq lazım deyil, azca səbirli olaq...

– Səni başa düşürəm, Qismət, amma məsələ gərgindi... – Pənah özündən ixtiyarsız bu sözləri ucadan dedi. – Şəhid olan – silahdaşlarımız, qazi olan – bizlər, amma ümidimiz yenə o mübhəmədir. Görəsən niyə?

Qismət susdu.

Əlində yaşıl rəngli ipək parçaya bükülü kitab tutan, başı əmmaməli, əyni cübbəli adam qəribə tərzdə gülümsündü:

– Axı, niyə bu qədər narahatsınız?

Pənah bir xeyli saqqalını qaşıya-qaşıya onu süzdü, səsini bir az da qaldırdı:

– Bilirsən... Belə deyək də... məsələn, bir lampanı ki patronun içində burursan, burursan, dibinə dəyməyənəcən yanmır haa, bax, çox adamın da qafasına sözü nə qədər yeridib, hərləyib-fırlayırsan, kar eləmir, yəni dibinə dəydirməyənəcən, yanmır... yox, daha doğrusu, qanmır... Görəsən, biz haçan bir-birimizi bir baxışdan başa düşəcəyik, hə? Haçan bir-birimizi lazımınca qanacağıq? Bəlkə deyəsən, hə? Deyə bilərsən? Şahla piyadanı, vəzirlə atı bir-birinə cütləşdirib bir damanın içinə necə pərçimləyə bilərsən axı? Oyunun da bir qaydası olmalı deyilmi?

Cübbəli-əmmaməli pis vəziyyətə düşdü, qaşlarını düyünləyib baxışlarını yerə dikdi, yaşıl parçaya bükülmüş kitabı sinəsinə sıxdı, astadan pıçıldadı:

– Əuzu-billəhi minəş-şeytanir racim...

Pənah bir az səsini yavaşıtdı:

– O yaşıl parçaya bürüdüyün kitabın altından təkcə bizi yox ee, bütün Qarabağı keçirsən belə, yenə heç nə dəyişməyəcək. Hamınız birdəfəlik bilin bunu! O adam gəlməlidi, o adam!

Sonra da boğazı tıxaclandı, udquna-udquna kəkələdi:

– Yazıq canım... Yadınızda qalsın ki, hələ də öz ucbatımdan qırılmış qarışqaların bədəlini ödəyə bilmirəm...

Gözlər bərəldi. Sözlər öldü. Sükutun toyu başladı.

Birdən-birə içəridə çərtilmiş sinələrdən qalxan qoxular bir-birinə qarışdı. Üzlərin rəngi bir andaca avazıdı. Çəkilən ahlar, ötürülən köksləq heç cür anlaşılmayan ayrı bir ahəng, ayrı bir ritm üstə süsləndi. Ardınca da araya çökən ağır sükut başını o çərtilmiş sinələrə çırpıb fəryad elədi. Heç bir hərəkət-filan yox idi. Təkcə Validənin göz yaşları süzülürdü. Bu an fəryad edən sükut-filan boş şey idi, realda yol gəlib, yol gedən, dinib-danışan, hayqırıb-susan təkcə Validənin o məsum göz yaşlarıydı.

– Sizə bir şəkil göstərəcəm... Görün doğrudanmı o şəkildən qan damır?.. Siz də baxın, ey Allah adamları, siz də baxın!.. – deyən Validə əlini qoynuna atdı.

Hamı bir-bir eşiyə çıxdı. Nədənsə, heç kim qalıb o şəkilə baxmadı...

...Qismət eşikdə siqaretini yandırdı, hamı kimi o da heç kimlə vidalaşıb-eləmədən ayrılıb yola düşdü. Dərənin sıldırımlı kənarıyla gedəndə, eynən Vəngdən Sarıqamış yaylağına doğru baş alan, qapçaqlı qayalığın arasından keçən, adına "Səbətkeçməz" deyilən dar yolu xatırladı. Buralar necə də o yerlərə oxşayırdı. Ölüncə yadından çıxmaz... Xatırladı ki, Vəngin içindən keçib Kəlbəcərin o gözəl yaylağına gedən yolun kənarındakı həmin qayalığı ermənilər partlatmışdı. Yol tamam kəsilmişdi. Əsgər yoldaşı rəhmətlik Aliklə kəşfiyyata çıxmışdılar, komandanlığı isə Pənah edirdi. Yolu kəsmiş qaya uçuqlarının o üzündən səs eşidincə kolluğa girib gizləndilər. Sonra öz-özüylə danışan bir erməni döyüşçüsünün kobud səsini eşitdilər. Deyəsən o, həmin yerdə keşik çəkirdi. Çox arxayın idi, ona görə də bərkdən-bərkdən nəsə üyüdüb-tökürdü... Alik ermənicə yaxşı bilirdi. Astadan bizə pıçıldadı ki, "heç bilirsiz o nə deyir?" Pənah soruşdu ki, "nə deyir?" Alik çox astadan, xısın-xısın pıçıldadı: "o deyir ki: "Ara, gəl çıx! Ara, ay adam, gəl çıx! Gəl çıx, türkləri qırmaq lazımdır! Umudumuz bircə sənədi, ay adam! Gəlməsən, işimiz fırıq olacaq! Ara, ay adam, qurban olum, gəl çıx, ara!" Onda Pənah nə sənə, nə mənə, yerindən qalxıb: "o adamı neynirsən, a kopoyoğlu?! Mən gəlmişəm, mən!" – dedi, qayanın o tərəfindəki erməniyə bir güllə vurdu. Erməni döyüşçüsü dığırlanıb başı üstə düşdü dərədəki balaca gölməçəyə. Gölməçənin içi qanla doldu. Pənah gözlərini zilləyib hələ də ora baxırdı, qəti həyəcan keçirmir, getməyə tələsmirdi. Sonra biz sürüşə-sürüşə dərənin dibinə endik, başı hələ də gölməçədə olan erməninin qanı suya süzülürdü. Meyitinin yanından keçəndə Pənah heyrətlə içini çəkdi: "Dədə vay! Gölməçədəki çömçəquyruqlar qırılır! Baxın, qırılır hamısı..." O səhnə Qismətin heç yadından çıxmır – bir yanda qanlı suda çabalayıb ölən xırdaca çömçəquyruqlar, bir yanda da güllə yırtmış gicgahından suyun içinə qapqara qanı səssizcə süzülən yekəpər bir düşmən əsgəri... Bir də gördüklərindən heyrətə gəlmiş Pənahla Alik! Pənah meyitə baxıb: "ara, a peysər, nooldu bəs, gəldimi çağırdığın o adam, hı?! Bunu istəyirdin, hı?!" – deyib gülümsündü. Gethagetdə əyilib bir də meyitə sarı boylandı, suda çabalayıb ölən, ölüb də arxası üstə çevrilən zavallı çömçəquyruqlara baxdı: "sən cəhənnəmə, a dığa, heyif bunlardan, – dedi, – sənin ucbatından bunların hamısı qırılacaq, hamısı..." Ardınca da elə bil içində bir rəhm oyandı: meyiti çəkib sudan kənarda arxası üstə uzatdı, əllərini sinəsi üstündə çarpazladı, açıla qalıb içinə gölməçənin lili dolmuş gözlərini üsulluca qapadı. "Səninki də buracanmış, a dığa, – dedi, – mən səni vurmasaydım, sən məni oyanlığ eləyəcəkdin, yüz faiz. Di kef elə özünçün..."

O səhnə Qismətin yadından heç çıxmırdı.

Hər yan indi ona nəhayətsiz görünürdü. O vaxt ağlına da gəlməzdi ki, qayıdıb həmin meyitin sinəsini çərtsə, aləmi hansı qoxu, hansı iy bürüyər. Amma indi əmin idi ki, sahib olduğu o müqəddəs ülgücü də hər sinəyə çəkən adam deyil. Adam? Ağlından ildırım kimi bir fikir keçdi: "bəlkə,

doğrudan da, hər yerdə həsrəti çəkilən, yolu gözlənilən o adam elə sənsən, Qismət?" Ardınca da gülümsündü: "ağlını başına yığ... mənəmsə, gəlmişəm də artıq... ta kimisə gözləmək niyə..."

Qarağacların yanından keçəndə tumurcuqlu budaqlara sataşdı gözü, əli titrəyə-titrəyə aşağı əyib öpdü, istər-istəməz: "can Gövhər, can..." pıçıldadı...

## 18.

...Döyüşlər möhkəm qızışmışdı. Tabor komandiri İslamla birgə üç döyüşçü də şəhid olmuşdu. Əkrəm də, altı nəfər silahdaşı da ağır yaralanmışdı. Bütün bu baş verənlər üzündən Pənahın ağlı çönmüşdü. İntiqam hissi içini dağıdırdı. Bir yandan da Gəncədə tüğyan eləyən hadisələr onu tamam çaşdırmışdı. Düşünürdü ki, niyə, niyə axı bu qədər can bahasına, qan bahasına irəlilədikləri, neçə kəndi azad etdikləri bir məqamda bu hadisələr baş verir? O, bu suala cavab tapa bilmirdi. Hərdən fikirləşirdi ki, "yuxarıda oturub bu hoqqaları çıxaranların hərəsinin əlinə bir Kalaşnikov avtomatı verib buraxmaq lazım idi döyüşə, görək onda belə iş tutardılarmı?" Fikirləşib, fikirləşib bir nəticə çıxarda bilməyəndən sonra öz-özünə mızıldanırdı: "işin-gücün qurtarıb, dərd başına qəhətdi, deyəsən... bəlkə, elə belə lazımdı, sən siyasəti nə bilirsən axı... siyasətdə eşələnsən, ürəyin daha da pis ağrıyacaq... Siyasətdə ağrıyan ürəyi buza qoyurlar, buza! Bu isə, xiyarı duza qoymaq deyil ee, a biçarə, avtomatdan bərk yapış..." Gəncə qiyamından xəbər tutub, ardınca da geri çəkilmək əmri gəldiyini eşidəndə, necə Pənah Qismətin silahını daşa çırpıb sındırdığını, hönkür-hönkür necə ağladığını da gördü. Üstündən az keçmədi ki, bütün ömrünü alt-üst eləyən o qəlpə yarasını aldı başından.

İndi həmin o bəlalı başı ovcunda, sızım-sızım göynəyirdi. Bircə bu sözlərlə təsəlli tapırdı: "Qismət, Qismət... O adam gələn kimi, vallahi, göy üzünün də rəngi dəyişəcək, yer üzünün də... Oyunun axırıncı fiquru onun əlindədi. O fiquru millətimizin boş qalmış damasına qoyan kimi birdəfəlik hamını mat eləyəcək, görərsən..."

Elə o vaxt da, indi də Qismətin özü bu barədə guya az düşünürdü? "Pənah məni o adama elə inandırıb, elə aludə etdi ki, axırda özüm də onu gözləyə-gözləyə dünyanın üstü kimi altını da görəsi oldum... Ancaq bu məsələni başına buraxmaq olmaz. Birdəfəlik bir yerə yığışıb çözməliyik onu. Ta hər dəfə olduğu kimi deyinib-deyinib ayrılmamalıyıq. İşığa çıxartmalıyıq hər şeyi: görək kim necə düşünür, kim nə qədər inanır ona, kimin nəfəsi haracan çatır... O gələcəkmi? Ya bu nağıldımı uydurmuşuq?.."

Bu məsələdə Pənah heç vaxt şübhə yeri axtarmırdı. Axtaranda da öz-özünə belə deyirdi: "Ən azından, bəs o kim idi çənəmi, gözümü bağlayıb ayaqlarımı cütləyən? Duamı oxuyub alnımdan öpüb gedən kim idi bəs?"

Rəfail deyirdi: "Pənah ölən günü mənə "növbədə sənsən" deyən kim idi axı? O deyildimi? Yoxsa təyyarədəki adam başqasıydı?"

Əkrəm göynəyə-göynəyə pıçıldayırdı: “Suların dibinə gedib meduzaya dönməyi mənə o məsləhət görməmişdimi?..”

Qismət içində götür-qoy edirdi: “Hər addımda mənimlə olan kimdi bəs? O!.. Əlbəttə, o! Başqa kim ola bilər ki?...”

Validə isə gözünün yaşı süzüldükcə, şəklindən daman qanı ona xatırladanın kim olduğunu bilmək arzusundaydı. O, həqiqətən baş verənlərin ilahi bir iş olduğuna inanmaq istəyirdi...

## 19.

...Qapının ağzında dayanmış qadının üzündən Məryəmlik yağırdı. Qucağında körpəsi, gözləri əzab çeşməsi, ruhu uçuq şəkildə bir qadın idi... Dindarlar da, o birilər də ona baxa-baxa tilsimə düşmüşdülər, yerlərindəcə donub qalmışdılar. Qadın örpəyinin ucunu çənəsinin altından keçirərək kürəyinə aşırdı. Çox asta, hiss olunmayacaq bir tərzdə otağın ortasına sarı bir neçə addım atdı. O, ehmallıca Qismətə yaxınlaşıb gülümsündü:

– Ovcunu aç.

Qismət çoxdan bunu gözləyirmiş kimi, gözünü qadının üzündən çəkmədən, əlini irəli uzadıb ovcunu açdı. Qadın bir əlilə körpəsini bağrına basdı, yumulu olan o biri əlini Qismətin ovcuna yaxınlaşdırdı:

– Bunlar qalmışdı, – deyib, əlini açdı və bir neçə ölmüş parabüzən böcəyini onun ovcuna qoydu.

Oraya yığışanlar heç nə başa düşmədi. Bircə Qismət ovcunu sıxıb gözlərini yumdu, ucadan hayqırdı:

– Sənin qanını alacam, bacım, alacam sənin qanını!.. Qiyamətə bir gün qalmış olsa da, qoymayacam qanın yerdə qala!..

Qadın heç nə demədi. Başını aşağı salıb bir neçə anlıq kirimişcə durdu, sonra gəldiyi kimi də qapının ağzına qayıtdı və qeyb oldu. Oadın qəfil yoxa çıxınca, orada toplaşanlar içlərini necə çəkdilərsə nəfəsləri Qisməti yarpaq kimi sovurub yerindən qopardı, o, yenidən bir burulğanın qatma-qarışıq qoynunda həyətlərindəki kor quyunun dibinə endiyini duydu. Quyunun dibində ovcunu açıb böcəklərə baxdı. Onlar tərpəşirdi. Çox keçmədi ki, ovcundan bir-bir uçub getdilər. Qismət gülümsündü:

– Görünür, vaxt yetişib!

...Vaxt doğrudan da yetişmişdimi? Olub-keçənlər bir əfsanəydi – Qismət belə düşünürdü. Onun düşüncəsinə görə, vaxt necə var yetişməli, vəziyyət dəyişməliydi: toplar atılmalı, mərmi, güllə səsləri aləmi bürüməliydi. Gecə-gündüz yer-göy lərzəyə gəlməli, dərələr, dağlar silkələnib yuxusundan ayılmalı, o ana-balanın külü hamının gözünə sovrulmalıydı. Hərçənd, arzuladıqlarıyla öz arasında bəlkə də elə yerlə göy qədər məsafə vardı. O, düşünürdü ki, başqa yol qalmayıb, Qarabağ Azərbaycanın çərtilmiş sinəsindən qalxan elə bir qoxu... daha doğrusu, elə bir nalə, elə bir hayqırtıdır ki, bu ölkədə dərdə bələmədiyi tale, parçalamadığı ürək, yaşartmadığı göz ola bilməz...

Amma, deyəsən, bu işdə də yenə umud o adama qalırdı, çünki düşdüyü quyu çox qaranlıq idi. İndi o quyunun qaranlıq dibində mamır basmış hörgüyə pıçıldayırdı:

– İstəklərimiz içimizdə qal oğlu qal oldu... Böcəklər qədər də olmadıq, uçub gedə bilmədik, tufan qopara bilmədik, heç nəyə yaramadıq...

## 20.

Qismət gördü ki, alaqaranlıqda qarğı ata minmiş bir adam dayanıb, tanış səslə ona deyir:

– Mənimlə gedərsən?

– Hara?...

– Söyüdün altına, Qara nohurun qırağına.

Qismət onu səsindən tanıdı, bu xaçlıydı – Vazgen. Nədənsə, uşaq kimi qarğı ata minmişdi.

Açığı Qismət bunun yuxu, ya aşkar olduğunu ayırd edə bilmədi.

Az sonra onun dediyi yerdə üz-üzə durmuşdular. Əynindəki qara cübbəsi ayağının üzünə çatırdı. Çərtilmiş sinəsi örtülüydü, görünmürdü. Əvvəlki kimi ətyeyən quşların və heyvanların bulanıq ab-havayla eyni anda dikələn qatmaqarışıq səsi eşidilmirdi.

Qismətə çox qəribə gəldi: “Bu, nə istəyir axı?”

Vazgen dodaqları altında hansısa bir dua oxuyurdu. Qurtarınca, bir anlığa susdu, ardınca da xaç çəkib soruşdu:

– Sənin bu Qara nohurun dibindəki mamırlı daşın altında yaşayan kor qurbağadan xəbərin var?

Qismət tərəddüd etmədən:

– Hə, var, – dedi.

– Bəs bu ağacın koğuşundakı alacəhrədən necə?

– Ondan da xəbərim var.

– Qarabel balığı da ki, bilməmiş olmazsan, yəqin.

– Elədir. Noolsun axı? Nədən soruşursan ki?

Cübbəli gözlərini yerə dikib bir xeyli susdu. Sonra mindiyi qarğı atı sağa-sola oynatdı. Başını qaldırmadan səsi xırıldaya-xırıldaya dedi:

– Onlar mənim əcdadlarımdır, əcdadlarım...

Qisməti maraq bürüdü: “Deyəsən, bu, havalanıb? Bu nə danışır?”

O isə dayanmadan üyüdüb-tökürdü:

– Bizi bu günə cadugər, sehirbaz köçərilər qoyub, köçərilər... Onların şamanları qoyub... Babalarım Mıkırtıç, Qarigen, Akop... hamısının goru yaralıdır. Lap ee, lap qədimlərdə köçərilərin yaramıza köz basan şamanları qavalımıza sahib çıxıblar, öz sehrli sözlərimizi dillərinə çevirib, oxuya-oxuya içimizi yağmalayıblar. Əvəzində öz zir-zibillərini bizə sırıyıblar, bizə!

O, qarğı atını, şahə qaldırırmış kimi, ikiəlli tutub bir az yuxarı dartdı:

– Şamanlar... köçərilər... türklər.. siz türklər... ara, ha ee, siz türklər qoymusuz bizi bu günə! Atımızı əlimizdən almısız, qarğı at minirik. Hər şeyi-

mizin dalına keçmisiz, ara! Zurnamızı, balabanımızı, dolmamızı... Hər şeyimizi, hər şeyimizi... göyümüzü, ucsuz-bucaqsız yerimizi, dünyamızı almısız əlimizdən, başa düşürsən, dünyamızı! Qarabağ nədi ki? Qarabağ dediklərimin yanında bir zərrədi. Ona görə döyüşürük, vuruşuruq, özümüzə qayıtmaq, hər şeyimizi geri qaytarmaq, haqq etdiyimiz dünyaya sahib olmaq istəyirik. Ara, bu pis qoxu ki var haa, bizim içimizin qoxusu deyil, – siz köçərilərindir, dar macalda soxuşdurmusuz bizə, məcbur olub daşıyırıq.

Qismət çənəsini ovuşdura-ovuşdura səbrlə onu dinlədi. O, sözünü bitirən kimi soruşdu:

– Qızdırman yoxdu ki?

Deyəsən, Vazgen sualı başa düşmədi, ya da özünü bicliyə qoyub elə cavab verdi ki, guya sualı anlamadı:

– Yoxdu, hardan olsun ki?.. Canımızda istilik qoymusuz ki? Qızdırmamızı da almısız əlimizdən.

– Ay nağıl-tapmaca ustası, ta sənə nə deyim, nə deyim axı sənə?.. Özün də yaxandan o boyda xaç asmısan. Atdığın bu iftiralara görə Həzrəti İsa sənə qənim olacaq! Yer üzündəki hər şey – bu Qara nohurun dibindəki kor qurbağadan tutmuş, göy üzünün Uca Varlığınacan, hər şey sizin millətinmiş, demə, bilməmişik! Siz sağalması mümkün olmayan əməlli-başlı xəstə bir varlıqsınız, mikrobsunuz, nə bilim, nə zibilsiniz düşmüsünüz bu dünyaya! Siz yerin-göyün üz qarasısınız! Kökünüz kəsilsin! Heç nə yox, təkcə Xocalıya görə gec-tez tifağınız dağılacaq...

Qara cübbəli üzünü yana tutub xaç çevirdi və qarğı atını sağa-sola oynatdı.

Qismət özünü saxlaya bilmədi:

– Biri yadından çıxdı axı... Bəs atlı qarışqalar? Onlar da sizin nəsildəndi? – güldü. – Yəqin elə sizin nəsildəndi, onları da şamanlar elə at belindəcə – atqarışıq çeviriblər qarışqaya... İndi gecə-gündüz çəyirtkə qırığı daşıyırlar ulu babanıza yedirtməyə.Yəqin, elə sənin də atını qarğıya-qamışa biz çevirmişik...

Cübbəli güldü:

– Atımızın qarğı olmağına baxma! Bu qarğı atın belində, uca Rəbbimin köməyilə, gör hələ başınıza nə oyunlar gətirəcək bizim igidlərimiz, darıxmayın. İndi başınıza gələnlər toyagetməli olacaq. – Dərhal da o pis qoxu, ətyeyən quşların, heyvanların səsi aləmi bürüdü, uzaqlaşa-uzaqlaşa bir neçə dəfə də xaç çəkib getdi.

Qismət başını tutub söyüdün altındakı daşın üstə oturdu, gicgahları atırdı. Əzab dolu bir fikir içini yandırdı: “Bunlarla neyləyəsən axı, ilahi, neyləyəsən? Əlimizdən nə gəlir ki? Bir davaya gücümüz çatırdı, onu da bəzi zatıqırıqların hiyləsinə qurban gedib uduzduq. “Qonşun pisdi, köç qurtar!” məsəlini ilk dəfə hansı axmaq uydurub görəsən. Hara köçək? Yoxsa burdan da köçüb gedək? Bəs hara? Millətimizin gör nə qədəri qaçqın-köçgündü... Köçməyə yer də qalmayıb taa...”

O, gözlərini yerə zilləmişdi. Alaqaranlıq olsa da, yerdə atlı qarışqalar görünürdü, onlar ağacın gövdəsinə sarı çəyirtkə qırıqları daşıyırdı. Bir xeyli baxıb, üşənən kimi oldu. Yenə içini cürbəcür fikirlər daladı: "O adam... Məni bağışla!.. Artıq sənə inanmıram! Məncə, gəlsən də heç nə dəyişməyəcək. Bu dünyada elə bir məqama çatmışıq ki, kimin gəlişini gözləyirsən, gözlə – xeyiri yoxdu. Dünya belədi... Amma bütün bunlarla barışa da bilmirəm. Olmaz. Heç nə yox, bu fikrə tabe olsam, Gövhərin ruhu, o ana-balanın göy üzünə sovrulan yanmış ruhu, itirdiyim onlarla döyüş yoldaşımın yaralı ruhu məni bağışlamaz, bağışlamaz heç vaxt..."

## 21.

...Qismət deyirdi ki, qan yaddaşı itmir. O, bu məsələni lap bir elm adamı kimi çözürdü: deyirdi ki, milli dəyərlər pozulanda, qan yaddaşı aldığı yaralardan hiss olunmadan axıb gedə bilər, laxtalanıb quruyar, lap elə Haqqa doğru gedən yolda tıxaca dönər, çox ağır fəsadlar da törədər, amma tam itib yox ola bilməz, çünki mənbəyi çox dərindədi, sıza-sıza yığılar, yığılar, bir gün yenə sellənib daşar, daşqınlar yaradar, ürəkləri, şüurları silkələyər. Çərtilən sinələrdən gələn qoxular da Qan yaddaşının ab-havasına bağlıdır – eləsi də olur, beləsi də...

Bir dəfə təsadüf elə gətirdi ki, o, dostlarının uşaqlarını – Əkrəmin, Rəfailin balalarını başına toplayıb, çərtilmiş sinəsinin qoxusunu özləri də bilmədən onlara da uddurdu, 88-ə qədərki və ondan sonrakı dönəmdə baş verənləri zərgər dəqiqliyi ilə xırdaladı. Qan yaddaşının oyanışından yerli-yataqlı bəhs elədi. Yeniyetmələr susub onu dinlədikcə vətən sevgisi, ataları və onun silahdaşları kimi minlərlə qazinin, şəhidin intiqamını almaq arzusu ürəklərində boy verdi, çünki onlar ərkan sahiblərinin balalarıydı. Canlarını, qanlarını əsirgəməyənlərin övladları elə belə də olmalıydı.

Qismət bir gün bığ yeri təzəcə tərləyən bu uşaqları başına yığıb səngər yoldaşı Alikin yeganə oğlu Altayla tanış etməyə apardı. Həyətdə qocaman tut ağacının altında oturub xeyli söhbət etdilər. Altay olduqca kasıb bir daxmada anasıyla, nənəsiylə birlikdə yaşasa da üz-gözündən yetimlik deyil, cəngavərlik yağırdı. Qismət ona da, gətirdikləri uşaqlara da göz qoyub bir daha əmin oldu ki, indi tam ayrı nəsil yetişir, bu uşaqların gəmisi batmaz, atı büdrəməz, səsləri göyü parçalayar, təpkiləri yeri. Dərk elədi ki, ümidsiz olmağa dəyməz. Sadəcə, zaman gəlməlidir. Elə bir zaman ki, həmin dövrün, həmin dönəmin sinəsini çərtmək mümkün olsun. Oradan hansı qoxunun, hansı ətrin gəldiyini bütün dünya hiss etsin və insanlar kimin haqlı, kimin günahkar olduğunu görsünlər, bilsinlər.

...Rəfailin uşaqları atalarından sonra sözü bir yerə qoyub Türkiyədə hərbi təhsil almaq üçün analarını bir zülümlə razı saldılar. Yazıq Xumar heç cür onları yoldan çıxarda bilmədi, çünki dediklərindən dönməyən, tərs uşaqlar idilər. İzmir yaxınlığında – Urladakı hərbi litseydə oxumağa qəti qərar vermişdilər. Üstündən bir il sonra Əkrəmin də uşaqlarından biri –

Oğuz da onlara qoşuldu. O biri qardaşı Firuz isə Alikin oğlu Altayla birlikdə təzəcə qurduğu biznesi idarə etməyə girişdi. Çoxlu borcları olsa da, onlar bir-birindən arxayın idi, çünki ortada haqq-salam vardı, ataları vaxtilə eyni səngəri bölüşmüş, biri qazi, biri şəhid olmuşdu. Bir də arada hamısına ağsaqqallıq edən Qismət dururdu. O, ən ağır vaxtlarda Əkrəmlə Rəfailin şərikli işlətdikləri “Alyona” restoranını icarəyə verənlərlə rəhmətliklərin arasında qalmış borcu ləğv etmək üçün xeyli çarpışmışdı və nəhayət istədiyinə nail olmuşdu. Qazi dostlarının ailələri sağ-salamat Bakıya qayıtmışdı. Uşaqlar böyüyəndən sonra isə kredit götürüb Sədərək ticarət mərkəzində xırda bizneslə məşğul olurdular. İndi kasıbçılıq içində böyümüş Alikin oğlu Altayın da əlinin çörəyə çatması Qisməti sevindirirdi. Elə bil çiyinlərindən ağır bir yük götürülmüşdü. Vicdanı rahat idi.

* * *

“...– Əmi, bu nə tufandı belə? Bu kül sovruğu hardan əsir?

– Mən kor quyunun dibindəyəm, bala. Xəbərim yoxdu. O hələ də əsir?

– Hə, əmi... Özü də necə... Qurtulmaq olmur cəngindən...

– Sən kimsən?

– Əkrəmin oğlu Oğuzam, əmi, təbrik et məni...

– Qəzan mübarək, Oğuz!..

– Rəfail əminin oğlanları da burdadır. Bir-birinin ardınca gəldilər. Şuşa tərəfdən...

– Mübarək olsun qəzaları!..”

* * *

... Qiyamət Qazilərinin dördü də lal-dinməz oturmuşdu. Həmişə olduğu kimi, siqaretlərini sümürüb bir-birlərinə qəribə tərzdə baxırdılar. Dünyanın necə dəyişib ayrı dona girəcəyinə inanmaq üçün gözlərini bürümüş işığa cani-dildən əsir düşmüşdülər.

Dindarların səs-səmiri eşidilmirdi. Aləmi mərmi səsi, PUA-ların atəşi, tankların-topların gurultusu bürüdüyü günlərdə də, lap indiki kimi elə bil, həmin cübbəlilər, əbalılar, əmmaməlilər üçün, dünya sonsuz bir sükut və ilahi bir səssizliyə qapılmışdı.

* * *

...Qazilərə agah idi ki, Cıdır düzündə ilahi bir təntənə var. Bir yandan əcdadların ruhunun tufanı qopmuşdu, bir tərəfdən də, 92-ci il yanvarın 25-26-da Daşaltıda məsuliyyətsiz, bacarıqsız komandirlərin səriştəsizliyi ucbatından tələyə salınaraq öldürülən və dərgahlar sahibinin hökmüylə şəhadətə ucalan Şuşanı müdafiə taqımlarının, bölümlərin günahsız döyüşçülərinin məsum ruhlarının şadyanalığı düzəngahı bürümüşdü.

Azadlığın eşq dənizi kimi çağlayan işığı düzü-dünyanı nura qərq etmişdi. Şuşa azadlığa qovuşmuşdu!

Amma hələ də Xankəndi tərəfdə zülmət bir qaranlıq torpağın – daşın içində eşələnir, çəkilib getmək bilmirdi... Düz otuz ilə yaxın idi ki, indi bu güruhun toplandığı yerdən – bu qayaların belindən heyrətamiz ruh səsləri üzü aşağılara, Xocalıya, Əsgərana, Ağdama sarı hər gecə ümidsizcəsinə, üzücü bir səslə ağıya, acı fəryada bənzər bu cür sözləri hayqırırdı:

gəl ay adam, gəl ay adam...
səssizlik oyur-oyur deşir qaranlığı
heç nə vəd eləmir bu kahin görkəmli gecələr
çarəsizliyin küçəsindən keçməyə gücümüz çatmır daha
ölüm yarasalarının səssiz gərdişindən qulaqları batır yalqızlığımızın
olmuşların küfrlə geriyə qayıdacağını düşünürük hələ də
elə bil küfr içindəyik
elə bil məhrəm olmayanlarla bizim aramızda
qılınca dönməyib tövbəmiz əsla

gəl ay adam, gəl ay adam...
oxunmuş duaların üstünü örtmüş gül ləçəklərinə
küləklərin niyə heç zaman toxunmadığını bilmirik, bilmirik...
necə deyərlər, biz hələ də dolu patronların atəşdən sonra gilizə döndüyünü
və bir də dolmaq şansını itirmədiyini anlamaqdazorlanırıq felən
atəşlər olacağını, hələ də atəşlər olacağını
hədəfdə yenidən eşq quyusu kimi sinələr, can cizgiləri, Gül rəsmi və toranlarda
Azadlıq adlı isti-isti bir zühur olacağını dərk etmədən susuruq

gəl ay adam, gəl ay adam...
gəl çərtilsin sevda kəhrizinə dönmüş sinələr
bilirik ki, zavallı olmaq məsum olmaq deyil hələ
oxuya bilmirik neçə illərdi içimizə dolmuş oyur-oyur sükunəti
kim bizi bu günə saldı, kim?
Haqdan gəlməyən bütün cansız sözlərin
dərgahlara ayaq döyməkdən dabanları yeyilib artıq
amma səsin didərginliyinə Can dözməz bilirik, dözməz
buna görə də, məsələn, bu torpaqları tərk etmiş səs yiyələri
ipək yaylıq misallı səslərini
görünür, qocaman ağacların budaqlarına bağlamışlar köçürkən
indi o səslərin yan-yörəsindən güllələr çovuduğunu xatırlayanda
burda qapısı taxtalı umudlarımızın yuxusuzluğundan qan açılır
oxuya bilmirik oyur-oyur ovcumuza damcılayan qanlı göz yaşlarını
səssizlik eləcə deşir qaranlığı, gəl...

gəl ay adam, gəl ay adam...
heç nə vəd eləmir bu kahin görkəmli gecələr
səni düşünəndə – Özümüzü, Onu içimizdən keçirəndə – Göyün üzünü,
Sabahımızı fikirləşəndə – basılmış Torpaqlarımızı düşünürük oyur-oyur
biz hələ də göyün üzü qədər qaranlıqla işığa oynayırıq, qaranlıqla işığa...
həyatsa o qədər adiləşib ki
Azadlığımızı görmədən sakitcə ölüb gedənlər elə bil dünyadan getmirlər heç
başmaq seyrindən qayıdırlar qeybə...
gəl...

Daha o səslər eşidilmir, heç kimi çağırmırdı. Düz otuz ilə yaxın yerin-göyün bağrını yaralamış bu giley-güzar dolu səslər artıq susmuşdu. Artıq qaranlığı Cıdır düzünə yığışanların təntənəsindəki hayqırtılar deşirdi və Qarabağı möhtəşəm bir Azadlıq nuru sel kimi bürümüşdü...

* * *

...Əsli-nəsli Şuşalı olan Rəfailin uşaqları Aslan da, Hüseyn də Xüsusi Təyinatlı Dəstədə döyüşmüşdü. Özü də, qismət elə gətirmişdi ki, dədə-baba yurdları Şuşa uğrunda girmişdilər cəngə. Əkrəmin oğlu Oğuz da həmin dəstədə, amma ayrı taqımda vuruşmuşdu. Üçü də elə oradaca, ayrı-ayrılıqda şəhidlik məqamına yüksəlmişdi.

Rəfailin kiçik oğlu Hüseynin şəhadəti ən axırıncı anda Şuşa alınan dəqiqələrdə olmuşdu. O, çox qəribə yaşantılar keçirmişdi.

Həmin gecə Hüseyn dişləri arasındakı saman çöpünü möhkəmcə sıxıb gözlərini qıymışdı, bircə anlığa nəfəsini dərirdi, bu məqamda üzünə baxan olsaydı, elə bilərdi onun dünyadan xəbəri yoxdu. Üzünə sirli bir işıq qonmuşdu və o, gülümsünürdü. Kürəyindəki yük çantası ən azı iyirmi-otuz kilo vardı. O, kürəyi üstə yıxılıb bu çantaya söykənmişdi, yüngülcə dincini alırdı. Fikri-zikri başçılıq etdiyi 11 nəfərlik taqımla bu gecə sıldırımı aşıb Şuşaya girmək olsa da, buna çox arxayın idi və nədənsə, gülümsünürdü. Bu igidlər oktyabrın 29-da Çanaqçı kəndində erməni silahlı qüvvələrinin darmadağın edilməsində çox fəal döyüşmüşdülər. Artıq aradan doqquz gün keçmişdi. Bu gün hər şey həll olunmalıydı. Bircə sıldırımları dırmaşmaq, qalaya yetişmək qalırdı. Ancaq Hüseynin Aslandan xəbəri yoxuydu. Bilmirdi ki, artıq Nəbilər kəndi tərəfdən gələn, gəlib də düşmənin başı üstünü alan qəfil aslanların içində qardaşı Aslan da igidlik göstərib və şəhadətə ucalıb... Gülümsünürdü... Çünki bircə anlıq yorğunluğunu aldığı anda gözünə anası görünmüşdü, uşaqlıq çağları keçmişdi yaddaşından və anasının məsum səsi dolmuşdu qulaqlarına: “Ası gəlsin, Hüsü gəlsin...” Hə, bu yalnız və yalnız bircə anlığa keçmişdi ruhundan: “Ası, gəl!... Hüsü, gəl!..”

Bu dəm yuxarılarda atışma səsi eşidildi. Hüseynin yuxusuz gözlərinə görünənlər o andaca silinib getdi.

– Getdik!... – O, əmr verdi. Üzü yuxarı yürüş başladı. O biri taqımlar da sıldırım qayalıqdaydı. Quş quşluğuyla səkə bilməyəcəyi bir yerdəydilər ki, düşmənin heç ağlına da gələ bilməz, yatsa, yuxusuna da girə bilməzdi.

Yuxarıdan onları çox məhrəm, doğma səslər çağırırdı:

– Gəlin! Gəlin!.. Çıxın!.. Qalxın!..

Hüseyn hiss edirdi ki, bu səslər elə-belə çağırış edən kimlərinsə yalvar-yaxarı, əmri və ya göstərişi deyil. Çox doğma olan bu səslər qaranlığın içindən əl kimi uzanıb onlardan yapışaraq əməlli-başlı yuxarı dartırdı. Onların içindən atasının da, Aslanın da, Oğuzun da, hətta Qismət əmisinin, Əkrəm əmisinin də səsini tanıdı, qollarından necə yapışıb quş kimi qaldırmalarını duydu, amma heç nə başa düşmədi. Onlara uzanan əllərin sayı-hesabı yoxuydu. Hə, üzlər görünmürdü, əllər uzanırdı. Gözəgörünməz qüvvələr tabeliyində olanları da eləcə çağıra-çağıra, "qalxın, igidlər, qalxın!" – deyə-deyə qaldırırdılar yuxarı. Səslərin çoxu qədim-qaim idi. Sonradan biləcəkdi ki, bunlar əcdadlardı – Cıdır düzünə yığışıb qələbəni gözləyən əcdadlar...

Yuxarı qalxıb döyüşə yüngül silahlarla girdilər. Düşmən o qədər çaşqın vəziyyətə düşdü ki, bir-birlərini güllələməyə başladılar... Hüseynin taqımından iki nəfər şəhid olmuşdu. Buna görə o, döyüşə əlbəyaxa girişib dəli-divanə kimi sağını-solunu biçirdi. Qəfil kürəyində göynərti hiss etsə də, güllə səsi eşitmədi: "demək, hər şey bitdi..." Bir cüt əl onu yıxılmağa qoymadı. "Gəl, Hüsü, gəl... Ası da burdadı..." Çox dərindən nəfəs alıb gözlərini açanda, ona sarı uzanıb saçlarına sığal çəkən, saysız-hesabsız əllər gördü və gülümsədi. Kimsə əyilib qulağına pıçıldadı: "Şuşa bizimdi, igid, qəzan mübarək!..." Yenə gülümsədi və gözlərini yumdu...

...İndi hər üçü bərzəxdən Qiyamət Qazilərinin ruhuna salam yollamışdı.

Orduya könüllü yazılmış Firuzla Altay isə bu az müddət içində, bu lokal müharibə boyunca marıqda dayanıb zəncir çeynəyirdilər. Onlar şəhid olmuş Oğuzun, Aslanın, Hüseynin... başqa doğmaların, tanışların cənazələri gəldikcə, artıq dözə bilmir, silaha sarılamağa əmr veriləcəyi anı səbirsizliklə gözləyirdilər. Torpaqlar uğrunda döyüşlər qələbə qoxusunu sinələrə doldurmuşdu. Göyün də, Yerin də bağrı yarılmışdı. Xəbər xəbər dalınca gəlirdi. Şəhidlik məqamından keçən yollar həm də uğur, qələbə zirvəsinə apardığı üçün hamıda bir ruh yüksəkliyi vardı. Yəni ölümü gözünün altına alanlar hər şeyin fövqündəydi.

Oyur-oyur oynayan gözlər elə hey pıçıldayırdı:

"– Gözlədiyimiz gün gəlib, deyəsən..."

"– Şübhəsiz... şübhəsiz..."

"– Mən Kəlbəcərdə, bir alça ağacında gülləyəcəm... Ürəyimə damıb, Pənah..."

"– Mənim də ürəyimə damıb: tezliklə Qarqarda sel olub daşları öpəcəm, Qismət..."

...Siqaretlər yenə tüstüləyirdi. Gözlər dil boğaza qoymadıqca, çöhrələr işıq saçırdı.

...Torpaqlar azad olduqca, Validə də dayanmaq bilmirdi. Yollar qət edir, dostların, dost övladlarının uyuduqları məzarlıqları bir-bir dolaşır, onların qəbir daşlarını oxşaya-oxşaya silir, öpüb üstünə gül qoyur: “Ruhunuzun gözü aydın!..” deyirdi...

Şuşanın geri qaytarılması sorağı gələndə bir anlığa işıqlar göz vurdu, ardınca da elə gur yandı, elə gur yandı ki, hamının gözü qamaşdı. Burdaydılar. Otaqda. Həmişəki yerlərində. Çöldə aləm qarışmışdı. Təkcə küçə-bacada bayram deyildi, həm də göyün üzündə coşqulu bir təntənə vardı, heyrətamiz bir uğultu qopmuşdu, ruhların təlatümlü yürüşü başlamışdı hər tərəfdə. Bir anlıq yer göyə, göy yerə qarışmışdı. Bunları isə təbii ki, indi hamı duyurdu, daha çox Pənah kimi, Qismət kimi, Əkrəm kimi, Rəfail kimi bir məqamda olanlar hiss eləyirdi.

Pənah o sirri-xuda otağın pəncərəsini açıb hər tərəfdən uğultunu dinlədi, üzünü içəridəkilərə tutub, başıyla çöldəkilərə işarə elədi:

– Hə... İndi sözünüz nədir? Mən deyəndi, ya yox?

Rəfaillə Əkrəm pəncərəyə yaxınlaşdılar. Rəfail göy üzünə baxıb astaca pıçıldadı:

– Bu uğultunun içindən özümünkülərin səsini ayırd eləyə bilmirəm. Deyəsən, hər ikisinin səsi lap yuxarıdan gəlir.

Əkrəm də, təsdiqləyirmiş kimi, başını yellədi:

– Mən də Oğuzumun səsini eşidirəm. Amma çox yuxarıdadı deyəsən, çox yuxarıda. Yeddinci qatda...

Qismət cübbəlini, əmmaməlini, xaçlını, təsəklini qəribə tərsdə süzüb gülümsündü:

– Sizcə, bu sondur, ya başlanğıc?

Pənah cəld onun sözünü kəsdi:

– Dəxli yoxdu sondur, ya başlanğıc. Hər şey göz önündədi – göylü-yerli, yuxarılı-aşağılı hər şey! Bizi dəftərinə yazan belə yazıb, Qismət. Səni yandırılmış ana-balanın külünün sovruğu, öldürüldükləri yerdən parabüzənlərin tufanı şəklində qopan ruhlarının qiyamı alıb aparanda və sən də, o biri qardaşlarımız kimi, Qiyamət Qazisinə dönəndə... bilirəm, nəyin getdi, nəyin qaldı, adın hara yazıldı... Məndən də nəsə qalıb yəqin... Hələ Xocalı qırğını vaxtı Əsgəran qalası yanındakı körpünün altında otuzdan artıq fağır, biçarə, məsum insanımızın başını qəddarcasına kəsəndən sonra əclafcasına payaya keçirib yolun qırağına düzənlərə olan nifrətim, qəzəbim qaynayıb-daşanda, mən elə o vaxt döndüm Qiyamət Qazisinə... Canımdan, ruhumdan bu dünyaya nələr qaldığını bir özüm bildim... Bir də ki... sən özün də bilirsən, Qismət, başıma qəlpə dəyəndə dostlar məni sürüyüb apardıqca dabanlarım altındakı qarışqaların tar-mar olmuş yuvalarının nifrini canımı bürüyəndə, hə, Qismət, bax, elə ondaca, yazımı yazan heç nəyə insaf etmədi, yazdı... Bunlarınsa... bax, bu dindarların deyirəm, olub-bitənlərə qətiyyən dəxli yoxdur. Sonun, ya başlanğıcın nə olduğunu bunlar da elə bizim qədər bilir. Bunların da yazısı belə yazılıb, başqa cür ola bilməz...

Pənah gözlənilmədən dindarlara sarı irəliləyib: "Sözlərimdən inciməyin!" – dedi, heç birinə fərq qoymadan, bir-bir onları qucaqladı, eyni tərzdə ehtiram göstərib bağrına basdı. Niyə? – heç özü də bilmədi...

Qismətin yadına kor qurbağa düşdü, istər-istəməz xaçlıya sarı boylandı və... gözlərinə inanmadı: bu, o deyildi! Bu, Vazgen deyildi! Qarğı at-filan da yox idi! "Bəs hanı o?" – kimdən soruşsun? nə desin?

Heç nə... onların hamısından xoş ətir gəlirdi, özləri sussalar da, elə bil, içlərinin qoxusu danışırdı. Qismət o an ağlından keçirdi ki, "görünür, Pənah da bunları elə-belə bağrına basmadı. Bu adamlardan qalxan məhrəm, doğma qoxu bir sirri-xudadır ki, adam, istər-istəməz, arınıb-durulur, hər şeyi yadından çıxarır".

O da, elə Rəfail də, Əkrəm də Pənahın etdiklərini təkrarladılar.

Bu zaman, demək olar ki, hər birinin içindən "Bəs o adam? O adam hanı? Bu gün də üzə çıxmasa, bəs haçan görəcəyik?" – fikri keçdi.

O adamın heç də nağıl qəhrəmanı olmadığını, viran qalmış mizan-tərəzini qaydaya saldığını, içlərinin özəyinə sülh qoxusu çilədiyini, göyü-yeri beləcə cuşa gətirdiyini indi Qiyamət Qazilərinin hər biri yaxşı anlayırdı.

Teleekranda Prezidentin qələbə müjdəsi səslənirdi...

Pənah bütün olub-bitənləri  xəyalından keçirdi:

"Yox, o adam mən deyiləm..."

Qismət də yüz yox, min faiz əmin idi:

"Mən də deyiləm".

Əkrəmin də, Rəfailin də fikirləri üst-üstə düşürdü:

"Mən deyiləm!"

"Mən deyiləm..."

Dindarların hərəsi otağın bir küncünə çəkilib ayinlərini yerinə yetirirdi. Eşikdə aləm dağılırdı. Göy üzündən səslər gəlirdi: "Sizin elə hər biriniz o adamsınız, bizim də hər birimiz!"

Cıdır düzündən püskürən Dədə Qorqud səsli bir əcdad ruhunun hayqırtısı, – hə, hə, pıçıltısı yox, məhz hayqırtısı – aləmi başına götürmüşdü:

kəsilmiş başımız dil açınca
öldünmü, mərə kafir!
indi Haqqın diqtəsini
bildinmi, mərə kafir!...

* * *

...Qara nohurun yanındakı qocaman söyüdü iki nəfər mişarlayırdı. Yoldan keçən birisi ayaq saxlayıb soruşdu:

– Niyə kəsirsiz ağacı?

– Belə lazımdı. Başbilənimiz belə məsləhət görüb.

Yolçu heç nə demədi. Başını bulayıb getdi.

Qarabel balıq suyun üzünü quyruğuyla şappıldadıb mamırlı daşdan uzaqlara üzdü. Alacəhrə çoxdan uçub qoca söyüdü tərk eləmişdi, atlı qarışqalar o adamların ayaqları altında tapdaq-tapdaq olmuşdu.

Hamı yenə o adamı gözləyirdimi?

Gələrdimi o?

Bir də gələrdimi?

Bəs hamı o adam deyildimi?

Lap tutaq ki, deyildi. Tutaq ki, o adam haçansa, günlərin bir günü zühur etdi, çıxdı üzə. Axı, o söyüdü kəsdirənlər, kəsənlər göylə yerin arasında O adamın özünü belə, həmin dəqiqə Şərq deyib Cənuba aparardılar, Qərb deyib Şimala və çaşdırardılar... Doğma Qarabağı xəritəmizə qondarma bir şəkildə cızıb-çəkənlər indi tilsimi qırıq dünyanın ovcundaca faş olub pis günə qalmışdı, təki o adam ortaya çıxmasın deyə, istənilən bəlanı törədə bilərdilər. Çünki özlərini ondan qat-qat yuxarı məqamda sanırdılar.

...Ortadasa, bircə tablo, bircə ilahi lövhə vardı – Qara nohur. Aydındı ki, qırağındakı qocaman söyüdü mişarlayıb yıxmışdılar yerə; çəyirtkələr belədən-belə tullanıb yoxa çıxmışdı; onları öldürüb tikələyən alacəhrə necə perikmişdisə, ilim-ilim gözdən itmişdi; atlı qarışqalardan əsər-əlamət qalmamışdı; Qarabel balıq üzüb uzaqlara getmişdi; mamırlı daşın altındakı kor qurbağa bir azdan ölüb qanlı gölməçədə boğulan o çömçəquyruqlar kimi yüngülcə çabalayıb arxası üstə çevriləcək, eləcə suyun üzünə çıxıb sərələnə qalacaqdı; sonra da açıla qalmış kor bəbəklərində gün işığı bəxtəvərcəsinə gizlənpaç oynayacaqdı...

Mizan-tərəzi beləcə pozulacaqdı.

Ardınca da hər şey unudulacaqdı.

Sonra hər şey təzədən, bir ayrı cür baş verəcəkdi...

Bütün bunlar haçana kimi davam edəcəkdi? – bilinmirdi.

Bilinmirdi heç nə.

Ağla gələn, fəhm edilən bircə o idi ki, adına ya o adam desinlər, ya onu necə istəyirlər adlandırsınlar, fərqi yoxdu, həmin varlıq qəfil zühur etsə, yəqin dörd bir yanını bürümüş bəxtəvər dirilərə, ölülərə baxıb, baxıb, əvvəlcə köksünü ötürəcək, ardınca da gülümsəyib içinin dərinliklərində: “Bilirəm, umduğunuz nədi... bilirəm, nəyə möhtacsınız, nəyə təşnəsiniz... bilirəm, yarandığınız gündən bəri tapınmaqdan ötrü gözləri sevda kəhrizi, içi eşq burulğanı olan ərkan sahibini gözləyirsiniz, səcdə yerinizi yaxşı bilirəm... Yerdə, göydə, ərşi-əlada haqqa möhtac, gerçəyə təşnə olmayan yoxdu, unutmayın... Mən də sizin birinizəm, and olsun, sizin birinizəm! Hamımız birik, hamımız!.. Unutmayın ki, elə mən də bir Qiyamət Qazisindən artıq deyiləm!” – deyəcək. Sonra da, şübhəsiz, dərin bir sevgi içində çərtdiyi sinəsindən dikələn ətri-qoxunu, işıq selini dostlu-düşmənli hamıya – ellərə, elatlara, külli-aləmə ərməğan eləyib: “Qəzamız mübarək!” – deyərək, arxasına belə baxmadan, dirilərin köçünə, ruhların düzəninə qoşulub şad-xürrəm qeybə çəkiləcək, vəssalam.

***SON***

***2019 sentyabr – 2021 aprel***



*Ramiz QUSARÇAYLI*

# V Ə T Ə N

***Poema****

Ali Baş Komandan,
ali sərkərdə,
Həm canlı efirdə,
həm də səngərdə
Ölkənin mətbuat fədaisiydi.
Təmkini, məntiqi, fəhmi yerində,
Mövqeyi, baxışı, zəhmi yerində,-
Qarabağ bizimdir!
Azərbaycandır! –
Hayqırıb kükrəyən "Nida" səsiydi!

Hər gün bir mərəkə,
bir görüş idi,
Hər görüş efirdə bir döyüş idi,
Fransız gəlirdi gözlərində kin,
İsveçli gəlirdi gözündə hiylə.
Gələn hər hollandın, hər ingilisin
Önünə çıxırdı qətiyyətiylə.

---

**** – Əvvəli jurnalımızın 8-9-cu saylarında.***
***Poema ixtisarla çap olunur. Tam şəkildə yaxın günlərdə çıxacaq kitabda oxuya bilərsiniz.***

Ölkələr gəlirdi Azərbaycana,
Hikkələr gəlirdi Azərbaycana,
Tələblər gəlirdi Azərbaycana,
Qəzəblər gəlirdi Azərbaycana,
Sual yağdırırdı Baş Komandana,
Düzülürdü qara sapa suallar,
Naqolay suallar,
qaba suallar,
Hər söz mühakimə,
hər söz iddia,
Hər sözün içində saxta müddəa,
Hər gün izah işi,
hər gün hesabat,
Hər gün təzə səfir,
təzə diplomat.
Köhnə yanaşmalar,
köhnə adətlər,
İkili standart,
ikili şərtlər...

İttiham yağırdı Azərbaycana,
Yağırdı əsassız mühakimələr, –
Kilsə belə gəldi,
xaç belə getdi,
Keşişin başında tac belə getdi...

Bayraqdar kimindi,
Harop kimindi, –
Kimindi sizdəki F-16-lar,
Sizdə döyüşürmü türk əsgərləri,
Niyə qayıtmadı,
niyə qaldılar...

Dünya gözü bizdə,
qulağı səsdə,
Ərzi dolaşırdı Vətənin səsi.
Bir sıra ölkələr qərəzli tərzdə
Açıb bizə qarşı efir cəbhəsi,
Jurnalist donunda,
müxbir donunda
Gündə bir diplomat bəsləyirdilər,
Gündə bir hesabat,

gündə bir izah,
Gündə bir arayış istəyirdilər.

Dünyada Qarabağ adına sanki,
Qarabağdan kənar döyüş gedirdi,
Gedirdi Avropa ölkələrində,
Gedirdi Asiya ölkələrində,
ATƏT-in mövqesiz fəaliyyəti
Donunca bölgənin qaynar yerində,
Gedirdi...
media müharibəsi,
Bir informasiya müharibəsi…

Qərəzli Fransa mediasına,
Norveç, Hollandiya mediasına,
Ali Baş Komandan çıxıb təkbətək
Səbrlə, təmkinlə cavab verirdi,
Dünyanın önündə
şax dururdu o.
Bütün təzyiqlərə sinə gərirdi,
Siyasi gücləri susdururdu o.

Suallar yağırdı,
təkrar suallar,
Yağırdı müxtəlif dairələrdən,
Niyyəti bir idi diplomatların, –
Hər sualdan doğan eyham notları
Çürük xislətində şər saxlanırdı.
Sual sualdan çox tələb yerində,
Sual ultimatum xarakterində,
Erməni adından qaynaqlanırdı…

Suallar köklənib
hay mifləriylə,
Yağırdı efirdən ruh endirməyə,
Öz qəbuledilməz təklifləriylə
Bizi yolumuzdan çəkindirməyə…

Bəlliydi ATƏT-in münasibəti, –
Sevgisi bəlliydi ermənilərə,
Yalan uydururdu hər sitatında,
Guya Azərbaycan günahkarıydı.

İlkin sənədlərin tərtibatında
Guya gözdən qaçan səhvlər varıydı…

Sual yağmurundan çökürdü efir,
Hər sualdan əzab çəkirdi efir,
Dünyanın diqqəti Bakıda idi.
Gözü özgə gözdə tir gəzənlərin,
Bir gözü xəlvəti Bakıda idi.
Əli özgə cibdə yer gəzənlərin
Məkrli niyyəti Bakıda idi…

Bilsə də xisləti şərdi, böhtandı,
Hay yenə öz murdar məkrinə uydu.
Kürsüdən "Qarabağ Ermənistandır", –
Deyib öz fikrinə
nöqtə də qoydu.
Hay hardan biləydi,
nədən biləydi,
Bu cılız "nöqtənin",
bu cır "nöqtənin"
Başına yumruqlu "Nida" gələcək.
Hayın uydurduğu hər xəritənin
Hər saxta rənginə vida gələcək…

Ali Baş Komandan birliyimizin
Dünyaya yayılan efir səsiydi,
Vətənin ərazi bütövlüyünün
Həm əsgəri idi,
həm də memarı,
Qələbə səsiydi,
zəfər səsiydi,
Dünyanın ən uca kürsülərində
Diplomat səsiydi,
səfir səsiydi,
Haqqın, ədalətin təntənəsiydi,
Vətənin Qarabağ düyünlərini
Çözürdü hər kəsin başa düşdüyü
Hər kəsin duyduğu, qandığı dildə:

–Erməni əsgəri yaxşı eşitsin,
Assın sırğa kimi qulaqlarından.
Ölmək istəmirsə, rədd olub getsin,
Çıxsın Azərbaycan torpaqlarından.

Bizim yumruğumuz birliyimizdir,
Bizim birliyimiz qələbəmizdir.
Qələbə rəmzinə çevrildi birlik,
Döndü Qarabağda “Dəmir yumruğ”a.
Biz bütün dünyaya sübut elədik,
Göstərdik yenilməz birliyimizi,
Darmadağın oldu erməni mifi,
Erməni lobbisi, erməni kifi…

Getdi cəhənnəmə o atəşkəslər,
O boş danışıqlar,
boş barışıqlar.
Getdi baş qatmalar,
cəhənnəm oldu,
Dartıb uzatmalar cəhənnəm oldu,
Saxta havadarlar,
saxta arxalar,
O saxta havalar cəhənnəm oldu,
“Status-kvo”lar cəhənnəm oldu…

Canlandı BMT qətnamələri,
On illər buzlanan donu açıldı.
Ədalətsiz ATƏT görüşlərinin
Əvvəli bəlliydi,
sonu açıldı.

Tarixin ən saxta bir ölkəsinin
Saxta baş naziri Cıdır düzündə
Sərxoş cəmdəyiylə yallı gedirdi,
Şuşanın müqəddəs bulaqlarından
İçib donuz kimi hallı gedirdi,
Verib arvadının əlinə silah
Meşəyə, kol-kosa çullu gedirdi…

Nooldu bəs,
erməni havadarları,
Erməni dostları,
vəfadarları,
Yabanı erməni,
alaq erməni,
Özü öz məkrinə dolaq erməni,
Hələ “referendum” keçirməliydi,

Paytaxtı Şuşaya köçürməliydi.
Döndü cəhənnəmə o mif, o xülya,
O şərt,
o status,
avtonomiya!

Gəl, baxın Fransa deputatları,
Gəl, baxın Belçika deputatları,
Gəl, baxın Niderland deputatları,
Gəl, baxın sevimli haylarınıza,
Gəl, baxın hiyləgər taylarınıza.
Nə günə qoyublar kəndlərimizi,
Söküb dağıdıblar bəndlərimizi.
Xaraba qoyublar qəsəbələri
Rusun, fransızın əsabələri...

Keçib talançılar,
canilər burdan,
Oğrular,
rəzillər,
fanilər burdan,
Hər yeri dağıdıb viran qoyublar,
Qırıb Zəngilanın meşələrini,
Söküb Ağdamın pir guşələrini.
Əbədi işğalda saxlamaq üçün
Hər giriş-çıxışda səngər qazıblar,
Adların üstünə adlar yazıblar,
Bu cılız məxluqlar,
quduz cüssələr,
Tikiblər hər yerdə hərbi hissələr.

Tərtər Qarabağın Naqasakisi,
Ağdam Qarabağın Xirosiması,
Hər yolda, keçiddə bir vandal izi
Hər daşda, divarda hayın siması.

Dağıdıb daş üstə daş qoymayanlar
Daşların altında daş gizlədirlər.
Çıxarıb göz üstə qaş qoymayanlar
Gözündə yalançı yaş gizlədirlər.

Hanı bəs millətlər təşkilatları,
Hanı bəs o küylü MDB, ATƏT,

Hanı bəs BMT qətnamələri,
Qətnamə-qətnamə donan həqiqət,
Avropa Şurası hardadı indi,
Avropa Birliyi hardadı indi,
Hanı cenevrələr,
konvensiyalar,
Hanı ədalətli reaksiyalar,
Əkin yerlərində səngər qazanlar,
Mina basdıranlar, mina əkənlər,
Günahsız qanlara düymə basanlar,
Mülki əhaliyə tətik çəkənlər
Niyə qınanılmır tərəfinizdən,
Əksinə,
qudurub tərifinizdən…

Gör hansı düşmənlə qarşı-qarşıyıq, –
Hansı vəhşilərlə üz-üzəyik biz.
Hansı vəhşiliyə sinə gəririk,
Hansı quldurları məhv edirik biz…

Saxta bir dövlətin saxta naziri
İşğal altındakı ərazilərə
Dünyanın ən qaynar bölgələrindən
Gətirib erməni yerləşdirirdi.
Ən qədim yaşayış məskənlərinə
Eybəcər-eybəcər adlar verirdi,
Adını dəyişib Qarabağı da
Saxta ölkəsinə birləşdirirdi...

Gündə bir qətnamə qət edirsiniz,
Qərar verirsiniz,
mədh edirsiniz.
Nə bir öhdəlik var,
nə yeniçilik,
Yeyir içinizi erməniçilik…

Dəysin başınıza o qətnamələr, –
Qətnamə-qətnamə ölən qərarlar.
Dəysin başınıza o puç namələr,
İçində uğunub gülən qərarlar...

Yurdunu qoruyur əsgərlərimiz,
Hamı bir ruhdadır,

hamı bir canda.
Burda fantaziya yaratmayın siz,
Fitnə yaratmayın Azərbaycanda.

Erməni cəhənnəm doğumlu tayfa,
Cənnəti kor qoyan mənfur qəbilə.
Nə kök var,
nə mənbə...
nə də ki, soy var,
Hara gedirsiniz erməni ilə?..

Qurama erməni,
saxta erməni,
Vətəndən, torpaqdan axta erməni,
Ağa sənəti yox,
bəy sənəti yox,
Nökər sənəti var,
qul sənəti var.
Pinəçi, çəkməçi, yamaqçı, qırçı,
Muzdur sənəti var,
çul sənəti var.
Sizə nə deyir ki, erməni adı,
Erməni ölkəsi nə verəcək ki?..
Qafqazın çürüyən erməni çatı
Erməni ləkəsi nə verəcək ki?..

Uymayın erməni iniltisinə,
Hiyləgər səsinə,
gülünc səsinə, –
Çıxın dədə-baba torpağımızdan,
Rədd olun,
deyirik,
itil,
deyirik,
Biz inildəmirik,
nərildəyirik!

Dəyişir cəhətlər,
yönlər dəyişir,
İşıqlar,
kölgələr,
ünlər dəyişir,
Dəyişir dünyanın şimalı, şərqi

Dəyişir Günəşin sularda qərqi.
İlişib Belçika parlamentinə,
İlişib Niderland parlamentinə,
İlişib Fransa parlamentinə,
Avropa hələ də dəyişə bilmir.
İşğalçı erməni tayfalarının
Küllü Qarabağdan kürünməsinə,
Bezdirib güc ölkə başçılarını
Erməni-erməni sürünməsinə,
Yenidən üçrəngli bayrağımızın
Şuşa qalasında görünməsinə
Avropa hələ də uyuşa bilmir...

Daha bizlik deyil saziş meydanı, –
Nə ağıl, nə də ki
rəng yerimizdir.
Hər səngər birinci döyüş meydanı,
Hər səngər sonuncu cəng yerimizdir.

Erməni dostları yaxşı eşitsin, –
Yaxşı tənzimləsin öz yaddaşını.
Erməni faşizmi baş qaldırarsa,
Bir də əzəcəyik onun başını!

* * *

Gəlirdi düşməni haqlı bilənlər,
İsti aşımızı soyudurdular.
Bizə dərs keçməyə göndərilənlər
Dərs alıb evinə qayıdırdılar.

Dərs alıb fransız mediası da,
Lap elə almanın,
lap elə rusun,
Dərs alıb imansız mediası da,
Haqqın diqtəsiylə hesablaşırdı, –
Zamanın hökmüylə barışırdılar,
Vətənin Qarabağ qələbəsinə
Könülsüz-könülsüz alışırdılar...

Alınan hər şəhər,
alınan hər kənd,
Ordumun Qələbə əsərləriydi.

Bu böyük əsərin baş qəhrəmanı, –
İgid Azərbaycan əsgərləriydi.

Müzəffər ordumuz,
şanlı ordumuz,
Bu böyük Zəfərin baş qəhrəmanı, –
Urusu urusca, farsı da farsca
Öyrətdi öyməyi Azərbaycanı...

* * *

Səni qazi-qazi qaytardım, Vətən,
Qəhrəman-qəhrəman qaytardım səni.
Səni şəhid-şəhid qaytardım, Vətən,
Cana can, qana qan qaytardım səni.

Səni əsgər-əsgər qaytardım, Vətən,
General-general qaytardım səni.
Səni zabit-zabit qaytardım, Vətən,
Admiral-admiral qaytardım səni.

Səni fələk-fələk qaytardım, Vətən,
Əzrayıl-əzrayıl qaytardım səni.
Səni mələk-mələk qaytardım, Vətən
Cəbrayıl-Cəbrayıl qaytardım səni.

Urvatsız-urvatsız vermişdim səni,
Urvatlı-urvatlı qaytardım, Vətən.
Zəngilan-Zəngilan qaytardım səni,
Qubadlı-Qubadlı qaytardım, Vətən.

Səni Ağdam-Ağdam qaytardım, Vətən,
Füzuli-Füzuli qaytardım səni.
Səni dağım-dağım qaytardım, Vətən,
Hüznlü-hüznlü qaytardım səni.

Səni Laçın-Laçın qaytardım, Vətən,
Kəlbəcər-Kəlbəcər qaytardım səni.
Səni quca-quca qaytardım, Vətən,
Bəxtəvər-bəxtəvər qaytardım səni.

Səni Şuşa-Şuşa qaytardım, Vətən,
Qarabağ-Qarabağ qaytardım səni.

Səni Şelli-Şelli qaytardım, Vətən,
Lələdağ-Lələdağ qaytardım səni.

Gülünü yerinə qaytardım, Vətən,
Yerinə qaytardım Xarı bülbülü.
Telini yerinə qaytardım, Vətən,
Yerinə qaytardın sarı sünbülü.

Quranı məscidə qaytardım, Vətən,
Məscidi qaytardım azan yerinə.
Tanrı qanadları göyərçin kimi
Qondu məscidlərin minarəsinə.

Tağ-tağ yaxalandı Xudafərin də,
Yuyuldu üzündən kafirin iyi.
O taylı, bu taylı yağıların da
Pozuldu siyasi möhtəkirliyi.

Qucub sahil boyu ləpələrini
Sular çiçəklədi Suqovuşanda.
Gün öpdü Murovun təpələrini
Vətən Vətən ilə qucaqlaşanda.

Özünü özünə qaytardım, Vətən,
Adını adına qaytardım sənin.
Közünü közünə qaytardım, Vətən,
Odunu oduna qaytardım sənin.

Ruh ruha calandı,
təpər təpərə,
Yol yola dirəndi,
sipər sipərə,
Dişim, dırnağımla qaytardım səni,
Didib cırmağımla qaytardım səni,
Əzmim, hünərimlə qaytardım səni,
Ordum, əsgərimlə qaytardım səni,
Dəmir birliyimlə qaytardım səni,
...və həmrəyliyimlə qaytardım səni!

Nidalar doğuldu Zəfər qanadlı,
Sədalar doğuldu Qələbə dadlı:
–Cəbrayıl azadsan, gözlərin aydın!
–Qubadlı azadsan, gözlərin aydın!

–Zəngilan azadsan, gözlərin aydın!
–Füzuli azadsan, Ağdam azadsan!
–Kəlbəcər azadsan, Laçın azadsan!
–Şuşa, əziz Şuşa, sən də azadsan,
Getdi o duman da, çən də, azadsan!
Daha pişvazına biz gələcəyik,
Səni gündən-günə dirçəldəcəyik!..

İndi bu Vətənin hər yeri bizim,
Bura doğumluyuq,
bura bağlıyıq.
İndi bir adı var hər birimizin,
İndi hər birimiz Qarabağlıyıq!

Hələ qarşımızda min-min uğur var,
Mehri,
Dərələyəz,
həm Zəngəzur var!

Vətən!
Bir ürəkdə döyünən candır,
Qarabağ bizimdir, –
Azərbaycandır!

* * *

Hiss,
həyəcan,
təlatüm,
Ah yerinə qayıtdı.
Can yerindən oynadı,
Ruh yerinə qayıtdı.

Səngər-səngər açdı yer,
Şəhid-şəhid saçdı yer,
Gah yerindən qaçdı yer, –
Gah yerinə qayıtdı.

Atıb çiynindən dağı,
Şuşa öpdü bayrağı,
Qaytarıb Qarabağı
Şah yerinə qayıtdı.

* * *

Gümankeçməz dağları,
Aşa-aşa qayıtdıq,
Yumruq kimi birləşib
Coşa-coşa qayıtdıq.
Biz Kəlbəcər-Kəlbəcər,
Şuşa-Şuşa qayıtdıq,
Başın uca, üzün ağ,
Gözün aydın, Qarabağ!

Hər döyüşün başında
"Yurd yeri" var, "Cəngi" var,
Hər həmlədə ordumun
Nərəsi var, cəngi var.
Cəngavər oğulların
Şanlı zəfər rəngi var.
Gör nə deyir Lələdağ, –
Gözün aydın, Qarabağ!

Hər qazi bir qaladı, –
Bir qələbə örnəyi,
Şəhid-şəhid ovundu
Bu torpağın göynəyi.
Göydə mələklər öpdü
Neçə qanlı köynəyi.
Bu müqəddəs nura bax,
Gözün aydın, Qarabağ!

Vətəndi bu savaşın
Hər sirri, hər sehri də,
Bir atanın öyüdü,
Bir ananın mehri də,
Uçundu Göyçə-Göyçə
Zəngəzur da, Mehri də,
Silkələndi Ağrıdağ,
Gözün aydın, Qarabağ!

Bir fırtına kükrədi
Qisas adlı limandan.
Yer əsdi, göy titrədi
Bu anddan, bu imandan.

Xalqın güvənc yeridi
Ta Ali Baş Komandan,
Dalğalan bayraq-bayraq,
Gözün aydın, Qarabağ!

* * *

Axır ki, mənim də zəfərim gəldi,
Mənim də Qələbə əsərim gəldi!
Mən onun yolunu çox gözləmişdim,
Onu oxşamışdım, əzizləmişdim,
O gəldi ordumun inam səsitək,
Vətənin İlahi salnaməsitək,
Dən idi, göyərib zəmiyə döndü,
Sal idi, sularda gəmiyə döndü,
Özümə qayıtdı, çevrəm, özümə,
Özümə qayıtdı, dövrəm, özümə!

Dünya nehrə kimi çalxalanmada,
Ürək Vətən-Vətən duyğulanmada,
Günəş də elə bil aşağı gəldi,
Gözümə bir Vətən işığı gəldi.
Gəldi, nurum gəldi, imanım gəldi
Yüz illər vurnuxan gümanım gəldi,
Bu işıq Məkkədən, Qüdsdən gəldi,
Bir ulu ayədən, hədisdən gəldi.
Bir az silkələndi "Qanlı dərə"lər,
Bir az yırğalandı bu mənzərələr.
Bir az Çıraqqala havası gəldi,
Bir az Çanaqqala davası gəldi,
Ötdü Araz səddən, Araz barıdan,
Ötdü "Heyratı" dan, "Arazbarı"dan,
Bir az Savalana sığındı gəldi,
Bir az Ağrıdağa toxundu gəldi.
Təbrizi Bakıya gətirdi bir az,
Ərbili Sakiyə gətirdi bir az.
Gətirdi Dərbəndi, Göyçəni bizə,
Bütövlük gətirdi ellərimizə.
Qaytardı dilimdən qaçan dilləri,
Qaytardı qürbətdə açan gülləri.
Bağrımın başından asıldı bu gün,
Ömrümə əbədi yazıldı bu gün!

* * *

Şənini vəsf etməyə yetər, qüdrətim yetər,
Ulduzunu, ayını göydə mələklər ötər,
Hər rəngində "ya qazi, ya şəhid" bir mən bitər,
Sən ey İstiqlalımın əbədiyyət sancağı, –
Azərbaycan bayrağı!

Yağının min hiyləsi küydən, kələkdən keçər,
Sən sancılan ucalıq min-min ürəkdən keçər,
Dağlar yerindən oynar, daşlar ələkdən keçər,
Göylərin nur yağmuru, yerlərin göy qurşağı,–
Azərbaycan bayrağı!

Sən Arazın, Samurun umuduna bələndin,
Çəni ağlar Göyçənin buluduna bələndin,
Dərbəndin dərd hıçqıran sükutuna  bələndin
O tayımda Savalan, bu tayımda Şah dağı,
Azərbaycan bayrağı!

Cəngidə cövlan yerim, cövlanda can yerimsən,
Barışda gül çələngim, savaşda qan yerimsən,
Sən mənim and yerimsən, mənim iman yerimsən,
Dalğalı ləngərlərin  yelpiklənən yarpağı, –
Azərbaycan bayrağı!

Sənsən Azadlıq eşqim,sənsən Hürr, – deyəcəyəm,
Ən son nəfəsimdə də sənə şeir deyəcəyəm,
İrəvanda qonduğun Üç müəzzin daşına,
Dərbənddə sən qonduğun Narınqala qaşına,
Təbrizdə sən qonduğun Eynalının başına,
Şuşada sən qonduğun daşa pir deyəcəyəm.
Çəkəcəyəm gözümə kölgən düşən torpağı
Azərbaycan bayrağı!
Azərbaycan bayrağı!

***2017-2021***

Əli ƏMİRLİ



# BİRCƏ ADDIM

♦ 6 səhnəli dram

## İştirakçılar:

| | |
|---|---|
| MURAD | MÜƏLLİM |
| HÜMBƏT | I KİŞİ |
| GÜLÜSTAN | II KİŞİ |
| ANAQIZ | MÜXBİR |
| CƏMİL | OPERATOR |

### I SƏHNƏ

*Adi kənd evidir. İlk nəzərə çarpan evin yuxarı başında divara vurulmuş hərbi geyimdə əsgər şəklidir. Şəklin bir tərəfində Azərbaycan, digər tərəfində Türkiyə bayrağı, alt hissəsindən isə 5-6 idman medalları asılıb. Divara söykədilmiş qırmızı örtüklü kiçik masanın üstündə bir neçə kubok var.*

*Hümbət kətildə oturub dizinin üstündə tutduğu yəhərlə əlləşir. Anaqız telefonda nəsə axtarır.*

*Gülüstan ağır addımlarla gəlir. Dayanıb bir müddət kişiyə baxır, başını narazılıqla bulayıb, şəklin qabağında arxası tamaşaçı salonuna dayanır.*

**GÜLÜSTAN**. A yeri-göyü yaradan, sən özün balamı qanadın altına al, onu, nətəər sağ-salamat gedibsə, elə də qaytar evinə-eşiyinə, yurduna-yuvasına, elinə-obasına...

**HÜMBƏT**. Hardadı, az, onun yurdu-yuvası, eli-obası?

**GÜLÜSTAN**. Yaxşısını sən bilirsən, Hümbət.

**HÜMBƏT**. Əlbəttə, bilirəm, onun eli-obası, budu, otuz ildi erməni balasıölmüşün təpiyi altında, Kəlbəcərdədi. Muradın da yolu oradı. Mənim oğlum sürüyüb dağdan atacaq o murdarları, elini-obasını, yurdunu-yuvasını geri alacaq, Kəlbəcərin ən uca zirvəsinə taxacaq bayrağımızı.

**GÜLÜSTAN**. Sən elədin, Hümbət, bax, beləcə yava-yava danışıb başdan elədin balamı. Sən göndərdin onu odun-alovun içinə.

**HÜMBƏT**. Mən niyə, aaz? Onun öz qeyrətinə nə gəlmişdi?

**GÜLÜSTAN**. Budu, iyirmi gündü... Bir telefon zəngi nədi, o da yoxdu. Sən də oturub televizordan xəbər gözləyirsən. Balamın nə öldüsündən xəbər var, nə qaldısından.

**ANAQIZ**. Ana, o nədi deyirsən, öldü nədi?

**GÜLÜSTAN**. Mən nə dediyimi yaxşı bilirəm.

**HÜMBƏT**. Pisniyabətsən, Gülüsdan, pisniyabət.

**GÜLÜSTAN**. Qız gecə-gündüz telefon eləyir, yer qalmadı soruşmayaq, gördüm deyən yoxdu, buna nə sözün?

**HÜMBƏT**. Heç qərəldən getmə, Bəşirin qızı, ürəyini də buz kimi saxla, Murad duşmənə can verən oğul deyil.

**ANAQIZ** *(telefon qulağındadır)* Zəng gedir!

**GÜLÜSTAN**. A yeri-göyü yaradan...

**ANAQIZ**. Hə, cavab ver, bacı qurban, hay ver.

**HÜMBƏT**. Nədi, az, niyə danışmırsan?

**ANAQIZ**. Cavab yoxdu. Zəng gedir, hay verən yoxdu.

**GÜLÜSTAN**. Az, zəng gedirsə, niyə cavab vermir?

**ANAQIZ**. Nə bilim, bəlkə cavab verə bilmir, ya da...

**HÜMBƏT**. Ə, siz niyə qanmırsınız? Orda telefonla danışmaq qadağandır. Qaçay da deyir, döyüş vaxtı telefon açmaq düşmənə yerini demək kimi bir şeydi.

**GÜLÜSTAN**. Bilmirəm, kim nə deyir, nə söyləyir... Şoqərib ürəyimə damıb, balamın başında qəziyə var *(ağlayır).*

**HÜMBƏT**. Yasxana açmayın, az; ana-bala!

**GÜLÜSTAN**. Dedim inəyin birini sat ver, gədəyə dəyməsinlər. Mən dedim, mən eşitdim.

**HÜMBƏT**. Nə deyir, ə, bu? Az, Gülüsdan, mən oğlunu davadan gizləyən kişiyəm?

**GÜLÜSTAN**. Gizlətmək niyə? Qaçay gədəsini gizlədib? Sıpa boydadı, əkə-əkə gəzir kəndin ortasında, allah qoysa guya tələbədi bu. Bilmirəm Dağıstanmı, Özbəkistanmı... kağız alıb ki, tələbədi. Sən də elə bir kağız ala bilməzdin?

**HÜMBƏT**. Qaçay özü bilər, Gülüsdan, mən davadan oğul qaçırdan kişi deyiləm. Bir oğul ki anasını, bacısını, evini, torpağını qorumayacaq, nə oğuldu o? Bu canım ölsün, qoysalar, bu yaşımda tüfəng götürüb özüm gedərəm davaya, baxmaram kim gedir, kim getmir, niyə getmir.

**GÜLÜSTAN**. Dalın da de, danış.

**HÜMBƏT**. Nəyin dalın deyim, az?

**GÜLÜSTAN**. Dalı belə odu ki, mən şəhid Fəddahın belindən gəlmişəm, özünü qayadan atan Güleyşənin südünü əmmişəm.

**HÜMBƏT**. Nədi, az, bəlkə mən Fəddahın yox, başqasının oğluyam? Ya anam Güleyşə qayadan atmayıb özünü?

**GÜLÜSTAN**. Odu ha, indi həmişəki dastanın oxuyacaq.

**HÜMBƏT**. Atana lənət məni qınayan! Dastan niyə, az? *(Anaqıza işarə ilə)* Bu bilməz, onda heç izi-tozu da yox idi, sən ki bilirsən. 93-də kənddən qaça-qaç düşəndə, arvad demədi, siz gedin, mən ata-anamın, şəhid Fəddahın qəbrini yiyəsiz qoyub getmərəm? Yalvardım-yaxardım, ilan dili çıxardım, eşitmədi, ağladım, yaxamı cırdım, xeyri olmadı. Əlacsız qalıb sizi birtəhər yola saldım, niyə çıxıb yadından? Dedim, nənə, səni burda qoyub getməkdən ölüm yaxşıdı. Güllə səsindən, top gurultusundan da qulaq tutulur. Görürəm, düşmən lap yaxındadır, arxa qansız düşmən, qabaq dibi görünməyən uçurum. Tanıdığım xəlvət bir cığır da vardı, ordan qaçıb canımızı qurtara bilərdik. Bu yerdə arvad "Səni and verirəm dədən Fəddahın goruna, mənimlə işin olmasın, yeri get, balaların var". Dedim, sənsiz getməyəcəm, nənə. Onda arvad məni qarğıdı, söydü, şapalaqladı, üzümə tüpürdü. Görəndə dirənmişəm, o yumaq boyda arvad məni nətəər itələdisə, tab gətirməyib arxası üstə yıxıldım. Yerimdən qalxanda gördüm arvad uçuruma açılan qayanın lap ucundadır *(başından papağını sivirib üzünü gizlədir, bir müddət susur və boğuq səslə davam edir.)* Özümü yetirib onu saxlamaq istədim, çata bilmədim, əlimdə rəngi çoxdan soluxmuş kəlağayısı qaldı.

**GÜLÜSTAN**. Bəs mənim balamın taqsırı nədi, Hümbət?

**HÜMBƏT**. Qisas vaxtı yetişib, Gülüsdan, mənim eləyə bilmədiyimi Murad eləyəcək, Kəlbəcəri düşməndən alacaq, nənəsinin qanını yerdə qoymayacaq. Yola salanda arvaddan qalan kəlağayını verdim ona. Dedim bayrağı torpağımıza sancanda, otuz il saxladığım bu yadigar örpəyi də sər yamaca. Qoy özünü kişi qızı kimi həlak eləyən Güleyşə anamın ruhu dincəlsin gor evində.

**GÜLÜSTAN**. Siz təslim elədiniz torpaqları düşmənə, geri almağı bizim tifillərin boynuna qoydunuz. Mənim balam Kəlbəcərin heç iyini-qoxusunu bilmir, amma bayrağı o sancmalıdı, eləmi, Hümbət?

**ANAQIZ**. Ana, düz danışmadığını özün də bilirsən. Hər zamanın öz hökmü var, hər kişinin də öz qisməti.

**GÜLÜSTAN**. Az danış, az! Yeri poşta dəy, bəlkə bir xəbər oldu.

**ANAQIZ**. Poçtda nə xəbər olacaq, indi kağız, məktub zamanıdı? Telefon olan yerdə kimdi kağız yazan?

**GÜLÜSTAN**. Bə niyə zəng eləmir?

**HÜMBƏT**. Ə, bu arvad musurmanca bilmir ey! Az, demirəm telefon açmağa icazə yoxdu? Deyir nə qədər əsgər elə telefonun badına gedib.

**ANAQIZ**. Ata, Müdafiə nazirliyinə yazaq, cavab versinlər.

**HÜMBƏT**. Kim cavab verəcək sənin yazdığına? Ölüm-dirim məsələsidi ey... Heç ölənlərimiz barədə söz demirlər; hərbi sirdi.

**GÜLÜSTAN**. Neynək, oturaq gözləyək, görək nə vaxt vay xəbəri çıxacaq balamın *(kəlağayısı ilə üzünü örtür).*

**HÜMBƏT**. Bizi müharibə yox, sən öldürəssən, Gülüsdan.

**GÜLÜSTAN**. Hümbət, Murada bir şey olsa, nöyütü töküb üstümə yandıracam özümü *(gedir).*

**ANAQIZ**. Murad gedəndən ananı elə bil tamam dəyişiblər. Həmişəki səbri-hövsələsi, təmkini qalmayıb.

**HÜMBƏT**. Bədbaxt qızı höyl eləyir... Elə mən də özümə yer tapa bilmirəm. Bağrım çatlayır *(popiros çıxarır, yandırmır).*

**ANAQIZ**. Kəndin yarısı bizim günümüzdədir. Əfqanın qara xəbəri gəlmədi?

**HÜMBƏT**. Gör hara getdi? Bir oyun çıxarmasa yaxşıdır.

**ANAQIZ**. Yasa getdi, Əfqanın üçüdü, ağlamağa yer axtarır.

**HÜMBƏT**. Yeri onun dalınca, qoyma çox otursun orda.

**ANAQIZ**. Mən də gedirəm, Əfqanla bir sinifdə oxumuşduq *(gedir).*

**HÜMBƏT**. Allah murdar düşmənin tifağını dağıtsın! Yox, Allaha ümid olsaq, uzun çəkər, biz özümüz dağıdacağıq onun tifağını, iti qovan kimi qovacağıq çıxdığı yerə qədər. İt uşağı! *(Tüpürür).*

*Qapı döyülür.*

Bu kim ola, balam? Qapı döyürsə, nabələd adamdı *(qapıya tərəf gedir).*

**HÜMBƏT** *(Səhnə arxasından səsi gəlir).* Lap düz gəlmisən, oğul, Hümbətin evi buradı, Hümbət də elə mən özüməm. Gəl, gəl içəri.

*Qabaqda Hümbət, dalınca əsgər geyimində qoltuq ağaclarının köməyi ilə yeriyən Cəmil gəlir. Hiss olunur ki, qoltuq ağaclarına hələ yaxşı alışmayıb, çətinliklə yeriyir.*

**HÜMBƏT**. Gəl, gəl otur, oğul, xoş gəlmisən, burdan otur, bura rahatdır. Əsgər bu gün ölkənin ən hörmətli, ən şərəfli adamıdır. Sizə bizim canımız qurbandır.

**CƏMİL**. Çox sağ ol, Hümbət əmi *(çətinliklə göstərilən yerdə oturur).*

**HÜMBƏT**. Uşaqlar yasa gediblər, şəhidimiz var, ona görə çay-çörək təklif eləyə bilmirəm.

**CƏMİL**. Ehtiyac yoxdu, Hümbət əmi, tez gedəcəm...

*Sükut çökür.*

**HÜMBƏT** *(pıçıltı ilə).* Muraddan xəbər gətirmisən?

*Cəmil başını təsdiq əlaməti kimi tərpədir.*

Sağdır? Yaralıdır? *(Cəmilin cavab vermədiyini görüb diz üstə onun qabağına düşür və içdən gələn pıçıltı ilə)* Şəhid olub?

**CƏMİL**. Bilmirəm...

**HÜMBƏT**. Bilmirəm nədi, ə? Bəlkə itkin düşüb, əsir alıblar, amma... Murad əsir düşən oğul deyil.

**CƏMİL** *(sakit səslə danışır.)* Ölüm-dirim döyüşü idi. Düz dörd gündü vuruşurduq, ac-susuz, yuxusuz... Su içməyə belə imkan yox idi... Əslində, su çoxdan qurtarmışdı, arxa ilə əlaqəmiz qırılmışdı...

**HÜMBƏT** *(pıçıltı ilə)* Mühasirəyə düşmüşdünüz?

**CƏMİL**. Muradla yanaşı vuruşurduq. Davanın ilk günündən dost olmuşduq, bir-birimizə söz vermişdik, döyüşdən sağ çıxan şəhidlik xəbərini ailəsinə şəxsən özü çatdıracaq. Məktub da yazmışdıq ailəmizə, onun məktubu məndə, mənimki onda idi.

**HÜMBƏT**. Dedin su da qurtarmışdı?

**CƏMİL**. Su? Nə su? Hə, qurtarmışdı. Döyüş sursatı da tükənmişdi, amma biz necə olursa-olsun, düşmənin atəş nöqtəsini susdurmalı idik. İtkimiz çox oldu, sayımız az idi, bizi şəksiz ölüm gözləyirdi. Bax, onda Murad axırıncı qumbaraları götürüb qəfil səngərdən çıxdı, mən onu saxlaya bilmədim, komandirin əmrinə də tabe olmadı. Bircə anın içində dəhşətli bir gurultu eşitdik... Dalınca da dərin bir sükut... Dörd gün qulaqbatıran fasiləsiz partlayış səslərindən sonra bu müdhiş sükut çox qorxulu idi.

**HÜMBƏT**. Sükut nədi, ə? Müharibədə sükut olar?

**CƏMİL**. Murad qarşı tərəfi susdurmuşdu, biz qalib gəlmişdik.

**HÜMBƏT**. Bəs... Bəs, Murad?! Murad necə oldu?

**CƏMİL**. Orda sağ adam qalmamışdı.

**HÜMBƏT**. Nə deyir, ə, bu?

**CƏMİL** *(əsəbi şəkildə qışqırır.)* Orda sağ adam qalmamışdı.

**HÜMBƏT**. Ə, mən səndən Muradı soruşuram!

**CƏMİL**. Meyid meyid üstünə qalanmışdı. Bir düşmən də sağ qalmamışdı. Murad hamısını partlatmışdı. Ölməyib çapalayanları da biz cəhənnəmə vasil elədik.

**HÜMBƏT** *(boğuq səslə qışqırır.)* Murad şəhid oldu?

**CƏMİL**. Dedim, axı, orda sağ adam qalmamışdı, qala bilməzdi.

**HÜMBƏT**. Ə, başına dönüm, sən nə deyirsən? Nətəər yəni sağ adam qala bilməzdi? Axı, Murad erməniyə can verən oğul deyildi.

*Cəmil iki əli ilə başını, sonra gicgahlarını sıxıb susur.*

Dillənmir, ə, bu. Niyə susdun, ə, başına dönüm sənin?

**CƏMİL**. Mən bunu sizə deməliydim, gəlib deməliydim. Mən ona söz vermişdim.

**HÜMBƏT**. Axı, onun dirisi, ya ölüsü qalmalıydı. Axı, bunun ruhu uçdu getdi, bəs cismi, canı? O ki yox ola bilməzdi.

**CƏMİL**. Orda elə bir vəziyyətdi ki... Ölü tapmağa, meyid tanımağa macal yoxdu, biz irəli getməliydik, getdik də.

**HÜMBƏT**. Deməli, sən dostunun meyidini erməni dığalarının leşi ilə bir yerdə qoyub qaçdın?

**CƏMİL**. Mən qaçmadım, biz hücuma keçdik, ağır yaralandım, az qala hər iki ayağımı itirdim, neçə vaxt komada qaldım.

**HÜMBƏT**. Sən onun meyidini görmədin, tanıya bilmədin?

**CƏMİL**. Murad qəhrəmanlıqla şəhid oldu *(gözündən yaş sıçrayır).*

**HÜMBƏT**. Bə niyə ağlayırsan? *(Səsini qaldırır.)* Azərbaycan əsgəri ağlamaz!

**CƏMİL**. Bu bəd xəbəri sizə vermək mənim üçün çox çətin oldu.

**HÜMBƏT**. Bəd xəbər... Çox yumşaq dedin *(əlləri ilə başını tutub bir neçə dəfə irəli-geri hərəkət edir və az qala qışqırır.)* Sən heç ürəyini sıxma, sən bizə bəd xəbər yox, xeyir xəbər gətirmisən. Təbrik elə məni, de, gözün aydın, Hümbət əmi, oğlun şəhid oldu, Murad qəhrəman kimi şəhidlik zirvəsinə ucaldı.

**CƏMİL** *(çaşqınlıqla bir müddət Hümbətə baxır, sonra kəskin hərəkətlə göz yaşlarını silir, qoltuq ağaclarının köməyi ilə ayağa qalxır, ağacları atıb çətinliklə farağat vəziyyəti alır).* Gözün aydın, Hümbət əmi, oğlun Murad vətən yolunda qəhrəmanlıqla şəhid oldu. Gözün aydın! *(Hayqırır).* Qarabağ Azərbaycandır!

**HÜMBƏT**. Qarabağ Azərbaycandır!

*Qabaqda Gülüstan, arxada Anaqız gəlir. Onlar Cəmili görüb ayaq saxlayırlar.*

**GÜLÜSTAN**. Hümbət, bu əsgər... Allah, sən saxla!

**HÜMBƏT**. Nə tez qayıtdınız, az? Yası dağıtdılar?

**ANAQIZ**. Eşitdik qonağımız var.

**GÜLÜSTAN** *(Cəmilə)* Muraddan xəbər gətirmisən?

**HÜMBƏT**. Hə, Gülüsdan, özü də xeyir xəbər gətirib.

**GÜLÜSTAN**. Onun xeyir xəbər gətirən dilinə qurban olum! *(Cəmili qucaqlayır.)* Başına dönüm, danış, sənin dilindən eşidim, Muradım salamatdırmı? Yaralı deyil ki?

**ANAQIZ**. Ana, qoy qonağımız otursun, yaralıdır.

**GÜLÜSTAN**. Buy, Allah məni öldürsün! Otur, qurbanın olum, sənə yara vuranın balası yaralı qalsın!

**CƏMİL**. Mən getməliyəm, qospitaldan xəlvət çıxmışam, xəbərsiz. Getməliyəm.

**GÜLÜSTAN**. Ə, başına dönüm sənin, bəs Muraddan danışmayaq?

**CƏMİL**. Hümbət əmiyə demişəm. Kastellərim...

*Anaqız qoltuq ağaclarını döşəmədən qaldırıb Əsgərə verir.*

**HÜMBƏT**. Get, oğul, get, halal olsun sənə bu torpağın havası, suyu.

**GÜLÜSTAN**. Hümbət, axı, belə qonaq qarşılamazlar.

**HÜMBƏT**. Dəymə, Gülüsdan, qoy getsin.

**CƏMİL** *(cibindən kağız çıxardır.)* Bu, Muradın məktubudur.

*Anaqız məktubu alır. Üstünə baxır.*

**ANAQIZ**. Muradın xəttidir *(məktubu öpür).*

**GÜLÜSTAN**. Ver görüm, Anaqız. *(Məktubu alıb burnuna sıxır).* Vallah, balamın iyi gəldi burnuma, Muradın iyidir *(ağlayır).*

**HÜMBƏT**. Qonağımızı yola salım, buralara nabələddir.

*Hümbət Cəmillə gedir.*

**ANAQIZ**. Mama, ver görüm, nə yazıb?

**GÜLÜSTAN**. Atan necə oldu, az, hara getdi?

**HÜMBƏT** gəlir. Pəncərənin qabağına keçir.

**GÜLÜSTAN**. Hümbət, de görüm balamın başında nə var, o nə xeyir xəbərdi ki, üzün gülmür, qara geyib göy çalırsan?

**HÜMBƏT**. Gülüsdan, gözün aydın! *(Kövrəlir, danışa bilmir).*

**GÜLÜSTAN**. Danış, Hümbət, dillən, bağrım çatladı.

**HÜMBƏT** *(hayqırır).* Gözün aydın, Gülüsdan, oğlun Murad vətən yolunda şəhid olub!

*Gülüstan quruyub qalır. Anaqız onu qucaqlayır.*

Anaqız, gözün aydın, qardaşın şəhidlik zirvəsinə ucaldı! *(Bağırır.)* A kənd, ay el-oba, gözünüz aydın, Murad Hümbət oğlu Vətən yolunda canını qurban verdi, şəhid oldu. Hamınız gəlin gözaydınlığa. Bax, budu deyirəm, bir kopolu-kopaqqızı Allah Murada rəhmət eləsin desə, onu özüm güllələyəcəm *(qəfil divardan asılmış köhnə qoşalülə tüfəngi qapıb qaçaraq çıxır).*

*Səhnə arxasından dalbadal açılan atəş səsləri eşidilir.*

## *II SƏHNƏ*

*Həmin məkandır. Bir neçə yaşlı kişi dövrələmə masa arxasında əyləşib. Qabaqlarında çay var. Masanın baş tərəfində Hümbət oturub.*

**I KİŞİ** *(Muradın şəklinə işarə ilə)* Gör nətəər oğulu itirdik.

**MÜƏLLİM**. Ən yaxşı şagirdim idi. Deməzdim əlaçı idi, yox, dərslə sən deyən arası yoxdu, amma necə mərd oğuldu, qorxmaz, igid, vətənpərvər. Boy-buxun da, maşallah, pəhləvan! Yaxşı da qələmi vardı, şeir yazırdı. Hayıf ondan!

**II KİŞİ**. Hayıf dedin qoydun, müəllim?! Fəxr eləməli oğuldu. Allah rəhmət eləsin, yeri behişt olsun!

**I KİŞİ**. Şəhidin yeri elə cənnətdir, biz desək də, deməsək də.

**HÜMBƏT** *(heç kəsin üzünə baxmadan)* Murada Allah rəhmət eləsin deməyin. Mənim oğlum qəzaya düşməyib, qız üstündə bıçaqlanmayıb, xəstəlikdən ölməyib, o, qəhrəman igid kimi şəhid olub. Mənə gözün aydın

deyin. Deyin, Murad şəhid olub, gözün aydın, Hümbət, şəhid atası! Qoy bütün kənd bilsin, şəhid xəbəri almaq bəd xəbər deyil, xeyir xəbərdir. Xeyir işdə də gözaydınlığı verərlər. Bu həm də Muradın ismarışıdı.

*Anaqız, əlində sini, gəlir, boşalmış stəkanları yığır.*

Qızım, Muradın məktubunu gətir.

**ANAQIZ**. Məktubu neynirsən?

**HÜMBƏT**. Dedim, kağızı gətir, yek kəlmə!

**ANAQIZ**. Yaxşı, indi gətirirəm *(gedir).*

**MÜƏLLİM**. Muradın məktubu dedin, Hümbət?

**HÜMBƏT**. Bəli, müəllim, şəhid olmamışdan qabaq yazıb. Döyüş yoldaşı gətirmişdi. Elə xeyir xəbəri də o verdi bizə. Hər şey gözünün qabağında olub. Oğlan danışır... yadıma düşdü, Cəmildi adı, hər iki ayağından da ağır yara alıb. Onu deyirdim axı, danışır, gözündən sel-su axır, mən oldum yalan, o gerçək.

**II KİŞİ**. Hümbət, bir danış görək hadisə nətəər olub?

**HÜMBƏT**. Nətəər olacaq, əsil müharibədə olan kimi, amma Muradın işi göstərmə olub, heç bir davada belə igidlik göstərən olmayıb. Xəbər gətirən dostu deyir ki, Murada mütləq qəhrəman adı verilməlidir.

**MÜƏLLİM**. Halal olsun!

**I KİŞİ**. Başımızın ucalığıdır.

**HÜMBƏT**. Yeddi gün dalbadal, nəfəs dərmədən döyüşüblər. Füzuli tərəfdə. Balası ölmüş düşmən Muradgilin dəstəsini bir addım da irəliləməyə qoymayıb. Komandir deyib, biz düşməni canımız-qanımız bahasına olsa da, susdurmalıyıq. Bu döyüşdə qalib gəlməsək, Füzulini ikinci dəfə uduzarıq. Onda Murad qadasın aldığım axırıncı beş-on qumbaranı götürüb, güllə kimi çıxıb səngərdən. Dostu deyir, hər şey bir göz qırpımında baş verdi. Mən onu saxlaya bilmədim - yanaşı vuruşurmuşlar. Komandir qışqırıb, Murad Hümbət oğlu, geri qayıt! Belə vaxtda Murad sözə baxandı?! Gözünə döndüyüm atıb özünü düşmən səngərinə. Oğlan deyir, Hümbət əmi, elə bir gurultu qopdu, sözlə deyiləsi deyil. Dalınca da dərin bir səssizlik, sükut. Bax, elə bilin mən yox, o igid əsgər danışır. Deyir, bu qorxulu bir sükut idi. Danışıram, tüklərim biz-biz olur. Mən deyirəm, ay oğul, müharibədə sükut olar? Deyir, bilmirəm, bəlkə qulaqlarım batmışdı.

**MÜƏLLİM**. Bəs Murad özü necə olub?

**HÜMBƏT**. Oğlan deyir, düşmən səngərində salamat bir adam qalmamışdı, hamısı it kimi gəbərmişdi.

**MÜƏLLİM**. Bəs, Murad?

**HÜMBƏT**. Murad təkbaşına düşməni darmadağın elədi. Nə qədər igid əsgərimizi ölümdən qurtardı.

**I KİŞİ**. Bəs...

**HÜMBƏT**. Elə mən də onu soruşdum, o da hönkürüb deyir, orda sağ adam qallmamışdı.

**II KİŞİ**. Bəs niyə binəvanın bayrağa bükülü meyidini gətirməyiblər?

**HÜMBƏT**. Ə, bu basabasda meyid gətirərlər, Hüseynalı? Bütöy ölkə ölüm-dirim savaşında, sən də bayrağa bükülü meyiddən dəm vurursan? Bu qız harda qaldı? Anaqız, quyuya düşdün?

*Anaqız, əlində kağız, gəlir.*

Oxu, qoy millət görsün mən Vətən üçün necə oğul böyütmüşəm.

**MÜƏLLİM**. Hümbət, indi sən Muradı bizə tanıdassan?

**I KİŞİ**. Cəmi şəhidlər hər birimizin balasıdır.

**HÜMBƏT**. Anan hardadı, az, o niyə görükmür?

**ANAQIZ**. Harda olacaq, namazda.

**HÜMBƏT**. Sən öl, məni oğul dərdi yox, bu arvad öldürəcək. O gündən nə yeyir, nə içir, nə bir əməlli danışır. Heç ağlamır da ürəyi boşala. Ya əyilir - qalxır, ya da eləcə müqəvva kimi donub qalır.

**II KİŞİ**. Təkcə, madar oğlu şəhid olan ana neynəməlidi, Hümbət?

**HÜMBƏT**. Oxu, qızım, ürəklə oxu.

**ANAQIZ** *(oxuyur.)* İgid atam, mehriban anam, sevgili bacım... *(kövrəlir, bir müddət oxuya bilmir).* Bu məktubu müharibəyə gəldiyim ilk günlərdə yazıb dostum Cəmilə verdim.

**HÜMBƏT**. Xəbəri gətirən əsgərin adıdır.

**ANAQIZ**. Əgər sizə bu məktubumu oxumaq qismət olsa, deməli, mən artıq yoxam, şəhid olmuşam. Onda, atam, bilirəm, ağlamayacaqsan, başını dik tutub şəhid oğlunla fəxr edəcəksən...

**HÜMBƏT**. Kopolu bilir də xasiyyətimi.

**ANAQIZ**. Gözəl anam, ipək anam, göz yaşlarını axıtma, qəddini şax saxla, şəhid oğlunla öyün. Bircə xahişim var, namaz üstdə mənə dualar elə. Sevimli bacım *(məktubu üzünə sıxır, çiyinləri səssiz titrəyir)...*

**I KİŞİ**. Söküldü, ə, mənim ciyərim... *(dəsmalını gözünə sıxır).*

**ANAQIZ** *(toxtaq səslə, bir az da ucadan).* Sevimli bacım, ağı demə, şivən qoparıb yanaqlarını cırma, hamınız bilin, şəhidlik yolunu mən özüm seçdim. Sizi murdar düşməndən qorumaq üçün. Vətənim üçün, Qarabağ üçün, heç vaxt görmədiyim Kəlbəcərin azadlığı üçün. Düşmən əlinə keçməsin deyə özünü uçuruma atan nənəm Güleyşənin hayıfını almaq üçün. Yazıram, amma məndə dəli bir inam var, bu məktubu sizə özüm oxuyacam; Qarabağı, Şuşanı, Füzulini, Zəngilanı, Laçını, Ağdamı, nəhayət ana yurdum Kəlbəcəri mənfur düşməndən xilas edəndən sonra. Kəlbəcərin ən uca zirvəsində bayrağımızı özüm ucaldacam. Ata, sənin 29 illik ana nisgilinə son qoyacam, müqəddəs arzunu yerinə yetirəcəm, nənəm Güleyşənin yadigar yaylığını həmin qayanın üstünə sərəcəm. İndi isə məni müqəddəs savaş gözləyir, Füzuli istiqamətində hücuma keçməliyik. Füzulinin azad olunması bu müharibənin taleyini həll edəcək. Mən döyüşə inamla gedirəm. Biz mütləq qalib gələcəyik. Atam Hümbət Xanlar oğlu, heç vaxt əlini öpməmişəm, indi öpürəm. Mənim ipək anam, hər gün mənə görə dolub-boşalan gözlərindən öpürəm, sevimli bacım, səni xoşbəxt

görmək ən böyük arzumdur. Görə biləcəyəmmi? Di əlvida, döyüş başladı, mən hücuma keçirəm! Allahu Əkbər!

**I KİŞİ**. Bərəkallah!

**ANAQIZ**. Sizin şəhid oğlunuz Murad Hümbət oğlu Kəlbəcərli *(qəfil hönkürür, əllərini gah başına, gah da masaya çırpa-çırpa "qardaş", "Murad" deyib qışqırır).*

**HÜMBƏT**. Anaqız, qardaşın Muradın şəhid canına and olsun, bir güllə sənə, birini də özümə vuraram. Dur rədd ol burdan, itin qızı!

*Anaqız qaçaraq gedir. Otağa dərin sükut çökür. Hannan-hana Müəllim dillənir.*

**MÜƏLLİM**. Hayıf, bu gözəl məktubu oxumaq onun özünə qismət olmadı.

**II KİŞİ**. Rəhmətlik körpəliyindən odyaloydu. Özündən böyük gədələrlə tutaşardı. Həmişə də döyərdi, döyüləndə də geri durmazdı. Hayıf, hayıf!

**MÜƏLLİM**. Bir dəfə Qaçayın gədəsi Osmanla tutaşanda bunun burnu qanadı.

**I KİŞİ**. Müəllim, Osman Muraddan üç-dörd yaş böyükdü, özü də sıpa boyda.

**MÜƏLLİM**. Bəs, mən nə deyirəm? Bu canım ölsün, rəhmətlik özündən iki dəfə yekə Osmanın yaxasından nətəər yapışdı?! Osman nə illah elədi, Muradın əlindən çıxa bilmədi.

**II KİŞİ**. Ət yeyən quş dimdiyindən bəllidi, müəllim.

**HÜMBƏT**. Nə yaxşı dedin, Hüseynalı. İki yaşı ola ya olmaya, qoydum bunu bir dəli atım vardı onun belinə.

**II KİŞİ**. Kənddə hamı o ata dəli ceyran deyirdi.

**HÜMBƏT**. Həə, vaxt varıydı... allah erməninin evini yıxsın! Uşaq olan kəs bir ağlaya, qışqıra. Yox e, o körpə, totux əlləri ilə yapışdı atın yalından. At gözünə döndüyüm buna bəndmiş, qəfil qopdu yerindən, saxlaya da bilmədim. Ürək-göbəyimi yedim. Di gəl, kopolu atdan yıxılmadı... *(susur, hiss olunur ki, danışa bilmir).*

**MÜƏLLİM**. Tayı-bərabəri yoxdu rəhmətliyin. Hayıf, hayıf!

**HÜMBƏT**. Müəllim, vallah, inciyirəm, çox inciyirəm, igidimizə rəhmət oxumayın, mənə gözün aydın deyin. Şəhid ölmür axı! Şəhid diridir. Nətəər deyirlər: şəhidlər ölməz, vətən bölünməz!

**MÜƏLLİM**. Düz deyirsən, Hümbət, lap düz deyirsən.

*Ayağa qalxır, işarə eləyir, o biri kişilər də qalxır.*

Gözün aydın, Hümbət Xanlar oğlu! Gözün aydın, şəhid atası! Murad balamız elimizin başını uca elədi, vətən yolunda qəhrəmanlıqla şəhid oldu. Gözün aydın! Gözümüz aydın!

**II KİŞİ**. Gözün aydın, Hümbət kişi!

**I KİŞİ**. Allah rəhmət eləsin demirəm, şəhidin yeri onsuz da cənnətdir, inşallah! Gözün aydın, qardaş!

*Kişilər bir-bir Hümbəti qucaqlayıb gedirlər. Hümbət bir müddət gedənlərin arxasınca baxır, sonra ləng hərəkətlə oturur. Bir müddət məchul bir nöqtəyə baxır. Süfrədəki şirin çörəyin iri bir parçasını götürüb tələsə-tələsə yeyir.*

*Anaqız əlində sini gəlir, süfrədə qalan stəkanları yığır. Atasının yeməyi diqqətini cəlb edir. O, bir müddət kişinin qeyri-sağlam iştahla yeməyinə baxır. Əlindəki işini yarımçıq qoyub onun yanında oturur.Narahatlıq qarışıq təəccüblə kişiyə baxır. Hümbət qıza fikir verməyib yeməkdə davam edir.*

**ANAQIZ**. Sənə nəsə oldu?

**HÜMBƏT** *(çeynəyə-çeynəyə)* Nədi ki?

**ANAQIZ**. Elə yeyirsən, elə bil üç gündür acsan.

**HÜMBƏT** *(duruxur).* Həə?! *(Tikəsini çətinliklə udub qalan çörəyi yerinə qoyur).* Ta yemərəm.

*Anaqız qalxıb stəkanları aparır.*

**HÜMBƏT** *(pıçıldayır).* Gözün aydın, Hümbət, it oğlu it, gözün aydın, təkcə oğlun, madar balan şəhid oldu. Birdəfəlik söndü çırağın, şəhid atası *(papağını sivirib üzünə sıxır, boğuq hönkürtü ilə ağlayır. Bu, ağlamaqdan çox böyürməyə, bəlkə də öyüməyə bənzəyir).*

***III SƏHNƏ***

*Həmin məkandır. Səhnə boşdur. Bir azdan Gülüstan gəlir. Başında qara örpək, əlində bir tay boğazlı köhnə kişi ayaqqabısı var. Kətildə oturub bir xeyli ayaqqabıya baxır, burnuna yaxınlaşdırıb iyləyir.*

**ANAQIZ** *(qaçaraq gəlir, nəfəsi kəsilə-kəsilə coşqu ilə qışqırır.)* Gözün aydın, Ana, gözümüz aydın *(Gülüstan diksinir),* Füzulini aldıq! Düşmən dabanına tüpürüb qaçır. İnternetdə deyiblər. Televizoru yandırım, xüsusi xəbər olmalıdı. Bu nədi, ana, neynirsən? O ayaqqabını niyə iyləyirsən?

**GÜLÜSTAN**. Muradın çəkməsidi.

**ANAQIZ**. Onda danlayırdın Muradı, ayağını tez-tez yu deyirdin, çəkmələrin it iyi verir.

**GÜLÜSTAN**. Siz bunu bilməzsiniz, nə şəhid atası dədən Hümbət, nə də şəhid bacısı sən Anaqız.

**ANAQIZ**. Ana, bu qədər özünə qapanma, bir ətrafa da bax, ölkə ayaq üstədir, Vətən müharibəsi gedir, şəhid olan da tək Murad deyil. Niyə uzağa gedirik, ovuc boyda kəndimiz az vaxtda yeddi şəhid verib.

**GÜLÜSTAN**. Murad yoxdur *(çəkməni burnuna sıxır).* Yoxdu mənim madar balam, yoxdu... *(qışqırır).* Yoxdur!

**ANAQIZ**. Düz deyirsən, Murad şəhid olub, yoxdur, amma qardaşım havayı yerə şəhid olmayıb, ana. Murad kimi oğullar vuruşmasaydılar, şəhid olmasaydılar, biz Füzulini azad eləyə bilməzdik.

**GÜLÜSTAN**. Balam olmayandan sonra neynirəm haranı alıblar, haranı veriblər?

**ANAQIZ**. Elə danışma, ən azı günahdı. Bəlkə günüz axşamacan Fəth surəsini oxuyan sən deyilsən?

**GÜLÜSTAN**. Tərpətmə məni, Anaqız, tərpətmə. Qəbiri də yoxdu tifilimin.

**HÜMBƏT** *(gəlir)*. Qurban olum Azərbaycan əsgərinə! Eşitmisinizmi, az, Füzulini almışıq. Hökümət hələ bir söz deməyib, amma nağdı söhbətdi. Yəqin bir azdan prezident özü deyəcək. Yandır, az, televizoru.

ANAQLZ. Yandırmışam.

**HÜMBƏT**. Dedilər Bakıdan bir sürü televizor adamı gəlib, muxbirdilər. Bizə də gələcəklər. Çayı isti saxlayın. Muradı çəkmək istəyirlər.

*Gülüstan çəkməni sinəsinə sıxıb səssizcə ağlayır. Hümbət ona baxır, məzəmmətlə başını bulayır.*

Anaqız, bir stəkan çay ver, dilim ağzımda çönmür. Yəqin şəkərim qalxıb.

*Qəfil səs-küy düşür, qışqırıqlar, fişəng səsləri eşidilir. İşıqlar yanır-sönür, yanır-sönür... Bu qışqırıqlar içərisindən "Qa-ra-bağ! Qa-ra-bağ!" sözləri aydın eşidilir.*

**HÜMBƏT**. Anaqız, dedim axı, televizorun səsini ver, kişi danışmalıdı.

*Televizorun ekranı görünməsə də İlham Əliyevin səsi eşidilir.*

**SƏS.** Şanlı Azərbaycan ordusu öz xilaskarlıq missiyasını uğurla davam etdirir. Son günlər mən xalqıma xəbər verərək, yeni azad edilmiş kəndlərimizin adlarını açıqlamışdım. Bu gün də böyük məmnunluq hissi ilə, sevinc hissi ilə azad edilmiş növbəti yaşayış məntəqələrinin adlarını əziz xalqıma çatdırmaq istəyirəm. Bu gün Füzuli rayonunun aşağıdakı yaşayış məntəqələri işğalçılardan azad edilib - Qoçəhmədli kəndi, Çimən kəndi, Cuvarlı kəndi, Boyəhmədli kəndi, Musabəyli kəndi, İşıqlı kəndi, Dədəli kəndi və... Füzuli şəhəri! Füzuli şəhəri işğalçılardan azad edilib. Füzuli bizimdir! Qarabağ Azərbaycandır!

**ANAQIZ** *(vəcdlə qışqırır.)* Füzuli bizimdir! Qarabağ Azərbaycandır!

*Anaqızla Hümbət qucaqlaşırlar.*

**HÜMBƏT**. Füzuli bizimdir! Qələbə bizimdir! Eşit, Murad, Qarabağ – Azərbaycandır! *(Tüfəngini götürüb çıxır. Lap yaxında açılan güllə səsləri ümumi səs-küyə qarışır.)*

*Anaqız hələ də Muradın ayaqqabısını sinəsinə sıxıb sızıldayan anasına yaxınlaşır. Bir an hər ikisi bir-birinə baxır, hönkürüb qucaqlaşırlar.*

*Səs-küy, coşqu bir müddət davam edib fona çevrilir.*

**HÜMBƏT** *(gəlir.)* Ə, atam şəhid Fəddahın goru haqqı, mən indiyə qədər bu milləti tanımamışam! Camaat qoca demir, cavan demir, qız-gəlin demir, hamı qışqırır. Hönkür-hönkür ağlayanlar da bir tərəfdə. Ə, bu yaralı millət qələbəyə təşnə imiş. Siz də burda ağlaşırsız. Başa düşün, Füzulini murdar ermənidən bizim oğlumuz, şəhidimiz Murad Hümbət oğlu aldı. İnşallah, Zəngilanı, Qubadlını, Şuşanı, Laçını, Ağdamı, Kəlbəcəri də Murad alacaq. Gülüsdan, ağlamaq yox, öyünmək, sevinmək, fəxr eləmək lazımdır.

**GÜLÜSTAN**. Nə qədər istəyirsən fəxr elə, Hümbət, sevin, qol qaldır oyna.

**ANAQIZ** *(yanaqlarını islatmış göz yaşlarını silir.)* Ata, məni qınayan olmasa deyərdim, Muradın şəhid olmasından, camaatın səni şəhid atası kimi tanımasından çox xoşbəxtsən.

**HÜMBƏT**. Elədir, qızım, mən çox xoşbəxtəm, qoy qıraqdan baxanlar da elə bilsin. Sən bilən madar oğlu iyirmi üç yaşında şəhid olan köpəyoğlu ata neynəməlidi? Dizinə döyüb arvad kimi şivən qoparmalıdımı?

*Həmin məkandır. İşıq dəyişir, səhnə davam edir. Gülüsdan çəkməni bağrına basmış vəziyyətdə donub qalıb. Anaqız onu bir əli ilə qucaqlayıb. Hümbət monoloqun davamını televiziya müxbirinin uzatdığı mikrofona deyir.*

*Operator kameranı Hümbətə tuşlayıb.*

Mən ağı deyib ağlamayacam, şəhid balama görə heç kimə də minnət qoymayacam. İşğaldan azad etdiyimiz Füzuli uğrunda döyüşlərdə qəhrəmanlıqla həlak olmuş oğlum Muradın yüz faiz şəhid olacağını əvvəlcədən bilsəydim, yenə onu davadan saxlamazdım. Buna mənim ixtiyarım yoxdu. Mən at kimi oğlanlarını davadan, hərbidən yayındıran, xaricə qaçırdıb əvəzinə millətin balalarını davaya səsləyən, vətənə qurban deyən nadürüstlərdən deyiləm. Çox şükür ki deyiləm, yoxsa Birinci Qarabağ müharibəsində şəhid olmuş atam Fəddahın, şəhid anam Gülöyşənin yanına donuz sifətində gedərdim.

**MÜXBİR**. Sizin ananız da vuruşub?

**HÜMBƏT**. Onu kim dedi? Kişilər qırılmayıb ki arvadlar vuruşa.

**MÜXBİR**. Dediniz şəhid anam Gülöyşə.

**HÜMBƏT**. Bu bir özgə əhvalatdı...

**MÜXBİR**. Lütfən danışın, şəhidlərimizlə bağlı hər şey bizim üçün qiymətlidir.

**HÜMBƏT**. İyirmi doqquz il qabağın sözüdü. Murdar düşmən Kəlbəcərə soxulub əliyalın əhalini qıranda bir qaçhaqaç düşmüşdü, danışsam, təsvir eləsəm dilim quruyar. Bax, onda nənəm Gülöyşə, biz anamızı nənə çağırardıq, dedi Hümbət, avtamatı sinəmə dayasalar da, kəndimdən çıxmayacam. Nə illah elədim, arvadı fikrindən döndərə bilmədim. Onda mən də qalacağımı dedim. Bax, onda arvad bir göz qırpımında özünü qayadan atdı, əlimdə kollara ilişən kalağayısı qaldı.

**MÜXBİR**. Möhtəşəm!

**HÜMBƏT**. Muradı davaya yola salanda həmin kalağayını verdim ona. Dedim, oğul, bayrağımızı Kəlbəcərin ən uca zirvəsinə sancanda, iyirmi doqquz il qoruyub saxladığım bu yadigar kəlağayını həmin zirvənin yamacına sərərsən.

**MÜXBİR**. Nə gözəl istək, nə müqəddəs arzu!

**HÜMBƏT**. Hayıf ki, sən deyən kimi, o müqəddəs arzunu Murad yerinə yetirə bilmədi, qəhrəmanlıqla həlak olub yarı yolda qaldı, amma inanıram, vaxt gələcək o zirvəyə mən özüm qalxacam... *(Yanaqlarında yaş görünür, bir anlığa qəhər onu danışmağa qoymur və qəfildən hayqırır).* Qarabağ Azərbaycandır!

**MÜXBİR**. Bəli, Hümbət ata, Qarabağ Azərbaycandır! *(Operatora pıçıldayır.)* Qadınları çəkirik. *(Gülüstanla Anaqıza yaxınlaşır. Operator onları izləyir).* Bildiyimə görə, siz şəhidimizin anası, siz də bacısısız. Ana, sizin şəhidiniz bizim hamımızın, bütöv vətənimizin şəhididir.

**GÜLÜSTAN**. Xeyr, Murad mənim şəhidimdir, dərd də mənim öz dərdimdir.

**ANAQIZ**. İnciməyin, anam danışmaq halında deyil, atam nə lazımdır dedi.

**MÜXBİR**. Şəhidin atası ilə söhbət edəndə bir gözüm anada idi. *(Gülüstana).* Bu nə çəkmədi, sinənizə sıxmısız. Bunun sirri nədir, bəlkə...

**ANAQIZ**. Muradın ayaqqabısıdır.

**MÜXBİR**. Aman Allah... başa düşdüm, anladım, tüklərim biz-biz oldu. Ağlamamaq üçün ürəyin gərək daşdan olsun *(kamera üçün kövrəlir və kövrək səslə də davam edir).* Bu kiçik kənd yeddi igidini şəhid verib, amma qələbə əzmi kənd sakinlərinin heç birində qırılmayıb. Çünki bizim işimiz haqq işidir. Şükür, bu dəfə güc-qüvvə də haqqın tərəfindədir. Deməli, haqq qalib gələcək. Əziz şəhid atası, çox sağ olun. Allah şəhidimizə rəhmət eləsin!

**HÜMBƏT**. Burda saxla qızım, bu kənddə bir adamın ixtiyarı yoxdu Murada görə mənə başsağlığı verib, Allah rəhmət eləsin desin. Hamı mənə gözaydınlığı verir. Axı, şəhid ölmür, şəhidlik zirvəsinə ucalır, Murad da şəhidlik zirvəsindədir. Gözümüz aydın deyək! Siz də mənə gözaydınlığı versəniz yaxşıdır.

**MÜXBİR** *(operatora)* Hayıf, gərək söhbətə elə burdan başlayaydıq. Hümbət müəllim, bu sözləri, lütfən, bir də təkrar eləyin çəkək, sonra montaj eləyib qabağa salarıq. Olarmı?

**HÜMBƏT**. Niyə olmur, yalan ha demirəm.

**MÜXBİR**. Çıxaq evin artırmasına, ordan kəndə yaxşı mənzərə açılır.

**HÜMBƏT**. Nətəər məsləhətdi, elə də eləyək.

*Müxbir, operator və Hümbət çıxırlar.*

**ANAQIZ**. Ana, təzyiqini ölçüm, nəsə rəngin xoşuma gəlmir. Dərman içməmisən?

**GÜLÜSTAN**. Ölmək istəyən adam dərmanı neynir? *(Çarpayıya yaxınlaşır).*

**ANAQIZ**. Elə danışma, Allaha ağır gedər. Uzan üstünü örtüm, indi dərmanını da verəcəm.

**GÜLÜSTAN**. Heç nə istəmirəm, özün də məni izləmə *(çarpayıda oturur).* Pərdəni çək, heç kimi görmək istəmirəm. Bir onu görmək istəyirəm, o da yoxdu. Qəbri də yoxdu, üzümü torpağına sürtüm.

**ANAQIZ**. Mən səni belə zəif bilməzdim, ana... *(Şirmanı çarpayının qabağına çəkir).* Bu kişi hara getdi?

*Şirmanın arxasından Güldəstənin Fəth surəsini oxuyan pıçıltısı eşidilir. Anaqız bir müddət anasının səsini dinşəyir, başını bulayıb televizora yaxınlaşır.*

**ANAQIZ** *(Televizoru yandırır).* Bu nədir? *(Pıçıldayır.)* Murad? Allah, məni öldür! *(Qışqırır.)* Sağdır! Ana, Murad sağdır! *(Çarpayının qabağını örtmüş şirmanı kəskin hərəkətlə vurub yıxır, Gülüstan dik qalxır yerindən).* Ana, Murad sağdır, Murad sağdır...

**GÜLÜSTAN**. Nə dedin, az? Murad sağdır dedin?

**ANAQIZ**. Televizorda göstərdilər. İndicə göstərdilər, özüm gördüm. Sağdı, qardaşım, sağdı! Ana, gözün aydın!

**GÜLÜSTAN**. Gözün aydın nədi, az? Sağdısa, bə niyə evə gəlmir, niyə zəng eləmir?

**ANAQIZ**. Ana... Murad, əsir düşüb *(hönkürür).*

*Gülüstan ayaqları vurulmuş kimi elə durduğu yerə yıxılır. Anaqız özünü qadına yetirir, üstünə əyilib pıçıldayır.*

Sağdır, ana, əsas odur ki, sağdır, qorxusu da yoxdur, Qırmızı xaç baxır... qardaşım sağdır! *(Qışqırır.)* Murad sağdır!

**GÜLÜSTAN**. Ya rəbbim, şükür sənin varlığına, eşitdin səsimi, eşitdin. Qaldır məni, Anaqız *(qalxmağa təşəbbüs edir.)* Ayaqlarım qurudu...

**ANAQIZ** *(qalxmağa kömək eləyir).* Bax elə burda otur.

**GÜLÜSTAN**. Səni and verirəm Muradın öz canına, yalan demirsən?

**ANAQIZ**. Yalan nədi, ana? Öz gözümlə gördüm.

**GÜLÜSTAN**. Adın çəkdilər? Dedilər Muraddır?

**ANAQIZ**. Bilmirəm, yarımçıq gördüm, elə televizoru yandıran kimi gördüm, amma Murad olduğuna heç bir qırıq da şübhə yoxdu.

**GÜLÜSTAN**. Dedin yaralıdı?

**ANAQIZ**. Yoox, mən... mən elə söz demədim.

**GÜLÜSTAN**. Anaqız, dayanma, yeri atanı tap gətir. Nə qədər ki o qansızlar gədəni öldürməyib, qurtarmaq lazımdı balamı. Anan ölsün, Murad!

**ANAQIZ**. Ağlama , ana, şükür elə, dua elə Murada.

**GÜLÜSTAN**. Dedim, yeri Hümbəti tap gətir. Mən də namaza gedim *(gedir).*

*Anaqız qaçaraq çıxmaq istəyəndə Hümbətlə toqquşur.*

**HÜMBƏT**. Yavaş, az, yıxmışdın məni! Həmişə qaçır bu qız.

**ANAQIZ**. Ata, Murad sağdır.

**HÜMBƏT**. Murad sağdır? Nətəər yəni... Hərbidən kağız gəlib?

**ANAQIZ**. Özüm gördüm, televizorda. Qardaşım sağdır... əsir düşüb.

**HÜMBƏT**. Əsir nədi, Anaqız, başına at təpib? Mənim oğlum əsir düşüb? Murad əsir düşən oğuldu?

**ANAQIZ** *(pıçıldayır.)* Yaralı vəziyyətdə göstərdilər, özündə deyildi... anama demə yaralı olduğunu.

*Hümbət heysiz halda kətili altına çəkir.*

Dedilər, kim olduğu məlum deyil, şəxsiyyətini bildirən heç nəyi yoxdur. Özü də heç nə demir, susur, suallara cavab vermir.

**HÜMBƏT**. Bu nəydi başımıza gəldi, Anaqız?

**ANAQIZ**. Nə demək istəyirsən, ata?

**HÜMBƏT**. Biz biabır olduq.

**ANAQIZ**. Ata, sən nə danışırsan, biabır olduq nədi? Murad ölməyib, sağdır. Bu xeyir xəbər səni sevindirmir?

**HÜMBƏT**. Xeyir xəbər? Çaşmışam, qızım, ağlım qarışıb. *(Pıçıldayır.)* Bilmirəm, bu xəbərə sevinim ya kədərlənim?

**ANAQIZ**. Ata, doğrudan ağlın çaşıb sənin? Sən başa düşmədin ki, Murad şəhid olmayıb, sağdır?

**HÜMBƏT**. Başa düşdüm, qandım, Murad şəhid olmayıb, əsir düşüb... Düşmənin əlindədir. Fərqi hiss eləmədin, Anaqız? Neçə vaxtdır şəhid deyib bar-bar bağırırıq, şəhid atası deyib lovğalanırıq, telvizorda, qəzetdə, internetdə... Bax, bu saat, indicə, bir sürü muxbirə söz demişəm, lovğalanmışam, oğlumun igidliyindən danışmışam. Burdan da məlum eləyir ki, oğlumuz şəhid-zad deyil, əsirdir, aciz, əlacsız əsir, bu azmış, özündə-sözündə deyil *(Papağını üzünə tərəf sürüşdürüb boğuq səslə hönkürür).*

*İşıq sönür.*

### *IV SƏHNƏ*

*Həmin məkandır. Anaqız telefonla danışır. Gülüstan iri sinidə düyü arıtlayır.*

**ANAQIZ** *(telefona)* Bilmirik... Xeyr, təzə xəbər almamışıq. Gəlməyin, bundan artıq sözümüz yoxdur.

**GÜLÜSTAN**. Qırılmışlardan da günümüz yoxdu. Denən bizim dərdimiz özümüzə bəsdi, yaramızı niyə qurdalayırsız?

**ANAQIZ**. Ana, o düyünün nəyini arıtlayırsan? İndi sılıflı düyü var?

**GÜLÜSTAN**. Bu o qondarma düyülərdən deyil, Astara düyüsüdü, sılıfı da var, çəltiyi də. Murad aş yeyəndi, hər gün aş bişirəcəm ona.

**ANAQIZ**. Vallah, konsertdi sizin işiniz. Sən burda aş hayında, kişi də on gündü gedib, telefona cavab vermir, verəndə də açıq bir şey demir, qəsdi bizi öldürməkdi deyən. Sən də burda aş dəmindəsən.

**GÜLÜSTAN**. Az, neynədiyimi, nə dediyimi bilirəm ki?! *(Əlini sinəsinə döyür.)* Tökülmüşüm rahatlıq bilmir, nə yerdəyəm, nə göydə. Namazım olmasa, Muradın yoxluğuna tab gətirə bilməzdim.

**ANAQIZ**. Yaxşı ki sənin namazın var.

**GÜLÜSTAN**. Bayaq bir şükür namazı qıldım, içimdə nəyim var hamısını Rəbbimə danışdım, dualar elədim, yol istədim. Sənə bir sirr açım. Dua elədiyim yerdə gördüm, bax, o qapı açılır, anası ölmüş kirimişcə girir içəri, üzümə baxıb gülümsəyir. Mənim də gözlərimdən sel-su gedir. Gördüm əlini uzadıb gözümün yaşını silir, di gəl, bir kəlmə söz demir... Deyim ki, bir az toxdadım. Doğrudan da elə bilirəm, bu saat qapı açılacaq, balam içəri girəcək.

**ANAQIZ**. Allah ağzından eşitsin. Bütöy kəndin gözü yoldadı, internetdən də düşmür şəkli. Məleykəni gördüm dünən, məni qucaqlayıb nətəər ağladı. Axı, ürəyi gedirdi Muraddan ötrü.

**GÜLÜSTAN**. Ürəyi gedirdi ki, bu iki daşın arasında nişanlandı Qaçayın dezertir oğluna?

**ANAQIZ**. Ana, insafsız danışma. Yazıq qız Muradın şəhid xəbəri çıxandan sonra nişanlandı.

**GÜLÜSTAN**. Gözləmədi qırxı çıxsın. Öyrəli dişimin dibindən çıxanı dedim Qaçaya. Müharibə gedir, cavanlarımız qırılır, bu da davadan qaçırtdığı biqeyrətinə üzük aparır, özü də şəhidin deyiklisinə. Qız da elə himə bəndmiş. Ürəyi belə gedirdi Muraddan ötrü?

*Qapı döyülür.*

**GÜLÜSTAN** *(diksinir.)* Qapıdı, az?!

**ANAQIZ**. Hə, qapıdı *(gedir qapıya. Səhnə arxasından səsi gəlir).* Niyə tanımıram, Muradın döyüş yoldaşısız. Gəlin içəri.

**GÜLÜSTAN**. Bu nə üzlə gəlib bura? *(Şirmanın arxasına keçir).*

*Qabaqda Anaqız, dalınca Cəmil gəlir. Cəmilin qoltuq ağaclarını bir çəlik əvəz edir. Xeyli yaxşı yeriyir.*

**GÜLÜSTAN** *(səsi eşidilir.)* Anaqız, kimdi gələn?

**ANAQIZ**. Muradın əsgər dostudu.

**GÜLÜSTAN**. Muradın şəhid xəbərini gətirən dostu?

**CƏMİL**. Elə bundan qorxurdum.

**GÜLÜSTAN**. İndi nə xəbər gətirib?

**ANAQIZ**. İnciməyin, heç qınamayın da, bu az vaxtda biz öldük-dirildik. Anam az qaldı havalansın.

**CƏMİL**. Mənim taqsırım böyükdür, vicdanım rahatlıq bilmir, amma... İndi də təəccüb edirəm. Ordan salamat çıxmaq mümkün deyildi. Bu, sağlam ağıla, məntiqə sığmır.

**GÜLÜSTAN** *(çarpayıda oturub, şirmanı kənara itələyir.)* Ağıl, məntiq, vicdan... Yaxşı sözlərdi. Yaralı yoldaşı ermənilərin arasında qoyub qaçmaqmış məntiq? Sizi xilas eləyib yaralanmasaydı, Murad əsir düşməzdi.

**CƏMİL**. Səni qınamıram, ana, amma mən o qədər əmindim ki... Tək mən yox, bizim taqımdan sağ qalan dostların hamısı Muradı şəhid bildilər. Mən indinin özündə də televizorda gördüyüm adamın Murad olduğuna tam inana bilmirəm.

**ANAQIZ**. Bunu müharibə iştirakçısından eşitmək qəribədir. Erməni ordusuna könüllü qatılan fransalı erməni dığası əsgərlərimizin şücaətini görüb heyran qalıbmış. Özüm oxudum. Deyir, onlar yaralanır, qolunu-qıçını itirir, amma dayanmırdılar, yenə döyüşürdülər, gülldən, ölümdən, qandan qorxmayıb üstümüzə yeriyirdilər. Deyir, o məqamda mənə elə gəldi ki, düşmənlərimiz adi, normal adamlar deyillər, biz zombilərlə, robotlarla vuruşuruq. Onların qabağında davam gətirmək, qorxudan qaçmamaq mümkün deyildi.

**GÜLÜSTAN** *(tənə ilə).* Bizimkilər də pis qaçmayıblar *(gedir).*

*Sükut yaranır.*

**CƏMİL**. Ayaq üstdə çox dayana bilmirəm...

**ANAQIZ**. Əyləşin, çay gətirim. Pis qarşıladıq qazimizi.

**CƏMİL**. Zəhmət çəkməyin *(oturur.)* Bir az dincəlim... gedirəm.

**ANAQIZ**. Kastelləri atmısız, deməli, sağalırsız.

**CƏMİL**. Elədir, çəliyi ehtiyat üçün götürürəm.

**ANAQIZ**. Rus məsəlidir, zajivyot do svadbı, yəni toya qədər sağalar.

**CƏMİL**. Toy a?! Bir ayağı protez, bir qulağı kar invalid kimin nəyinə lazımdır?

**ANAQIZ**. Sevgi, istək olan yerdə bir ayaq nədir ki?!

**CƏMİL**. Siz müəllimsiz?

**ANAQIZ**. Müəllim kimi danışdım? *(Gülümsəyir.)* Rus dili müəllimiyəm. Nə yaxşı gəldiz bizə? Mən dedim siz bir də bu tərəflərə hərlənməzsiz.

**CƏMİL**. Muradın xeyir xəbərini eşidən gündən gəlmək istəyirdim. Doğrusu, bir az çəkinirdim. Özüm də bilmədən böyük faciə yaşatmışam sizə.

**ANAQIZ**. Faciə hələ bitməyib. Sizdə də taqsır yoxdu, müharibədə möcüzələr çox olur.

**CƏMİL**. Siz məni bağışlayırsız?

**GÜLÜSTAN** *(gəlir.)* Bu qəhrəman hələ burdadır?

**ANAQIZ**. Ana, kinayən yersizdir. O qəhrəman sənə, mənə, minlərlə bizim kimilərə görə ölümün gözünə dik baxıb, kişi kimi vuruşub, bu yaşında bir ayağını itirib.

**GÜLÜSTAN**. Murad bir ayağını yox, bütün həyatını itirib.

**ANAQIZ**. Elə danışma, ana. Murad sağ-salamatdır, qayıdıb gələcək evimizə. Amma nə qədər qayıtmayanlar var, olacaq da.

**CƏMİL** *(ayağa qalxır.)* Səni yaxşı başa düşürəm, ana... *(Anaqıza).* Mən gedim.

*Qapıya yönəlir, elə ilk addımda büdrəyir, Gülüstan səksənib içini çəkir. Anaqız cəld tərpənib onu yıxılmaqdan saxlayır.*

**CƏMİL** *(pıçıldayır.)* Bir də gəlsəm, qovmazsız məni?

**ANAQIZ**. Bütün qazilərimiz üçün qapımız açıqdır.

**CƏMİL**. Təşəkkür edirəm *(gedir).*

**GÜLÜSTAN**. Anaqız, bir də ona üz göstərsən, bil ki qan salaram.

**ANAQIZ**. Ana, sən nahaq yerə özünü olduğundan qəddar göstərmək istəyirsən. Yorulmadın? Bu nə sənin dininə, nə imanına yaraşır.

**GÜLÜSTAN**. Mənim dinimlə-imanımla işiniz olmasın!

**ANAQIZ**. O burda bir az da qalsaydı, boynunu qucaqlayıb hönkür-hönkür ağlayacaqdın.

*Telefon zəngi. Anaqız cibindən telefonu çıxarıb ekranına baxır.*

Atamdır. Hə, ata, nə xəbər var? Harda olasıyıq, əlbəttə evdəyik. Alo! Ata... Alo!

**GÜLÜSTAN**. Nooldu, az? Nə dedi o evi yıxılmış?

**ANAQIZ**. Soruşur evdəsiz? Mən deyirəm, evdəyik... O da... telefonu bağladı.

**GÜLÜSTAN**. Az, bəs demədi hardadır?

*Qapı döyülür. Hər iki qadın diksinir.*

Hər qapı döyüləndə o dünyanı görüb qayıdıram.

Qapı açılır. Hümbət gəlir, barmağını dodaqlarına yaxınlaşdırıb susmaq işarəsi verir. Anaqız əli ilə ağzını qapayır. Gülüstan qorxulu xəbər gözləyən adam kimi elə durduğu yerdə döşəməyə çökür. Hümbət əlindən tutub Muradı qapıdan içəri salır. Gülüstandan boğuq qışqırtı səsi çıxır. O, yerindən azacıq dikəlib dizin-dizin Murada sarı yeriyir. Ona çatıb səssiz-səmirsiz ayaqlarına sarılır. Murad heç nəyə reaksiya vermir.

**HÜMBƏT** *(qəhərini gizlətmək üçün az qala qışqırır).* Bu da bizim qəhrəman!

*İşıq sönür*

**V SƏHNƏ**

*Həmin məkandır. Qələbə marşı səslənir. İri monitorda Ali Baş Komandan İlham Əliyevin xalqa müraciəti göstərilir.*

**İLHAM ƏLİYEV.** Əziz həmvətənlər, əziz bacılar və qardaşlar!

Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir! Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm! Bütün şuşalıları ürəkdən təbrik edirəm!

İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür! Biz bu Qələbəni döyüş meydanında qazandıq, şəhidlər verərək bu Qələbəni qazandıq.

Bu tarixi gündə Azərbaycan xalqına bu müjdəni vermək mənim həyatımda ən xoşbəxt günlərdən biridir.

Əziz Şuşa, sən azadsan!

Əziz Şuşa, biz qayıtmışıq!

Əziz Şuşa, biz səni dirçəldəcəyik!

Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

*Monitorda xalqın qələbə sevinci, bayram coşqusu, təntənəsi görünür. Xalq bayramının yaratdığı səs-küy tədricən yavaşıyır və fona çevrilir.*

**VI SƏHNƏ**

*Həmin məkandır. Anaqız qabağındakı sinif dəftərlərini yoxlayır. Gülüstan nəsə toxuyur.*

**HÜMBƏT** *(gəlir.)* Nə deyim, nə danışım? Ta sözüm də qalmayıb. Müharibə bitdi, qələbə çaldıq, ölən öldü, qalan qaldı... Bizimki nə ölüdü, nə diri. Kəndə çıxa bilmirəm, bir vaxt mənə şəhid atası kimi gözaydınlığı verənlər, indi bədbəxt ataya baxan kimi baxır, başını bulayır, təsəlli verir. Ürəyimdən bir putluq daş asılıb.

**ANAQIZ**. Ata, onun nələr yaşadığını biz bilmirik. Erməni əlinə əsir düşən kişinin halını təsəvvür eləmək özü dəhşətdir. Murad ayaq üstdə olsa da, dərin psixoloji komadadır. Bəlkə də onun psixoloqa ehtiyacı var.

**HÜMBƏT**. Mən boyda kişinin sözü kar eləmir ona, psixoloq neynəyəcək? İkilikdə bəlkə bir saat söhbət elədim, nələri, kimləri yada salmadım. Əzizlədim, boyunu sevdim, əsil qəhrəman olduğunu dedim. O Cəmilin bizə danışdığını bəlkə onuncu dəfə nağıl elədim, güldüm, ağladım... denən tükü tərpəndimi?

**ANAQIZ**. Qorxuram, ata, çox qorxuram.

**HÜMBƏT**. Sən nədən qorxursan?

**ANAQIZ**. Qorxuram, özünə xətər yetirər.

**GÜLÜSTAN**. Dilin-ağzın qurusun, Anaqız!

**ANAQIZ**. Mən nə dediyimi bilirəm, ana. Onu evdə tək qoymaq olmaz.

**HÜMBƏT**. Əstafurullah! Bir o qalmışdı, desinlər, Hümbətin oğlu... *(əli ilə ağzını qapayır).* Lənət sənə, şeytan!

**GÜLÜSTAN**. Hümbət, sən belə danışanda adam ortasından çatlamaq istəyir.

**HÜMBƏT**. Sən belə şeyləri bilməzsən, Gülüsdan xanım.

**GÜLÜSTAN**. Bəlkə sənə oğul yox, qəhrəman lazımdı, mənə isə balam lazımdı.

**ANAQIZ**. Yazacam hara lazımdır, qoy göndərsinlər xaricə müalicəyə.

**HÜMBƏT**. Yanıram, tüstüm çıxır təpəmdən, görəni yoxdu. Axı, Murad əsir düşməli oğul deyildi. Murad qəhrəmandı, bunu hamı bilir. Anaqız, o Cəmil hərlənməyib buralara?

**ANAQIZ**. Yox, yağlı əppəyə dönüb.

**GÜLÜSTAN**. Nə üzlə gəlsin bura?

**ANAQIZ**. Ana, insafın olsun.

**HÜMBƏT**. Kəndin camaatı da gəlmir. Oyrəli Müəllimi gördüm, xeyli ürək-dirək verdi mənə. Deyir, gəlib Muradı o vəziyyətdə görmək istəmirəm, qanım qaralır.

**GÜLÜSTAN**. Qanın qaralmağından qorxurlarsa, gəlməsələr yaxşıdır.

*Murad ləng, sakit addımlarla gəlir. Lap ortalıqda dayanır. Üzündə heç bir ifadə yoxdur. Gülüstan yaxınlaşıb ehtiyatla onu qucaqlayır.*

Anan şumal boyuna qurban, gəl otur, bir doyunca baxım üzünə. Qapanıb qalmısan o dardüddək havasız otaqda... *(Əli ilə Hümbətə getmək işarəsi verir.)*

*Əvvəl Hümbət, dalınca da Anaqız gedir.*

**GÜLÜSTAN** Muradı divanda oturdur. Özü də onunla yanaşı əyləşir.

**GÜLÜSTAN**. Axır vaxtlar sənin körpə vaxtın tez-tez yadıma düşür. İki yaşına çatmışdın, nə bir əməlli söz deyə bilirdin, nə yeriyirdin. Yetirən də soruşur, az, bu gədə yerimədi? Az, bu tifil dil açmadı? Axır, dözmədim, səni iri bir xəlbirin içinə oturdub ev-ev gəzdirdim, rəhmətlik Güleyşə nənəndən eşitmişdim. Yeddi qapıdan pay istədim. İnanmazsan, Murad, bircə həftə keçməmiş nətəər yeridinsə, çata bilmədim sənə, hara gəldi toxuyurdun özünü, qorxu-hürkü bilmirdin, nətəər deyərlər, ilanboğan vaxtındı. Dilin də açıldı. Elə bil dünyanı verdilər mənə. Gün-gündən də, maşallah, boy atırdın, tay-tuşların çata bilmirdi sənə. Yaşını soruşanlara yalandan bir-iki yaş artıq deyirdim ki, gözə gəlməyəsən *(gülür).* Bəs indi

neyniyim, başına dönüm, neyniyim ki, dilin açılsın, ana deyib çağıran səsini eşidim. Darıxmışam səsin üçün, oxumağın üçün. Yadındadı, o mahnı? Hamı diringi mahnılar oxuyanda, sən köhnə əyyamdan qalma bir mahnını zümzümə eləyərdin. Bir yadıma sal onun havasını... Hə... *(Oxuyur.)* Evlərinin dalı yonca, Yonca qalxıb dam boyunca, Boyu uca, beli incə, Minnə yarım, Minnə, Əsmər yarım Minnə... *(mahnı tam səslənir, fona çevrilib itir).*

*Uzun çəkən pauza. Murad vəziyyətini dəyişmədən susur.*

Sən davada olan gündən, hər səhər Fəth surəsini oxuyurdum, inanırdım ki, səsim gedib çatacaq sənə. Tək sənin üçün deyildi o surə, bütün əsgərlərimizə yollayırdım. İndi də hər namazda dua eləyirəm, qurbanolduğumdan sənə, səninlə bərabər yaralı igidlərimizə Allahdan şəfa diləyirəm. Yadındadı, bir vaxt sən də yanımda dayanıb namaz qılardın... *(pauza).* Nə bilim, qoy Yaradan özü sənin yatmış, dünyadan küsmüş ruhunu oyatsın, ona şəfa versin. Gedirəm namaza... bəlkə gedək mənimlə, otur yanımda qulaq as, elə indi oturduğun kimi, eşit dualarımı. Səni davaya yola salanda əzbərlətdiyim dua yəqin yadındadır: Lə havlə və lə qüvvəta illah billahi əliyül əzm!

*Murad qımıldanmır, oturduğu vəziyyətdə qalır.*

Neynək, Allahın bir adı da səbrdir *(məyus halda gedir).*

*Hümbət və Cəmil gəlir.*

**HÜMBƏT**. Murad, nə yaxşı burdasan? Bir bax, gör kimi gətirmişəm?
**CƏMİL**. Salam, Murad! *(Muraddan reaksiya görməyib bilmir neynəsin).* Tanıdın məni, Murad?
**HÜMBƏT**. Əlbət tanıdı. Cəbhə dostunu kim unudar, özü də Cəmil kimi dostu?! Sənin qəhrəmanlığın haqqında o danışıb bizə. O qumbaraları götürüb qartal kimi düşmən üstünə şığımağını... Cəmil, başına dönüm, sən özün danış, qoy Murad öz qulağı ilə səndən eşitsin. Bəlkə yadına düşdü.
**CƏMİL**. Bunu unutmaq olmaz, Hümbət əmi. Kim unutsa da, bizim taqımın uşaqları unuda bilməz. Buna bizim ixtiyarımız yoxdur. Komandir o döyüşü, orda Muradın göstərdiyi igidliyi yazıb göndərib nazirin özünə. Ali Baş Komandan bu qəhrəmanlıqdan xəbər tutsa, Murada mütləq Qəhrəman adı verəcək.
**HÜMBƏT**. Eşidirsən, Murad?
**CƏMİL**. Yadına sal, Murad, biz ölüm-dirim savaşındaydıq, hər şeyimiz tükənmişdi, dörd günlük fasiləsiz döyüş, susuzluqdan dodaqlarımız çat-çat olub, arxa ilə əlaqə tamam kəsilib, yorğunluqdan nə etdiyimizi artıq

qavramaq gücündə deyilik. Bax, onda, sən heç kimə demədən, gənəşmədən axıra qalmış dörd-beş qumbaranı götürüb səngərdən güllə kimi çıxdın. Bircə andan sonra... *(sözünə davam edə bilmir, Muradı qucaqlayıb hönkürür).*

**HÜMBƏT**. Yadına düşdü, Murad? Ə, bir dillən də, zalım balası!

*Muradda heç bir reaksiya yoxdur. Hümbət Cəmili Muraddan aralayır.*

Xeyri yoxdu, özündə deyil, elə bil içəridən işığını keçiriblər.

**CƏMİL**. Hümbət əmi... bilmirəm nə deyim, necə təsəlli verim?

**HÜMBƏT**. Get, bala, dostluqda əskik olmayasan, get.

*Cəmil bacardığı qədər tələsik addımlarla gedir.*

*Hümbət bir xeyli onun dalınca baxır, sonra kürsüdə hərəkətsiz və səssiz oturub qalmış Murada baxır. Yaxındakı kürsünü çəkib Muradla üzüzə oturur.*

**HÜMBƏT**. Sənin şəhid xəbərini Cəmil gətirəndə elə bildim Murov dağı aşdı üstümə, qaldım altında. Ağlamadım, beynim çöndü, havalandım. Allah Murada rəhmət eləsin deyənlərin üstünə tüfəng çəkdim, güllə atdım. Məcbur elədim hamı mənə gözün aydın, Hümbət, desin. Şəhid atası adı ilə fəxr elədim, öyündüm. Yetənə sənin göstərdiyin qəhrəmanlıqdan danışdım. Beşin üstünə on beş qoydum. Evimiz ziyarətgaha dönmüşdü. Birdən-birə hər şey alt-üst oldu. Demə, Murad şəhid olmayıb, əsir götürülüb. Dünya başıma fırlandı, ilk dəfə bütün kəndin, yox, ölkənin qabağında pərt oldum, xəcalət çəkdim. Səni sərhəddə təhvil alanda, bu mağmın vəziyyətini görəndə, ürəyimdən bilirsən nə keçdi? *(Qışqırır.)* Kaş şəhid xəbərin doğru olaydı, Murad! Kaş sənin də tabutunu üçrəngli bayrağımıza büküb gətirəydilər qapıma. Eşidirsən, Murad? Eşidirsən? Axı, sən o bayrağı Kəlbəcərə sancmalı idin. Sancdın? Nənən Güleyşənin qisasını almalı idin. Aldın? Onun örpəyini o sıldırıma sərməli idin. Sərdin? *(Hirslə qalxır yerindən, səhnənin önünə gəlir, gözündən axan yaşı hikkə ilə silir və qışqırır).* İndi sən danışmayacaqsan? Çıxmayacaqsan içindən? İş ki belə oldu, səni mən özüm... *(divardan asılmış tüfəngi qapıb Muradı nişan alır).* Mən özüm... *(sözünü bitirmir, tüfəng əlindən düşür.)* Murad?! Murad, sənin gözündə yaş var? *(Diz üstündə qabağına düşür, əlləri ilə onun bir əzələsi belə tərpənməyən donuq yanaqlarından axan göz yaşlarına toxunur, sanki həqiqi göz yaşı olub-olmadığını yoxlayır.)* Ağladın! Murad, sən ağladın! *(Hönkürüb onun dizlərini qucaqlayır).* Qadan alım sənin, Murad, başına dönüm, Murad, bağışla mən köpəyoğlunu, Murad... *(daha bərk hönkürür).* Bağışlaaa...

**GÜLÜSTAN** *(gəlir.)* Noolub, Hümbət? Bu nə səs-küydü, niyə qışqırırsan?

**HÜMBƏT** *(pıçıldayır.)* Murad ağladı, Gülüsdan, gözün aydın...

**GÜLÜSTAN**. Murad ağladı? *(yaxınlaşıb Muradın yanında oturur, onun göz yaşlarından islanmış yanaqlarını örpəyinin ucu ilə silir).* Anan gözünün yaşına qurban, Murad... Ağla, gözümün işığı, doyunca ağla. İçin ağrılarla, dəhşətlərlə doludur, ağla, boşalsın...

*Murad hıçqırır.*

Ağla, gözümün işığı...

*Anaqız gəlir, qapının ağzında dayanıb bir müddət baş verənləri izləyir.*

**ANAQIZ**. Ata, nə olub burda?
**HÜMBƏT** *(pıçıldayır)* Sss... Xeyir xəbər var, qızım, Murad ağladı.
**ANAQIZ**. Niyə, ata, niyə ağladı? Sən ona nə dedin, ağladı?
**HÜMBƏT**. Mən? Bilmirəm, nə dedim, Anaqız. Eşidirsən, necə hıçqırır? Əslində, bu yaxşı əlamətdir.
**ANAQIZ** *(sakit, adi bir şey deyir kimi).* Murada Qəhrəman adı veriblər.
**HÜMBƏT**. Qəhrəman adı? Murada? Televizor dedi?
**ANAQIZ**. Yox, ata, Müəllim dedi. Cəmil də zəng elədi. Bir azdan bizə gələcəklər; gözaydınlığa.
**HÜMBƏT**. Bəs niyə belə sakit deyirsən, qorxa-qorxa? Eşitdin, Gülüsdan? Murad, sənə Qəhrəman adı veriblər.
**GÜLÜSTAN**. Mənə Qəhrəman yox, balamın sağ canı lazımdır.
**HÜMBƏT**. Sizin başınız xarab olub, şadlığınıza şitlik eliyirsiz.
**ANAQIZ**. Ana, camaat birazdan bura gələcək gözaydınlığa.
**HÜMBƏT**. Bilirsən bu nə deməkdir, Gülüsdan? Sən də başlamısan... *(əlini yelləyir).* Durun çay-zad qoyun, camaatı abırlı qarşılayaq. Zarafat deyil ey, bura Vətən müharibəsi Qəhrəmanının evidir. Vətən müharibəsi Qəhrəmanı Murad Hümbət oğlunun evi. Sabahdan bura ziyarətgaha çevriləcək. Odu ha, vəfalı Cəmil birinci gəldi.
**CƏMİL** *(gəlir.)* Gözün aydın, Hümbət əmi! Gözün aydın, Gülüstan ana! Gözün aydın, qəhrəman bacısı! Qardaşım, Murad *(hərarətlə qucaqlayır),* bizim taqımın əfsanəvi qəhrəmanı, təbrik edirəm, gözün aydın!
**HÜMBƏT**. Murad, sən bundan sonra da susacaqsan?

*Hamı ayaq üstdə dik dayanmış Murada ümidlə baxır.*

**MURAD** *(çox sakit, təzə dil açan adam kimi danışır).* Mən susmamışam, danışıram, fasiləsiz danışıram.

*Hamı bir-birinə baxır.*

**HÜMBƏT**. Bəs biz niyə eşitmirik?
**GÜLÜSTAN**. Anan o gözəl səsinə qurban!

**ANAQIZ**. Murad! *(Qucaqlamaq istəyir, dayanır).*

**MURAD**. Danışdıqca ürəyim içimdə ağlayırdı, ürək ağlayanda isə zaman dayanır, insan birdən-birə həyatının ən ağır, ən çətin günlərini görür, bütün canı ilə keçirdiyi dözülməz ağrıları təkrar-təkrar yaşayır. Ürəyim susanda ruhum qışqırır, haray qoparır, cismindən çıxmaq, əzabdan qurtulmaq istəyir. Mən orda olanda təkdim, ağrılarımla tənha idim. İşgəncələrə dözmək üçün anam Gülüstanın sözünə baxıb dua eləyirdim daim, səssiz-səmirsiz: lə havlə və lə qüvvəta illah billahi əliyül əzm. Düşmən mənim dözümümü görüb daha da quduzlaşır, yeni işgəncə üsulları axtarırdılar. Mən isə davam edirdim: eşit səsimi, Allahım, indi mən təkəm, ruhum yaralıdır, mənə qüvvə ver, möhkəmləndir məni, elə et ki, mən düşməndən qorxmayım, yaşamaq üçün cəsarət və dözüm ver mənə, çünki ağrılarım, ondan da dəhşətli, təhqirlərin ağrısı və xəcaləti məni gücdən salır. Mənim daha gücüm qalmayıb.

*Murad danışdıqca səhnəyə tədricən tanıdığımız personajlar (Müəllim, I Kişi, II Kişi, müxbir, operator və sairlər) daxil olurlar.*

Mən indi də uçurum kənarındayam, bircə addım! Məni o xatalı günah addımından saxla, hifz elə. İndi mənim gözlərimdə yaş var, ürəyim sakitcə, səssizcə ağlayır. Amma özümə görə yox, mən nə qədər dəhşətlərdən keçsəm də sağam, ölməmişəm, ancaq ruhum sağalmaz zədə alıb, şikəstdir.

**CƏMİL**. Murad, sənin kimi oğulların sayəsində biz qartımış murdar düşməndən qisasımızı aldıq, qalib gəldik. Sən qəhrəmansan!

**MÜƏLLİM**. Murad, sən kəndimizin başını uca eləyən igidsən, qəhrəmansan!

**MURAD**. Yox, müəllim, qəhrəman mən deyiləm. Qəhrəmanlar orda qaldılar. Vətən yolunda şəhid olan üç min gənc. Hamınız eşidin, hər yerdə də deyin, əsil qəhrəman onlardır. Şəhidlərimizin hər biri milli qəhrəmandır. Yaralanmış, bədəni parçalanmış, arzuları məhv olmuş, canı-qanı ilə vətən torpağına qarşımış üç min igid. Üç min qəhrəman! Onlar qələbənin nə olduğunu bizə anlatdılar. Onlar bizə inam verdilər, özünü karlığa, korluğa vurmuş qanmaz dünyanı qandırdılar ki, Qarabağ bizimdir! Qarabağ Azərbaycandır! *(Hayqırır).* Qarabağ Azərbaycandır!

HAMI. Qarabağ Azərbaycandır!

***P Ə R D Ə***

***aprel-may 2021***



*Nazim ƏHMƏDLİ*

**HƏLƏ SABAHA ÇOX VAR**

Hər kol bir qaraltıdı,
Hər gecə bir səksəkə.
Kimsə dartır ruhumu
Şəklimi çəkə-çəkə.

İçimdə səngər qışı,
Çölüm qan ağlayırmış.
İlahi, heç bilmirdim
Dağlar da laxlayırmış.

Buludlar çəkilməyib,
Bir yanı uçuq qalıb.
Gəldiyim göy üzünün
Qapısı açıq qalıb.

Qara dalğalar gəzir
Dənizin yaxasında.
Dünya dağılır hələ
Fələyin yuxusunda.

Kim nə çəkir, kim bilir,
Hərənin öz dərdi var.
Bir gecənin içində
Saçlarıma yağdı qar.

Deyən, yol da uzanır,
Hələ sabaha çox var.
Dağların arasından
İşıldayır bulaqlar.

**UNUTDUĞUM BİR YER**

Gözlərim yol axtarır,
Ürəyimdə qəhər var.
Dağların arasında
Bir ağrılı şəhər var.

Ocaq yanar közündə,
Kölgə oynar gözümdə,
Göylərin o üzündə
Unutduğum bir yer var.

Gəl, ocağın külün al,
Qolum bağlı, dilim lal,
Arının ağzında bal,
Quyruğunda zəhər var.

Bu yer yolu, göy yolu,
Bağlı qalıb köy yolu.
Kişnərtisi göy dolu,
İçimdə bir kəhər var.

Buludlar ağrı çəkir,
Könlüm qubarı çəkir.
Hər baxışda bir fikir,
Hər sözdə bir xəbər var.

Yuxumu içə-içə
Dolaşdım küçə-küçə.
Orda bir adsız gecə,
Bir yarımçıq səhər var.

***

Bu yaz yenə görmədim,
Bənövşənin tər üzün.
Qara buludlar tutub
Dünyanın səhər üzün.

Gözlərim kömür-kömür,
Aynasında Ay çimir.
Gəzdim, gördüm bir ömür,
Bu dünyanın hər üzün.

Sözüm dildə-ağızda,
Şəkil oldum kağızda.
Yarpaq üzüm payızda,
Bu da mənim kür üzüm.

Səs gəldi qulağıma,
Düşdüm yolun ağına.
Qayıdıb mənə baxma,
Acıyıb şəkər üzüm.

Buludlar çəngə-çəngə,
Ayrılıqlar işgəncə,
Günəş sönmədən öncə,
Yandıracaq, Yer üzün.

## İÇİMDƏKİ ADAM

Daha çəkilib gedir,
İtir hər şeyin tamı.
Yuxunda bir bıçaq var,
Tiyəsindən qan damır.

Gümüş sular, xan sular,
Dağıdıb yıxan sular.
Buluddan axan sular
Yuyub gedir odamı.

Həsrət dərdin işidi,
Məni hara düşürdü.
Canımı çox üşüdür
Soyuq payız axşamı.

Ömür hara tələsir,
Üstümdən yellər əsir.
Hərə bir dirək kəsir,
Çökür dünyanın damı.

Çiynimə dağ şəllənir,
Saçımda dərd güllənir.
Gün axşama yellənir,
Solur Günəşin şamı.

Qış qayıdıb, çillədi,
Dərd bizimlə illədi.
Heç tanıya bilmədim
İçimdəki adamı.

## BU DA BELƏ BİR ÖMÜR

Göy üzü çox qəlbidi,
Bir az aşağı enək.
Qanadlarım yorulub,
Tökülür lələk-lələk.

Kim durubdu qəsdimə
Boğuluram tüstümə.
Saçlarımın üstünə
Qar yağır ələk-ələk.

Harda bir az gün görəm
Həsrətimi söndürəm.
Bizə ağıl göndərən
Bir Tanrıdı, bir fələk.

Dərd tapdıq sevə-sevə,
Bağlandıq daş kələfə.
Çəkilək bir tərəfə,
Bir az danışaq-gülək.

Nə səs gəlir, nə səmir,
Gecə gündüzü əmir.
Bu da belə bir ömür
Bir taledi, neyliyək.

## OCAQ

Bu köz ocaqda qalıb,
Yanıb, sönməyib hələ.
Fikir eləmə, səndən
Üzüm dönməyib hələ.

Qaynar buludlar gəlib
Könlümün göy üzünə.
Mən isinə bilmirəm
Hər ocağın közünə.

Yuxumdakı göy üzü
Qırılır şüşə kimi.
Ulduzlar düşür yerə
Solmuş bənövşə kimi.

Ocağın bir üzü də
Sönmüş çıraqdan baxır.
Könlümün göy üzündən
Gümüş yağışlar yağır.

Bir əsim külək ötür
Buludların köçündən.
Bir ocaq da alışdı
Ürəyimin içindən.

Sən ocaqdan o közü
Götürüb atma barı.
Bir yerdə qarşılayaq
Dönüb gələn baharı.

## DƏRD ARALIQDA QALIB

Bir dağ aşıb yol tutdum,
Hələ bir dağ da qalıb.
Yarpaqlar yerə düşdü,
Həsrət budaqda qalıb.

Alnım qırışıq düşür,
Yuxum qarışıq düşür,
Gözümə işıq düşür,
Gözüm çıraqda qalıb.

Sulardan göz çəkirəm,
Ocaqdan köz çəkirəm,
Könlümdən söz çəkirəm,
Gözüm varaqda qalıb.

Gül naxışda oturur,
Payız qışda oturur,
Çoban başda oturur,
Alim qıraqda qalıb.

Hanı, bizi haxlayan,
Gəlib könül bağlayan,
Yoxdu bir tək ağlayan,
Dərd aralıqda qalıb.

## GÜNAH MƏNİ AXTARIR

Ürəyim asılıbdı
Çəkmədiyim bir ahdan.
Bir gecə ölüb gedir
Hər açılan sabahdan.

Payız gəlib, çən düşüb,
Saçıma əkin düşüb.
Ruhum didərgin düşüb,
Dönüb qayıtmır gahdan.

Kim dərd satıb, bəxt alır,
Axmaq fikir, vaxt alır.
Günah məni axtarır,
Mən qaçıram günahdan.

Nə tapdım, nə itirəm,
Harda azıb itirəm.
Hərdən çıxıb gedirəm
Eşq adlı qibləgahdan.

İndi harda umud var,
Göy üzündə bulud var.
Aralanmır buludlar,
Söz soruşam Allahdan.

## PAYIZ DÜŞÜB ARAYA

Nə qapı, nə baca var,
Hardan girim saraya?
Çox qəlbidi barılar,
Əl çatmır yuxarıya.

Körpü bir tağın üstə,
Yarpaq budağın üstə.
Ruhum yarpağın üstə,
Payız düşüb araya.

Çıxıb getdim naxıra,
Kim qalıbdı axıra?
Mən yaşıla baxıram,
Üzüm dönmür sarıya.

Kimdə bir az can qalıb,
Nə dağ, nə aran qalıb.
Ortalıqda qan qalıb,
Qaysaq gəlmir yaraya.

Ağaclar saçın yolur,
Qayıdın, açın, yolu.
Ürək yarıcan olur,
Ömür çatır yarıya.

Hər çiçəkdə min naxış,
Buludlar yağış-yağış.
Əllərimdən bərk yapış,
Ayrılıqlar qarıyar.

## SAÇIMDAN İŞIQ GƏLİR

Nə axşam, nə səhərdi,
Gecə yarıdı, deyən.
Bir damcı da yağmadı,
Bulud qurudu deyən.

Qaranlığı dan uddu,
Üfüqləri qan uddu.
Məni sevdi, unutdu,
O qız qarıdı, deyən.

İlin hansı ayıdı?
Canım bir az soyudu.
Payız yenə qayıdıb,
Yollar sarıdı deyən.

Bilmirsən nə çəkirəm,
Göydən ulduz sökürəm.
Ürəyimə tökülən
Həsrət qorudu, deyən.

Hardan boylanım-baxım,
Yenə bir az darıxım.
Bu da dəmir çarığım
Yollar yoruldu, deyən.

Həsrətim daşıb gəlir,
Yuxum qarışıq gəlir.
Saçımdan işıq gəlir,
Qışın qarıdı, deyən.

**OXUCULARIN NƏZƏRİNƏ!**

**"AZƏRBAYCAN"**

**jurnalına 2022-ci il üçün abunə yazılışı davam edir.**

**Əlaqə nömrələri:**

**+ 99412 498-78-10**
**+ 99455 668-78-79**

**Jurnalının bir nüsxəsinin qiyməti 1 manat 50 qəpik, illik abunə qiyməti 18 manatdır.**
**İNDEKS: 76300**



## *İntiqam YAŞAR*

### TORPAQLARIN VƏTƏN OLAN TƏRƏFİ

Torpaqların vətən olan tərəfi
qan azlığından əziyyət çəkir həmişə.
Qanını torpağa verir övladlar,
son cümləsinəcən...
Nə yaxşı ki, bütün qan qrupları torpağa düşür.
Taqətsiz vətənin üstünü örtməksə,
buluda düşür,
ağaca düşür,
yarpağa düşür...
Yoxsa...

### YOXLUĞUNUN KABUSU

Sənsiz nə uzaqlar çəkilməz,
Nə uzun gecələr.
Yoxluğunun kabusudur
Bütün səssiz küçələr.
Gözlərim uzaqlarda yorğun düşər,
Nəfəsim sinəmdə ağırlaşar.
Səni hansı səslə unudum,
Səni hansı sükutla xatırlayım?
Bir gün günəşi birgə salamlasaq,
Əllərini səmadan çəkmə.
Əllərim əllərini göydə tapmasa, intihar edər...

## İNDİ KİM BİLİR HARDASAN?!

İndi kim bilir hardasan?!
Kim bilir könlündən hansı rəsmim asılmış?!
Düşünə bilirsənmi hansı buludun altında necə darıxdığımı?
Gözlərimdən gözlərinə uzanan yoldayam,
Uzaq şəhərlərin darıxmağı ağır olurmuş,
Həm bir az acı, həm bir az şirin.
Bu gecə əllərinlə yuxuda həmsöhbət idim.
Gözlərini soruşdum,
"Gördük" dedilər.
Uzaqlara dikilmişdi səssizcə...

## ÖZ YALANLARIM

Mən öz yalanlarımla inandırdım özümü,
Mən öz yalanlarımla baş-başayam hər gecə.
Mənə yağış pay verər, mənə külək bağışlar,
Mənə bu cür doğmadı bu şəhərdə hər küçə.

İllərin ağrısı var, hər çiynimdə yük kimi,
Məni taqətdən salan səbəblərin sayı yox!
Mən bu ömrü büsbütün itirmişəm, nə yazıq,
Nə bu bir gün, nə beş gün, bunun ili, ayı yox.

Nə günahkar tapıram, nə günah var ortada.
Gözlərimdə görünür hər ağrının əl izi.
Yenə yetişdi axşam, yenə gəlir ağrılar.
Yenə ayaq səsləri silkələyir dəhlizi.

Yaralarım qan verir hər günəş qürubunda.
Mən ürək adamıydım, ürəyimi qırdılar.
Məni qınamaq üçün sən də tələs, yubanma.
Təkcə deyəcəyim bu: yordular, dost, yordular...

## GETMƏKDƏN HEÇ DANIŞMA

Yuxulu gözlərində gizlənər arzularım,
Yuxulu gözlərində ürək boyda həqiqət.
Mənim umub-küsdüyüm o gözlərdə, ilahi,
Nə qədər hıçqırtı var, nə qədər də sükunət.

Üsyan havasındadır hər səhər-axşam başım,
Göy üzünə ümidlər çilənməkdə qan kimi.
Səni yer kimi sevdim, səni göy kimi sevdim,
Bacarmadım sevməyi adi bir insan kimi.

Bu sevginin yükünü çiyinlərin daşımaz,
Bilirəm, çox ağırdı, əzilərsən, sınarsan.
Amandı, mənim kimi ürəyə bel bağlama,
Bir gün öz odun düşər, öz odunda yanarsan.

Göz yaşların acıdır, gözlərimi sil daha.
Səndə günah nə gəzir, suçlamağa qıymaram.
Yanımda qalmağınla sağalarmı yaramız?
Getməkdən heç danışma, getməyə də qoymaram...

* * *

Mən çıxıb getməyə bir küçə tapsam,
Mən çıxıb getməyə bir kimsəsizlik,
Mən çıxıb getməyə bir ada tapsam,
Bir boş ada!
Nə ağacı olsun, nə daşı olsun!

Mən çıxıb getməyə bircə yol tapsam,
Mən çıxıb getməyə bir azca da güc.
Mən çıxıb getməyə ən uzaqları!
Kimsənin olmayan uzaqlar!
Nə bir iz buraxım, nə geri baxım.

Mən çıxıb getməyə qərarlı olsam,
Mən çıxıb getməyə yır-yığış etsəm,
Mən çıxıb getməyə həyətə çıxsam,
Əllərim qoynumda qəfil titrəsə!
Hər şeyi o köhnə evdə unutsam!
Hər şeyə yenidən başlamaq olar!

* * *

"Gözlərin ayağının altını seçmir" deyənlərə anlada bilmədim,
Anlada bilmədim ayaqlarıma dolaşan kabusa baxa bilmədiyimi.
Hər yerdə qınandım,
Hər yerdə özgə oldum.
Ürəyimin ən yüksək yerlərindəki buzlar da əridi

ürəyimə od düşəndə.
Bütün dayanacaqlarda ağrılar qalaqlanmış.
Bütün avtobuslardakı sərnişinlərin bir gözü arxada.
Övladını yetimlər evində qoyub gedən atalar kimi.
Hamı yalan danışır.
Hamı tezliklə dönəcəm deyir...
Amma, bütün biletlər birtərəflidir...

* * *

Mən gülə bilmirəm, bilmirəm.
Buludları qərarsız səmanın altında.
Bəli, mən bir az da bədbin adamam.
Amma, amma adam kimi adamam.
Günah məndə deyil.
Misalçün, dünən sevgilimin şəklinə baxırdım,
içim sızladı.
Sevgilimi görmədim.
Küçənin tinində süpürgəçi qadın gördüm.
Söykəndiyi süpürgədən kiçik.
Dünyada söykənəcəyi tək süpürgə.

* * *

Saçlarına söykənib səni sevmək olar ölüncə,
Toxunma o saçlara, toxunma ölüm gəlincə.
Mən həyata gələn adamların ən sonuncu dərdçəkəni,
Dərdi dəbdən salanıyam,
sevən də çoxdu, sevməyən də məni.
İndi uzaqlar ən yaxın mənzildi unudulmağa,
İndi yaxınlar ən qorxulu uzaqlıqdı mənimçün.
Qınama, çox şey oldu.
Qınama, heç nə olmadı.

* * *

Nə sən uzaqlardan mənə gələrsən,
Nə mən uzaqlardan sənə gedərəm.
Bizi də uzaqlar udar beləcə.
Söykənə-söykənə buz divarlara,
Kürək izimizlə cığır salarıq,
Söykənə-söykənə buz divarlara,
Bir gün divarlarda şəkil olarıq.

Üşüyər alnımız əcəl tərindən,
Sırsıra buzlara şükür deyərik.
Gəlməyən adama, gəlməyən kəsə,
Gözümüz hələ yol çəkir deyərik.
Bizi təsəllilər ağlada bilər,
Bizi təsəllilər güldürə bilər.
Bizi təsəllilər yaşada bilər,
Bizi təsəllilər öldürə bilər.
Yaşamaq çox uzun yol da deyil heç,
Mənə bir nəfəslik adın bəs edər.

* * *

Uzaq yolam, ömür adam,
Tez yorulma bacarsan.
Gələndə nə itirdin,
Qayıdanda taparsan.

Dizlərini daşlara
Bağışlayıb gəlirsən.
Günləri ovcundaca
Gizli sayıb gəlirsən.

Nəfəsimdə isinən
Adına söykənmişəm.
Həm xəyal, həm də gerçək
qadına söykənmişəm.

Səni deyən hər şeyi
Al ağrının əlindən.
Bəzən imdad gözləyir
Adam öz əcəlindən.

Günəş gecikir yenə,
Özünü mənə çatdır.
Tələs, tələs bir az da,
Hər şey olar, həyatdır.

* * *

Səni gözləyəcəm...
Burda bu odada... gecələrin ağır pəncələrinə inad...

Yuxuların ərşə üz tutmalarına inad.
Bir gün olmayacaq ömrün səssiz əksinə inad.
Bir-birinə sarılan ümidlərə inad.
Kimsə döndərə bilməz səni yolundan,
Kimsə döndərə bilməz məni yolumdan.
Bircə gecikmə...
Bircə gecikmə...
Bircə gecikmə...
Nəfəsimə bel bağlamıram, küləklə qan qardaşıdır...
Gedər, gəlməz...

* * *

Bütün çobanyastığı çiçəkləri bir qarış məndən uca olanda
Bütün buludlar ən gözəl arzuların örpəyi idi.
Bütün ümidlər sinəmdə at çapırdı dördnala,
Bütün uşaqlar köhnə corabları top edirdi,
Bütün quzular qıvrım tüklərinə söykənirdi,
Qəssab bıçaqları korşalmışdı.
Bütün tənha qocalar nəvələrin yadına düşmüşdü,
Bütün atalar övlad qarsılayırdı hərbidən,
Bütün analar övlad toyuna hazırlaşırdı.
Dünya elə gözəl idi ki...

* * *

Kimdən söz düşsə də, səndən düşməsin,
Bir də qayıtmayım adın tərəfə.
Tövbəni boynumdan dua asmışam,
Yön çevirmərəm o qadın tərəfə.

Qismət bir oyundu zər yiyəsinə,
Bəxtini çağırmaq lal üçün dua.
İllərin tikanı üstə sürünmək
Ömür sürmək imiş mənimçün guya.

Nəfəs yorğunuyam ömür içində,
Ayağım buxovda, əlim qəfəsdə.
Gözümü açalı belə görmüşəm,
Yaşam qəfəsdədir, ölüm qəfəsdə.

* * *

Şeirdən də bezər adam,
Sözdən də yorular adam.
Bir gün elə sol köksündən,
Yıxılar, qırılar adam.

Yol ayırar adla-sanla,
Di gəl, bunu bacar, anla.
Özü verdiyi nişanla
Köksündən vurular adam.

Gündə yüz çubuq uzanar,
Başına çoxu dolanar.
Könlü bulaqtək bulanar,
Ağlayar, durular adam.

Üzü çat, yer üstü kimi,
Soyuq kimi, isti kimi.
Bir gün də ağ tüstü kimi
Göylərdə burular adam.

* * *

Bu gün yol alırsan üzü keçmişə,
Bu gün tərk edirsən şəhəri belə.
Mənim gözlərimdən yuxu qaçaqdır,
Budur, qarşıladım səhəri belə.

Yollar uzun deyil əzablar qədər,
Arada nəfəs dər, yorma özünü.
Ürək söz eşitmir, hər addımbaşı
Dikər gələcəyin yola gözünü.

Harada itirdim, harada tapdım,
İzin itməyibmiş izlər içində.
Sənə susa bilmək ən çətiniymiş,
Səsim çiliklənir sözlər içində.

* * *

Ömürdən uzaqda bir kirayə tut,
Qapını tanıyan kəsin olmasın.
Divarlar ardında həmişəlik sus,
Kiməsə çatası səsin olmasın.

Səni sən olmaqdan çoxdan çıxarıb,
Bu fil yorğunluğu, bu zindan acı.
Oxşa oxşadıqca o sərt süngünü,
Sol köksün üstünə tuşlanıb ucu.

Ömür çox qısadır, dar ipi kimi,
Həyatla aranda bir kötük qalır.
Yaxud da, divara çiyin verirsən,
Yadında bir o səs, bir tətik qalır.

* * *

Mən yalquzaq küləkləri yaxşı tanıyıram
ağacların ölümə dartınmasından.
Mən bu qışı da tanıdım gəlişindən,
Neçə evsizi son mənzillə təmin edəcək.
Ürəyimdən tutan ağrılar,
Əlimdən tutan "dostlardan" ürəkliymiş.
Bu ömrü bir dəfə yaşamışam mən,
Hər qarışına bələdəm.
Bütün yollar yaralı sürünür ömrün sonuna.

* * *

Küçələr əl açıb adam dilənir,
Küçələr gözümdə səfil-sərgərdan.
Zamanla unutduğum ağrıları da
yadıma salır yoxluğun.
Gözlərimdə rəngi solmuş min həqiqət var,
Minbir yalan.
Özümdən elə qisas alıram ki, ömrümə gecikmiş adam.

Bunu nə sən bacarardın, nə bir başqası.
Həqiqətə tərəf addım atıb yıxılmaq,
Sənə bir addım da yaxınlaşmaqdır.
Mən dizlərimdəki yaralar qədərəm,
Yıxılmaq gözümü qorxutmaz...

* * *

Ömür sual yağışıdır,
Cavablar düşüb qurağa.
Üzülməli nə var burda,
Biz də çəkildik sınağa.

Atmağa bir daş da yoxdur,
Ataq ki soyusun ürək.
Bir nəfəslik çimir alsın,
Bir azca uyusun ürək.

Bu bəxti kim atdan salıb,
Ölümtək çöküb üstünə?
Bəlkə elə bəxt üşüyüb,
Ölümü çəkib üstünə?

*Nüşabə ARASLI*



# "BEŞ İNCİ"NİN SONUNCUSU

Doğma Azərbaycan xalqının tarixi taleyi ilə yaxından bağlı, vətəninin maddi və mənəvi gözəlliklərini əsərlərində məhəbbət və qürur hissi ilə tərənnüm edən dahi Nizami eyni zamanda dünya mədəniyyəti ilə də yaxşı tanış olmuş, ensiklopedik məlumata, hərtərəfli elmi biliyə yiyələnmiş alim-sənətkar, böyük mütəfəkkir şair kimi əbədi şöhrət qazanmışdır. Onun dünya ticarət yollarının kəsişdiyi qədim mədəniyyət mərkəzi olan Gəncədə yazıb başa vurduğu ölməz sənət abidəsi olan "Xəmsə"sində Şərq və Qərb mədəniyyətinin ən gözəl nailiyyətləri öz bədii əksini tapmış, bir çox xalqların adət və ənənələrindən rəğbətlə bəhs olunmuşdur. Bu baxımdan şairin zərdüşti, nəsrani, yəhudi mənbələri, türk, ərəb, fars, yunan, hind və başqa dillərdəki yazılı və şifahi nümunələrdən faydalanaraq yaratdığı "İskəndərnamə" poeması xüsusilə səciyyəvidir.

Nizaminin ömrünün ən yetkin çağlarında belə bir mövzuya müraciət edib məzmun və ideya mənası etibarilə çoxcəhətli zəngin bədii irsini makedoniyalı fatehin həyat və qəhrəmanlıq sərgüzəştlərindən bəhs edən tarixi-fəlsəfi poema ilə başa yetirməsi, şübhəsiz ki, təsadüfi deyildi. Yalnız bir-iki ölkə ilə məhdudlaşmayıb bütün dünyada məşhur olan, tarixi qaynaqlar, Qurani-Kərim və Firdovsi "Şahnamə"sində də öz əksini tapıb xalq yaradıcılığında rəngarəng rəvayət və əfsanələr doğuran adil hökmdar, bacarıqlı sərkərdə, mütəfəkkir bilici və peyğəmbər məqamına yüksəlmiş ülvi şəxsiyyət kimi tanınan bir obrazla bağlı mövzu dahi şairin bütün yaradıcılığı boyu izlədiyi bəşəri səadət, mənəvi yetkinlik, qüsursuz cəmiyyət və başqa ictimai-siyasi düşüncələrinin ifadəsi olduğu kimi, həyat və kainat haqqındakı elmi-fəlsəfi görüşlərinin bədii əksi üçün də geniş imkanlı idi. Şairin öz qeydlərindən onun mövzu ətrafında ciddi axtarışlar aparması ədəbi-tarixi mənbələrlə yanaşı, müxtəlif dillərdəki məlumatları da səbrlə gözdən keçirərək saf-çürük edib bədii amalına uyğun saydıqlarını seçərək, ağlabatan, oxucunu inandıra biləcək maraqlı nümunələrə əsaslanması aydın olur.

Poemada İskəndərin həyati sərgüzəştləri və tarixi fütuhatları əsas götürülsə də, Nizami "Xəmsə"yə daxil olan bütün əsərlərində bu və ya başqa münasibətlə dönə-dönə qayıdaraq hər dəfə yeni ictimai motiv və poetik çalarlarla bir daha təkmilləşdirib, məzmundan kənar ibrətamiz hekayələrlə daha ətraflı əhatə etməyə çalışdığı yüksək bəşəri problemləri məhz bu poemada ümumiləşdirmişdir. Buna görədir ki, öz ideya səciyyəsi, əxlaqi-didaktik, ictimai-fəlsəfi, məhəbbət və tarixi qəhrəmanlıq kimi bir-birindən seçilən mövzularda qələmə alınmasına baxmayaraq, ümumi yaradıcılıq amalı və daxili bir məna bağlılığı ilə bir-birini tamamlayan "Xəmsə" poemalarının axırıncısı olan "İskəndərnamə" həm də şairin ardıcıl ədəbi-bədii axtarışlarının uğurlu nəticəsi, onun sənət aləmindəki yekun sözü idi.

Nizami yaradıcılığında öz rəngarəng təzahür formaları ilə fərqlənib poemadan poemaya daha da təkmilləşərək yeni poetik məna incəlikləri ilə zənginləşən ictimai humanist görüşlər "İskəndərnamə"də əsərin əsas ideya qayəsini təşkil edən ideallıqla bağlı qoyulub, elmi-fəlsəfi aspektdə həlli ilə də səciyyələnməkdədir. Xüsusilə şairin yaradıcılığının daimi problemlərindən olan ictimai ədalət və bu problemlə bağlı təkamül prosesində götürülən Ənuşirəvan, Xosrov, Bəhram, eləcə də adil şah kimi oxuculara təqdim olunan Hörmüz, Məhin Banu, Şirin və başqa hökmdar obrazları "Xəmsə"nin son poemasında şairin yaratdığı İskəndər surətində elmə, alimə xüsusi rəğbət, bütün dünyada ədaləti bərpa etmək, qurub-yaratmaq, firavan həyat, xalqın asudəliyini təmin etmək istəyi kimi yeni sifətlərlə təkmilləşdirilmişdir.

Bu baxımdan Nizaminin xalq və başçı, dövlət və hakim, cəmiyyət və hökmdar və bunların çoxcəhətli qarşılıqlı münasibətləri ilə bağlı söylədiyi ictimai-siyasi mülahizələri xüsusilə maraqlıdır. Nizami ölkədəki nizam-intizam, günahsız camaatın qoluzorluların əziyyətindən qorunması, böyük-kiçiyə yerini tanıtmaq, hər kəsə layiq olduğu, bacara bildiyi vəzifəni tapşırmaq kimi bir çox incə mətləblər ətrafında İskəndəri və onu əhatə edən təcrübəli bilicilərin dili ilə marağlı fikirlər söyləyir. Bunu şahın ölkədəki hərc-mərcliyin səbəbini öyrənmək məqsədilə vəziyyətlə hərtərəfli tanışlığından sonra verdiyi ədalətli fərmanda da aydın görürük.

***Sənətkar getməsə öz sənətinə,***
***Yaxşı iş görsə də, suçludur yenə.***
***Əkinçi öküzdən kömək istəsin,***
***Tarladan, kotandan dilək istəsin.***
***Ordu işlərinə qayıtsın əsgər,***
***Şəhər işlərinə getməli şəhər.***
***Yalnız öz işinə getsin hər kişi,***
***Bərk tutsun əvvəldən bildiyi işi.***

Nizami ölkə başçısını heç bir vəchlə xalqdan ayrı təsəvvür etmir, ölkənin əmin-amanlığı daxili və xarici düşmənlərdən müdafiəsi işində böyük əhəmiyyəti olan şahla xalqın əlbirliyi ideyasını hələ ilk poemasından başlayaraq bəzən açıq, bəzən də dolayı yollarla ifadə edir, "İskəndərnamə"də bunu aparıcı ideyalardan birinə çevirən sənətkar bütün incəlikləri ilə əhatə

etməyə çalışmışdır. Kəyan taxtına yenicə sahib olan İskəndərin xalqla söhbəti zamanı ona verilən "İndi ki hamı bərabərdir, bəs sən niyə xalqdan ucada oturursan?" – sualına şah:

Dedi: –

***Mən başçıyam, xalq isə ümmət,***
***Baş yerə enərsə, pozular şövkət.***
***Otlara yaraşır başını əymək,***
***İnsanın başısa ucada gərək.***

– cavabını verərək öz əzəmət və şan-şövkətini də xalq taleyi ilə bağlayır. Nizami şahın bu cavabında eyni zamanda xalqsız hökmdarın bədənsiz baş kimi yararsız olduğunu da bədii ustalıqla oxuculara çatdırır.

Nizami qəhrəmanının hakimiyyətin möhkəmliyi, hakimin xalqla rəftarı, ölkənin müdafiəsi, ordunun cəsarəti, təcrübəli sərkərdə və başqa mühüm məsələlər ətrafında bilicilərlə mükaliməsi də oxucunun diqqətindən yayınmır. Təcrübəli sərkərdə şahın "Düşməni necə yenmək olar?" – sualına belə cavab verir:

***Şahım, ordu çəkmək cəsarət istər,***
***Heç aciz olarmı igid, hünərvər?***
***Mətanət sənindir, kömək tanrıdan,***
***Bunlardır ordunu mətin saxlayan.***
***Ümidin qırılsa, ürəkdən çalış,***
***Mərdin qulağını buran olmamış.***
***Uğurlu zamanda zəfər gözləyən***
***Düşmən qorxusunu silsin könüldən.***

Nizami İranın əzəmətli hökmdarı, qüdrətli ordu sahibi Daranın məğlubiyyətinin bir səbəbini də onun gərəkli məqamda istənilən cəsarəti göstərə bilməməsi ilə izah edir.

Nizami bu poemasında həm də dövləti idarə işlərinin gizli nöqtələrinə bələd müdrik siyasətçi kimi görünür. Əsərdə şahın əhatəsində olduğu dövlət adamlarına münasibəti, ölkədə baş verəcək narazılığı qabaqcadan duyub qabağını almaq yolları və başqa bu kimi siyasi məsələlərlə bağlı maraqlı fikirlər söyləyir. Daranı məğlub edərək onun gözəl ölkəsini ələ keçirən İskəndərə müdrik vəzir yad ölkədə qalmamağı məsləhət görür, İranın idarəsinə isə rumluları deyil, İran şahzadələrini cəlb etməyi belə tapşırır:

***Sən güldür üzünü şahzadələrin,***
***Silinsin qəlbindən qəmin, kədərin.***
***Hər şahı layiq bir ölkəyə göndər,***
***Nə yeri istəsə, o yerə döndər.***
***Qorxuram əcəmlər qalxsın yenidən,***
***Daranın qanını almaq istərkən.***
***Yunana və Ruma çıxarsın ordu,***
***Dağıtsın ölkəni, niyə gərək bu?***
***Hər biri padşahlıq edərsə tək-tək,***
***Ortada düşmənlik artacaq bişək.***
***Hər kəsi mülkünün qayğısı alır,***
***Ölkəmiz düşməndən salamat qalır.***

Dahi şair "Xəmsə"də ardıcıl izlədiyi ədalət və qüsursuz şah problemini fərdin mənəvi kamilliklə bağlı problemə yönəldilən bəşəri mülahizələri ilə vəhdətdə götürmüş, onu elm, bilik, yüksək əxlaq, əhatəsində olduğu mühit və cəmiyyətə münasibət, insanın təbiətlə ayrılmazlığı kimi mühüm düşüncələri ilə də ustalıqla əlaqələndirmişdir.

"İskəndərnamə", əvvəldə qeyd edildiyi kimi, elmin qüdrətini, alimin cəmiyyətdəki yüksək mövqeyini təsdiq edən bir əsər olmaqla da "Xəmsə"də birləşən poemaların uğurlu davamı, şairin bu sahədəki ardıcıl axtarışlarının kamil zirvəsidir. Qəhrəmanını həmişə Ərəstu, Əflatun, Sokrat və başqa mütəfəkkirlərin əhatəsində təsvir edən Nizami, bu obraz vasitəsilə elm-bilik haqqında əvvəlki poemalarda da tez-tez toxunduğu yüksək fikirlərini daha da inkişaf etdirmiş, İskəndərin sarayında keçirilən fəlsəfi məclislərdə alimlərin dili ilə özünün həyat, yaradılış, kainat haqqındakı elmi görüşlərini ifadə etdiyi kimi, elmi də dirilik suyu kimi mənalandırıb, ondan bəhrələnmiş insanların ölməzliyini bildirmişdir.

İnsanı yaşadığı mühitin və əhatəsində olduğu cəmiyyətin ayrılmaz parçası bilən Nizami ona öz həmcinslərinə olduğu kimi təbiət gözəlliklərinə də biganə qalmamağı, təbiətin zinəti olan canlılara qayğı və mərhəmət hissi aşılamağa çalışır. Bu baxımdan şairin bir çox sahələrdəki axtarışlarını birləşdirərək təsvir etdiyi ictimai əmək, bərabərlik, qarşılıqlı hörmət və qayğıkeşliyə əsaslanan, "ağa və qul", "zalım və məzlum" qarşıdurmasından uzaq, yalnız yüksək əxlaq normalarını rəhbər tutan cəmiyyətin təbiətə və canlılara münasibəti haqqındakı qeydləri xüsusilə maraqlıdır. Şair dünyanı dolaşaraq gəzib axtaran İskəndər şahı heyran qoyan bərəkətli zəmiləri, barlı-bəhərli meyvə bağları olan bu səfalı yerin xoşbəxt sakinlərinin dili ilə özünün insan və cəmiyyətlə bağlı bəşəri arzularını belə bildirir:

***Bizdən qaçmaz əsla vəhşi heyvanlar,***
***Vermərik onlara əziyyət, azar.***
***Ovlamaq istəsək onlardan əgər,***
***Ovlarıq ehtiyac duyulan qədər.***
***Lazım olmayanı biz nahaq yerə***
***Qırmarıq, ziynətdir deyə çöllərə.***

Əsərin başqa bir yerində isə yer üzünü bəzəyən, nemət mənbəyi olan yaşıllıqları və bitkiləri qorumaq haqqında yazırdı:

***O meyvəli ağac olsun bəxtiyar,***
***Sərin kölgəsindən dincəlmək olar.***
***Həm cana rahatlıq verir kölgəsi,***
***Həm bəzər süfrəni dadlı meyvəsi.***
***Bar verən belə bir ağacı gerçək***
***Rəvamı baltanın ağzına vermək?..***

Göründüyü kimi, dahi şair hələ "Sirlər xəzinəsi"ndə "Firudin ilə maralın dastanı" hekayəsində qoyduğu insan və təbiət məsələsini sonrakı poemalarında daha da inkişaf etdirib təbiətin saf qoynuna sığınmış Məcnunun maralı, ceyranı ovçunun əlindən qurtarması, Bəhramın aclıq illərində quşları belə yaddan çıxarmayıb doyuzdurması, yaxud gurun ardınca düşərək

mağarada şahın yox olmasının şair tərəfindən mənalandırılması və başqa epizodlarla daha da hərtərəfli həllinə çalışdığı bu problemi yaradıcılığında son söz olan möhtəşəm poemasında da yaddan çıxarmır.

Yaratdığı hökmdar obrazlarını həmişə inkişafda verən Nizami İskəndəri də nöqsansız göstərmir. Hələ Sokratı ayağı ilə vurub yuxudan oyatmaqla şairin özünün əxlaqi tərbiyəyə ehtiyacı olduğunu anladan şair, bilicinin dili ilə ona belə deyir:

***Səndə ki, pak olmaq iddiası var,***
***Bəs niyə heyvantək edirsən rəftar?***
***Əlbəttə, tələsən bir heyvan ancaq,***
***İnsanı oyadar, təpik vuraraq.***

Nizami müsbət planda qələmə aldığı qəhrəmanının digər nöqsanlarını da (dünya nemətlərinə həddən artıq aludələyini) alimin diliylə onun üzünə deyir. İskəndər özünün qadına yuxarıdan baxması, mərdlik, cəsarət, qüvvət kimi sifətlərin yalnız kişilərə məxsus olduğuna inamında da yanılır. Nizami şahın qadınlığa münasibətindəki yanlış təsəvvürünü iki yerdə tutarlı tərzdə tənqid edir. Nüşabənin sarayına elçi sifətində gələn İskəndər bu ağıllı qadının onu tanımasından çıxılmaz vəziyyətə düşərkən:

***Qadınlar olmasın gərək çox cəsur,***
***Dişi aslanlarda kin kəskin olur.***
***...Yüngüldür çəkidə qadının daşı,***
***Kişi ölçüsüylə durmaz yanaşı.***

– deyə düşünürsə, Nüşabənin iti zəkası və onunla tədbirli rəftarı hökmdarı sarsıdaraq ədalətsiz qərarından tezliklə döndərir. Şah qarşısında mətanətlə dayanıb ona: “Aslanın erkəyi, dişisi olmaz” – xalq məsəlini xatırladaraq meydan oxuyan ağıllı hökmdar önündə İskəndər mənəvi məğlubiyyətini etiraf etməli olur:

***Eşq olsun bu fikri sağlam qadına,***
***Mərdliyin yolunu göstərdi mana***

– deyir.

Qadınlığa qarşı inamsızlıq ikinci dəfə çinli kənizin qəhrəmanlığını döyüş meydanında gözlərilə gördüyü zaman şahı tərk edir. Bütün bunlar böyük şairin qadınlıqla bağlı doğma təsəvvürdən gələn və ilk poemadan başlayaraq bütün əsərlərində özünü çox qabarıq göstərən yüksək fikirlərinin yeni bədii zəmində əsərin qəhrəmanlıq ruhuna uyğun aspektdə təzahürü idi.

Nizami həmişə diqqət mərkəzində saxladığı gənclik probleminə bu əsərində də qayıdaraq, həyatın davamı, qazanılan bütün maddi və mənəvi nailiyyətlərin əsl varisi, xalqın varlığını təmin edən əsas qüvvə kimi mənalandırdığı gəncliyə etdiyi ibrətamiz öyüdlərini uzun illərin həyati təcrübələri və həssas müşahidələri ilə daha da zənginləşdirmişdir. “İskəndərnamə”də şair nəsillərin qarşılıqlı münasibəti məsələsini daha ətraflı işıqlandırmağa çalışaraq gəncliyə ömrünü başa vurmaqda olan yaşlı nəslin həyat yolunu öyrənib onu ləyaqətlə davam etdirməyi, əldə edilən bütün maddi və mənəvi dəyərləri qoruyub öz fədakar zəhməti ilə bir daha zənginləşdirərək gələcək nəsillərə açıq alınla təhvil verməyi tövsiyə etmişdir:

***Hər şeyi özünçün əkmək nə yarar?***
***Dünyada hesabsız ruzi yeyən var.***
***Keçənlər zəhmətlə əkdiyi bağdan,***
***Gələnlər meyvəni dərmiş hər zaman.***
***Keçənlər bir çox şey əkmişlər bizə,***
***Biz də əkməliyik gənc nəslimizə.***

Nizami yaradıcılığının bütün problemlərini, xüsusən “İskəndərnamə”də öz yekun həllini tapan bəşəri ictimai məsələlərin hamısını əhatə etmək, əlbəttə ki, mümkün deyildir. Bütün bunları dahi şair əsərinin ideyası ilə ustalıqla bağlamış, bədii məqsədi ilə əlaqələndirərək onun daha aydın alınmasına yönəltmişdir.

“İskəndərnamə”, nəhayət, bədii biçimi, yazılış tərzinin özünəməxsusluğu və orijinal poetik məziyyətləri ilə də Nizami sənətini uğurla tamamlayan təkrarsız sənət abidəsidir. Şairin əsərlərində özünü bir çox yönümdən aydın göstərən Azərbaycanla bağlılıq, doğma kökə sevgi xalqın ədəbi-mədəni irsindən məhəbbətlə faydalanmaq kimi səciyyəvi xüsusiyyətlər “İskəndərnamə”də də geniş yer alaraq əsərin məzmunu ilə bağlı oxucuların diqqətinə çatdırılmışdır. Bu baxımdan şairin türk məxəzlərindən, ümumtürk abidələrindən, türk xalqlarının şifahi ədəbiyyatları ilə bağlı rəvayət və əfsanələrdən faydalanmasını xüsusi qeyd etmək lazım gəlir.

Dahi şair Gəncə mühiti və özünün doğma şəhərlə olan bağlılığından məhəbbətlə danışaraq misilsiz sənət yadigarları olan ölməz əsərlərini də Gəncənin mənəvi sərvəti saymış, mövzunun verdiyi imkandan istifadə edərək vətən gözəlliklərinin heyranlıqla təsvir etmişdir. Nizami xüsusilə rusların tarixi hücumlarından bəhs edərkən Bərdənin təsvirinə ayrıca fəsil ayırmış, doğma vətən torpağının keçmiş əzəmətini qürurla xatırladığı kimi, hazırkı xaraba vəziyyətini də ürək ağrısıyla qələmə almışdır. Şair İskəndərin Azərbaycana gəlməsindən bəhs edərkən xalqın var-yoxunu, eləcə də mədəni sərvətlərini topladığı atəşkədələrini dağıdılıb məhv edilməsini qədim mədəniyyətə vurulan ağır zərbə kimi qiymətləndirmişdir.

Ancaq nikbin şair ümidsiz də olmamış, maddi və mənəvi qüdrətinə yaxşı bələd olduğu doğma xalqının tarixi qəhrəmanlıq ənənələrinə sadiq qalacağını, torpağında saysız mənəvi xəzinələr gizlənən ana yurdun əvvəlki qüdrətini qaytara biləcəyinə inamını bildirmişdir:

***Bu mərdlər, gözəllər yurdunda inan,***
***Çox saysız xəzinə gizləmiş zaman.***

Nizami doğma türk dilinin imkanlarından da ustalıqla faydalanmış, çoxlu türk mənşəli sözlər işlədərək “Axtaran tapar”, “İt yiyəsini tanımır”, “Biri birisinə bağ qıydı, o birisi ona bir salxım qıymadı”, “Qarğa kəklik kimi səkmək istədi, öz yerişini də itirdi”, “Nə şiş yansın, nə kabab”, “Yelnən gələn yelnən gedər” və başqa bu kimi çoxlu Azərbaycan xalq məsəlləri və deyimlərindən faydalanmışdır. Bütün bunlar Nizami şeirindəki türk əhvali-ruhiyyəsini bir daha gücləndirərək onun əsərlərini müasiri olan fars şairlərinin poetik irsindən fərqləndirmişdir.

Nizami başqa poemalarında olduğu kimi bu əsərində də çoxlu türk sözləri işlətmişdir. Dediklərimizə dair istənilən qədər nümunə gətirmək müm-

kündür. Bu özü xüsusi mövzu olduğu üçün bir-iki misalla kifayətlənmək istəyirik.

“Şərəfnamə”də Çin xaqanının İskəndərə göndərdiyi hədiyyələrdən bəhs edərkən Nizami onların içərisində bir şahin quşu olduğunu qeyd edərək həmin quş haqqında belə deyir:

طغان شاه مرغان طغرل بنامبسلطانی اندر چو طغرل تمام

(Quşların Toğan şahı, adı Toğrul, Sultanlıqda Toğrula bərabərdir.)

Burada şair türkcə “Toğan” (şahin) quşu sözü ilə yanaşı, həmin mənanı verən türk mənşəli “Toğrul” adından da ustalıqla faydalanmışdır.

“Şərəfnamə”də Qarınca adlı bir igidin döyüş meydanındakı vuruşmasından bəhs edərkən bu sözün türkcə ifadə etdiyi mənasından orijinal tərzdə bəhrələndiyini görürük:

قرنجه چو دید آنچنان دست زورسپر برکتف دوخت چون پر مور

(Qarınca (düşməni) belə qüvvəti görcək qalxanınını qarışqa qanadı kimi çiyninə çəkdi.)

Bu misralarda Qarınca adlı qəhrəmanın qalxanını çiyninə sipər etməsi qanadlı qarşıqanın öz qanadı ilə çiynini örtməsinə bənzədilir. Şair bu bənzətməni təsadüfi olaraq seçmir, “qarınca” (qarışqa) sözünün farsca qarşılığı olan “mur” kəlməsini də işlətməklə Nizami özünün türk dilinin incəliklərindən istifadə etmək hünərini bir daha nümayiş etdirir.

Nizaminin “Şərəfnamə” əsərinin farsca və Azərbaycan dilinə tərcüməsinin Bakı nəşrlərinin hamısında əsərin “İskəndərin ruslarla vuruşması” fəslində “Qarınca” sözü səhv olaraq “Fərincə” yazıldığından bu sözün türkcə mənasının oxucuya çatdırılması tərcümədə diqqətdən kənarda qalmışdır.

***Fərincə görüncə adlı igidi,***
***Qalxanı qanadtək çiyninə tikdi.***

Nizami poemasının özünəməxsusluğu əsərin fəlsəfi mündəricəsindən irəli gələn başqa poetik cizgilərdə də aydın duyulmaqdadır. “İskəndərnamə”dən bəhs edilən tədqiqatlarda Nizami əsərlərinə xas lirik əhval-ruhiyyənin bu poemada zəif olması kimi fikirlərlə qarşılaşırıq. Bu hər şeydən əvvəl Nizami sənətində poetik tutumun məzmunla ayrılmazlığı kimi mühüm bir cizgi ilə şərtlənir. Ancaq bununla belə təhkiyədə lirik ruhun arxa plana keçməsi heç də poemanın bədii sənətkarlıq baxımından əvvəlki əsərlərdən aşağıda durması demək deyildir. Bunu əhvalatların mündəricəsinə uyğun bədii quruluş, təsvir olunan hadisələrlə səsləşən əlvan təbiət təsvirləri məzmunun fəlsəfi tutumuna uyar seçilən poetik vasitələr də təsdiq etməkdədir. Poemanın hər iki kitabında istər “Şərəfnamə”, istərsə də “İqbalnamə”də lirizmi qüvvətləndirən “saqinamə” və “müğənninamə”lər və onları izləyən lirik başlanğıclar, tez-tez qarşılaşdığımız bədii haşiyə və lirik ricətlər, eləcə də bəzi səhnələr öz lirik ruhu ilə epik təsvirləri bir daha zənginləşdirir, hadisələrin daha görümlü, daha təsirli alınmasıyla nəticələnir. Poemadakı bir çox əlamətdar əhvalatlar, mənalı yazışmalar, psixoloji təsvirlər, qəhrəmanın ölüm səhnəsi, İskəndərin anasına yazdığı vəsiyyət məktubu, ölüm anlarında olan Daranın İskəndərə vəsiyyəti, daxili monoloqlar və s. öz dərin tutumu və təkrarsız poetik gözəlliyi ilə nadir sənət nümunələridir.

Nizami bədii ustalığı poemanın hikmətamiz mənasını tamamlayan nəsihətamiz görüşlərin bədii əksində, şairin xalq ədəbiyyatından alaraq mətnə ustalıqla uyğunlaşdıra bildiyi xalq məsəllərinin, eləcə də zəngin təcrübə və dəqiq həyati müşahidələrindən çıxış edərək yaratdığı aforizmlərin dərin mənasını daha baxımlı edən lakoniklik və bədii tutumda da aydın görünməkdədir.

Şairin xalq məsəli kimi mənalı səslənən beytlərindəki təkrirlər diqqətlə seçilmiş ifadələri ahəngcə gözəlləşdirən eyni və tələffüz baxımından yaxın səslərin uyğunluğundan alınan alliterasiya və ustalıqla işlənən rəngarəng poetik fiqurlar beytin mənasını daha anlaşıqlı etməklə yanaşı onun asan əzbərlənib hafizələrdə qalmasına da kömək edir.

Bütün bunlar bir daha təsdiq edir ki, dahi şairin dünya mədəniyyətinin nadir incisi kimi şöhrətlənən “Xəmsə”sini onun ömrünün ən yetkin illərində qələmə aldığı iki cilddən ibarət bu möhtəşəm əsər öz məna siqləti və təkrarsız poetik tutumu ilə müvəffəqiyyətlə tamamlayır. Şair əsərinin başlanğıcında əbədi yaşamaq ümidilə yorulmadan gəzərək dirilik suyunu tapa bilməyən sevimli qəhrəmanını “İskəndərnamə” poemasında əbədiləşdirdiyini belə bildirirdi:

***İskəndər çox böyük yol təqib etdi,***
***Dirilik suyunun dalınca getdi.***
***Əbədi qalmaqçın həyat suyundan***
***Çox gəzdi, dolaşdı heç yorulmadan.***
***Dirilik suyunun olmadı sonu,***
***Ancaq indi tapdı həyat suyunu.***

Həqiqətən İskəndər obrazı dahi şairin ecazkar sənətində əbədiləşdi. Təsadüfi deyildir ki, Şərq qəhrəmanlıq və əxlaqi-didaktik mövzuların inkişafında mühüm təsiri olan “İskəndərnamə” Nizami ənənələrini izləyən şairlərin demək olar ki, hamısının “Xəmsə”sində öz əksini tapmış, poema nəzmlə olduğu kimi nəsrlə də müxtəlif dillərə tərcümə edilərək yayılmış, xalq yaradıcılığında müxtəlif əfsanə və rəvayətlər doğuraraq bir çox dastanların və oxşar mövzulu əsərlərin meydana çıxması üçün də əsas təşkil etmişdir.

***Yaqub BABAYEV***

# NİZAMİNİN İMANI VƏ İNAMI



Gəncəli Şeyx Nizaminin ideya və ideallarının bəşəriliyinə və müasirliyinə, çəkisinə və sanbalına bir sistem halında baxmalıyıq. Yəni ilk növbədə onun haradan qidalanıb, haradan başlayıb, haradan nəşət tapıb haraya doğru istiqamətləndiyini, haraya yol aldığını, hansı nəticəyə gətirib çıxarmalı olduğunu, bəşəriyyətə və insanlığa nə verməli olduğunu nəzərdən keçirməliyik. Ona görə də şərhə şairin ideya və ideallarının ilkin qaynağından, yəni onun Allaha və dinə münasibətindən, etiqadından, inancından və bunun sənətkarın yaradıcılığındakı təzahüründən başlamalıyıq.

Nizamidə Tanrı həqiqətinə sonsuz, dərin və sarsılmaz sevgi, dinin xilasedici missiyasına böyük inam vardır. Onun böyüklü-kiçikli bütün bəşəri, insani ideya və idealları ilkin qidasını məhz bu sevgi və inancdan alır.

Nizami bir islam şeyxi, saf etiqad və iman sahibi, həqiqi mömin idi. Onun etiqad və inancı bütün paklığı və mükəmməlliyi ilə şairin əsərlərinə hopmuş, şairin qayə və təlqinlərinin əsas leytmotivləri sırasında yer almışdır. Filosof sənətkarın inancına görə, xilqət aləmindəki hər şey ilkin, əzəli və əbədi olan Xaliqin qüdrətinə, iradəsinə, istəyinə bağlıdır. Hər cür qeybi və maddi varlıqları yaradan da, yaşadan da, məhv edən də odur:

***Göyləri xəlq edib yaraşıq verən,***
***Saysız ulduzlara nur, işıq verən,***
***İnsan şüuruna hikmət öyrədən,***
***İncə xəyallara sənət öyrədən,***
***İncə fikirlərə çıraq yandıran,***
***Zülmət gecələri işıqlandıran,***
***Bizə qorxu, ümid, şadlıq, qəm verən,***
***Günəşli və aylı bir aləm verən,***
***Bu yeri, bu göyü odur saxlayan,***
***Onun varlığına şahiddir cahan.***
***İstəsə aləmi pozar, məhv edər***
***Varlıq varlığına şəhadət verər.***

Madam ki, hər şey Allahın hikmətinə, qüdrətinə bağlıdır, varlığın hər zərrəsində, hər nəqşəsində onun nişanəsi var, hər şey onun hikmətinin təcəllisidir, deməli, xilasedici də Odur. Köməyi, yardımı da yalnız varlıq mülkünün sahibindən ummaq, istəmək olar. Çünki:

***Bir olan Allaha hamı möhtacdır,***
***Hamının dərdinə tək o, əlacdır.***

Şair özü də yalnız Tanrıdan kömək, mədəd umur, onu imdada çağırır, xilaskar kimi onun ətəyindən yapışır. Həm də işıqlı qəlb, nurlu xəyal və niyyət sahibi kimi yalnız ondan müsbət amala xidmət edən mənəvi nemətlər istəyir:

***Kömək qapısını aç, ey yaradan!***
***Göstər Nizamiyə düz yolu hər an!***
***Səni tanıyan bir könül ver ona!***
***Tərifini deyən bir dil ver ona!***
***Yol vermə ki, pislik qəlbinə dolsun,***
***Əlim yamanlıqdan qoy uzaq olsun!***
***Könlümün evini nurunla bəzət!***
***Sənin tərifinə dilimi öyrət!***

Nizaminin "Xəmsə" yə daxil olan bütün poemaları tövhid, münacat və nətlərlə başlayır. Doğrudur, bu ənənə orta əsrlər islam Şərqində epik poeziya üçün normalaşmış bir rəsmi-ənənəvi başlanğıc, üslub idi. Lakin məsələ burasındadır ki, Allahın və peyğəmbərin tərifinə həsr olunmuş həmin poeziya örnəkləri Azərbaycan şairində yalnız rəsmi-ənənəvi mahiyyət kəsb etmir. Bunlar həm də sənətkarın bütün ruhunun, əqidəsinin, inamının, etiqadının bədii-poetik bəyanıdır. Şairə görə bu varlıq mülkünün sahibi, hər bir sözün, düşüncənin əvvəli və sonu Odur. Ağıl, idrak onu anlamaqda, göz onu görməkdə, ürək onu tapmaqda, söz onu vəsf etməkdə acizdir. İnsan üçün həbsxana və sərgərdanlıq aləmi olan bu rəzalət dünyasından qurtuluş və xilas yolu da Ona bağlıdır, Onun ixtiyarındadaır. Ona görə də sənətkar qurtuluş üçün yalnız Haqqa xitab edir:

***Sərgərdan qoymuşdur bu dünya məni,***
***Sən xilas edənsən, qurtar bəndəni.***

Bu yalvarış belə bir inancdan qaynaqlanır: "Çünki düz gəlməz heç dünya din ilə". Yəni dünya ilə din ziddiyyət təşkil edir. O səbəbə ki, həqiqi din bəndəni düz yola, paklığa, əbədiyyətə, gözəlliyə, dünya isə nəfsi istəklər aləminə, napak yola, müvəqqəti və naqis həyat meydanına aparır. Həqiqi din etiqad yolunu insana göstərir. Allahın buyurduğu yolu bəndələrə nişan verən isə peyğəmbərlərdir. Onlar haqq ilə batil, zülmətlə işıq arasındakı örtüyü, cəhalət üzərindəki pərdəni ortadan qaldıraraq insanlara hidayət yolunu göstərmişlər. Bu yol isə tövhid və təkallahlılıq yoludur, ona saf ürək və təmiz etiqadla beyət yoludur.

Şair saxta müsəlmanlıqla həqiqi etiqadı da bir-birindən ayırır. Atəşpərəst Hürmüzün öz oğlu Xosrovu kəndlilərə ziyan vurduğu üçün cəzalandırdığını

alqışlayır və dərhal da islam qiyafəsi geymiş saxta müsəlmanların, ixtiyar sahiblərinin etdiyi zülmü xatırladır və tənqid edir:

***Atəşpərəstlikdə dünya eləydi,***
***Bu müsəlmanlıqdan utan bir indi.***
***Düşündürür bu gəbr hər müsəlmanı,***
***Əgər bu gəbr isə, müsəlman hanı?***

Şairin fikrincə, həqiqi din cəmiyyətə zülm yox, saflıq və ədalət gətirməlidir.

Nizami dini təlqinlərində dini həqiqətlə elmi həqiqəti qovuşdurur. Məsələn o, xatırladır ki, varlığı xəlq edib ona hərəkət xassəsi verən Allahdır. Hərəkət isə inkişafın, dialektik gedişatın əsasıdır. Bunsuz inkişaf mümkün deyil. Hərəkət isə şəkildən şəklə, bir formadan başqa formaya keçid vasitəsi ilə mümkün olur. Yəni maddi olan heç nə itmir, yox olmur. Sadəcə olaraq bir şəkildən başqa şəklə keçir:

***İstər qoca olum, istərsə cavan,***
***Yollar müxtəlifdir, mən isə haman.***
***Bir haldan bir hala keşsəm də dəm-dəm,***
***Yenə ilk şəklimlə hərəkətdəyəm.***

Göründüyü kimi, burada elmi şəkildə deyilən mətləb M.Y.Lomonosovun bir neçə əsr sonra kəşf etdiyi “maddə kütləsinin itməməsi qanunu”nun bədii şəkildə ifadəsidir. Həm də bu hərəkət, gedişat, dəyişmə və təzahürlərdə haqqın qüdrətini və nişanəsini görmək mümkündür. Maddi aləmdə baş verən bu surət dəyişmələri, forma keçidləri və nəqşləri bir rəssamın − Haqqın gizli sirlərinə və hikmətinə bağlıdır:

***Sonra söylədi ki: “Ey alimlər, mən***
***Kainat sirrini xeyli dərindən***
***Düşündüm, boş, əbəs deyil bu surət,***
***Əzəldən onu bir çəkən var, əlbət.***
***Bilirəm, gizli bir rəssam var, ancaq***
***Bilmirəm bunları çəkmiş nə sayaq?***

Madam ki, yeganə qüdrət, qüvvət sahibi Tanrıdır, hər şey onun cəlalına, lütfünə və qəzəbinə bağlıdır, onun buyurduğu yolu unutma. Səbrini və şükrünü əsirgəmə. Varlı və kasıb, ixtiyarlı və ixtiyarsız, qalib və məğlub olsan da, Tanrı xofunu, Tanrı qorxusunu, Tanrı sevgisini yaddan çıxarma. Bu, həqiqət və ədalət yoludur. Tanrı yoluna çağırış və tövhid inancı Nizami idealının əsas qayələrindən biridir:

***Bağla öz əhdini pərvərdigara,***
***Başqa duyğulardan çəkil kənara.***
***Tanrının əmrinə sən əməl eylə,***
***Bil, üstün gələrsən hər bir müşkülə.***

Bir sıra idealist filosoflar, xüsusilə də təriqət ideoloqları, məna və surət aləminin varlığını, bir-birinə bağlılığını qəbul edən irfan nəzəriyyəçiləri kimi Nizami də ölümün mütləqliyini qəbul etmir. O, belə hesab edir ki, surət

aləmində maddi varlıqlar bir şəkildən başqa şəklə keçdiyi, kəmiyyət və keyfiyyət dəyişikliyinə uğrayıb yox olmadığı kimi, insan da mütləq mənada ölmür. Yəni ölüm tamamilə yox olmaq deyil. Sadəcə olaraq ilahi varlığa məxsus ruhun cismdən ayrılması və öz ilkin, əbədi həyatına qovuşmasıdır. Surət aləmindən məna aləminə keçiddir. Əcəl bu yerdəyişmədə bir keçid qapısıdır. Müvəqqəti həyatdan əbədi həyata aparan yoldur. Xaliqə xitabən deyilən bu misralarda şair Allahın dərgahına gedən həmin yol barədə düşüncələrini çox aydın şəkildə ifadə etmişdir:

***Zərrəcə qorxmuram gələn əcəldən,***
***Bu yol dərgahına gedir əzəldən.***
***Bağ, bostan yoludur ölümün izi,***
***Dostlar sarayına aparır bizi.***
***Ölüm ki, səndəndir, nə qüssə, nə qəm,***
***Qoy ölüm, ölümdən mən dad çəkmərəm.***
***Hərçəndi dünyada ölüm gerçəkdir,***
***Ölüm − ölmək deyil, yer dəyişməkdir.***
***Deməli, ölüm qorxulu bir şey deyil.***

Əksinə, zülm, cəfa və iztirab dünyası olan hadisələr, həvəslər aləmindən daha məsud olan bir aləmə − Haqqın dərgahına keçiddir.

Əlbəttə, Nizaminin dini etiqadı və inanc sistemi tövhidə əsaslanır. O, dualizmi, bütpərəstliyi, çoxallahlılığı və ümumiyyətlə, təkallahlılıq inancından kənar dinləri, etiqadları qəbul etmir. “İsgəndərnamə”də Daranı məğlub etdikdən sonra atəşpərəstliyi aradan qaldırmaq, vahid olan Allaha inamı bərpa etmək üçün fateh qəhrəmanın gördüyü tədbirlərə müsbət yanaşır. Onun bütpərəstlər ölkəsində bütləri və bütxanələri yaxıb tövhid inancını bərqərar etdiyi üçün İsgəndəri alqışlayır. Tövhid dinlərinin bütün peyğəmbərlərinə ehtiramla yanaşır.

Filosof sənətkarın tövhid və tanrı inancının müəyyən çalarlarını anlamaq üçün “İqbalnamə”də verilən “Hindli həkimin İsgəndərlə söhbəti” hekayəsində hindli filosofun İsgəndərə verdiyi suallar və hökmdarın ona cavabları xüsusi maraq doğurur. Hindli filosofun hökmdara verdiyi ilk sual belədir: Əlbəttə, Yaradan birdir. Bəs ona necə qovuşmaq olar? Onun məkanı haradır? Onu təsəvvürləmi, yoxsa, görməkləmi tanımaq mümkündür? Onun varlığının sübutu nədir? İsgəndərin bütün tarixi dövrlərdə insanı düşündürən həmin suallara cavabı belədir:

İnsan yalnız özündən üz çevirdikdə, yəni öz cismani həqiqətini unudub ruhani həqiqətə üz tutduqda, nəfsani istəklərdən uzaqlaşıb ilahi həqiqətlərlə yaşadıqda Allahın yolunu tapmış olar. Onun məkanı yoxdur, çünki yeri yaradanın öz yeri olmaz. Onun sirrini açmağa heç kəs qadir deyil. Ağıl və düşüncə ilə də onu tapmaq, dərk etmək mümkün deyil. Ona görə ki, düşüncə yalnız gözlə görülə bilən şeyləri anlamaq imkanına malikdir. Varlıqdakı hər şey onun nişanəsi və sübutudur.

Müsbət qəhrəmanının dili ilə söylədiyi bu fikirlər əslində şairin öz baxışlarıdır. Burada Nizami islam peyğəmbərinin belə bir hədisini də əsas götürmüşdür: “Onu bilmək yetər ki, haqqı dərk etmək olmaz”. Hindli alimin iki aləmin − məna və surət aləminin, o dünyanın və bu dünyanın varlığı nə üçündür? – sualına isə İsgəndər belə cavab verir:

***Düzdür, iki dünya yaratmış Xuda,***
***Xəzinə ordadır, açarı burda.***
***Çalışıb nə əksən bu dünyada sən,***
***Onun məhsulunu orda biçərsən.***
***Burda bütün şeylər dəyişir hər an,***
***Orda əbədidir hər şey, hər zaman.***
***Yaradan çəkmişdir iki cür pərgar,***
***Burda zəhmət çəkən orda əcr alar.***
***Bura bir körpüdür, keçmək gərəkdir,***
***Sel axıb dənizə töküləcəkdir.***

Deməli, bu dünyanı xəlq etməkdə məqsəd axirət üçün hazırlıq körpüsü yaratmaqdır. Yəni real aləm əbidi həyat üçün bir əməl, imtahan, sinaq məkanıdır, fəaliyyət meydanıdır.

“İqbalnamə”də süjetin sonuna yaxın İsgəndər şimala doğru hərəkət edib orada ideal ictimai bərabərliyin, ədalətin mövcud olduğu “xoşbəxtlər ölkəsi”nə, utopik bir cəmiyyətə gedib çıxır. O, hər cür dərddən, qayğıdan, kədərdən, bədbəxt-liklərdən uzaq olan bu məsud səltənətdə qərarlaşmış xoşbəxtliyin səbəbini soruşur və öyrənir. Bəlli olur ki, bu ölkədə kiçikdən böyüyə hamı Allah sevgisi ilə yaşayır. Cəmiyyət bütövlükdə möminlərdən, qəlbində, əxlaqında və əməlində dini qanunların hakim olduğu iman əhlindən ibarətdir. Onların ideal xoşbəxtliyə qovuşmasının başlıca səbəblərindən biri və elə birincisi də budur. Ədalət yurdunun ağsaqqalları İsgəndərin bu səadətin səbəbi barədə sorğusuna cavab olaraq onun hikmətini belə izah edirlər:

***Fağır bir tayfayıq, həm də dinpərvər,***
***Düzlükdən keçmərik əsla tük qədər...***
***Bizi hifz eyləyən Allahdır, Allah,***
***Biz yalnız Allaha gətirrik pənah...***
***Allahın lütf edib verdiyi şeyə***
***Demərik: “Bu hardan? Bu belə niyə?”***

Ədalət yurdundakı ictimai gözəlliyə, səadətə mat qalan, ona heyranlıqla yanaşan İsgəndər hətta bu mənəvi-əxlaqi və dini ucalığın müqabilində bu adamlara özünün peyğəmbər olduğunu deməyi belə gərəksiz hesab edir. Çünki pak din mənsubu olan bu insanlar əslində peyğəmbər timsalındadırlar və onlara yol göstərən peyğəmbər gərək deyil:

***Peyğəmbər görəndə onları dindar,***
***Peyğəmbərliyini etmədi izhar.***

Nizaminin Tanrı sevgisindən, dinə münasibətindən danışarkan mütləq mənada nəzərə alınmalı bir cəhətə də toxunmaq lazım gəlir. Şair etiqadında pakdır. O, dinin insan cəmiyyətindəki hakimiyyətindən danışarkan uydurulan dini yox, endirilən dini nəzərdə tutur. Bu nə deməkdir? Bəlli olduğu kimi, həm Qərbdə, həm də Şərqdə, həm musəvilikdə və xristianlıqda, həm də islam aləmində uzun əsrlər boyunca din xadimləri tövhid inancına çoxlu sayda saxta, dinlə əlaqəsi olmayan yalanlar sırıdılar. Din libası geyinmiş saxtakar ruhanilər tövhidin həqiqi mahiyyətini xalqa çatdırmaq əvəzinə, yetərincə uydurmalara yol verdilər. Bunun səbəbi ya din xadimlərinin savadsızlığı, ya mənfəətpərəstliyi, şöhrətpərəstliyi, ya da dindən siyasi alət kimi istifadə etmək marağı idı. Onlar Allahın buyurduqlarını, dinin göstəriş və hökmlərini, şəriətin saf qanunlarını özlərinə lazım olan uydurma bəzəklərlə bəzədilər. Nəticədə endirilən dini uydurulan din əvəz etdi. Bu isə öz növbəsində geriliyə, cəhalətə, mövhumata, xurafata, əxlaqi naqisliklərə, mənəvi kataklizmlərə, ruhi-psixoloji böhranlara gətirib çıxardı. Nizamini dini baxışları, etiqadı isə tamamilə endirilən dinin saf qanunlarına əsaslanır. Sənətkar, bir qayda olaraq, öz dini görüş və təlqinlərində "Quran"ın məntiqinə, sünnə və hədislərə, dürüst olan şəriət qaydalarına əsaslanır. Ona görə də onun dedikləri etibarlı və mükəmməl görünür. Tərbiyəvi, islahedici funksiyasını itirmir.

Bəs Nizaminin dini ideyalarının, baxış və təlqinlərinin müasirliklə nə əlaqəsi var? Bu gün biz həmin ideyaları aktual və gərəkli saya bilərikmi? Bu vacib məsələyə də aydınlıq gətirmək yerinə düşər. Məsələ burasındadır ki, son əsrlərdə, o cümlədən indinin özündə də bir sıra tədqiqatçılar, sosioloqlar, siyasətşünaslar, ideoloqlar və s. uzun əsrlər boyunca həm Qərbdə, həm də Şərqdə baş verən tənəzzülü, ətaləti, süstlüyü, sükunəti dinin ayağına yazırlar. Guya baş verən bu fikir, düşüncə, azad söz, ictimai ədalətsizlik, tənəzzül zülmətinin səbəbi dindədir. Halbuki bu, dinə və onun həqiqətinə, onun insanlığa bəxş etdiyi töhfələrə tamamilə ədalətsiz, həm də yanlış yanaşmadır. Qeyri-obyektiv münasibətin göstəricisidir. Dərhal sual yaranır. Əgər doğrudan da din hər cür tərəqqiyə mane olurdusa, islamın zühurundan az sonra islam coğrafiyasında baş verən misilsiz yüksəlişin, hərtərəfli mənada inkişafın, yəni bir neçə əsr ömür sürən intibahın, tərəqqinin səbəbi nə idi? Biz bu səbəbi islamın özündən kənar heç yerdə axtarıb tapa bilmərik. Müsəlman Şərqində təxminən IX-XV əsrləri əhatə edən intibahın, elmin, mədəniyyətin, ədəbiyyatın, söz və fikir zənginliyinin, gözəlliyinin əsas təkanverici enerjisi islam dini idi. Bu dövrün qüdrətli zəka, düşüncə və söz sahibləri, intibah dahiləri də öz əsərlərini "Quran" və islam məşəlinin işığında yaradırdılar. Tərəqqinin bütün bayraqdarları tövhid düşüncəsinə və islama istinad edirdilər. Hətta bəzən tövhidə zidd kimi görünən düşüncələr də "Quran" və islam məntiqi ilə əsaslandırılırdı (Bu əsaslandırmalar nə qədər doğru və ya yalan, obyektiv və ya subyektiv idi, bu, bir başqa məsələdir). Deməli, kamil din heç vaxt inkişafa əngəl törədə

bilməz. Bəs günahkar kim idi və onu harada axtarmaq lazım gəlirdi? Təbii ki, təqsirkar din xadimləri idi. Günahkarı isə kilsədə və məscidlərdə, dini təsisat və ocaqlarda axtarmaq lazım gəlirdi.

Qərbdə kilsə xadimləri, ruhanilər bu mürtəce mövqelərini XIV-XV əsrlərə – Avropa intibahının başladığı əsrlərə qədər qoruyub saxladılar. Şərqdə isə əksinə, XV-XVI əsrlərdən etibarən irticaçı, mühafizəkar ruhanilərin mövqeyi tədricən güclənməyə başladı. İctimai, siyasi, mədəni həyatda onların mövqeyi gücləndikcə, islamın gur şöləsi də tədricən sönməyə, öləziməyə başladı. Əvvəlki tərəqqi tədricən tənəzzüllə əvəz olundu. N.Gəncəvinin müdafiə və təbliğ etdiyi də əvvəlki sağlam, mükəmməl etiqad sistemi idi.

Lakin məsələnin bir başqa tərəfinə də diqqəti yönəltməliyik. XIV əsrdən başlayan Avropa intibahı tədricən kilsənin və ruhanilərin hakimiyyətini sıxışdırdı. Teokratiya son əsrlərdə öz yerini demokratiyaya tərk etməli oldu. Daha sonra Qərbin intibah dahilərini maarifçilər, nəhayət, XIX-XX əsrlərin zəka sahibləri əvəz etdi. Onlar da intibah mütəfəkkirlərinin yolunu davam etdirib ruhanilər hakimiyyətinə qarşı çıxdılar. Əlbəttə, bu, düzgün mövqe və yol idi. Yanlış olan orası idi ki, onlar Allahı və dini də bu sıxışdırmanın, unutqanlığın obyektinə çevirdilər. Tədricən insan və onun mənafeyi önə keçdi və təəssüf doğuran orası idi ki, bu prosesdə yavaş-yavaş hər şeyin mərkəzində dayanan Allah da unuduldu və ya arxa plana keçdi. Allahmərkəzçilik (teosentrizm) insanmərkəzçiliklə (antroposentrizmlə) əvəz olundu. Nəticədə insan hüquqi və maddi cəhətdən müəyyən rifah, firavanlıq və s. tapa bildi. Lakin tam səadətə, lazımi, istənilən azadlığa və bəxtiyarlığa qovuşa bilmədi. Şərqdə isə, ümumiyyətlə, vəziyyət daha acınacaqlı oldu və həmin rəzalət, faciə burulğanı indi də davam edir. Deməli, bəşəriyyətin axtardığı, can atdığı, arzuladığı ideal cəmiyyəti hələ də yaratmaq mümkün olmayıb. Dünya hələ də zülmdən, qandan, qırğından, ictimai fəlakətlərdən, istismardan, istibdaddan azad olmayıb. Başqasının haqqını əlindən almaq, başqasının sərvətinə sahib olmaq istəyi, mənəvi-əxlaqi kataklizmlər, naqis əməllər və s. hələ də davam edir. Səbəbi bəllidir. İnsanların qəlbində Xaliqə və Xaliqin yaratdıqlarına qarşı məhəbbət yoxa çıxmışdır. Bəzi ictimai toplumlar maddi səadətə çata bilsələr də, mənəvi, əxlaqi və ruhani səadətə qovuşa bilməmişlər. Fərdləri və bütövlükdə cəmiyyətləri belə bir xoşbəxtliyə qovuşduracaq, onu şər istəklərin, naqis ehtirasların əlindən xilas edib hidayət youna döndərəcək yeganə vasitə saf və kamil din, mükəmməl etiqad, pak imandır. Bəşəriyyət bu gün də yalnız maddi cəhətdən deyil, mənəvi, əxlaqi və ruhani cəhətdən də onu saflaşdırıb doğru yola yönəldəcək daxili etiqada, kamil bir dinə möhtacdır. Nizami də bəşər övladını belə bir inama, belə bir dinə səsləyir. O, dinsiz, imansız bir cəmiyyətin ideal xoşbəxtliyə nail olmasını mümkünsüz sayır. Mövcud dünyamız və onun həqiqətləri filosof şairimizin uzaqgörənliyini aydın şəkildə sübut edir.

***Paşa ƏLİOĞLU***



# Mənzərə Məmmədovanın nizamişünaslıq fəaliyyəti

Mənzərə Məmmədovanın 1968-ci ildə müdafiə etdiyi “XI-XVII əsrlər fars dili izahlı lüğətlərinin əsas tərtib prinsipləri” adlı namizədlik dissertasiyası orta əsrlərdə tərtib edilmiş farsdilli lüğətlərin öyrənilməsi baxımından böyük maraq kəsb edir. Əsər 2013-cü ildə təkmilləşdirilərək çap edildiyindən (elmi redaktor professor, Əməkdar elm xadimi Rəhim Sultanovdur) onun haqqında ətraflı danışmaq imkanımız vardır. Burada tədqiqatçı ilk nümunələri Azərbaycanda və ya azərbaycanlı müəlliflər tərəfindən tərtib edilmiş fars dilinin orta əsr izahlı lüğətlərinin araşdırılmasının bir sıra nəzəri və praktiki məsələləri əksini tapmışdır. M.Məmmədova mövzunun öhdəsindən gəlmək üçün əlyazmaçı kimi də böyük iş görmüş, farsdilli leksikoqrafik əsərlərin Azərbaycan, İran, Britaniya, Paris, Moskva, Sankt-Peterburq, Hindistan, Tbilisi, Daşkənd, Düşənbə, İrəvan, Upsala, Berlin, Vyana, Oksford və s. kitabxana və muzeylərində mühafizə olunan əlyazma nüsxələri haqqında geniş məlumat vermişdir. Monoqrafiyada göstərilir ki, haqqında danışılan leksikoqrafik əsərlər dövrün tələbi əsasında yaradılmış, onların nəzəri və praktiki tərtib prinsipləri sonrakı dövrlərdə yaradılmış lüğətnamə və fərhəngnamələrin yaranmasında mühüm rol oynamışdır. Apardığı araşdırma nəticəsində araşdırıcı belə nəticəyə gəlir ki, müxtəlif dövrlərdə meydana çıxmış lüğətlər təsadüfi deyil, müəyyən nəzəri-elmi prinsiplər əsasında yaradılmışdır. M.Məmmədova elmi işini yazarkən İran leksikoqrafiyası tarixini araşdırmış, Səid Nəfisi, Əbdüləli Taəti, Məhəmməd Muin, Sadıq Kiya, Əli Əsğər Hikmət, Seyid Məhəmməd Əli Daiül-İslam və başqa alimlərin əsərlərindən bəhrələnmişdir. Müəllif fars dilinin lüğətlərini tərtib etmiş azərbaycanlı leksiqraflara qarşı İran tədqiqatçılarının ədalətsiz münasibəti barədə yazır: “Fars dili leksikoqrafiyasının tarixinə dair əsərlərlə çıxış edən müəlliflərin xidmətlərindən biri də bu sahədə yazılmış izahlı lüğətlərin yerini müəyyənləşdirmək olmuşdur. Lakin bu yerlər tarixən Azərbaycan, Orta Asiya, İran, Hindistan və Pakistan olduğu halda, həmin tədqiqat əsərlərində əsasən İran və Hindistanın adı çəkilir, Qətran Təbrizi, Əsədi Tusi, Məhəmməd ibn Hinduşah, Məhəmməd Kərim ibn Mehdiqulu Təbrizi kimi müəlliflərin əsərlərinin vətəni olan Azərbaycandan danışılmır. Həmin lüğətlər İranda yaranan əsərlərin sırasında göstərilir. Buna görə də azərbaycanlı müəlliflərin fars dili leksikoqrafiyasının inkişafındakı rolu aydınlaşmamış qalır.Qeyd etdiyimiz kimi, orta əsrlər farsdilli lüğətlərin Nizami Gəncəvi, Xaqani

Şirvani kimi fars dilində yazıb-yaratmış Azərbaycan şairlərinin əsərlərinin lüğət tərkibinin, eləcə də sənətkarlığının öyrənilməsində müstəsna əhəmiyyəti vardır.

Monoqrafiyanın giriş hissəsində fars dili leksikoqrafiyasının araşdırılması sahəsində görülən işlər xülasə şəklində dəyərləndirilmişdir. "XI-XVII əsrlərdə yazılmış fars dili izahlı lüğətləri haqqında məlumat" adlı birinci fəsildə nəzərdən keçirilən dövrün leksikoqrafik əsərlərinin yazılış tarixinə dair qısa bilgi verilmişdir. XI-XVII əsr fars dili izahlı lüğətlərində sözlüklərin tərtib prinsipləri" adlı ikinci fəsildə həmin dövrün fars dilinin izahlı lüğətlərində sözlüyün sıralanmasında əsas götürülmüş prinsiplər, onların yaradıcıları və tarixi haqqında məlumat verilir.

Üçüncü fəsildə XI-XVII əsrlərdə tərtib edilən fars dilinin izahlı lüğətlərinin sözlərin orfoqrafiya və tələffüzünü əks etdirən vasitə və üsullar, dördüncü fəsildə isə XI-XVII əsrlərə aid fars dilinin izahlı lüğətlərində sözlərin mənaca izah üsulları müəyyənləşdirilir.

Mənzərə Məmmədova 2014-cü ildə üzərində çalışdığı ən unikal fars dili lüğətlərindən birinin – Əşrəf ibn Şərəf əl-Müzəkkər əl-Faruqinin "Daneşnameyi-Qədərxan" adlı əsərinin geniş ön sözlə fotofaksimile nəşrini həyata keçirmişdir. XV əsrdə Hindistanda yazılmış bu əsərin mətni uzun müdət elm aləminə məlum olmayıb. Lüğətin yeganə əlyazma nüsxəsi AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanmaqdadır. Əsərin əlyazmasının köçürülməsini katib İshaq bin İbrahim Buxari h.811-ci ildə (m.1408-1409) tamamlanmışdır. Alim kitabın girişində azərbaycanlı leksikoqrafların farsdilli lüğətlərin tərtibindəki rolu, onların tərtib prinsipləri barədə yazır: "Orta əsr fars leksikqrafiyasının tədqiqi nəticəsində aydın olmuşdur ki, Qətran Təbrizi "Təfasir fi-lüğəti-fürs" adlı əsərini yazmaqla fars dili leksikoqrafiyasının əsasını qoymuşdur. Həcmcə kiçik olub üç yüz sözü əhatə edən bu lüğəti leksikoqrafik xüsusiyyətləri dövrün lüğətçilik elminin qarşıya qoyduğu bir sıra cəhətləri özündə cəmləşdirə bilmişdir. Məhz buna görə də Qətran Təbrizidən bir neçə il sonra lüğət yazan Əsədi Tusi həmin əsərdən istifadə etmiş və onun bir sıra leksikoqrafik cəhətlərini təkrarlamışdır. Bu xüsusiyyətlərə sözlüyün məhz şeir dilindən toplanması, onların sıralanmasında son hərfin əsas götürülməsi, illüstrativ material kimi poeziyadan misallar verilməsi və s. misal göstərmək olar... Onu da qeyd etmək etməliyik ki, Qətran Təbrizi tərəfindən əsası qoyulmuş fars dilli poeziyanın leksik tərkibinə aid lüğət yazılması işi orta və yeni əsrlərdə genişlənərək bu dilin leksikoqrafiyasının böyük bir qolunu əhatə etmişdir". Kitabın geniş ön söz hissəsində tədqiqatçı "Qədərxan-lüğəti"nin meydana çıxdığı XV əsrə qədər fars dili leksikoqrafiyasının keçdiyi dörd əsrlik inkişaf yolu xülasə şəklində nəzərdən keçirilir.

Əşrəf ibn Şərəf əl-Müzəkka əl-Faruqinin hicri 807-ci ilin zilhiccə ayında yazıb tamamladığı "Daneşmeyi-Qədərxan" əsərinin ən diqqətəlayiq cəhətlərindən biri budur ki, bu lüğət əsasən Firdovsinin "Şahnamə" və Nizami Gəncəvinin "İskəndərnamə" məsnəvilərinin leksik tərkibinin izahına həsr edilmişdir. Əlyazmanın müqəddiməsindəki qeyddən öyrənirik ki, müəllif lüğətini Hindistanda tərtib etsə də, Misir sakini olmuşdur. O, Qur şahzadəsi Qədərxanın ağıllı, elmi qiymətləndirən, əliaçıq və qədirbilən şəxs olduğunu nəzərə alaraq əsərinə onun adını vermişdir. Lüğətdə bir sıra sözləri izah edərkən onların Türküstana aid olduğunu bildirilməsi, bir sıra bitki və heyvanın bu yerlə əlaqələndirməsi, Türküstana aid coğrafi məkanları izah etməsi, əsərdəki türk sözləri müəllifin türk olduğunu iddia etməyə əsas verir. Alimin Qur şahlarının sarayına dəvət almasını onun dövrünün tanınmış alimi olması ilə izah etmək lazımdır. Lüğətin müqəddi-

məsindən görürük ki, Əşrəf əl-Faruqi həmişə poetik əsərlər əsasında izahlı lüğət tərtib etmək, tibbə aid kitablarda və şeirlərdə rast gəlinən çətin sözlərin izahını vermək həvəsində olmuşdur. Bunun üçün geniş bilik dairəsinə malik olmaq, çox-lu kitablar oxumaq, dövrün elmlərinə sahib olmaq, fars dilinin incəliklərini dərin-dən bilmək tələb olunurdu ki, bütün bu xüsusiyyətlər onda var idi. Alim belə hesab edirdi ki, lüğət şeirin fəzilət xəzinəsinin açarıdır. Lüğətin müqəddiməsin-dəki qeyddən aydın olur ki, müəllif əsərini tərtib edərkən əsas leksik material kimi Firdovsi və Nizaminin məsnəvilərini təsadüfi seçməmişdir. “Peyğəmbər bəndələrinin bəndəsi və ona inanan Çəndiri ilə məşhur Misir sakini Əşrəf İbn Şərəf əl-Müzəkkər əl-Faruqi həmişə çalışmışdır ki, müxtəlif lüğətlər və yerlərdə tərtibsiz və pərakəndə təsadüf olunan şirindilli şairlərin, həmçinin Xacə Fir-dovsinin “Şahnamə”sində, Şeyx Nizaminin “İskəndərnamə”sində və digər şairlərin (Allah onların qəbirlərini nurla doldursun) dilindəki pəhləvi sözlərindən və həkimlərin tibb kitablarında işlətdikləri ədviyyə adlarından son hərfin sırası ilə bir lüğət tərtib etsin”. Burada adı çəkilən Çəndiri Qərər xanın valisi olduğu Qurlar dövlətinin vilayətinin adıdır.

Məlum olur ki, Əşrəf əl-Faruqi lüğətini tərtib edərkən ona qədər tərtib edil-miş filoloji, terminoloji lüğətlərdən, tibbə dair risalələrdən geniş istifadə etmiş, farsdilli şairlərin əsərlərini mütaliə etmişdir. Alim istifadə etdiyi məxəzlər barədə yazır: “Kitabların ən yaxşısı “Şahnamə” və şahların munisi “İskəndərnamə”ni, həkimlərin yazdığı tibb kitablarını oxuyanlar bu dildən faydalanıb, bu varlıqdan xəbərdar olsunlar, xüsusilə dövrün böyükləri, adlı-sanlı şahlar qarşısında “Şahnamə” və “İskəndərnamə” oxuyan zəmanə nədimləri tibb kitablarındakı ədviyyə adlarına ehtiyacı olan həkimlər, bu dildə söz axtaran hər bir kəs nə soruşsalar cavabını düzgün desin”. Qeyd edək ki, müəllif lüğətində adları çəkilən iki böyük sənətkardan başqa səksənət qədər farsdilli şairin əsərlərindən, özünün şeirlərindən də istifadə etmişdir.

Müəllifin bu dəyərli lüğətində Nizami Gəncəvinin “İskəndərnamə” məsnəvi-sindən geniş istifadə etməsi əsəri bizim üçün daha diqqətəlayiq edir. M.Məm-mədova göstərir ki, Əşrəf əl-Faruqi Nizami irsinin, leksikasının tədqiqinə ona görə xüsusi diqqət yetirmişdir ki, dahi şairin əsərləri onun dövründə şahların, alimlərin masaüstü kitabına çevrilmişdi, ümumiyyətlə, oxucular tərəfindən sevilə-sevilə oxunurdu. Müəllif lüğətini tərtib etməklə oxucuların Nizami sənətindən daha səmərəli faydalana bilməsinə çalışmışdır. Tədqiqatçının yazdığına görə Nizami, Firdovsi və digər farsdilli şairlərin əsərlərində, tibb kitablarında elə sözlərə rast gəlmək mümkündür ki, onlar həyatda və dildə baş vermiş hadisələr nəticəsində anlaşılmaz olmuşdur. Qarşıya çıxan anlaşılmazlıqların aradan qaldırılması üçün “Daneşnameyi-Qədərxan” lüğətinin yazılması zəruri olmuşdur. “Daneşnameyi-Qədərxan” 2372 lüğət maddəsini əhatə edir ki, bunların da aşağıdakı sahələrə aid edilməsi tədqiqatçı tərəfindən müəyyən edilmişdir:

1. Coğrafi adlar;
2. Müxtəlif elm sahələrində işlənən terminlər (bitki, heyvanat, astronomi-ya, tibb, mineralogiya);
3. Məişət və əmək prosesində işlənən sözlər;
4. Arxaik sözlər;
5. Alınma sözlər (türk, hind, ərəb, yunan və s. mənşəli);
6. Məhəlli və dialekt sözləri;
7. Dini əqidələrlə əlaqədar sözlə;
8. Müharibə və hərbi işlərlə əlaqədar sözlər;

9. Feil, isim, sifət, qoşma və ədatlar;
10. Söz birləşməsi, mürəkkəb və düzəltmə sözlər;
11. Fonetik cəhətdən dəyişmiş sözlər.

Xüsusi olaraq qeyd etmək istərdik ki, mənşə etibarı ilə türk olan Əşrəf əl-Faruqi lüğətində fars dilinə keçmiş türk sözlərinə diqqətlə yanaşmış, onları izah edərkən əsasən Nizami Gəncəvinin "Xəmsə"sindəki beytlərdən istifadə etmişdir.

Mənzərə Məmmədovanın böyük əmək sərf etdiyi iki cildlik "Nizami Gəncəvi dilinin lüğəti ("Şərəfnamə" əsəri üzrə) kitabı nizamişünaslığa dəyərli bir töhfədir. Nizaminin "Şərəfnamə" poemasının leksik tərkibini izah edən bu lüğətdə məsnəvidəki söz, söz birləşmələri, frazeoloji ifadələr, məcazlar, bədii obrazlar və s. dil vahidlərinin mənaları Azərbaycan dilində verilmişdir. Əsər hazırlanarkən iki əsas mərhələdən keçilmişdir. Birinci mərhələdə "Şərəfnamə"nin dil vahidlərinin tezlik sözlüyü ərəb əlifbası ilə tərtib edilmiş, ikinci mərhələdə isə onların azərbaycanca mənaları yazılmışdır. Müəllif lüğəti hazırlarkən Nizami Gəncəvinin "İskəndərnamə" məsnəvisinin akademik Əbdülkərim Əlizadə tərəfindən tərtib edilərək 1947-ci ildə Bakıda çap etdirdiyi elmi-tənqidi mətnini əsas götürmüşdür. Elmi-tənqidi mətnin elmi redaktoru Y.E.Bertels müqəddimədə göstərir ki, Nizami mətninin bütün təfsilatı ilə burada əksini tapdığını iddia etmək olmaz. Bu işdən sonra dahi şairin əsərlərinin tam lüğəti tərtib edilməlidir ki, onun dilinin xüsusiyyətləri aydınlaşsın. Bundan sonra Nizaminin əslinə yaxın mətnlərini müəyyənləşdirmək mümkün olacaqdır. Göründüyü kimi, sələflərinin işini davam etdirən M.Məmmədovanın gördüyü iş Nizami Gəncəvi əsərinin gələcək elmi-tənqidi mətninin yaranması üçün ciddi bir əsas rolunu oynamaqdadır. Alim kitaba yazdığı "Nizami Gəncəvinin "Şərəfnamə" əsərinin lüğətinin tərtibi prinsipləri adlı müqəddimədə dəfələrlə qeyd etmişdir ki, hələ də tədqiqatçıların nəzərindən kənarda qalan şairin əsərlərinin lüğətinin tərtibi, dilinin leksik-qrammatik baxımdan araşdırılması onun əsərlərinin orijinal mətninin bərpası baxımından böyük əhəmiyyət kəsb edir. Nizami əsərlərinin mətnindəki söz və ifadələrin mənalarının müəyyənləşdirilməsi onun leksik üslubunu ortaya çıxarır, bu isə bədii təxəyyülün, söz sənətkarlığının əks etdirilməsi deməkdir. Lüğətdə ayrı-ayrı nitq hissələrinə aid sözlər əksini tapmış, onların həm leksik-qrammatik, həm də bədii-rəmzi mənaları verilib. Məsələn, əsərdən gətirilən üç örnəyə baxaq. Onların hərfi tərcüməsi belədir:

1. Özü ilə mərkəzdə saxlayırdı,
O, filcüssəli, poladdan bir dağ idi.
2. Əgər o itürəklilərdən aman istəsək,
Ağıllılar bizi ağıllı adlandırmazlar.
3. Adamaldadan o almaüzlülərlə, alma ilə oynayan adamlar kimi oynayırdı.

Tədqiqatçı bu kiçik mətnlərdəki lüğət vahidləri barədə yazır: "Əvvəla, Nizami bu sözlərin təşbih hissəsini təşbih obrazı kimi işlənmiş, yəni qəhrəmanının bədənini yüksəklikdə filə, pis, xəbis ürək sahibini itə, üzü forma və hamarlılıq, məlahət və təravətlilikdə almaya oxşatmış, sonra onlar oxşayanla birlikdə bədii təyin və simvol kimi işlənərək mürəkkəb sifətlər əmələ gətirmişlər. Nəhayət, beytlərdə gördüyümüz kimi, onlar şair tərəfindən isim, yəni substantivləşmiş sifətlər kimi işlənmişlər. Odur ki, belə sözlər fars dilində isim+modelli sifətlər olsalar da, Nizami dilində sifət+isim modelində formalaşırlar".

Göründüyü kimi, Mənzərə Məmmədovanın araşdırmasında şairin dilinin leksik-qrammatik təhlili bədii dilin, dil sənətkarlığının təhlili ilə paralel aparılmışdır, əslində birinci ikinciyə xidmət etməkdədir.

Alim aşağıda verilən Nizami misrasındakı sözlərin mənalarını verməklə onların istiarə olduğunu göstərmişdir: “İskəndər qara buludun (Dara və qoşunu) coşmuş şirlərə (İskəndər və qoşununa) ildırım qılıncı yağdıracağın bilincə”.

M.Məmmədova 2012-ci ildə nəşr etdirdiyi “Nizami Gəncəvi dilinin leksik üslubu (“İskəndərnamə” əsəri üzrə)” monoqrafiyasında dahi şairin dilinin çoxşaxəli qatlarını ehtiva edən məcazların, onun dilinin zənginliyinin tədqiqinə həsr edilib. Nizami irsinin tədqiqində bu tipli araşdırma ilk təşəbbüsdür. Böyük sənətkarın ayrı-ayrı farsca sözlərə verdiyi yeni məna çalarları, onun bədii ifadə vasitələrinin təkrarsızlığı kitabda əksini tapmışdır. Qeyd edək ki, müəllif monoqrafiyasını yazarkən indiyədək yazılmış Nizami sözləri lüğətlərindən (məsələn, tarixi məlum olmayan “Fərhənge-moxtəsərs-İskəndərnameye-Nizami”, 1881-ci ildə Hindistanda, Larnau şəhərində çap edilmiş Seyyid ibn Həsən ibn Seyyid Qasımın yazdığı “İskəndərnamə” lüğəti və s.) və əlbəttə ki, özünün tərtib etdiyi lüğətdən istifadə etmişdir. Nizami əsərlərinin mətni üzərində apardığı çoxillik araşdırma təcrübəsinə əsaslanan M.Məmmədova dahi şairin yaradıcılıq üslubu, dilinin orijinallığı barədə yazır: “Şairin əsərlərində özündən əvvəldəkilərin nəzmə aldıqları bir sıra tarixi hadisə və rəvayətlər mövcud olsa da, onlar şairin özünəməxsus, orijinal dili ilə nəzmə alınmış, başqa sözlə desək, sənətkar qələminin gücüylə sözlər yeni forma və məzmun kəsb etmişdir. Belə ki, Nizami sözünün özünəməxsus işlənmə üslubu vardır. Şair bəzən bir cümləyə sığmayan fikri bir söz və ya bir söz birləşməsi ilə verir. Əksinə, bir məfhumun özünü və ya ona məxsus xarakter xüsusiyyətlərini göstərmək üçün bir sıra söz işlətməli olur. Beləliklə, əsərlərinin dilində yığcamlıq, səlislik və biri-digərinə bənzəməyən zəngin ifadə vasitələri yaranır”. Monoqrafiya şairin dilini, leksikasını tədqiqat obyeltinə çevirməklə onun bədii sənətkarlığının oraya çıxarılması məqsədi ilə yazılmışdır. Nizami Gəncəvi dünyamız, insan haqqında dərin mənaları ifadə edərkən yorulmadan çalışmış, sözlərin məna genişliyinə nail olmaq üçün gecəni gündüzə qatmışdır. Beytlərindən birində, o, deyir:

Səadət sübhünün vaxtı çatanda səhər nəsimi kimi canlandım,
Gecəni işıqlandıran bir şam yandırdım,düşüncələr içərində şam kimi yandım.

Fikrimizcə, şair burada “səadət sübhü” ifadəsini o, mənada işlətmişdir ki, bütün gecə çalışdıqdan, yaradıcılıq düşüncələrinə daldıqdan sonra səhərə yaxın məqsədinə nail olmuş, fikrini istədiyi şəkildə ifadə edə bilmişdir.

M.Məmmədova Nizami Gəncəvinin söz üzərində işləmə məharəti, yaradıcılıq üslubu barədə yazır: “Nizami əsərlərində təsvir etdiyi, qələmə aldığı mətləblərin xarakterinə uyğun poetik söz demək üslubu seçmişdir. Onun sözü bəzən qılınc kimi kəsərlidir, bəzən çox incə, təsvirə aldığı mətləblərdən, hisslərdən də incədir. Nizami bədii yaradıcılığının ən yüksək zirvəsi hesab oluna bilən obrazlı beytləri qələmə alarkən özü-özünə heyran olmuş, özü öz sözünün incə qüdrətindən təsirlənmişdir. Aşağıdakı beyt deyilənlərə nümunə ola bilər.

Gül açıldı, dürr deşildi (ağız açıldı, söz deyildi), gör söz necə örtülü deyildi. Nizami özü dediyi kimi, söz deyildi, amma nə qədər örtülü, ustalıqla, necə poetik obrazlarla”.

Tədqiqatçı monoqrafiyasında sözün maraqlı poetik sinonim cərgəsinə diqqəti cəlb edir. O, yerində deyilmiş sözü qızıl, ləl, firuzə, gövhər, yaqut, almaz, müşk, dürr və s. bənzədir. Yersiz sözü isə münasib olmayan mövsümdə çiçəklənmiş ağaca oxşadır.

Nizaminin bütün məsnəviləri zəngin leksik tərkibə malik olsa da tədqiqatçı bildirir ki, dilçi alimlər daha çox şairin “İskəndərnamə” poemasının lüğət tərkibi-

nə həsr edilmiş əsərlər yazmışlar. Alim bunu onunla izah edir ki, Nizaminin sonuncu məsnəvisi daha zəngin leksikası ilə seçilir: “O da maraqlıdır ki, orta əsrlərdə daha çox Nizaminin “İskəndərnamə” poemasının leksik tərkibini əhatə edən lüğətlər yazılmış, onun digər əsərləriylə əlaqədar belə yazılara təsadüf edilməmişdir. Buna görə müəlliflərin haqlı olmalarına müəyyən qədər bəraət qazandırmaq olar: O mənada ki, “İskəndərnamə”də şairin digər əsərlərinə nisbətən onun məzmun və əhatə dairəsi ilə əlaqədar daha çox, daha rəngarəng dil vahidləri mövcuddur ki, bunlar da iqtisadiyyat, döyüş, əmtəəşünaslıq, fəlsəfə, musiqi, astronomiya, tarix, din, riyaziyyat, nücum, coğrafiya, tibb, kimya, məişət, geologiya, incəsənət və s. sahələrə aiddir. Bunlardan başqa, burada müəyyən alimlərin nəzərincə, başqa əsərlərə nisbətən az olsa da, misilsiz və təkrarolunmaz bədii təsvir vasitələri də mövcuddur ki, onlar da əsərin dilini çox zəngin və oxunaqlı etmişdir”.

Müəllif monoqrafiyasının Nizaminin “İskəndərnamə”sindəki təşbih, istiarə, üslubi sinonimlərin şərhinə həsr etdiyi məqamlar dahi şairin dil zənginliyini, dil sənətkarlığını bir daha nəzərə çatdırır.

M.Məmmədova 2017-ci ildə “Filologiya məsələləri jurnalında çap etdirdiyi “Nizami Gəncəvi yaradıcılığında azərbaycançılıq motivləri” adlı məqaləsinədə dahi şairin milli kimliyi məsələsinə toxunmuşdur. Tədqiqatçı Nizaminin milli mənsubiyyəti haqqında qərəzli, səhv fikirlər söyləyənlərə cavab olaraq onun əsərlərində ən çox Azərbaycanın, burada baş verən hadisələrin təsvir edildiyini göstərir. Alim bildirir ki, şairin əsərlərində adı çəkilən Ərmən vilayətinin indiki Ermənistana və ermənilərə heç bir dəxli yoxdur. Bu əhali atəşpərəstdir ki, ermənilərin bu dinə sitayiş etmələri mümkün deyil: “Nizaminin bəzi əsərlərində adı çəkilən Ərmən Azərbaycanın qədim vilayətlərindən biri imiş. Həşəmətli Məhinbanu bu torpaqların hakimi, onun qardaşı qızı Şirin isə bir qrup tədqiqatçıların iddia etdiyi kimi erməni yox Azərbaycan-türk əsilli idi Nizaminin müxtəlif əsərlərində işlənən “erməni” sözünün leksik mənası üzərində fikri cəmləşdirən müəllif apardığı araşdırma nəticəsində bu qərara gəlir ki, şair bu sözü etnik qrup anlamında işlətməmişdir. Tədqiqatçı Nizami əsərlərində işlənən bir sıra atalar sözü və məsəllərin bu gün də Azərbaycan dilində işləndiyini göstərmişdir.

Mənzərə xanımın əsas elmi yaradıcılığı Nizami əsərlərinin leksikasını, leksiki üslubunu əhatə edir. Tədqiqatçı Əzizağa Nəcəfzadənin qeyd etdiyi kimi, onun uzun illərin zəhmətinin bəhrəsi olaraq meydana çıxan əsərləri Nizami Gəncəvinin leksikasının tədqiqi sahəsində mühüm mənbələrdir.

Görkəmli dilçi, əlyazmaçı alim Mənzərə Məmmədovanın elmi yaradıcılığının mühüm hissəsi Nizami Gəncəvi əsərlərinin leksikasının, leksik üslubunun tədqiqinə həsr edilmişdir. Bu baxımdan onun tərtib etdiyi iki cildlik “Nizami Gəncəvi dilinin lüğəti” və “Nizami Gəncəvi dilinin leksik üslubu” monoqrafiyası xüsusilə diqqətəlayiqdir. Alim bu əsərlər üzərində çalışarkən orta əsrlərdən müasir dövrümüzədək tərtib edilmiş Nizami əsərlərinin lüğətlərindən bəhrələnmişdir. Mənzərə Məmmədova tədqiqat əsərlərində Nizami Gəncəvinin söz sənətkarlığı, sözün çoxmənalılığından istifadə etmək bacarığı, onun məharətlə yaratdığı bədii ifadə vasitələri və s. barədə dəyərli elmi fikirlər söyləmişdir.



*Dəyanət OSMANLI*

**ZƏFƏR ÖYKÜLƏRİ**

İndi günəş
gecələr də çıxır
türk eli Qarabağda.
Göy börünün səsindən
oyanır yatmış ruhlar
kutsal torpağım yenə
ər qanına boyanır.
Tanrı bu gün dünyaya
Azərbaycandan baxır.

Hər gün yeni zəfər
azadlıq ətirli xəbər
indi millətim əsgər
bərq vurur qızıl qanım
ulu türk torpağında...

Ali Baş Komandanım,
Qarabağ göylərinə sancdığın
Zəfər bayrağı kölgəsində
millətin ürəyində
çoxdan arzuladığın
əbədi heykəlin dikilir.

Hər gün
efirin xəbər saatında
gözlərəm böyük Zəfər gününü...
Və hər saatda
fatehin dəmir yumruğuyla
pozulur təqvimdən qara günlərimiz...

* * *

Qarabağın qoca dağları,
yaralı Şuşa qalası...
özləmişdi öz fatehini
özünü yetirdi o da Hızır kimi.
Can üstə olan Börü yuvası
tanıdı öz əsgərini güllə səsindən
artıq ilanın boğazı əlimizdə.

İndi bizim igidlər sürür
düşmənin tanklarını,
Ölümsaçan qazilər
çevirir məzarlığa
düşmən səngərlərini.

Ey türkün yeni Fatehi,
hər vətən övladı
əmrinlə ölməyə hazır.
Sən vur dedikcə əsgərinə,
kölgəsində kutsal bayrağın,
sinəsində kutsal torpağın,
əsir yurdları qovuşdur əzizinə.
Dost-düşmən içində
bizə utanc gətirən günahımız yuyulur
Vətənin tarixində yeni Vətən qurulur.

* * *

İndi bu qarlı qışda
əsgər dəbilqəsi
başı qarlı dağlara bənzər.
O qarı xarlamış dağlara
indi günəş hər gün
Qarabağdan doğur.

Nə olsun çoxdandır
günlərin çoxu yaddaşa yazılmayıb

ömürlərin çoxu həyatdan murad almayıb.
Və ümidlərin çoxu uyğudan oyanmayıb...
Və indi kutsal diriliş anıdır
indi kutsal quruluş anıdır.

Gecələr o uzaqda
göylərin dərinliyində
boz qurdun nəzərində
nur saçan hilal da
Zəfərimizə tanıqdır.
Türkün kəskin əhdində
və qılıncının tiyəsində
quruyan düşmən qanı
şəhidlərin qayıdan haqqıdır.
Dünyaya düşən
xilaskar aydınlıqdır
çırağı sönmüş yurdlardan
sayrışan savaş atəşləri.
Dərdli könlümüzün
işığı düşdüyü xatirələr
həsrətli gözümüzün
baxarkən yaşardığı yerlər
bizdən imdad uman vətən torpağıdır.

## YAŞIL ÜZLÜ,
## BOZQURD SƏSLİ QARABAĞIM...

nə ağlarsan xısın-xısın
dağılıb itən
məzarlıq yerində.
Göz yaşından yaşıllaşıb
keçilməz oldu dağların.

Bu axşam
qaranquşlar qayıtdı
sənin də gedənin gəlsin.
Qopar düşmən yarasını
dilimin sözü göynəsin
öpsün gözlərim
uğrunda ölən igidlərin qanını.

Yaşıl gözlü Qarabağım,
aç könlünün qapısını
vətəndən gələnin olsun

ya bir əsgər zərbəsində
ya bir bayraq küləyində
bir şəhid duası dinlə.

Vətəndən gələnin olsun...
dolanbac yolların tozlansın
əllərin düşmən qanına batsın.
Yaşıl çəmənlərində
yaşıl otların tapdansın.
Bayılsın ətrinə ruhum
məni yanında görüncə
yaşıl gözlərində
islansın üzüm.

Səslənsin bir kutsal himn
məzarımın başında
xəyalımı yandıran
zəfər atəşləri
körpələri diksindirsin
diriltsin xatirələri...

***2019***

## MƏZARIM ALINMAZ BİR ÜRƏK

Bir əsgər vətənini
anasıyla al-dəyişik salmışsa
bu vətən uğrunda savaşdığında
balasının ana ovcunda
özgür yaşayıb
onurlu öləcəyinə inanmışsa
Tanrı da döndərəmməz onu ölümdən.

Bir şəhid əmin yatdığı torpaqda
cənnəti görmüşsə
və bu cənnətin üstündə
qazilik keçər arzuların könlündən.

Üstündən saysız illər keçib
kiminçün yaşayıb
kiminçün öldüyüm yadımda deyil
dağılmış bir qurd yuvasında
kimliyim unudulub.

Məzarım alınmaz bir qala
daşım susmaz bir tribuna

torpağım inləyir ürək kimi
küskün ruhların ayaqları altında.

## TÜRK BAYRAĞI

Aşiq ruhum ondadı
al-qırmızı dondadı
dikilməyə tək yeri
düşmənin bağrındadı.

Ölməz anısı vardı
dünya başına dardı
yaşını unutmuşam
dilimin ucundadı.

Göyləri yenər adı
önümdə-sonumdadı
göz çıxardan surəti
zəfər sorağındadı.

Torpağın kimliyidi
şəhidin kəfənidi
bozqurdun kutsal andı
millətin qibləsidi.

O qədərə basılmaz
ölümlə heç barışmaz.
türkün ulu dərgahı
könül səddi aşılmaz.

## VƏTƏN TÜRKÜSÜ...

Kor quyunun dibindən
haqqın ac gözü baxır.
Dustaq məmur evindən
Vətən sərvəti çıxır.

Nə duzsuzdu əkməyin
hamı doyub çəkildi.
Ac dərd oldu gərəyin
başında turp əkildi.

Evdə it də hürməyir
nə ruzi var, nə döyüş.

Hakimlər xalqa deyir:
həyat tərzini dəyiş.

Ömür yolu uzundu
gedib-gəlmək oyundu.
Səndən gedən doğmalar,
yada möhtac adamlar.
daha özünə dönmür
daha üzünə gülmür.

Küləyin nə sərt əsir
uçdu evinin damı.
Haqqın qılıncı kəsir
üzü qara başını.

Çiynində gəzdirdiyin
qanından içirdiyin
ovcunda bəslədiyin
andına güvəndiyin
doğma zatıqırıqlar
iliyini vurdular.

Keçmişindən xəbərsiz
milliyyəti bəlirsiz
insi-cinsi dolaşıq
içi-çölü bulaşıq
övlad ağlatdı səni.

Dişinlə-dırnağınla
qanınla ucaltdığın
o bayrağın başından
doğmalar atdı səni...

## TÜRKÜ

Çox kasıb görünürsən...
bir adın
bir bayrağın.
Zəhərlənib torpağın
lap pəsdən döyünürsən.

Xar günün gördüm sənin
Vətən,
gözüm kor olsun.

Yenə təzədi dərdin
köhnə yaran qanasın.

Yoxdur çörəyin duzu
doyanlar asi çıxıb.
Yalan yenibdi düzü,
kasıbın süfrəsində
halal-haram qarışıb.

Gecən yaman qaranlıq
günün məzar içində.
Sözüm yaman bulanıq
bu bəlalı dilində...

Keçmiş olsun deməyə,
azadlığı öyməyə
bircə kutsal gün olsun.
Vətən əkməyin olsun
ocağın tüstülənsin
yenə qonağın gələr...
Allah köməyin olsun.

## QAZİ MARŞI

Vətənin nəbzi vurur
əsgər məzarlığında.
Zəfər himni duyulur
yurdun hər sabahında.

Hər şəhidlik ünvanı
bir qanlı and yeridi.
Qoruyan yurd-yuvanı
ulu bayraq sehridi.

Bu torpağın bağrında
közdü düşmən yarası.
Bu ulusun alnında
paslanıb haqq davası.

Sözü dualı dilim
azadlıq sorağında.
Gözəl taledi ölüm,
gözəl ölüm uğrunda.

## HARDAN GƏLDİMSƏ ORA VƏTƏNDİR...

hara getdimsə
ora vətəndir...
və hara baxdımsa
orada qanımdan
bir nişanə buldum.
Bir quş kimi hey uçdum
uçdum yorulmadan
gecə-gündüz tanımadan
öz doğma ağacıma qonmadan
ötüb keçdim yanından.
Məni gözləyən adamların
unudulmaz anıların
tükənmək üzrə olan anların
yanından ötüb keçdim
ölümdən yayınmış kimiyəm indi...
və geridə bir uçurum...
və daha dərindən nəfəs alıb
rahatlanmağa bir kölgə yox.

Bir quş olub uçdum
hey uçdum
göy üzünə toxunmadan.
Dağları silkələyən
ana bozqurd səsində
duruldu dualarım...

Aşiq olduğum hilaldır
izində qəhr olduğum
kutsal azadlıqdır
bütün Türklüyün qibləgahı...
Çox istərdim
mənim o qiblədə
bir şəhid canım
bir yaşıl ağacım
bir qarlı dağım
bir də
bir isti yuvam olsun.

Özümü tanıyandan
ömrümü əmanət etmişəm
keçmişə ön söz olan
bir nəğmənin yaddaşına.

Bayrağımız inadla
sevindirdi göylərin köksünü
və Tanrı
dirilik suyu içirdi mənə
kutsal anım günlərində.
Hər gün ay-ulduzlu
məzar daşı yanında
keçmişimlə görüşüb
yoluma davam edirəm.

**YATA-YATA**
**ƏKİNİMİZ XAM QALDI...**

talandı könül tarlalarımız
boynumuzu qoydular
al qanlı kötüklərin üstünə.
Bu ulusun yuxusu div,
bu dünyanın gecələri bayraqdı.
Silkinib div uykusundan
yağının əlində yellənən
qanlı başımdan çəkdim
köhnə yurdun əzablarını.

Aləm köçür oyadammır
nə hüzn nə qələbəlik
üzü qibləyə yatan bozqurdu...
ağıya dönüb ulartısı.

Nağıllar yoxmuş
ömür boyu yuxu gördük
yaşamağa gün qalmayıb salamat
torpağın özü can verir
bir məzar qazmağa
boş yer tapılmır.

Biz könüllü ölürük
göy üzündə yaşamaq ümidiylə
ordan da Tanrı qovur
indi harda köç salsaq da
yenə adımıza
köçəri ruh deyirlər.

Biz elə bildik
vaxtsız öldük
dünya yalan
ondan ötrü
yata-yata belimiz qırıldı
günlərin ağını
saçımıza yığdıq yata-yata...

**ÖMRÜN ORTASINDA VİDA GÜNÜ**

Əfəndim, Tanrım,
ölüm hələ son nəfəs deyil.
vədələşək səninlə
ömrün bitdiyi yerdə.
Yaşamağa vaxt qalmasın
savaşmağa söz olmasın,
ölməyə həvəs olmasın,
yolda qalan göz kor olsun.

Ömrün qışında vida günü
gündüzün ortasında
gecənin şər vaxtında
sözlər donub buz bağlayır
sarmaşıb bir-birinə.

Səhər ertə tərslikdən
qıpqırmızı gün çıxıb
anıları əridir.

Bəzən olur özümü
tərk edilmiş bir könüldə
dizini qucaqlamış
bir kabus tək buluram.
Bəzən canımı özümə qısqanıb
həyatdan üşənirəm.
Bəzən də
dadını çıxarıb vida anının
Tanrının arxayın vaxtında
ölümün qulağına
bir çırtma vurmaq istərəm.



*Nəzakət MƏMMƏDOVA*

## QARABAĞA BAHAR GƏLİR, İLAHİ!

Sevincə bax bulaqların gözündə,
Qəlbi gülür dərənin də, düzün də.
Şəhid qanı çiçəkləyir üzündə,
Qarabağa bahar gəlir, İlahi!

Ötən çağlar indi üzü bəridi,
Gələn günlər ömrün təzə-təridi.
Otuz illik yurd həsrəti əridi,
Qarabağa bahar gəlir, İlahi!

Dalğalanır arzuların bayrağı,
Hər təbəssüm bir ümidin yarpağı.
Zəfər ətri bürüyübdür torpağı,
Qarabağa bahar gəlir, İlahi!

Qulac-qulac açılıbdır qucaqlar,
Əl eləyir sevinc dolu o çağlar.
Alov-alov gülümsəyir ocaqlar,
Qarabağa bahar gəlir, İlahi!

Zəmilərdə daraqlanır sünbülün,
Ocağında ruhu gülür Bülbülün.
Cıdır düzü indi xarıbülbülün,
Qarabağa bahar gəlir, İlahi!

Ürəklərdə ümid naxış toxuyur,
Əllər zəfər nəğməsini oxuyur.
İndi vətən Şuşa ətri qoxuyur,
Qarabağa bahar gəlir, İlahi!

Gəlsin bahar, gülsün bahar elimdə,
Xudayarın nəğməsi var çölümdə.
Nəzakətəm, min alqış var dilimdə,
Qarabağa bahar gəlir, İlahi!

## VƏTƏNDİR BU

Torpaq deyil, Vətəndi bu,
Çınqılı, daşı doğmadı.
Atamdan, babamdan qalıb,
Alın qırışı doğmadı.

Səssiz haraylar görünür,
Uca saraylar görünür,
Çox illər, aylar görünür,
Gözünün yaşı doğmadı.

Bir bax bu kasıb damına,
Həsrətdir bəxtin tamına.
Ögey baxma adamına,
Bu nadan, naşı doğmadı.

Könlünə Qarabağ düşüb,
Baxmaqdan gözə ağ düşüb.
Ümiddən yüz yarpaq düşüb,
Payızı, qışı doğmadı.

Yaddaşına bir ox dəyib,
Qeyrətinə bir "yox" dəyib
Əlhəd daşına çox dəyib,
Qan axan başı doğmadı.

## ZƏFƏR NƏĞMƏSİ

*Milli Ordumuzun zabiti oğlum Ramilə*

Açıb qucağını sənə Qarabağ,
Öpür qədəmini hər dərə, hər dağ.

Qələbə ətrinə bələnib torpaq,
Zəfərin mübarək, komandir oğlum!

Ovutdun gör neçə qəlbi kövrəyi,
Bitib ürəklərin acı göynəyi.
Yollar geyinibdi zəfər köynəyi,
Zəfərin mübarək, komandir oğlum!

Üçrəngli ulduzun, ayın var sənin,
Döyüşdə öz haqqı-sayın var sənin.
Qələbə sözündə payın var sənin,
Zəfərin mübarək, komandir oğlum!

Babək hünəri var ər qollarında,
Ömrün yol eləyib hərb yollarında.
İndi üzü gülür bu yolların da,
Zəfərin mübarək, komandir oğlum!

Vətən sevgisidir sönməz ocağın,
Qeyrət köynəklidir sənin hər çağın.
Bu vətən boydadır indi qucağın,
Zəfərin mübarək, komandir oğlum!

Arzum ələ yaxıb sevinc hənası,
Dəyərdən ucadır ömrün mənası.
Vətənin qızıyam – zabit anası,
Zəfərin mübarək, komandir oğlum!

Qeyrət ətirlidir adın, ünvanın,
“Çəngi”yə köklənib damarda qanın.
Əmrindən güc aldın Baş Komandanın,
Zəfərin mübarək, komandir oğlum!

## VƏTƏN

Dünyaya açılan qapımsan mənim,
Ruhumun, könlümün gözüsən, Vətən.
Mayası səndədir müqəddəsliyin,
İlahi qüdrətin özüsən, Vətən.

Qəlbimin işığı, gözümün nuru,
Uludan ulusan, ucadan uca.
Salım qollarımı boynuna, Vətən,
Səni misra-misra öpüm doyunca.

Zirvələr söz açır ucalığından,
Dərələr şahiddir dərinliyinə.
Sənin bərəkətli, barlı torpağın
Geniş sərhədləri geyib əyninə.

Hünər dünyasına güzgüdü sanki
Ömür kitabının hər səhifəsi.
Hər bir qarışında duyulur, Vətən,
Zamanın addımı, tarixin səsi.

Ulu əcdadların daşlaşan ömrü,
Boylanır Laçının qayalarından.
Hər daşda bir igid nərəsi yatır,
Qan damır tarixin yaralarından.

Ellərin arzusu qanadlanaraq
Süzəcək səmada bir gün quş təkin.
Şərəflə qorunan yurd yerlərində
Ruhu gülümsəyir ulu Babəkin.

Taleyindən keçən qərinələrin,
Alnını bəzəyir ərən imzası.
Sənin qüdrətinə qoşa qanaddır,
Xətai qılıncı, Ələsgər sazı.

Ana laylasından hənir alıbdı
Ürəkdə alışan qeyrət ocağı.
Doğmalıq ətirli hər qarış torpaq
Ana qucağıdır, ana qucağı.

Oğul qeyrətini əyninə geyən
Canlı səngərlərin mübarək, Vətən.
İlahi sevgiylə yoğrulubdusa,
Hər duyğu –Vətəndi, hər ürək – Vətən.

Dərbənd qalasından Təbrizə qədər
Uzanan bu yurdun səsi içimdə.
Mənim Şah babamın, Şah Xətainin,
Əbədi harayı, ərzi içimdə.

Hər bahar gələndə sızıldayacaq
Qırılmış budağın qönçə ağrısı.
Bilirəm qəlbində heç uyumadı
Zəngəzur həsrəti, Göyçə ağrısı.

Ana laylasına hopan məhəbbət
Sənin təravətin, ətrindi, Vətən.
Millətin ruhunda, elin dilində,
Daim əzizlənən xətrindi, Vətən.

Ömrünə güzgüdür oğul qeyrəti,
Cürət qanad açıb hər qarışında.
Vətən əsgərinin məhəbbətindən
Üzündə sevgi var dağın, daşın da.

Sənin qeyrətini çəkən oğullar
Ulu qüdrətini duyur dərindən.
Durub keşiyində igid ərənlər,
Qeyrət ətri gəlir səngərlərindən.

Çırağa bənzəyir Vətən torpağı,
Hər əsgər ürəyi pərvanəsidir.
Bu doğma yurdumun qeyrət nəğməsi
Vətən əsgərinin addım səsidir.

Əsgər baxışları sevgiylə öpür
Vətən torpağını təbərrük kimi.
Yurdu bədnəzərdən qorusun deyə
Dolanır başına üzərrik kimi.

Əsgərin gözündə güzgülənir, bax,
Meşə də, dəniz də, dərə də, düz də.
Sərib gözlərinin yuxusunu o,
Körpələr uyuyan beşiklər üstə.

Qartal baxışından hənir alıbdır
Quşqonmaz qayalar, mamırlı daşlar.
Torpağın, ağacın, otun içindən
Hər gün bir əsgərin çığırı başlar.

Böyük məhəbbətlə səngərdə durub,
Qəhrəmanlıq axır damarlarında.
Vətən qeyrətini əyninə geyib
Yayın bürküsündə, qışın qarında.

Onun qətiyyətli addım səsinə
Açıb yaxasını hünər yolları,

Qəlbində alışan Vətən sevgisi
Əridir üstünə ələnən qarı.

Vətən əsgərinin kirpiklərindən
Gecə ulduz-ulduz asır özünü.
Tətikdə dayanan barmağı üstə
Alagöz səhərlər açır gözünü.

Ömrünün-gününün hər məqamında
O, yurdu düşündü, Vətəni andı.
Qəlbində şərəflə dalğalanır, bax,
Vətən torpağına sədaqət andı.

Böyük dastanlara sığışan deyil
Vətən əsgərinin Vətən alqışı.
Hər daşı, qayanı çiçək sanaraq
Kəpənəklər kimi qonur baxışı.

Durub keşiyində müqəddəsliyin,
Böyük amalıyla müqəddəsdir O.
Ulu babaların ruhundan qopan
Canlı bir haraydır, ulu səsdir O.

Bu səs qanımızın səsidi, qardaş,
Haqqın dan yerindən yol gəlir bu səs.
Hünər bayrağıtək, qeyrət himnitək,
Vətən göylərinə yüksəlir bu səs.

Bu səsin işığı, bu səsin nuru
Gün kimi ələnir yurdun başına.
Bu səs bir qılıncdı, ovxarlı qılınc,
Qurşa, yurd uğrunda, yurd savaşına.

Bu səslə durulur Vətən suları,
Bu səsdən ər oğlu bir Mən görünür.
Bu səs gündoğanım, günbatanımdır,
Bu səsdən bir böyük Vətən görünür.

Hər əsgər Vətənin bir məğrur səsi,
Hər səsin müqəddəs bir sərhədi var.
Vətənin sərhədsiz səsidir, dostum,
Vətən qeyrətini çəkən oğullar.

Əsgərdən başlanır Vətən duyğusu,
Harda əsgər varsa, orda Vətən var.
Əsgər addımını laylatək duyur
Torpağın altında şəhid yatanlar.

## SƏNGƏR

Haqqın dərgahında ulu mizandı,
Haqq ilə nahaqqın arası – səngər.
Vətən, yurd uğrunda döyüşənlərin
Köksündən aldığı yarası – səngər.

Qopuzu bağrına basmış Dədənin,
Torpaq ətri verən sözüdü – səngər.
Qələbə nəfəsli ümidlərimin
Ürəkdə alışan közüdü – səngər.

Ana namusudur, bacı isməti,
Ərən babaların papağı – səngər.
Savaşda gözünü yuman şəhidin,
Sonuncu mənzili, otağı – səngər.

Söykən bu qarşı dağlara,
Burda hər daş, qaya – səngər.
Şəhid qanı axan yurdda
Hər pıçıltı, qıyya – səngər.

Yoldu dərdin ayazında,
Teldi Ələsgər sazında.
Ərən ömrün qapısında
Bənzər ilə, aya səngər.

Həm bacıdı, həm də ana,
Qolu boynuna dolana.
Vətənə səngər olana,
Dönüb haqqı-saya səngər.

## ŞƏHİD QIZI

Ağlama, şəhid qızı,
Dərdin mənə tanışdı.
Ürəyim param-parça,
Dərdim naxış-naxışdı.

Ağlama, şəhid qızı,
Mən də ata itirdim.
Elə sən yaşda idim.
Sanırdım ki hamıdan
Güclüydü mənim atam.
O körpə ürəyimdə
Atam idi qəhrəman.
Göydən ulduz istəsəm,
Yığıb yerə tökərdi.
Qarlı dağın başında
Mənə gül bitirərdi.
Sanırdım hər arzumun
Açarı atamdadır,
O mənim güvənc yerim,
O mənim arxamdadır.
Ağlama, şəhid qizi,
Bax, mən necə böyüdüm...
Əvvəl elə sanırdım
Bir gün insafa gələr,
Qalxar o daşın altdan,
Arzularımı görər...
Böyüdüm, şəhid qızı,
Atadan söz düşəndə
Ürəyim yaman əsdi,
O bəxtəvər günləri
Təzədən görmək üçün
Könlüm yaman tələsdi.
Anam tez-tez deyərdi
Əgər yaxşı oxusan,
Atan mütləq biləcək
O, haçansa gələcək.
Beləcə, yalanları
Ürəyimə bələyib,
Ümüdlərə söykənib
Böyüdüm, şəhid qızı.
Sən də böyüyəcəksən,
Gercəyi yalan bilib
Yalanı sevəcəksən.
Tutacaqsan ümidin,
Təsəllinin əlindən,
Sən də böyüyəcəksən.



## *Güləmail MURAD*

### ŞƏHİD ANASIYAM

Şəhid anasıyam, qoy bilsin ellər,
Amma göz yaşımı boğacağam məm.
Bətnimdən doğduğum şəhid balamı,
İndi öz ruhumdan doğacağam mən.

Mənimdir Kür çayı, Göyəzən dağı,
Hər daşım, hər qayam aslan yatağı.
Sinəmə dağ çəkmək istəyən yağı,
Görsün necə zirvə, necə dağam mən.

Ah çəksəm, ahıma dinər ulduzlar,
Göylərdən yerlərə enər ulduzlar.
Üçrəng bayrağıma dönər ulduzlar,
Ana görkəmində bir bayrağm mən.

Oğulsuz keçsə də neçə illərim,
Dərddən ağarsa da qara tellərim,
Deməz qədirbilən, doğma ellərim,
Deməz xəzan vurmuş bir yarpağam mən.

Düşmənlər yurduma girməyəcəklər,
Bağımdan gül-çiçək dərməyəcəklər.

Şəhidlər ölməyib, ölməyəcəklər,
Nə qədər dünyada hələ sağam mən.

## ÖLMƏZLİK DƏRSİ

***Milli Qəhrəman, şəhid Eldar Məmmədova***

Çox da uzaqdaydı... Vətən sevgisi
Qəlbində nə susdu, nə də ki söndü.
Düşmən hücumunu eşidən kimi
Uzaq qürbətlərdən Vətənə döndü.

Vətən göylərində ulduztək yanıb,
Vətən torpağının çırağı oldu!
Dedi ana kimi əzizidir vətən,
Vətənin dar gündə dayağı oldu!

Cəbhəyə könülllü ərizə yazdı,
Zabit libasını geydi əyninə.
Canını vətənə sərhəd elədi
Döyüşçü dostlarla çiyin-çiyinə!

Keçdi igid kimi, keçdi ər kimi
Döyüş alovunu, savaş odunu!
Ağdərə uğrunda gedən döyüşdə
Tarixə qanıyla yazdı adını!

Yüksəklik uğrunda canını verib,
Şəhid kimi uca bir adı aldı!
Şəhidlər ölməzdir, onun da adı
Haqqın yaddaşında əbədi qaldı!

Adını daşıyır sərhəd alayı,
Şəkli qərq olubdur qərənfillərə.
Dərsdə müəllimlər ondan danışır,
Ölməzlik dərsidir gənc nəsillərə.

Məzarı üstünə qoyulmaq üçün
Hər misram bir qızıl qərənfil olsun.

Yağışda islanıb, gündə isinib,
Küləklər vurduqca qoy tel-tel olsun.

**QARDAŞ, HARDASAN?**

Qardaşdır bacının başının tacı,
Səni çağırıram, qardaş, hardasan?!
Qardaşla hər yerdə öyünür bacı,
Səni çağırıram, qardaş, hardasan?!

Qardaşsız bacılar ürəksiz olar,
Arxasız, dayaqsız, dirəksiz olar!
Özü öz gözündə gərəksiz olar,
Səni çağırıram, qardaş, hardasan?!

Sənsiz nalə çəkən ünüm üşüyür,
Hayana üz tutsam, yönüm üşüyür.
Toyuna aldığım donum üşüyür,
Səni çağırıram, qardaş, hardasan?!

Gəl, bizi bu qəmin əlindən qurtar,
Həsrətin, hicranın felindən qurtar.
Ağlar gözümüzün selindən qurtar,
Səni çağırıram, qardaş, hardasan?!

Eşit, bacıların ürək sözünü,
Öpərik yollara düşən izini.
Dörd bacın yollara dikib gözünü,
Səni çağırırıq, qardaş, hardasan?!

*Vahid MƏHƏRRƏMOV*



# Dəniz gözlü qız

♦ *Hekayələr*

Hələ məktəb illərindən ürəyimdə fotoqraflığa böyük maraq yaranmışdı. Necə olursa olsun, bu sənətin sirlərinə bələd olmaq istəyirdim. Kəndimizdə üz-gözündən nur yağan Qaçay adlı qoca bir fotoqraf var idi. Yaşı yetmişi ötsə də, iş-gücdə, yerişdə-duruşda başqalarından geri qalmazdı. Ağsaqqalın sənətkarlığına da söz ola bilməzdi. Çəkdiyi şəkillərə baxan bir də dönüb baxmaq istəyirdi. İndiyə qədər el-obada ondan narazı qalan olmamışdı. Nədən, bu sənəti öyrənmək istədiyimi Qaçay dayıya deməyə çətinlik çəkirdim.

Bir gün ürəyimi atama açdım ki, bəlkə, bu işdə mənə köməklik eləsin. Dediklərimə çox da məhəl qoymayan atam fikrimi bəyənmədi. Bəyənməməyi bir yana, hələ məni həvəsdən də salmaq istəyərək: “Bala, özünə mərifətli bir sənət seç, nə görmüsən bu şəkil çəkməkdə? Odey, Qaçay kişi, neçə ildir bu işlə ha əlləşsə də, hələ bir qəpiyin yiyəsi olmayıb. Nə vaxt baxırsan, rayondan dava-dərman alıb gətirir, şəkil çıxarır. Ha çalışsa da, kasıblığın daşını ata bilmir”, – dedi. Atamın tərs adam olduğunu bildiyimdən sözünü çevirib heç nə demədim. Onun sözləri mənim bu sahəyə olan marağımı azaltmadı. Çünki Qaçay dayı kasıb yaşasa da, el-obada hörməti var idi.

Günlərin birində ayağımı sürüyə-sürüyə Qaçay dayıgilə getdim, utana-utana onun sənətini öyrənmək istədiyimi dedim. Dediklərimi eşidən Qaçay dayının üzü güldü, gözlərindən sevinc töküldü. Qabarlı barmaqları ilə başımı asta-asta sığallayıb dedi:

– Yaşar, bala, sənət öyrənmək gözəl işdir. Çünki sənət dünyanın harasında olsa, insanı yaşadır. Çox düz eliyirsən ki, bu peşəni öyrənmək istəyirsən. Nəvəm Musanı nə qədər danlayıb məcbur etsəm də, fotoqraflığa maraq göstərmir ki, göstərmir. Sənin ki belə həvəsin var, bu sənəti sənə öyrədərəm.

Günlər ötdükcə yavaş-yavaş işi mənimsəyirdim. Mənimsədikcə də sənətə həvəsim artırdı. Qaçay dayı xırdalığına qədər hər şeyi mənə başa

salırdı. Nə yaxşı ki, atam bu işi öyrəndiyimi bilsə də, qarşımı kəsib qadağa qoymadı. Mənə: "Özün bilərsən, öyrənirsən öyrən, amma dərslərini oxumağı da unutma", – dedi.

Qaçay dayı hara şəkil çəkməyə gedirdisə, məni də özü ilə aparırdı. İş zamanı onun bütün hərəkətlərinə diqqətlə nəzər yetirir, hər kiçik addımına belə göz qoyurdum. Ağsaqqal da çalışqanlığımdan razı idi. İşi mənimsədikcə görürdüm ki, şəkil çəkəndə təkcə texniki şərtləri bilmək kifayət eləmir. Gərək özündə də yaradıcılıq hissi, fantaziya, istedad olsun ki, hansısa bir sujeti qura biləsən, müştərilər işindən razı qalsın. Hərdən ustad sınamaq üçün məni şəkil çəkməyə tək göndərirdi. Mən də çalışırdım ki, işi yarıdım.

Başım təkcə fotoqrafiyanı öyrənməyə qarışmamışdı. Dərslərimi də yaxşı oxuyur, ali məktəbə qəbul olmağa hazırlaşırdım. Orta təhsilimi bitirib ali məktəbə üz tutmaq zamanı gələndə xeyir-dua almaq üçün Qaçay dayının yanına getdim. Gedişimdən bir az məyus olan usta xoş sözlərini əsirgəməyib dedi:

– Üz-gözüm sənə öyrəşmişdi. Həvəsli, bacarıqlı olduğundan işi tez götürdün. İnşallah, ali məktəbdə oxuya-oxuya şəkil çəkib beş-üç manat pul da qazanacaqsan. Gərək səndən sonra özümə başqa köməkçi axtaram.

Qaçay dayı bunları deyəndən sonra məni bağrına basıb öpdü. Sonra qarşısındakı dolabın siyirməsindən təzə bir fotoaparat çıxarıb mənə verərək: "Bunu sənə hədiyyə edirəm. Özünlə şəhərə apararsan, orada gərəyin olar", – dedi.

Buna görə çox sevinirdim. Çünki şəxsi fotoaparatım var idi. Ustamdan da xeyir-duamı almışdım. Yəqin ki, gələcək həyatımda uğur qazanacaqdım.

Müəllim olmaq istəyirdim. Nicat müəllim bu peşəni bizə çox sevdirmişdi. Mən də gələcəkdə onun kimi ədəbiyyatdan dərsi demək arzusu ilə yaşayırdım. Şükür, imtahanlardan uğurla keçdim. Narahatlığım, həyəcanım ötüb arxada qaldı.

Tələbə yataqxanasında yaşayırdım. Otaqda dörd nəfər idik. Cəfər, Şamil, Qürbət və mən. Ustamın verdiyi fotoaparatı da özümlə gətirmişdim. Həm otaq, həm də qrup yoldaşlarıma şəkil çəkməyi bacardığımı demişdim. Sənəti bildiyimi onlara göstərmək üçün bir neçə dəfə də şəkil çəkib çıxartdırmışdım. Görənlər işimi bəyənmişdilər. Yavaş-yavaş universitetdə hamı məni fotoqraf kimi tanıdı. Hərdən şəkil çəkib yeni açılmış bir fotoatelyedə çıxartdırırdım. Buna görə də, əlimdə-ovucumda beş-üç manat pulum da olurdu. Arada dostlardan kiminsə ad günü-filanı olanda isə işim lap yaxşı gedirdi.

Bir gün otaq yoldaşım Qürbət dedi ki, Gülzar adında bir qohumu var, vergi idarəsində işləyir, onlar iş yerində şəkil çəkdirmək istəyirlər. O: "Sən gedib onların şəkillərini çəkərsənmi?", – deyə soruşdu. Həm həvəslə, həm də ürəklə: "Əlbəttə, çəkərəm", – dedim.

Dərs başa çatan kimi birlikdə onun qohumunun iş yerinə yollandıq. Gülzar orta yaşlı, gözəl-göyçək bir qadın idi. Onun üz-gözündən daim tə-

bəssüm yağırdı. Mənə elə "qadan alım" deyirdi ki, sanki ən əziz adamıyam. Otaqda dörd qadın idi. Onların şəkillərini həm tək, həm də bir yerdə çəkdim. Gülzar xanım şəkillərin pulunu əvvəlcədən, özü də artıqlaması ilə verdi.

Vaxt itirmədən fotoatelyeyə yollandım. Bir neçə saatdan sonra şəkillər hazır oldu. Ertəsi gün dərsdən çıxan kimi Gülzar xanımın yanına getməyə hazırlaşdım. Qürbətin vacib işi çıxdığına görə mənimlə gedə bilmədi. Əlacsız qalıb tək-tənha yola düzəldim. Gülzar xanımın çəkdiyim şəkillərdən, fantaziyamdan xoşu gəldiyindən məni xeyli tərifləyərək: "Hələ indiyə qədər mənim şəklimi belə canlı çəkən olmamışdı", – dedi. Sağollaşıb ayrılarkən Gülzar xanım dedi: "Yaşar, səndən bir şəkil çəkməyi də xahiş etmək istəyirəm. İşinə baxdım, xoşum gəldi, inanıram ki, bunu da bacaracaqsan. Nə deyirsən, mənim üçün yenə şəkil çəkərsənmi?" Fikirləşmədən: "Əlbəttə çəkərəm", - dedim.

Dediklərindən məlum oldu ki, Gülzar xanım şəkli otağında çəkdirmək istəmir. Onun üçün gözəl bir dəniz mənzərəsi lazımdır. Amma şəkil elə çəkilməli idi ki, həm dəniz sahilindəki qayalar, həm uzaqda üzən gəmilər, həm də havada süzən qağayılar kadra düşsün. Dəniz də yüngülvarı dalğalanmış vəziyyətdə olsun. Mənim üçün bu çətin iş deyildi, amma gərək bu məqamı kadra salmaq üçün vaxt çox sərf edəydim. Bəlkə də, saatlarla dənizin sahilində oturub gəmilərin gəlməyini gözləməli olacaqdım. Bir az fikrə getdiyimi görən Gülzar xanım dedi ki, bu şəkil üçün sənə nə qədər lazımdırsa pul verəcəm, təki hər şey istədiyim kimi olsun. Mən bir daha razılığımı bildirəndən sonra Gülzar xanım çəkdiyim şəkilləri çıxarıb gətirməyimi, hansından çox xoşu gəlsə, onu böyütdürəcəyini söylədi. Mən də "baş üstə" deyərək onunla sağollaşıb otaqdan çıxdım.

Bu işdə mənim üçün puldan çox yaradıcılıq marağı var idi. Sanki bu tapşırıq məndən ötrü bir sınaq, imtahan idi. Necə olursa olsun, sınaqdan üzüağ çıxmalıydım. Dərsdən sonra fotoaparatımı götürüb dənizə yollandım. Yazın ilk günləri ötüb arxada qalmışdı. Hava yavaş-yavaş isinir, təbiət qış paltarını əynindən çıxarıb yaşıl dona bürünürdü. Ətrafdakı gözəllik hər addımda adamı sehrləyirdi. Gözlər bu gözəlliyə baxmaqdan doymurdu. Təbiət bu mənzərələri yaratmaqla sanki insanlara dünyanın gözəlliyini bir daha göstərmək istəyirdi. Yəqin, şəkil çəkmək üçün gəlməsəydim, mən də qarşımda açılmış bu gözəlliyi görməyəcəkdim.

Gülzar xanımın istəyinə uyğun gələn bir yer tapıb müşahidə aparmağa başladım. Fotoaparatın gözlüyündən baxanda gördüm ki, sahildəki qayalıqlar da, dəniz də kadra çox gözəl düşür. Amma nə qağayılar, nə də gəmilər gözə dəymir. Dənizin suyu masmavi idi, elə bil səmanın rəngi axşam suyun üzünə səpələnmişdi. Baxıb gördüm ki, mənə lazım olan kadrı çəkmək üçün oturub gözləməli olacağam. Bir az keçmiş uzaqdan beş-altı gəminin üzüb keçdiyini gördüm. Gəmilər xeyli aralıdan keçdiyindən kadrda çox xırda görünürdü. Yenə gözləməkdən başqa çarəm qalmadı...

Üç gün dənizlə həmsöhbət olub, dalğalarla pıçıldaşdım. İki gün ərzində çəkdiyim şəkillər o qədər də ürəyimcə olmadı. Bilirdim ki, Gülzar xanımın bunlardan xoşu gəlməyəcək. İş uzansa da, bezib yorulmur, olub-qalan səbrimi toplayıb gözləyirdim. Günortaya yaxın gəmilərin bir-birinin ardınca çox da uzaq olmayan məsafədən üzüb keçdiyini gördüm. Əla kadr idi. Bunu əldən buraxmaq olmazdı. Sahildəki qayalar, asta-asta dalğalanan dəniz, uzaqdan üzüb keçən gəmilər... Bircə qağayılar çatmırdı. Fürsəti əldən vermədən bu mənzərəni lentə almağa başladım. Bu an sanki möcüzə baş verdi. Zövqümü oxşayan gözəl mənzərəni çəkdiyim vaxt beş-on addımlığımda bir dəstə qağayı peyda olub dənizin üzərində uçmağa başladı. Sanki möcüzə idi... İki-üç dəqiqənin içində qarşımda gözəl bir mənzərə canlandı. Neçə gündən bəri gözlədiyim bu anı, bu məqamı dal-badal çəkirdim ki, heç olmasa, kadrlardan bir-ikisi yaxşı alınsın. Tələsdiyimdən az qalırdı ki, mənzərəni fotoaparatla deyil, gözlərimlə çəkim.

Gülzar xanım şəkilləri bəyəndi və mənə xeyli pul verdi. Dedi ki, dəniz mənzərəsini çox sevdiyimdən şəkillərdən birini böyüdüb otağımdan asmaq istəyirəm. Özündən soruşmağa utandığımdan onun dənizə bu qədər olan sevgisi mənim üçün sirr olaraq qaldı. Bunun səbəbini heç Qürbət də bilmədi. Dəniz mənzərəsinin sirrinin üstü altı-yeddi aydan sonra açıldı.

Bir gün Qürbət dedi ki, qohumumuz Gülzar xanımın qızı olub. Gözləri dəniz kimi mavidir. Sən demə, ona kimsə deyib ki, qadınlar hamilə olanda göy rəngə çox baxarsa, dünyaya gətirəcəkləri övladlarının gözləri mavi olar. Qohumum buna görə də bu mənzərəni böyüdüb otağından asıb ki, ona tez-tez baxsın, övladı göygöz doğulsun. İndi arzusuna çatıb.

Eşitdiyim bu xəbərdən çox sevindim. Əgər tələbə yoldaşımın dediyi doğru idisə, deməli, az da olsa, istəyinə qovuşmaq üçün Gülzar xanıma köməklik etmişdim. Bunları Qürbətdən eşidəndə ürəyim fərəhlə doldu, sevincim yerə-göyə sığmadı. Qağayıların nəğməsi qulaqlarımda yenidən səsləndi. Gözlərim önündə sularının rəngi masmavi olan dəniz mənzərəsi canlandı, gəmilər fit verə-verə üzüb keçdi...

İllər ötüb arxada qaldı. Ali təhsilimi başa vurdum. Artıq ədəbiyyat müəllimi idim. Yeddi-səkkiz il qonşu kənddəki məktəbdə dərs dedim. Fotoaparatım da həmişə yanımdaydı, işdən sonra şəkil çəkməyimdən qalmırdım. Dərs dediyim məktəbdə riyaziyyat müəllimi işləyən Xuramanla ailə həyatı qurdum. İki qızımız dünyaya gəldi. Adlarını Nigar və Ülkər qoydum. Qəribə idi, qızlarımın da gözləri dənizin suları kimi masmavi idi. Tez-tez onların şəkillərini çəkirdim. Dənizgözlü qızlarım böyüdükcə onlara baxıb fərəhlənirdim.

İllər sonra günlərin birində işimlə əlaqədar ailəliklə şəhərə köçməli olduq. Həyat yoldaşım da, mən də yaşadığımız əraziyə yaxın olan məktəbdə müəllim işləyirdik. Nigarla Ülkər də burada oxuyurdular. Yeni iş yerimdə dərsə başlayan gündən qabaq sırada oturan Dəniz adlı mavi gözlü qıza yaman qanım qaynayırdı. Onun gözəl çöhrəsi mənə çox doğma və tanış gəlirdi. Nədənsə, hər dəfə onun gözlərinə baxanda xoş

hisslər keçirir, gözlərim qarşısında dəniz dalğalanır, gəmilər üzür, qağayılar nəğmə deyirdi.

Valideyn iclası olmalı idi. Ona görə də məktəbə həmişəkindən bir az tez gəlmişdim. Dəhlizdən keçib sinifə girmək istəyirdim ki, arxadan bir qadın məni çağırdı. Geri dönəndə qarşımda Gülzar xanımı gördüm. Bir anlıq çaşıb qaldım. Öz-özümə sual verdim: "Xeyir ola, görəsən, Qürbətin qohumunun məktəbimizə nəyə gəlib?" Yaşa dolsa da, illər onun gözəlliyinin üstündən yelini əsdirə bilməmişdi. Çəkdiyim dəniz şəkli, gəmilər, qağayıların nəğməsi və onun göy gözlü bir qızı olduğu yadıma düşdü. Salamlaşdıq, bir anlıq ötənləri xatırladıq, illərcə əvvəl çəkdiyim şəkillərdən söz saldıq. Öyrəndim ki, Gülzar xanım yenə əvvəlki işindədi. Məktəbə nə üçün gəldiyini xəbər alanda valideyn iclasına çağırıldığını bildirdi. Tez ondan soruşdum:

– Məgər qızınız bizim sinifdə oxuyur?

– Bəli!

– Adı nədir?

– Dəniz!

Sonralar Dənizə fotoaparatın sirlərini də öyrədirdim...

# Sevgi məktubu

Yeniyetməlik çağlarında vurulduğumuz qızlara sevgi məktubları hansımız yazmamışıq ki?! Barmaqlarımız əsə-əsə, ürəyimiz çırpına-çırpına, əlimiz qələminənginə bulaşa-bulaşa damalı dəftər vərəqlərinə yazdığımız sevgi məktublarını unutmaqmı olar?!

Yadıma gəlir ki, biz o məktublara ürəyimizdə coşub-daşan arzularımızı sevə-sevə hopdurardıq. Sevgi məktublarını sabahlara ünvanlanan böyük ümidlərlə yazardıq. Qızlara olan eşqimizi ən xoş sözlərlə ifadə etməyə çalışardıq. Sevgi məktublarını həyəcanla yazar, elə həmin həyəcanla da bir yol tapıb sevgilələrimzə çatdırardıq. Sonra da həyəcanlı günlər yaşayar, intizar içində çırpına-çırpına cavab gözləyərdik. Bəzən cavablar çox yubanardı. Bəzənsə gözlərimiz yollara dikili qalardı.

Sevgi məktubları kimini xoşbəxt edər, arzularına çatdırar, kimini isə eşq odunda yandırardı.

Yazdığım sevgi məktublarına müsbət cavab alsam da, mənim də bəxtim gətirmədi – ilk məhəbbətimə qovuşa bilmədim. Aradan illər keçəndən sonra gördüm ki, nə ilk məhəbbət unudulur, nə də ilk dəfə yazılan sevgi məktubları. İllər ömrümüzü kitab kimi üzü gələcəyə vərəqlədikcə bir vaxtlar böyük həvəslə həyəcanla yazdığımız sevgi məktubları şirin xatirəyə dönərək yaddaşımızın ən mübhəm guşəsində özünə məskən salır. Yaşa

dolduqca sanki hər şey ötüb arxada qalır, sevgi məktubları yazmaqla vidalaşırdıq. Başımız iş-gücə qarışır, zamansa hiss olunmadan yavaş-yavaş ömrümüzə əl gəzdirir, qara saçımızda ağ cığır salır.

Çox sonralar gördüm ki, həyat mən fikirləşdiyim kimi sadə deyilmiş. Onun başqa üzü – mənə tanış olmayan müxtəlif tərəfləri də, çətin keçidləri də varmış. Demə, insan yalnız yeniyetmə, gənclik çağlarında deyil, hər yaşda aşiq olub, sevgi məktubları yaza bilərmiş. Mən bu qənaətə yenicə işə düzəldiyim idarədə şahidi olduğum bir sevgi macərasından sonra gəldim.

Redaksiyada işə təzəcə düzəldiyimdən hər şeyə məsuliyyətlə yanaşırdım. Çapa gedəcək yazıları diqqətlə oxuyur, faktları dönə-dönə dəqiqləşdirirdim ki, səhv getməsin. İdarədəki işçilərlə tanış olduqca görürdüm ki, aralarında maraqlı adamlar çoxdur. Dəyərli söhbətləri ilə diqqətimi çəkənlərdən biri də baş geoloq Həmid müəllim idi. Savadlı, geniş dünyagörüşlü, şair təbiətli olduğunu ondan müsahibə alanda gördüm. Geoloqun iş otağındakı yer kürəsinin torpaq qatlarının xəritəsi bu gün də gözümün qabağındadı. İlk dəfə gördüyümdən, yerin qatlarının müxtəlif adları da, rəngləri də mənə maraqlı gəlmişdi. Həmid müəllim onlar haqqında mənə ətraflı danışmışdı. Nəticədə neftin, qazın daha çox hansı qatlardan çıxdığını öyrənmişdim. Geoloqun söylədiklərinin bəzilərini ilk dəfəydi eşidirdim. Həmid müəllimlə söhbətlərimiz maraqlı keçirdi. Görüşlərimizin sayı artdıqca hiss edirdim ki, geoloq, sözün həqiqi mənasında, yerin altını da bilir, üstünü də.

Müsahibəsi qəzetdə dərc olunandan bir müddət sonra Həmid müəllim şeirlərini də redaksiyaya gətirdi. Dəyərli və bitkin olduğuna görə dərc etdik. Şeirlərinin çoxu məhəbbət mövzusunda idi. Geoloqun duzlu-məzəli lətifələr danışmağı da var idi.

Hərdən Həmid müəllimin otağına gedər, söhbət edib dərdləşərdik. Bəlkə də, onun yaşı əllini keçmiş olardı. Artıq saçlarına dən düşmüş, yavaş-yavaş üzünə qırışlar cığır açmışdı. Təzə yazdığı şeirlərini mənə bir həvəslə oxuyurdu ki, gəl görəsən.

Həmid müəllim subay idi. Bəlkə də, elə şeir yazmağa, iş-gücə başı qarışmış, zamanın küləklər kimi ötdüyünü hiss etməmişdi. Nə bilim, bəlkə də, ilk məhəbbəti daşa dəydiyinə görə həyatından küsmüş və indiyə qədər evlənməmişdi.

Günlərin birində səhər-səhər Həmid müəllimin sevgi macərasının üstü açılanda mən buna bir az sevindim. Ona görə sevindim ki, deməli, onun planında yaxın vaxtlarda evlənmək var. Demə, geoloq maliyyə şöbəsində işləyən Gülbahar xanımı sevirmiş. Eşqini, məhəbbətini kağıza köçürüb ki, imkan düşəndə ona versin. Amma təsadüf nəticəsində Həmid müəllimin o qadına yazdığı sevgi məktubu makinaçıların əlinə keçmişdi. Bu, Həmid müəllimin kiçik bir səhvi ucbatından, özünün də xəbəri olmadan baş vermişdi. Ay ərzində idarənin ərazisində aparılan geoloji-qazma işlərinin hesabatının yazılması üçün əlyazmalarını makinaçılara verərkən Gülba-

har xanıma çatdırmaq istədiyi sevgi məktubu da vərəqlərin arasında gedibmiş. Makinaçılar isə bu xəbəri bir göz qırpımında idarəyə yaymışdılar. Dəhlizlərdə, otaqlarda bir pıçapıç gedirdi ki, gəl görəsən. Hamı Həmid müəllimin sevgi məktubundan danışırdı. Sevgi məktubunun əl-əl gəzməsindən nə onu yazan Həmid müəllimin, nə də məktubun "qəhrəmanı" Gülbahar xanımın xəbəri var idi.

Makinaçılardan biri həmin vərəqi redaksiyamızda işləyən rəfiqəsi Yeganə xanıma göstərəndə onu mən də oxudum. Həmin sətirləri oxuyanda məktəb illərini, sevdiyim qızlara məktublar yazdığım günləri xatırladım. Sevdiyim, amma qovuşa bilmədiyim ilk məhəbbətim yadıma düşdü. O anlarda fikirləşdim ki, görəsən, Həmid müəllim gənclik illərində, yeniyetməlik çağlarında qızlara sevgi məktubları yazmayıbmı? Bəlkə, elə o da mənim kimi yazıb, amma sevgisinə qovuşmayıb, arzusuna çatmayıb. Ürəyində sevdiyi qızın həsrətini çəkə-çəkə illəri arxada qoyub. Üstündən xeyli zaman keçsə də, ürəyindəki məhəbbət hələ də öləziməyib.Bu yaşında da Gülbaharı sevir, ona məhəbbət məktubu yazır. Həmid müəllim bu qadına yazdığı sevgi məktubunu onun gözəlliyini vəsf etdiyi şeirlə tamamlamışdı. Geoloqun yazdıqları çox ürəyəyatımlı idi. Bəlkə də, elə buna görə aradan illər keçsə də, mən o şeiri unutmamışam.

Nədənsə, mənə elə gəlirdi ki, bu şeiri Gülbahar oxusa, duyğuları tərpənər, Həmid müəllimin arzusunu gözündə qoymaz. Onun sevgisinə müsbət cavab verər.

Sevgi məktubunu oxuyandan sonra makinaçıya verib dedim ki, hansı yolla olursa olsun, onu Həmid müəllimə qaytarsın, qoy onu Gülbahara çatdırsın.

Gülbahar xanım gözəl-göyçək qadın idi. Çöhrəsindən nur yağırdı. Uzun, qara saçlarını həmişə çiyinlərinə tökərdi. Üz-gözünə də çox çəkməzdi. Çünki təbiət bu qadını elə gözəl yaratmışdı ki, daha onun üstünə nəsə əlavə etməyə ehtiyac yox idi. Gec də olsa, deyəsən, geoloq axtarıb-arayıb ürəyinə yatan qadını tapmışdı. Bir şeydən qorxurdum ki, bu məktub məsələsi dildən-dilə düşüb işləri korlasın.

Gülbahar xanım da ailə qurmamışdı. Onun tay-tuşları ev, ailə və uşaq yiyəsi idi. O isə hələ də özü üçün subay-subay gəzirdi

Makinaçılar Həmid müəllimin verdiyi əlyazmaları makinada yazdıqdan sonra sevgi məktubunu da onun arasına qoyub hiss etdirmədən özünə qaytarmışdılar. Nə yaxşı ki, geoloqu Gülbahara qovuşduracaq məktub ara-bərədə itib-batmamışdı. Həmid müəllimdən çox mən istəyirdim ki, onlar bir-biri ilə qovuşsunlar.

İki ilə yaxın həmin idarədə işlədim. Bu müddət ərzində Həmid müəllimlə görüşlərim, söhbətlərim çox oldu. Hər dəfə də geoloq yazdığı yeni şeirlərini mənə oxuyar, maraqlı rəvayət və lətifələr danışardı. Yenə də məhəbbət bəslədiyi Gülbaharı görmək üçün dəhlizdə gəzinə-gəzinə gözünü maliyyə şöbəsinin qapısından çəkməzdi. Sevgilisi də, deyəsən,

insafsız deyildi. Çünki o da hərdən dəhlizdə görünər, nazlana-nazlana yeriyərək gülə-gülə geoloqa salam verib keçərdi.

İşdən çıxanda Həmid müəllimlə də sağollaşdım. Telefonunu da yazıb götürdüm ki, hərdən zəngləşib hal-əhval tutum. Geoloqun yeni şeirlərinə, lətifə və rəvayətlərinə qulaq asım. Arada zəng vurub onunla danışar, yolum köhnə iş yerimin yaxınlığından düşəndə gedib görüşər, şirin-şirin söhbət edərdim. Hərdən Gülbahar xanımla da rastlaşardım. Deyəsən, son vaxtlar o da dəhlizə tez-tez çıxırdı. Fikirləşirdim ki, bəlkə də, artıq Həmid müəllim sevgi məktubunu ona çatdırıb, ürəyini qadına açıb...

Həmişə geoloji qazıntılardan, yeni neft yataqlarının kəşfindən söz düşəndə Həmid müəllimi xatırlayırdım. Geoloq həmin mövzuda mənə xeyli maraqlı söhbətlər etdiyindən onun hesabına bu sahədə biliyim xeyli artmışdı.

İlıq payız günlərinin birində tədbirdən çıxıb yolumu bulvardan salmışdım. Yorğun olduğumdan asta-asta, dənizin şıltaq dalğalarını seyr edə-edə üzüyuxarı gedirdim. Yaxınlıqdakı kafenin pəncərəsindən neftçilər haqqında məşhur olan mahnının sədaları ətrafa yayılırdı. Mahnının sözlərini, musiqisini eşidən kimi Həmid müəllimi xatırladım. Bir az da irəli gedib boş oturacaqda oturdum ki, dincimi alım. Qonşu oturacaqdakıları görəndə üzümdə təbəssüm oynadı, ürəyim atlandı. Sevindiyimdən gözlərim də yaşardı. Onlar kim olsa yaxşıdır?! Həmid müəllimlə Gülbahar xanım. Xoşbəxtcəsinə yanaşı oturub bir-biri ilə şirin-şirin söhbət edirdilər...


**OXUCULARIN NƏZƏRİNƏ!**

**“AZƏRBAYCAN”**

**jurnalına 2022-ci il üçün abunə yazılışı davam edir.**

**Əlaqə nömrələri:**

**+ 99412 498-78-10**
**+ 99455 668-78-79**

**Jurnalının bir nüsxəsinin qiyməti 1 manat 50 qəpik, illik abunə qiyməti 18 manatdır.**
**İNDEKS: 76300**



***Sehran ALLAHVERDİ***

## İŞ YERİ

İllər idi
iş axtarırdı işsiz.
Çox şeyi bacarsa da
daimi işi yoxdu,
ömür sürürdü işsiz.

Qızıl idi əlləri...
Nolsun,
baglı idi yolları,
gah yaşı,
gah da cinsi
ona mane olurdu.
Ömür belə keçirdi,
gah lənət yagdırırdı,
gah gözləri dolurdu.

Qürurunu əzirdi...
Qapı-qapı gəzirdi,
dograyırdı odun da,
təki çörək qazansın,
sevinsin uşaqları,
sevdiyi o qadın da.

Çox şey də istəmirdi,
olsun bir səhəng suyu,
bir tikə də loxması.
Yansın evdə çırağı,
işlqlansın daxması.

Şirin yuxu görəndə,
yozsun,
yalan olmasın.
Borcu-filan olmasın.

Ərincək də deyildi,
hər qapını döyürdü...
bu ölkədə iş ilgım,
beləcə,
o bir ömür
iş ardınca yüyürdü.

O yüyürdü, yüyürdü...
Yüyürdü də,
çatdı da,
özün oda atdı da.

Nə bilsin təzə işi
Qəlbini üzəcəkdi;
Məftillərin üstünə
o, tikan düzəcəkdi...

## ÇƏKİRƏM

Tavan – kətan, fikir – boya
Dünya boyda dərd çəkirəm.
Pozub böyük şəhərləri,
Kiçik-kiçik kənd çəkirəm.

Yox edirəm cəhətləri,
Var edirəm qəhətləri,
Yıxıb tikan sərhədləri,
Cığırlarla sədd çəkirəm.

Buludları oydururam,
Çoxlu Günəş uydururam,
Taxta vicdan qoydururam,
Qəlbləri abad çəkirəm.

Soy kökünü dərin bilən,
Tanrısını kərim bilən,
Böyük-kiçik yerin bilən
Həyanı sərhəd çəkirəm.

Sərhədimi pozanların,
Kətanımda azanların,
Məni yanlış yozanların
Cavabını rədd çəkirəm.

Mən yuxusuz belə canam
Həm şairəm, həm rəssamam,
İşim budur, buracanam,
İz salıram, rəd çəkirəm.

## HARA YAZIM ADINI

Ürəyimi ağrıdır,
hara yazım adını?
Daşa, divara, quma,
hara cızım adını?

Xəyal məni aparır...
nola,
müəllimlər gələ,
qulağımdan dartalar...
Üstünə "Səni sevirəm" sözün
cızdığım o partalar
necə oldu, görəsən?..

Necə oldu, görəsən,
o göyçək qız, o yanmış?
O gün
çərşənbə tonqalından
bir parta taxtasını
güclə xilas elədim –
parası odda yanmış.

Yanıq yarası olanlar anlar məni...
Bir gün
ürəyimin üstünə dağ basdım,
dişlərimi bir-birinə sıxa-sıxa...
o qızın adının axırına çıxa-çıxa…

İndi
mən bir evin kişisi,
sən bir evin qadını,
hara yazım adını?..

Çoxdan anlamışam ki,
dəriyə
döymələr ziyan,
ağacı cızmaq olmaz,
partanı yazmaq olmaz,
şeirdən hamı duyar,
qumu ləpələr yuyar,
buludlar
daşları, divarları çimizdirər yağışla...

Hara yazım adını?
Yer tapmıram,
bağışla!

**PAYIZ, DARIXMAQ…**

Payızın göz yaşları
Tabloları naxışlar…
Hər şey ayrılıq dadar,
Kətan, fırça, naxışlar.

Kətan qandı, ayrılıq!
Fırçam yandı, ayrılıq!
Bəlkə, qandı, ayrılıq…
Birimizi bağışlar.

Gəl, inanma nağıla di…
Bu tablom da ağladı.
Son günümüz ağladı,
İslatdılar yağışlar.



*Gülnarə SADİQ*

**DARIXIRAM SƏNİN KİMİ**

Darıxıram sənin kimi,
sonuncu adam,
kimsəsiz günah kimi.
Üşüyən Günəşin
alovuna qərq olan
tək bircə ümid kimi.
Darıxıram sənin kimi.

Sənin sevgin üşüyür,
mənim ruhum buz kəsir.
Sənin darıxmağın bahalı,
mənim sevgim dəyərli.
Yoxluğumun qisasını
darıxmaqla alırsan,
həsrətimin bahasına
ürəyimə köç edirsən.

Bir bəlaya qapılmısan,
Bu bəlanın adı Eşqsə,
Darıxmağın möhtəşəmdi.

Basma ayağını,
sonuncu adam.
Arar, sevgini arar.
Kürəyində bıçaq-bıçaq,
Ağrı-ağrı yol dolanar.

Yollarının ayrıcında –
Gəlib sənə tapınar,
Yorar,
sevgini yorar.

Döymə qapını,
sonuncu adam.
Ölər, yenidən ölər.
Darıxmağın gözəlliyi –
Kor yolçunun itmiş gözlərităk,
Iki damcı göz yaşıyla,
Ağlar, danınca ağlar.
Döymə qapını,
sonuncu adam.

* * *

Kədər anlıq gülüşləri,
Həbs eləyir gizli-gizli.
Ruhu yorğun buludların
Göz yaşları yağışlardı.

* * *

Gecə yarıdan keçir...
Yola düşüb fikirlərim,
Fikrim yol seçib gedir.
Xatirələr ağ-qara...
Darıxmaq qoxusu
çökür otağıma...

* * *

Sənsizliyə məhkum divarlar,
qoxuna həsrət ruhuma
dönük çıxır,
qulaqlarımı batırır...
Ötüb keçən hər anın
ağrısını çəkir ürəyim...

* * *

Əsir düşür illərim
Ümidimin gənc çağında.
Ömür bir boşluğa yuvarlanır,
Səssiz-səmirsiz,
Ruhum gözlərində yaşar,

Nəfəsində gizlənər –
Bir udum hava kimi.
Ömürlük məhbus kimi,
əsir düşür duyğular...

* * *

Bilirəm,
indi susmaq dəbdir,
Kişilər susur,
Qadınlar içindən boğulur,
sevgilər çökür,
tənhalıq hakimiyyətə gəlir...
Ürəyi yanır dünyanın,
Vücudunu dərd bürüyüb –
Bir qadının həsrəti,
Hardasa dünyanın bir küncündə –
Bir qadının ahı tutub dünyanı...

Dünya yorulub
o qadının göz yaşı kimi,
sükut yorulub
fəryadı kimi,
ümid yorulub
ümidi kimi...

* * *

Hər gecə soyuq rənglər içində,
Hər səhər üşüdən bir uzaqlıq...
Tanrı yandırmaq üçün verir ümidləri,
Sınamaq üçün verir kədəri –
Əslində kədər qədər yaxın dost varmı?!
Rənglərin içində bir soyuqluq.
Narahatlıqdan doğan səssizlik,
Düşünülməmiş,
tərk edilmiş bir boşluğa toplaşır
Sevginin gücü,
Ölümün zəhmi,
Zamanın sürəti.
Əlimi bağlayan küləyin sərinliyi,
Toxunma mənə!
Aranızda titrəyən ruhum üçün
Sənə gəlirəm...

***Gəncə***

*Rahid ULUSEL*

# Vətən Müharibəsi və ədəbiyyatda milli özünüdərk problemi



## *Savaşlardan sıyrılan Azərbaycan*

Asiya və Avropanın qovuşduğu Qafqaz coğrafiyasında – Xəzər dənizinin qərb sahilindən Güneyə uzalı torpaqlarda yerləşən, əski çağlardan etno-tektonik dəbərti və təkanları, xalqların qaynayıb-qarışması və durulub-büllurlaşmasının mükəmməl özünütəşkil sonuclu gərgin sürəcini yaşayan Azərbaycan planetin ən mürəkkəb, bu gün isə yetərincə əhəmiyyətli geopolitik bölgələrindən biri kimi *(Dünyanın ən mühüm geopolitik mərkəzlərdən birinin Azərbaycan olması fikri ABŞ-ın görkəmli dövlət xadimi Zbiqnev Bjezinskiyə məxsusdur. – Brzezinski Z. The Grand Chessboard: American Primacy and Its Geostrategic Imperatives, Basic Books, 2016, p.179-180)*, zaman-zaman siyasi, diplomatik, hərbi mübarizə ənənələrinə yiyələnərək, dövlət və mədəniyyət quruculuğunun böyük təcrübəsini qazanmış, mədəni həyat atmosferində tuyuq və bayatıdan epos və verlibrə, kaşı, miniatür və xalçadan Qız Qalası, Xudafərin körpüsü və "Alov Qüllələri"nədək özünün seçkin estetik məkanını da yaratmışdır. Türk dünyasının bir parçası olaraq Cənubi Qafqazda təşəkkül tapmış müasir Azərbaycan dərin kökləri ilə dövləti həyat, savaşı hünər sayan ulu türk gələnəyinin – Avrasiyada Göy Türklərdən Səlcuqlara qədər çoxəsrlik ümumdövlətçilik tarixinin, Ötükən (Orhon-Yenisey) Türk Kitabələrinin, Oğuznamələrin varisidir. Azərbaycan Xalq Cümhuriyyəti bu böyük tarixin çağdaş suverenliyimizə təkan verən yalnız parlaq bir qığılcımıdır.

Azərbaycanın tarixi coğrafiyasında sərhədləri genəlib-daralan Manna (e.ə IX-VI), Midiya [Mada] (e.ə 670-550), Atropatena (e.ə. 321-b.e. 224), Albaniya (e.ə. IV-b.e. VIII), Sacilər (879-941), Salarilər (941-981), Rəvvadilər (981-1054), Şəddadilər (951-1174), Şirvanşahlar (861-1538), Qaraqoyunlu (1375-1469), Ağqoyunlu (1378-1503) dövlətləri, digər

hökmdarlıq, əmirlik və məlikliklər mövcud olmuşdur[1]. Şərqin iki qüdrətli imperiyasının – oğuz türklərinin (müasir Türkiyə və Azərbaycan türklərinin sonradan bir gövdədən budaqlanmış uluslarının) təməlini qoyduğu, 3,9 milyon kv. km ərazini əhatə edən Böyük Səlcuq imperatorluğunun bünövrəsində tarixdə ilk dəfə Azərbaycan türk dövlətçiliyini yaradan və "Azərbaycan" sözünü dövlət adında rəsmiləşdirən [Atabakan-e Āzərbaycan – آذربایجان اتابکان][2] Atabəylər [Eldəgizlər] (1136-1225) və ölkəmizdən başqa İran, Ermənistan, İraq, Əfqanıstan, Türkmənistan, Şərqi Anadolu, Şimal-şərqi Hindistan və Özbəkistan ərazisinin böyük hissəsini (3,5 milyon kv. km) əhatə edən Səfəvilər dövlətinin (1501-1736) qurucusu məhz Azərbaycan türkləridir – Azərbaycan türk tayfaları ittifaqının passionar ordusu qızılbaşlardır[3]. Tarixdə bir neçə dövlət və iki imperiya qurmuş azərbaycanlılar iki imperiyanın tərkibində də yaşamışlar (Ərəb xilafəti və Rusiya *(Monqollar Azərbaycandan qara yel kimi gəlib keçmişlər.)*).

Etnogenetik yaddaşı itirmədiklərindən, onlar qurduqları dövlət və imperiyalarda tərəqqiyə çatmış, asılı olduqları imperiyalarda da tərəqqi imkanlarını əllərindən qaçırmamışlar. Ölkəmizin tarixi-siyasi həyatı yadelli işğalçılara qarşı mübarizənin, xalq üsyanlarının, sarsıdıcı hakimiyyət dəyişikliklərinin, dövlət çevrilişlərinin, dini, ideoloji cəbhələşmə və qütbləşmələrin də meydanı olmuşdur. Bütün bu olanları isə millətin Tarixi Yaddaşına çevirən – onun mədəniyyəti, incəsənəti, ədəbiyyatı, ədəbiyyatın mayasını təşkil edən Bədii Söz olmuşdur. Bircə bayatımız 1300 il öncə ərəblərin yürüşündən, 800 il öncə monqolların yağmalamasından, 200 il öncə rusların basqınından, 30 il öncə ermənilərin işğalından viran olmuş yurd yerlərimizin sızıltısını dilə gətirir: "Əzizinəm, nur dağlar, // Yağsın sənə nur, dağlar, // Mən özüm ağlamazdım, // Görcək məni yurd ağlar!" Sırf poetika baxımından, bu mükəmməl əsərdir. Eyni zamanda, dərin semantikasında milli ruhun yenilməzliyini də gizlədir: Dağlarına nur kimi baxanlar, Vətənə nur əkənlər viran olmuş yurdun yarasına özlərini sarıya bilənlərdir!

Xalqımız bayatı yığcamlığına sığdırdığını epos siqlətində də söyləməyi bacarmışdır. Ədəbi-bədii fikir tariximizin sütunları olan "Kitabi-Dədə Qorqud" və "Koroğlu" – geniş polifonik məzmunu ilə həm də savaş mədəniyyətinin ulu dastanlarıdır. Döyüşə bilməyən xalq başqalarının yedəyində getməyə məhkumdur. Döyüşünü diplomatiya və siyasətində, strateji hədəflərində möhkəmləndirə bilməyən xalqın sonrakı məğlubiyyətləri qaçılmazdır. Döyüşlərdə yüksəltdiyi hərbi qüdrətini üstün mədəniyyətinə daşımağın və aşılamağın öhdəsindən gəlməyən xalq hətta məğlub etdiklərinin daha təsirli mədəniyyətinin və sivilizasiyasının içində əriyib yox olmağın acı aqibətini yaşar. Ona görə də "Kitabi-Dədə Qorqud"da Qazanla Qorqud, "Koroğlu"da Qılıncla Saz alpərənliyin təməlidir.

Sözlə yox, Qanla suvarılan Qılınc vəhşiləşir, Qılınc ovxarlığını itirən Söz kəsərsizləşir!

# *Nizami demişdi: "Türklərin dövləti ucalanda..."*

"Türklərin dövləti ucalanda, // Məmləkətdə ədalət hakim oldu" – gerçəyini bəyan edən Nizami Gəncəvinin bütövlükdə "Xəmsə"si savaşlar içindən doğulan mədəniyyətin və əxlaqın insanlıq dəyəri qazanması epopeyasıdır. Azərbaycanın hökmdar-şairlərindən ikisi – "Döşəkdə ölən yigit murdar bolur"[4] deyən Qazi Bürhanəddin (1345 -1398) və Qaraqoyunlu dövlətinin V Sultanı Cahanşah Həqiqi (1436-1467) döyüş meydanlarında həlak olmuşlar. Səfəvi imperiyasının qurucusu Şah İsmayıl Xətai *(İki yüz ilin ulu dördlüyü – Qazi Bürhanəddin, İmadəddin Nəsimi, Cahanşah Həqiqi və Şah İsmayıl Xətai anadilli Azərbaycan ədəbiyyatında ilk divan yaradıcılarıdır.)* [1487-1524] yeddi yüz ildən sonra Babəkin mübarizəsini Azərbaycanın basılmaz iradəsinin hökmü olaraq davam etdirmiş və əslində, başa çatdırmışdır: Şah İsmayıl vaxtilə Azərbaycanı işğal edən ərəbləri öz yuvasına qədər qovaraq və bütün Şərqdə ümumtürk dominantlığına (Osmanlı və Moğol imperatorluğu ilə birgə) Azərbaycan türkünün də qüdrətini qataraq tarixdə iz buraxan sözlər yazmışdı: "Yetdükcə tükənür ərəbün kuyi, məskəni, // Bağdad içində hər necə kim, türkman qopar!"[5] Şah İsmayıl Xətainin himayə etdiyi, Kəmaləddin Behzad və Sultan Məhəmməd kimi böyük ustadların çalışdığı Təbriz miniatür məktəbi, Azərbaycan xalq tətbiqi sənətinin ən populyar sahəsi olan xalçaçılıq digər mövzu və süjetlərlə yanaşı mifik, ədəbi və tarixi hərb səhnələrinə də geniş yer verirdi[6]. Palaz, cecim və kilimlərimizdə döyüşkənlik rəmzi qoçlar sanki ayaq tutub yeriyir, buynuzlaşırlar.

Bu o deməkdir ki, milli tariximizin və dünyagörüşümüzün ana xətti kimi bədii-estetik mədəniyyətimiz hərbi-siyasi mədəniyyətimizdən ayrılmaz şəkildə inkişaf etmişdir. Diqqət yetirsək görərik ki, tarixi qələbələrimizin kökündə bu ayrılmazlığın yaratdığı energetik passionarlıq, ən çətin sınaqlardan sıyrılıb çıxma əzmi, tarixi məğlubiyyətlərimizin dibində isə onların arasındakı çatın yaratdığı məqsədsizlik, mənəvi aşınma, ruhun sərgərdanlığı dayanır. Həyatı müharibələrdə keçən Napoleon I Ponapart başı daşdan-daşa dəyə-dəyə bu həqiqətin ayağına gəlmişdi: "Dünyada iki böyük güc var: Qılınc və Ruh. Sonda Ruh Qılınca qalib gəlir."[7] Bizim mədəniyyət tariximizdə fatehlik ruhunu Şah İsmayıl Xətai qılıncı və sözü, Məhəmməd Füzuli isə bilgəlik, mütəfəkkirlik daşan poeziyası ilə yaradırdı. Siyasi və bədii mədəniyyətimizin tarixi hörgüsü ona dəlalət edir ki, fiziki və mənəvi coğrafiyasına görə doqquz-qurşaqlı, yalquzaq-çevrəli Azərbaycan geopolitik olduğu qədər də poetikdir!

Nə zaman ki, siyasətdə və ədəbiyyatda epiqonçuluq başladı, mədəniyyətin şah damarları boşaldı. Birinci cinahda farsçılığa qayıdış, təriqətçilik, separatçılıq, xançılıq, sarayçılıq, hərəmxanaçılıq ulusal ideologiya quruculuğunu üstələdi, daxili və xarici təhlükələrə sinə gərilmədi. İkinci

cinahda, demək olar ki, Molla Pənah Vaqifə qədər (hətta ondan sonra da!) şairlərimiz Məhəmməd Füzulini və bütün Şərqdə artıq məbədləşmiş Sədi Şirazini, Hafiz Şirazini təqlid etməkdən yorulub usanmırdılar. Avropa imperializminin təkmilləşən siyasət, iqtisadiyyat, elm, mədəniyyət, ordu və silah arsenalı qarşısında fəlsəfəsi ilahiyyatına yenilmiş epiqonçu Şərqin üç böyük türk imperiyası – Osmanlı, Moğol və Səfəvi imperatorluqları duruş gətirə bilməyəcəkdi. Nadir şah Əfşarın və Ağa Məhəmməd şah Qacarın üsul-idarəsi farslaşmış, bölgəsəl və beynəlxalq rəqabətə davamsız, artıq yaradıcı mədəniyyət dayaqları laxlamış dövləti milli zəmində dirçəltmək cəhdləri boşa çıxdı. Avropa imperializmi bütövlüyünü, dirəniş gücünü itirmiş Şərqi gəmirdi. XVI əsrdə Şərqin qüdrətli imperiyası olmuş Azərbaycanın şimal hissəsi cəmi 300 il sonra ayrı-ayrı xanlıqlar şəklində Rusiya imperiyasının müstəmləkəsinə çevrildi... Ruhun Qılıncdan ayrı düşməyinin nəticəsi belə olur.

Azərbaycan torpaqlarında erməni dövlətinin yaranması və XX əsrin sonlarında Qarabağın işğal edilməsi bizi düşməndən zəif salan, əsasən, ulusal ideologiya qatında siyasət və mədəniyyət arasındakı vəhdətin sarsılması faktına dayanır. Bu o anlama gəlmir ki, ermənilər həmin vəhdətə bizdən yetərli çatdıqlarından "uğur" qazana bilmişlər. Tarix boyu maraqlı tərəflərin yedək siyasətində sürüklənən, hətta XXI əsrdə də müstəqil dövlətçilik siyasəti yürüdə bilməyən ermənilərin "alət funksiyasından" savayı bir öhdəliyi yoxdur.

Tarixi-kulturoloji planda varislik xəttini bütün cinahları ilə izləmək zərurətindəndir ki, görkəmli dövlət xadimi Məhəmməd Əmin Rəsulzadənin siyasi fəaliyyətini həm də onun Azərbaycan tarixi, mədəniyyəti və ədəbiyyatına həsr etdiyi, hətta başqa ölkələrdə çap etdirdiyi ("Əsrimizin Səyavuşu", "Azərbaycan şairi Nizami", "Azərbaycan kültür ənənələri", "Çağdaş Azərbaycan ədəbiyyatı", "Çağdaş Azərbaycan tarixi", "Qafqaz türkləri" və s.) əsərləri zənginləşdirirdi[8]. Biz 30 illik erməni işğalına ona görə son qoya bildik ki, siyasət və mədəniyyət arasındakı vəhdətin rüşeymlərini ən çətin zamanlarda belə, varlığımızın dərinliklərində qoruyub saxlaya bilmişdik. Yoxsa, 2020-ci ilin sentyabrında tarix qarşısında and içib əhd etdiyimiz milli səfərbərliyə nail ola bilməzdik. O müqəddəs rüşeymlərin oyanış gücünə "əbədi müstəqilliyə" doğru üç həlledici addımı ata – demokratik maksimalizminə görə Şərqi də, Qərbi də önləyən Azərbaycan Xalq Cümhuriyyətini tarix səhnəsinə gətirə, amansız repressiyalara, azadlıqların boğulmasına rəğmən Sovet İttifaqının tərkibində milli siyasətimizi milli mədəniyyətimizin özəyində hifz edə və nəhayət, XX əsrin sonlarında suveren Azərbaycan Respublikasını qura bilmişdik.

Tarixi-kulturoloji proseslərin dərki baxımından son yüzillikdə bir-biri ilə qırılmaz bağlılıqda olan bu üç həlledici an 27 sentyabr – 10 noyabr 2020-ci il tarixli Vətən Müharibəsindəki Böyük Zəfərlə zirvə və dönüş nöqtəsinə çatır. Qarabağ uğrunda Azərbaycan Respublikasının Ermənistan Respublikası ilə apardığı 44 günlük Vətən Müharibəsində xalqımızın qələbəsini təmin edən əsas faktor da – tarix qarşısında milli məsuliyyətimizi tam dərk etməyimizdir.

Keçmişimizlə Gələcəyimizi birləşdirən bu tarixi an həm də ədəbiyyatımızın zərif və görklü gücü ilə ərsəyə gəlmişdir. Son yüz ildə real ideoloji sapınmalardan da ötərək, ədəbiyyatımız milli ruhu nəfəsləndirən əsas qaynaq olmuş, sivilizasiyaların qovşağında yerləşən, türk dünyasınınsa ortaqlaşdırıcı funksionallığını əldə edən Azərbaycanın gerçək mahiyyətinin dərk olunmasında tarixi, ədəbi, estetik və mənəvi missiyasını yerinə yetirməyə çalışmışdır.

Vaxtilə oğuz türklərinin Qafqazda və Anadoluda təməlini qoyduğu iki müasir türk dövləti yenidən tarixin önsəhnəsinə çıxır: Bakı şəhərinin azad edilməsinin 100 illiyinə həsr olunmuş paradda (15 sentyabr 2018)[9], Qarabağda qələbənin qutlandığı Zəfər paradında (10 dekabr 2020)[10] və Şuşada Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevlə birgə "Şuşa Bəyannaməsi"ni imzaladıqdan bir gün sonra Azərbaycan Respublikasının Milli Məclisində (16 iyun 2021)[11] Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycanın və çağdaş türk dünyasının böyük şairi Bəxtiyar Vahabzadənin şeirini uca tribunadan səsləndirir. Cənab Ərdoğanın Zəfər paradında "Torpaqdan pay olmaz" şeirini və bir Azərbaycan bayatısını da dilə gətirməsi ("Arazı ayırdılar, // Lil ilə doyurdular. // Mən səndən ayrılmazdım, // Zülm ilə ayırdılar"), yəni Azərbaycanın Rusiya və İran arasında bölünməsinin tarixi faciəsinə incə şəkildə eyham vurması İran İslam Respublikasında bu ölkənin Xarici İşlər Naziri Cavad Zərifin etirazı səviyyəsində əks-reaksiyaya səbəb olur[12].

Göründüyü kimi, bəzən siyasət "ədəbiyyat dilində" danışmaqla hədəfi daha dəqiq nişan ala bilir. Bu gün Azərbaycan dövlətinin güclənməsi, bölgədə geopolitik proseslərə təsir effektinə yiyələnməsi həm də onun humanitar mədəniyyət cinahının qüvvətlənməsini tələb edir. Əlbəttə, burada bədii təfəkkür sahələrinin, xüsusilə ədəbiyyatın çılpaq ideolojiləşməsindən söhbət belə gedə bilməz. Əksinə, yüksək bədii mədəniyyətin milli düşüncəyə təsiri ani, impulsiv olmur, insan şüurunun heç özünün də hiss etmədiyi dərin qatlarında onun fəaliyyətini etkiləyəcək izlərini buraxır. İdeolojiləşmiş, siyasiləşmiş ədəbiyyat bədiiləşmiş ideologiya və siyasət qədər əcaib və gərəksizdir. XX əsrin əvvəllərinin "kommunizm quran" proletar ədəbiyyatı kimi. Bu gün bizə yetkin siyasətlə çiyin-çiyinə dayana bilən yetkin ədəbiyyat lazımdır. Belə bir ənənəyə, öncə vurğuladığım kimi, çoxdan yiyələnmişik.

## *Uduzmadıq, güc topladıq*

XX əsrin ortalarından – yəqin ilk təkan kimi, Bəxtiyar Vahabzadənin "Gülüstan" poemasının (1958) saçdığı qığılcımdan – Azərbaycan ədəbiyyatında milli özünüdərk zərurəti sovet ideologiyasının sərhədlərindən kənara sıçramağa cürət edən yazıçılarımızın əsərlərində bədii mətnin məzmununa sızmağa başlayır. Bu proses yetmişinci illər və səksəninci illərin sonlarına doğru milli istiqlal platformasına çevrilərək daha da qüvvətlənir.

Sovet İttifaqının dağılması və onun tərkibindəki respublikaların, eyni zamanda, Azərbaycanın müstəqilləşməsi sürəcində ermənilərin Qarabağı Azərbaycandan qoparmaq cəhdlərinin yaratdığı hərbi qarşıdurma ədəbiyyatımızda vətəndaşlıq və vətənpərvərlik patetikasını ən yüksək səviyyəyə qaldırır. Azərbaycan Milli Azadlıq Hərəkatında və ya Meydan Hərəkatında (1988-1991) Azərbaycan yazıçıları – Bəxtiyar Vahabzadə, Sabir Rüstəmxanlı, İsmayıl Şıxlı, Xəlil Rza Ulutürk, Məmməd İsmayıl, Aydın Məmmədov, Kamal Abdulla, Qabil və başqaları yüzminlər qarşısında çıxış edirlər.

Qarabağla bağlı əsassız erməni iddiaları başlar-başlamaz Azərbaycan Yazıçılar Birliyi xalqımızın haqq səsini dünyaya çatdırmaq üçün ardıcıl fəaliyyətə keçir. AYB-nin sədri Anarın təşəbbüsü ilə Azərbaycan yazıçıları Sovet İttifaqının o zamankı rəhbəri Mixail Qorbaçova ilk müraciətləri ünvanlayırlar. Azərbaycan Ali Sovetinin sessiyalarında, Azərbaycan KP Mərkəzi Komitəsinin Plenumlarında, SSRİ Ali Sovetinin iclaslarında, Xalq deputatları qurultaylarında, Moskva və Türkiyə mətbuatında, yerli və xarici TV kanallarında dəfələrlə çıxış edən Anar Qarabağla bağlı həqiqətləri əsaslı arqumentlərlə dünya ictimaiyyətinə bəlli edir. 1990-cı ilin Qara Yanvar faciəsi, Xocalı soyqırımı haqqında Moskva və dünya mediasına ilk xəbərlər Azərbaycan Yazıçılar Birliyi tərəfindən çatdırılır. Qərb paytaxtlarında dəstək qazanan və Moskvanın çaş-baş qalmasından istifadə edən ermənilərin tarixi ədalətə zidd mövqeyini anlatmaqdan ötrü Anar şəxsən Qorbaçovla görüşür və bu məsələləri onunla müzakirə edir. Anarın dünyanın bir çox ölkələrində keçirilən ədəbi, ictimai-siyasi tədbir və toplantılarda xalqımızın üzləşdiyi problemlərlə bağlı çıxışları, siyasi mövzularda məqalələri, müsahibələri, ədəbi-publisistik yazıları, Amerika Universitetində oxuduğu mühazirə – “Azərbaycançılıq haqqında düşüncələr” – ölkəmizin bədxahlarına cavabları, həbs edilənlərin müdafiəsinə aid məktub və müraciətləri “Əsrin əsiri” və “Пленник века” kitabalarında toplanaraq çap edilir.

Ermənistandan azərbaycanlıların kütləvi şəkildə qovulduğu, Qarabağın parça-parça doğrandığı o faciəli günlərdə Məmməd Arazın “Ayağa dur, Azərbaycan!” (19 mart 1992) şeiri milli ruhun kükrəyişinə çevrilir:

***Nə yatmısan, qoca vulkan, səninləyəm!***
***Ayağa dur, Azərbaycan, səninləyəm!***
***Səndən qeyri***
***biz hər şeyi belə billik!***
***Səndən qeyri***
***biz hamımız ölə billik!***
***Bu, Şehriyar harayıdı,***
***Bu, Bəxtiyar harayıdı!***
***Hanı sənin tufan yıxan,***
***Gurşad boğan yurda oğul***
***oğulların!***

***Qara Çoban, Dəli Domrul oğulların.***
***Çək sinənə – qayaları yamaq elə,***
***Haqq yolunu ayağına dolaq elə,***
***Bayrağını Xəzər boyda bayraq elə,***
***Enməzliyə qalxmış olan bayrağı!..***[13]

Məmməd Araz Bəxtiyar Vahabzadənin "Gülüstan" poemasından doqquz il sonra yazdığı və məhz Bəxtiyar Vahabzadəyə həsr etdiyi, Azərbaycanın xanlıqlara parçalanmasından və bu səbəbdən Rusiya imperiyasının əsarətinə düşməsindən bəhs edən məşhur "Məndən ötdü, qardaşıma dəydi"[14] (1967) şeirinin *(Yetmiş-səksəninci illərin tələbələri bu şeiri əzbər bilir, məclis və yığıncaqlarda söyləməkdən çəkinmirdilər.)* sanki davamı olaraq, bu patetik ricətində Azərbaycana və azərbaycanlılara müraciət edir, onları Vətən uğrunda böyük savaşa səsləyir.

Azərbaycan xalqının və dövlətinin Birinci Qarabağ Müharibəsində, nə qədər böyük faciələrlə üz-üzə qalsaq da, daxili çəkişmələrdən üzülsək də, təklənsək də, torpaqlarımızın işğalı ilə barışmamaq əzmi ədəbiyyatımızın andı və amalı tək möhürlənir. Əlbəttə, hadisələrin mahiyyətinə enə bilməyən, ah-ufla dolu dayaz və çığırqan əsərlər də meydana çıxır. Lakin ədəbiyyatımızın sağlam mənəvi düşüncəsi Qarabağ faciəsini millətimizin həll etməli olduğu əsas problem kimi aktuallaşdıra bilir. Qardaşını İkinci Dünya Müharibəsində, oğlunu isə Birinci Qarabağ Müharibəsində itirən Sabir Əhmədlinin Qarabağ trilogiyası – "Axirət sevdası", "Kef", "Ömür urası", Elçinin "Bayraqdar", "Gecə pəncərədən görünən dağlar" (pyes), İsa Muğannanın "Qəbiristan", Aqil Abbasın "Dolu", Mövlud Süleymanlının "Ağacan", Kamal Abdullanın "Sarı camış", Vidadi Babanlının "Ana intiqamı", Əli Əmirlinin "Ölü doğan şəhər", Elçin Hüseynbəylinin "Ağ. Qara" və "Gözünə gün düşür" kitablarında toplanmış povest və hekayələri, Qulu Ağsəsin "Peyğəmbərin məqbərəsində qətl", Əlabbasın "Halal qan", Mehriban Vəzirin "Müsahibə", Şərif Ağayarın "Arzulardan sonrakı şəhər", "Komandir", Orxan Fikrətoğlunun "Tək", Cingiz Abdullayevin "Əclafların qanunu", Vaqif Əlixanlının Gənc Tamaşaçılar Teatrında tamaşaya qoyulmuş "Əcəl atı", Natiq Məmmədlinin "Şuşa dumanı", Elxan Elatlının "Cəhənnəmdən gələn səs", Sərdar Aminin "Qaratoyuq nəğməsi", Rasim Qaracanın "Qarabağ Dekameronu", Elçin Mehrəliyevin "90-cı illər", Nüşabə Məmmədlinin "Zəngulə", Şamil Sadiq və Müşfiq Xanın "Ümidlərin izi ilə", Seymur Baycanın "Quqark", Qalib Arifin "Müharibə: görəsən, bu nədir?", Meyxoş Abdullahın "Ölməsəm, qayıdacağam", "Oğul", "Alagöz", "Əsir qadın", Yusif Əhmədovun "Torpağa tökülən qan", Zaur Akifoğlunun "Qız və Qurd" və s. kimi əsərləri, bədii publisistikanın bir sıra nümunələri bütün Azərbaycanın varlığında yaşanan Qarabağın görk olası taleyini əks etdirir. Azərbaycanın seçkin şairlərinin əksəriyyəti Qarabağ və onun uğrunda aparılan müharibə mövzusunda şeir və poemalar yazır, bu yaşantıları daha çılğın emosional notlarla təcəssüm

etdirirlər. Qarabağ problemi bizim ədəbi-humanitar düşüncəmizdə o qədər aktuallıq kəsb edir ki, “Qarabağ müharibəsinin ədəbiyyatda inikası” bizim milli ədəbiyyatşünaslıqda ayrıca olaraq, başlıca istiqamətləri ilə öyrənilməyə başlayır[15]. Beləliklə, Qarabağın işğalının təqribən 30 illik dövründə Azərbaycan ədəbiyyatının bu problemi ən müxtəlif janrlarda əks etdirən ədəbi-bədii salnaməsi yaranır.

## *Parlaq strategiya: siyasətdə və ədəbiyyatda*

Bu ədəbi-bədii salnamənin ikinci qatı – İkinci Qarabağ Müharibəsinin – Vətən Müharibəsinin başlaması ilə açılır. Beynəlxalq hüququn bütün prinsiplərinə uyğun olaraq, Azərbaycan dövlətinin öz torpaqlarını azad etmək uğrunda Ermənistana qarşı apardığı Vətən Müharibəsi məhz Ədalətin bərqərar edilməsi məqsədləri daşıdığından, humanist-təməlli Azərbaycan ədəbiyyatı, ümumən humanitariyası bu savaş məfkurəsinə həmrəyliklə qoşulur. Düşmənə qarşı amansız döyüşlərə atılan Azərbaycan Ordusunun arxasında kəndlisindən yazıçısına qədər bütün xalq dayanır. Möhtəşəm milli birliyin tarixi özünütəsdiq məqamı çatır. Uzun illərin hər günü ərzində Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin damla-damla təməlini qoyduğu Müharibə Siyasəti öz ideoloji-humanitar bazasında media mənsublarından ədəbiyyat yaradıcılarına qədər hamını öz ətrafında birləşdirir. Azərbaycan Yazıçılar Birliyi, onun bütün ədəbi orqanları – “Azərbaycan” və “Ulduz” dərgiləri, “Ədəbiyyat qəzeti”, “525-ci qəzet”, “Ədalət” qəzetləri digər ədəbiyyat, mədəniyyət və incəsənət portalları ümummilli səfərbərlik dalğasında bu müharibənin müqəddəs amallarına, yalnız qələbəyə aparan yenilməz ruhuna köklənir. Həmin Müharibə Siyasətinin prinsipial mövqeyi ilə, Azərbaycan ədəbiyyatı bu savaşı xaos yox, nizamyaradıcı akt olaraq qavrayır və milli düşüncəyə sinirməyə çalışır.

Gerçəkdən də, Ali Baş Komandanın parlaq strategiyası – onun şəhər və kəndlərimiz işğaldan azad edildikcə, hər bir qələbə aktını tarix və müasirliyin vəhdətində, regional və beynəlxalq siyasətin kontekstində, real proseslərin axarında, əldə olunmuş nəticənin əsl dəyərində, hər cür polemikanın “alfa” mövqeyində qiymətləndirərək yüksək məntiq və siyasi-diplomatik məharətlə şərh etməsi bu müharibəni ermənilər üçün xaos, azərbaycanlılar üçün harmoniya başlanğıcına çevirirdi. Bizim üçün ulu yurdumuzun ən gözəl parçasını xarabalığa döndərmiş xaosu 30 illik işğal yaratmışdı. Biz ona son qoyur, Vətən torpaqlarını azad etdikcə, sülh və harmoniyaya doğru addım-addım irəliləyirdik. Müasir Azərbaycan tarixinin bu ən şərəfli səhifəsi ötən bir il ərzində çağdaş Azərbaycan ədəbiyyatında da köklü ideya-məzmun dəyişikliyinin, daha sərrast ədəbi-strateji hədəflənmənin binəsini qoymuş olur.

Azərbaycanın bir sıra gənc yazarları – Emin Piri, Alparslan Oğuz, "Canlanma" adlı ilk tarixi metaromanın müəllifi Taleh Şahsuvarlı, Səbuhi Qurbanov, Həsən Kür cəbhəyə yollanırlar. Birinci Qarabağ Müharibəsi veteranı İlham Tumas son Vətən Müharibəsində də Azərbaycan Ordusunun sıralarına qoşulur və "Casusluq, Kəşfiyyat, Müharibə tarixindən" (Bakı: "Mücrü" Nəşriyyatı, 2020) adlı praktiki əhəmiyyət daşıyan kitab yazır. Ədəbi istedadı hər sətrində duyulan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmiş Teymur Rəsulov son yazısını çapa göndərərək cəbhəyə yollanır. Şəhid Teymurun elə öz taleyinin qismətinə tuşlanmış titrək misraları Vətəni üçün bağrında bəslədiyi müqəddəs arzuların solmaz çələngi olur: "Bir ata... kökündən qopmuş qoca ağacları sürüyə-sürüyə həyətinə gətirir, o ağacı odun, odunları isə kömür edib sataraq böyüdüb boya-başa çatdırdığı oğlunu əsgər libasında Vətəni qorumağa göndərir, cəmi iki ay sonra bayrağa sarılmış halda şəhid olaraq tabutda qarşılayırdı... Və ağlamırdı. Vicdanı təmiz idi çünki, Vətən sağ olsun deyəcək qədər mənəviyyatı pak idi... Hələ ilk günüdür azadlıq savaşının. Hələ irəlilədir gözəl xəbərlər... Gələcək günlər bizim üçün al-əlvan naxışlarla toxunub. O naxışlar ki, toy etmədiyi oğlunun şəhid olma xəbərini eşitdiyi an əlləri titrəyən ananın əlində solan yarımçıq toy xalçasının naxışları da bundan sonra daha rəngarəng, daha canlı, daha ürəkdən toxunacaq oğuləvəzi saydığı qonşunun qazi övladı üçün... Şəhid anası öz övladının ətrini məhz o qazi gəncin saçlarından, əynindəki əsgər formasının yaxasından alacaq. Və gözəl günlər belə başlayacaq Vətənim üçün!"[16] Bu əxlaq – idealsızlığı getdikcə dərinləşən müasir dünyanın qibtə edə biləcəyi bur ucalıqdır! Teymurun şəhidlik fəlsəfəsi ona vurğudur ki, Vətən – həm də nəsil-nəsil ötürülən, insan-insan çitənən əmanətdir, nəsillərarası bağ, insanlararası çitənmə bərkidiləndə, Vətən var olur...

Vətən Müharibəsi – Azərbaycan ədəbiyyatında ilk dəfə olaraq suveren dövlətin qələbə inamı ilə müharibə aparmaq, öz hərbi-siyasi qüdrətini nümayiş etdirmək, Silahlı Qüvvələri ilə düşməni lərzəyə gətirmək, torpağının hər qarışını azad etdikcə qüvvətlənmək əzmini əks etdirməyin, milli varlığımızı möhtəşəm obrazlarla canlandırmağın şərəfini yaşadır. Yalnız bu şərəf ehtişamında pafos ədəbiyyatın daxili zərurətinə çevrilir, şair sözü və əsgər addımları eyni ahəngə köklənir. Azərbaycan şairlərinin yazdıqları "Marş"lar ulu millətimizin böyüklüyünə, Vətən yaddaşının itirilməzliyinə tən gələn qalibiyyət ruhunun təcəssümü olur.

## *Millət arxitekturası və ya Kimdir "Böyük İnsan"?*

Vətən Müharibəsi ictimai idrakın həm də o qatını oyatdı ki, Şəxsiyyət və Millət olmaq eyni zamanda baş verir. Şəxsiyyətlərindən tikilməyən Millət

sökülməyə məhkum. Mənəmçiliyin, yayğın ehtirasların qabartısında ora-bura dartılan pozuq bir toplum necə Şəxsiyyət yetişdirə bilər?! Millət olmaq – sosial harmoniyanın ən üstün keyfiyyətidir. Vətəndaş – ictimai-hüquqi statusdur. Millət olmaq – məhz vətəndaşın Şəxsiyyət olmaq potensialının açılması hərəkatıdır. Ədəbiyyatımız Vətən Müharibəsi dərslərindən həm də Şəxsiyyətlərindən yaradılan Millət arxitekturasının parametrləri ilə milli özünüdərkin daha əngin miqyaslarına çıxmaq görkünü aldı.

Vətən Müharibəsinin qızğın çağında və ondan sonrakı dövrdə Azərbaycan əsgərlərinə, şəhidlərinə, qazilərinə həsr olunmuş seçkin bədii əsərlər (Çoxlu ithaf yazılarının əksəriyyəti sənətkarlıq baxımından orta və aşağı səviyyəli olur. Ədəbi zaman isə bütün yazılanları seçib-sonalayır, yaddaş kitabına yalnız seçkinləri salır), əslində, Azərbaycanın müasir tarixi həyatında yer almış insanların ömür yolunun təcəssümüdür: "Ana elə-belə oğul doğurmaz, // Qəhraman doğurar o, qul doğurmaz! // Övlada ananın bətni vətəndi, // Duyduğu laylanın mətni vətəndi... // Əgər o vətənin düşməni varsa, // Bir mənin yerinə beş məni varsa, // Oğul şəhid olar vətən yolunda..."[17] Vətən Müharibəsinin şanlı şəhid və qazilərinə poeziyanın müraciəti bütün qutsal dəyərlərin yüksəyində dayanan məsuliyyətin yükünü çəkir: "Azərbaycan adını sinənizdən asdınız, // Yeni tarix yaradıb, yeni dastan yazdınız. // Qazi hüzurlarıdır daha səcdə yerimiz, // Şəhid məzarlarıdır ən müqəddəs andımız. // Adınızla tarixə möhürləndi bu payız, // Qarşınızda bir ömür sayqı duruşundayız!"[18] Vətən yolunda canını fəda edən bu insanlar nə qədər gənc olsalar da, Dövlət və Millət olmağın böyük həqiqətini dərk etmiş Şəxsiyyətlərdir. Onların müharibə həyatı ya sənədli, ya da bədii şəkildə canlandırıldıqca, ədəbiyyatımız nəsillərə görk olası bahadır əsgər, qəhrəman şəhid, yenilməz qazi obrazları ilə zənginləşir. Ədəbiyyatımıza "Böyük İnsan" idealist təxəyyüllərdən deyil, gerçək həyatdan – Vətən azadlığı müharibəsində bütün xarakterini ortaya qoyan Azərbaycan Ordusunun sıralarından, yurda sipər Azərbaycan vətəndaşlarının arasından gəlir:

***Boyuna qurban olum, Azərbaycan əsgəri,***
***Dünyanın ən mübarək qələbəsi sənindir.***

***Bu vətənin nəyi var – azı-çoxu döyüşür,***
***Dağı, daşı, torpağı, varı, yoxu döyüşür.***
***Neçə şəhid igidin nakam ruhu döyüşür,***
***Bir əsgərə çevrilir burda hər məzar daşı,***
***Qürur yerim, nə yaxşı, başlatdın bu savaşı...***[19]

**(Məmməd İsmayıl)**

Məmməd İsmayılın "Azərbaycan əsgəri", Vaqif Bəhmənlinin "Vətən əsgəri", Avdı Qoşqarın "Azərbaycan əsgəri" şeirləri çiyin-çiyinə verərək ədəbiyyat cəbhəsində döyüşür:

***Yurda göz dikənin dərsini verdin,***
***Yolunu azanlar qorxdu gücündən.***
***Vətənə qanım da halaldı, dedin...***
***Məğrurluq boylandı igid, içindən –***
***Ey Vətən əsgəri, Vətən əsgəri!..***[20]

**(Vaqif Bəhmənli)**

Fərqli bədii dünyası olan bu şairlərin seçkin poetik intonasiyası Azərbaycan əsgərinin ürək döyüntüsünə, onun döyüş ruhunun zəfər müjdəli çılğın ritminə yatır...

***Azərbaycan doğulur – od-alov yağışından,***
***Qan püskürür Şuşanın torpağından, daşından,***
***Bir az istilik qopar Savalanın başından!***
***Tut başını yuxarı, ver sinəni irəli –***
***Azərbaycan əsgəri!..*** [21]

**(Avdı Qoşqar)**

Vaqif Bəhmənlinin işğalın başlamasından Zəfər gününə qədər təqribən 30 illik dövrü əhatə edən bir kitablıq ("Mən əsgərəm, Qarabağ!..") şeir və poemaları – Qarabağın tale yazısıdır. Qarabağın tale kitabı "Vətənimə Sübh Duası" proloqu ilə başlayır. Vətən Müharibəsinin od-alov qarsında yazılmış bu əsər müasir Azərbaycan poeziyasının ən parlaq keyfiyyətlərini – klassik şeir ənənəsinə yaradıcı sadiqliyi, forma və məzmunun daxili qafiyələnmə ilə süslənən vəhdətini və ilk misradan son misraya qədər ideyanın patetik vəcdlə hərəkətini, tarixi təməllərimizə söykəncin ərənlik ruhunu, uzun illər Qarabağ ətrafında yallı gedən məkrli siyasi oyunlara eyhamı, Vətənin zəncirlənmiş parçasının yağı əlindən qurtula-qurtula nəfəs dərməsinin Azərbaycan əsgərinə, vətəndaşına verdiyi sonsuz həzzi və xalqın ilham qaynağı olan Ali Baş Komandan İlham Əliyevdə ümummilli vəhdətin triumfa çatmasını özünün dolğun metaforik mənzərəsində əks etdirə bilir:

***Şəhid türbələrinə təravət vermək üçün***
***Pəmbə-pəmbə gül açdı dərdim, ilhama gəlib!***

***Ali Baş Komandanın adınadı ilhamım,***
***İlhamım əmr eləyib, ordum ilhama gəlib!***

***Qarabağ – Azərbaycan!.. Hayqırır bir ağızdan,***
***Qələbəyə şığıyır yurdum, ilhama gəlib!***[22]

Sənətin öncəgörüm duyğusu fəhmin də qanunauyğun əlamət olduğunu bəlli edir. Fərid Hüseynin "Yumruq günü" şeiri Vətən Müharibəsinin ilk günlərində çap ediləndə, hərbi sirr kimi hələ məlum deyildi ki, Azərbaycan

Ordusunun Ermənistan Silahlı Qüvvələrinə qarşı döyüşü "Dəmir yumruq" əməliyyatı adı altında keçirilir. Lakin gənc şair Azərbaycan xalqının qisas zamanını "Yumruq günü" kimi "kodlaşdırmışdı"... Bu şeir bizim milli düşüncəmizin zaman və məkan koordinatlarında hərbi müşahidə məntəqəsinin yerləşdiyi əlverişli nöqtə kimi elə bir məqamı seçir ki, sanki oradan tariximizin dor-dolaşıq cığırlarından nəhayət baş yola çıxan səmtin tapıldığı görünür. Artıq anlayırıq ki, "Harda dayansaq da, üzümüzü vətənə sarı çevirməliyik."[23] İnsan – Vətəndaş – Əsgər fərqli status, maraq və mənafelərin cazibəsindən, ilğımından sıyrılıb, yalnız Vətən nüvəsində milli özünüdərkin aydın fəzasına çıxır.

Vətən Müharibəsi vahid milli orqanizmin Ordusundan Poeziyasına qədər ümummilli enerjinin dövranını yaratmış oldu. Azərbaycan ədəbi mətbuatının təqdim etdiyi əsərlər – Qəşəm Nəcəfzadənin "Azərbaycan əsgəri", Asif Asimanın "Qələbə marşı gərək..."[24], Ayaz Arabaçının "Azərbaycan əsgəri", "Ordu", "Bayraq", "Əsgərim", "Öpürəm", "Olsun", "Son damla qanımızadək...", "Savaş indi başlayır", İlham İnamın "Ali Baş Komandanım!", "Bir gözüm ağladı, bir gözüm güldü", "Şəhidlik ucalıqdı", "Salam, Cəbrayılım", "Azad olmuş Zəngilan", "Qubadlım", "Şuşama", Fuad Vəliyevin "Zəfər şərqisi", Aybəniz Kürəkçaylının "Gözünüz aydın", "Mənim qalib Ordum", "Tanrı qorusun sizi!"[25], Əşrəf Veysəllinin "Sözün qələbəsi", "Sən qalib əsgərsən!"[26] və s. bu prosesi ən həssas nöqtələri, mənəviyyatı qığılcımlandıran toxunuşları və həm də fərqli duyuluşları ilə əks etdirməyə çalışdı.

## *XXI əsr Azərbaycanı, Vətən Müharibəsi və müasir Qarabağ əsərinin baş qəhrəmanı – İlham Əliyev*

XXI əsr Azərbaycanı, Vətən Müharibəsi və müasir Qarabağ əsərinin baş qəhrəmanı – Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevdir. Zəmanəmizin bu diqqətəlayiq faktını Azərbaycan ədəbiyyatı duyur, təqdir edir və özünün bədii dünyasının episentrinə gətirir. Buna görə də təsadüfi deyildir ki, öncə adı çəkilən poemaların əksəriyyəti səciyyəsinə görə "hadisə-poema" deyil, "ideya-poema"dır. Bu gün bizim diqqət mərkəzində dayanan – XXI əsr Azərbaycanı, Vətən Müharibəsi və müasir Qarabağ zəruri fəaliyyətlərin kompleksi kimi məhz İdeyadır. Bizi çağdaş tarixin öncinahına çıxaran ideya. Elxan Zal Qaraxanlının "Azərbaycan simfoniyası"[27] və Balayar Sadiqin "Zəfər simfoniyası"[28], "Şəhid ətri"[29] də bu ideyanı müasir Azərbaycan ədəbiyyatında milli özünüdərkin aparıcı tendensiyası kimi əks etdirirlər:

***...Söylədin: "Qarabağ Azərbaycandır!"***
***Adi torpaq deyil, canımda candır!***
***Yolunu gözləyir, gör bir haçandır –***

***Arzu yollarımda ümid sarvanım,***
***Min yaşa, müzəffər Baş Komandanım!***[30]
**(Balayar Sadiq)**

Heç şübhəsiz ki, XXI əsrin ilk çərəyində Azərbaycan dövlətinə və xalqına tarixi zəfər qazandıran Vətən Müharibəsi öz dramatizmi ilə daha çox nəsr və dramaturgiyamızda bədii sənət monumentallığını əldə edəcək. Nəsrin ilk "savaş qənimətləri" buna əsas verir. Özü qaçqınlıq həyatı yaşayan, müharibənin olmazın iztirablarını çəkən və ötən onilliklərdə əsərlərində o iztirabların canlı portretlərini yaradan Azad Qaradərəlinin son bir ildə yazdığı hekayələr kitabı[31] və "Cəbrayıl əfsanəsi" romanı[32], Elçin Hüseynbəylinin Qarabağ mövzulu yaradıcılığının uğurlu davamı kimi "Əsgər barmağını əmən körpə", "Həcər", "Vəsiyyət"[33], Kənan Hacının "Qarabağ hekayələri" silsiləsi[34] "Vətən Müharibəsi nəsri" məcrasının genəlməsinə stimul verəcəkdir. İşğal altındakı bölgələrimiz bir-bir azad olunduqca zəngləşib-təbrikləşdiyim gənclik dostum zəngilanlı Azad hər dəfə göz yaşları içərisində boğula-boğula danışsa da, onun "Cəbrayıl əfsanəsi" – başdan-başa Hünər və Qəhrəmanlıq romanıdır. Yazıçı Azərbaycan Milli Ordusunun əsgəri, "Azərbaycan Bayrağı" ordenli şəhid Cəbrayıl Dövlətzadəni prototip kimi seçsə də, əsərində onun döyüş yolunu yaxın və uzaq tariximizin məhz Vətən Müharibəsi ilə uzlaşan, sanki onun köklərində dayanan məqam və olaylarına calayır. Sanki qəhrəman şəhid Cəbrayılın çevrəsində torpaq uğrunda savaş tariximiz dolanır. Keçmişini indisinə bağlayan yaddaş gələcəyə də budaqlanır...

Dramaturgiya teatr səhnəsinə çıxmaq imkanı ilə müharibənin metafizikasını daha vizual canlandırmaq potensialına malikdir. Burada ədəbiyyatın müharibəni hər zamandan, hər məkandan, hər bir ayrıca insandan (personajdan) görən gözü daha geniş açılır. Etiraf edək ki, bizdə dramaturgiya, məsələn, poeziya ilə "rəqabətdə" uduzur. Yəqin ki, bu bizdə şeiriyyət ənənəsinin tarixi gücündən irəli gəlir. Fəqət dramaturgiyanın hər hansı milli mədəniyyəti ən yüksək statusda təmsil və təqdim etməyin üstünlüyünü nəzərə alsaq, onda gərək Azərbaycan dramaturgiyası "sənət periferiyasında" qalmasının səbəbləri üzərində düşünə. Əlbəttə, dram əsərləri elə çox yazılmır. Ancaq bizim praktikada bu azın da azıdır. Bir il ərzində ədəbi bətndən yalnız bir-iki dram doğulub: Qəşəm Nəcəfzadənin Azərbaycanın Milli Qəhrəmanı, yəhudi əsilli Albert Aqarunovun unudulmaz xatirəsinə həsr olunmuş "Ölüm qaldı o dünyada"[35] və Ay Bəniz Əliyarın "Xarıbülbül" pyesləri[36].

Vətən Müharibəsi və Milli Ordumuza dəstək xüsusunda daha geniş fikir mübadiləsi Azərbaycan ədəbi mediasında aparılmışdır. "Azərbaycan" və "Ulduz" dərgiləri, "Ədəbiyyat qəzeti", "525-ci qəzet", "Ədalət" qəzetləri, digər ədəbiyyat, mədəniyyət və incəsənət portallarında Azərbaycanın görkəmli ədəbiyyat və mədəniyyət nümayəndələri, yazıçılar, alimlər, sənətkarlar, gənc ədəbiyyatçılar məqalə və esselərində, bədii-publisistik yazılarında Qarabağ

Müharibəsinə müstəqil dövlətimizin taleyüklü problemi olaraq fəal münasibət bildirmişlər. Onların baş redaktorları və məsul komandası rəhbərlik etdikləri mətbuat orqanlarını müharibənin və qələbəyə doğru yürüşün "ədəbi poliqonuna" çevirmişdilər. "Azərbaycan"da İntiqam Qasımzadənin "Yazılsın tarixə bir qızıl xətlə..."[37], "Ədəbiyyat qəzeti"ndə Azər Turanın "Salam Türkün Bayrağına və yaxud dağılan erməni mifi"[38], "Tanrının evi – Türk Qarabağ və Bir hilal uğruna batan günəşlər…"[39], "Ulduz"da Qulu Ağsəsin "Saat 6-nı gözləyirəm"[40] adlı baş məqalələri və s. məmləkətin silah-qələmlərinin səfərbərlik çağırışı idi.

Müharibənin ən qızğın çağında AZƏRTAC Azərbaycanın Xalq yazıçısı Elçinin "Xalqın qələbəsi və xalqın faciəsi" yazısını təqdim edir[41]. Vətən Müharibəsinin zirvə anında (8 noyabr 2020) – Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin Şuşanın azad olunması münasibətilə tarixi müraciətindən sonra Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar "Ədəbiyyat qəzeti"ndə xalqımıza gözaydınlığı verir: "Şuşamızı inanılmaz hünərlə, şücaətlə, fədakarlıqla azad edən döyüşçülərimizə eşq olsun! Əsgərlərimiz, zabitlərimiz, generallarımız qələbədən sonra sağ-salamat qayıdıb Zəfər paradında vüqarla iştirak etsinlər... Zəfər yollarını qanıyla suvaran, doğma torpaqları yağı tapdağından qurtarıb doğma torpağa qovuşan şəhidlərimizin ruhu şad olsun. Şükür ki, Polad iradəli Mübarizlərimizin qanı yerdə qalmadı. Gecə qaranlığında quldurcasına qətlə yetirilən dinc əhalinin, yüzə yaxın insanın, körpə balaların qanı yerdə qalmadı. Uçurulan məscidlərin, dağıdılan binaların, yandırılan meşələrin, güllələnən heykəllərin, susdurulan muğamların qisası alındı... Gözün aydın, tarixin sınaq saatında yumruq kimi birləşən xalqım... 82 yaşım var, Allaha, taleyimə, ordumuza, Ali Baş Komandana dua edirəm ki, uşaqlığımın, yeniyetməlik çağımın, ahıl illərimin şəhəri Şuşanın azad olunduğu günü görə bildim. Gözün aydın..."[42]

Cəbhədə əsgər kimi döyüşən gənc şair Emin Piri müharibə fenomeninə onun öz sərt reallığından baxsa da, insanlıq dəyərlərinin dilemması qarşısında seçim etmək tərəddüdünü də yaşayır: Qarşı səngərdəki düşmən ordusunun əsgəri Azərbaycan snayperinin hədəfindədir. Müharibə deyir – vur. Ədəbiyyat deyir – dayan: "...Onun (mobil telefonla kiminləsə danışan düşmən əsgərinin) özündənrazı, tərki dünya olaraq harda olmasını unutması adamın ağlına yalnız sevgilisini gətirə bilir. İnsan onun etdiklərini sevgilisi ilə danışanda edə bilər... Vuraq? Ani olaraq beynimin içindəki düşüncələr mənə imkan vermir... Bəlkə danışdığı adam anasıdır? Və həmin vurulsa... Ya da sevgilisi? Bu elə ən böyük sevgi qətliamı olar. Telefonun qarşısındakı şəxsin o vurulduğu an keçirəcəyi hissləri ağıla gətirmək belə mümkün deyil. Bəs, o əsgərin yerində biz olsaydıq? Danışdığımızsa sevgilimiz, anamızdırsa?.."[43] Azərbaycan əsgəri, təbii ki, müharibə qanunları ilə hərəkət edib, düşməni vurur. Fəqət bu hissin özü – ədəbiyyatın, sənətin ulu qanunlarını varlığında yaşatdığından insan mənəviyyatını heç zaman tərk edə bilməz.

## *Ədəbiyyatın Şuşa zirvəsi*

Savaş dönəmində və sonra Azərbaycan ədəbi mediasının "Vətən Müharibəsi və ədəbiyyat" mövzusunda apardığı müzakirələr də ədəbi-humanitar düşüncəni bu alfa-problem üzərində toparlayır (Məsələn, "Ulduz" dərgisi ilə "525-ci qəzet"in birgə layihəsi – iştirakçılar: Azər Turan, Elnarə Akimova, Mətanət Vahid, İlqar Fəhmi, Elçin Mirzəbəyli, Cavid Zeynallı, Musa Urud, Günel Anarqızı, Rövşən İsax)[44]. Akademik İsa Həbibbəylinin "Bütövlüyün təntənəsi – Zəfərin isti izlərinin poeması", akademik Nizami Cəfərovun "Sözümüzün Ali Baş Komandanı", AMEA-nın müxbir üzvü Tehran Əlişanoğlunun "Tarixin Fürsəti", professor Nizaməddin Şəmsizadənin "Erməni faşizmi", professor Rüstəm Kamalın "Pənah xanın ruhu", Orxan Arasın "Müharibə ədəbiyyatı", Elxan Zal Qaraxanlının "Qarabağda Səlcuq şikəstəsi", Əsəd Cahangirin "Səs", Təranə Vahidin "Həsrət essesi", Sadıq Elcanlının "Müqəddəs qələbəyə and içirəm", Əlabbasın "Dərs", Mustafa Çəmənlinin "Cəbhə xatirələrim... İyirmi yeddi il sonra", Elnarə Akimovanın "Poeziyada Vətən", "Ermənilərin öldürdüyü uşaqlar", "Şuşada azan səsi", Südabə Ağabalayevanın "Xüsusi təyinatlı söz", İradə Musayevanın "Qarabağ", Səadət Şıxıyevanın "Nisgilli könüllərin tərcümanı Şuşa", Vahid Qazinin "Şuşalı foto", Tahirə Məmmədin "Qarabağ savaşı: Sözümüz və özümüz", Nüşabə Əsəd Məmmədlinin "Səadət anı", Rövşən Yerfinin "Şəhidlik zirvəsi", Mirmehdi Ağaoğlunun "Qarabağ mühari̇bəsi̇ndəki̇ əbabi̇l quşları", Tural Turanın "Şuşanın səsi", Vüsal Nurunun "Ağdam olmaq", Cəlil Cavanşirin "Nostalgi̇yanın sonu: bi̇z qayıdırıq", Sevinc Nuruqızının "Dağ başında şam Şuşa", Sərdar Aminin "Qədir əmi, Ağdam alındı!", Laura Cəbrayıllının "Allahın əsir mələyi", Günel Natiqin "Qarabağ mənim üçün...", Ramilə Qurbanlının "Pas atmış açarlar", Ramil Əhmədin "Qarabağa qayıdırıq, dünya gözəlləşir" və s. yazıları bütövlükdə mədəniyyətimizi, ədəbi-estetik düşüncəmizi Vətən Müharibəsinin necə təkanlaya bildiyinə və biləcəyinə Azərbaycanda yaradıcı insanların bəslədiyi inamın örnəyidir. Yazıçı İlqar Fəhminin deyimincə, "...məhz bu qələbədən sonra biz Azərbaycanda sözün həqiqi mənasında müharibə ədəbiyyatını görə biləcəyik..."[45]

Xalqımızın 27 sentyabr – 10 noyabr 2020-ci il Vətən Müharibəsində çaldığı böyük qələbə bütün əlamətləri ilə Azərbaycanın tarixi-siyasi həyatında yeni bir fazanın başlanğıcıdır. Artıq indi Qafqazın ən qüdrətli respublikası Azərbaycan bütün bölgədə sülh və əməkdaşlıq dönəminin başladığını bəyan edərək, bu quruculuq prosesinin önündə getməkdə qərarlıdır. Dövlətlər və mədəniyyətlərarası münasibətlərin mahiyyətində əsaslı dəyişikliklərə yol açacaq transformasiyaların respublikamızın və eləcə də region ölkələrinin maraqlarına uyğun cərəyan etməsi üçün bizim beynəlxalq siyasi platformamızın mükəmməl humanitar təməlləri də olmalıdır. Bu o deməkdir ki, ədəbiyyatımızın Vətən Müharibəsini müstəsna tarixi fenomen kimi işğaldan öncə, işğal dönəmində və işğaldan sonra əksetdirmə strategiyası arasındakı fərqin dəqiq müəyyənliyi bəlli olmalıdır:

Vətən Müharibəsindəki Qələbə Anından başlayaraq, Azərbaycan ədəbiyyatı – qalib Azərbaycanın ədəbiyyatıdır! Çağdaş ədəbiyyatımız bu qalibiyyətin eyforiyasını yox, ağırlıq və məsuliyyətini, həm də əzəmət və qüdrətini yaşamalı, bədii mədəniyyətimizin tarixi-genetik özəlliyindən gələn müdriklik psixologiyasının dərinliklərini üzə çıxarmalıdır. Qüdrətli dövlətin qüdrətli ədəbiyyatının doğuluş anı yetişmişdir! Bundan sonra Azərbaycan bədii sözü böyük ədəbiyyatın estetik meyarlarlarını yalnız yüksəltmək, özünüdərk və zənginləşmə potensialını artırmaq haqqına sahibdir. Təkcə Qarabağ mövzusu çevrəsində deyil, dünya genişliyində. Gərək Azərbaycan yazıçısı – Azərbaycan Ordusunun əsgəri Şuşanı fəth etdiyitək ədəbiyyatın Şuşa zirvəsini fəth etsin!

---

***Mənbələr:***

[1] – Azərbaycan tarixi, 7 cilddə, 1, 2, 3 c. Bakı: Elm, 1998
[2] – Luther K.A. “Atabakan-e Ādarbayjan”. Encyclopedia Iranica. Retrieved October 28, 2010
[3] – Brockelmann C. İslam Ulusları ve Devletleri Tarihi. Ankara: Türk Tarihi Kurumu Basımevi, 2002, s.262-268
[4] – Qazi Bürhanəddin. Divan. Bakı: Öndər nəşriyyatı, 2005, s.687
[5] – Şah İsmayıl Xətai. Keçmə namərd körpüsündən. Şeirlər və poemalar. Bakı: Yazıçı, 1988, s.82
[6] – Керимов К. Азербайджанская миниатюра. Баку: Ишыг, 1980
[7] – Наполеон // https://culture.wikireading.ru/32848
[8] – Yaqublu N. Məhəmməd Əmin Rəsulzadə ensiklopediyası. Bakı: “OL” MMC, 2013, s.176-182
[9] – İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan Bakı şəhərinin azad edilməsinin 100 illiyinə həsr olunmuş paradda iştirak ediblər // https://president.az/articles/29993
[10] – İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradında iştirak ediblər // https://president.az/articles/48788
[11] – Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Milli Məclisdə çıxış edib // https://meclis.gov.az/news.php?id=3336&lang=az
[12] – İran Ərdoğanın Bakıdakı paradda oxuduğu şeirə etiraz edir // https://www.amerikaninsesi.org/a/iCC87ran-C999rdoC49FanC4B1n-bakC4B1dakC4B1-paradda-oxuC49Fu-C59FeirC999-etiraz-edir-/5695982.html
[13] – Araz M. Seçilmiş əsərləri. İki cilddə, II c. Bakı: Lider nəşriyyat, 2004, s.132-133
[14] – Araz M. Seçilmiş əsərləri. İki cilddə, I c. Bakı: Lider nəşriyyat, 2004, s.84-86
[15] – Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı, 2 cilddə, I c. Bakı: Elm və Təhsil, 2016, s.167-210
[16] – Şəhid Teymur Rəsulovun Edebiyyat.az saytına göndərdiyi son yazı... // https://edebiyyat.az/proza/1395-sehid-teymur-resulovun-edebiyyataz-saytina-gonderdiyi-son-yazi.html
[17] – İsmayıl M. Oğul şəhid olar vətən yolunda // https://edebiyyatqazeti.az/news/poeziya/7000-bu-dunyanin-derdi-birse-dermani-da-bir-olmali

[18] – İlyaslı İ. Qarşınızda bir ömür sayqı duruşundayız! // https://edebiyyatqazeti.az/news/poeziya/6666-qarsinizda-bir-omur-sayqi-durusun-dayiz

[19] – İsmayıl M. Azərbaycan əsgəri // “Ulduz” jurnalı, 2021, №1, s.69

[20] – Bəhmənli V. Vətən əsgəri // https://525.az/news/153667-men-esgerem-qarabag-vaqif-behmenlinin-seirleri

[21] – Qoşqar A. Azərbaycan əsgəri // https://edebiyyatqazeti.az/news/poeziya/6371-azer-baycan-esgeri

[22] – Bəhmənli V. Mən əsgərəm, Qarabağ!.. // https://525.az/news/153667-men-es-gerem-qarabag-vaqif-behmenlinin-seirleri

[23] – Hüseyn F. Yumruq günü // https://edebiyyatqazeti.az/news/poeziya/6262-yumruq-gunu

[24] – “Azərbaycan” jurnalı, 2020, №11, s. 34-37

[25] – “Azərbaycan” jurnalı, 2020, №12, s. 4-21

[26] – “Azərbaycan” jurnalı, 2021, №3, s. 107-109

[27] – Qaraxanlı E.Z. Azərbaycan simfoniyası // “Ulduz” jurnalı, 2021, №12, s.70

[28] – Sadiq B. Zəfər simfoniyası // “Ulduz” jurnalı, 2020, №12, s.76-80

[29] – Sadiq B. Şəhid ətri // “Ədəbiyyat qəzeti”, 2021, 3 iyul

[30] – Sadiq B. Zəfər simfoniyası // “Ulduz” jurnalı, 2020, №12, s.78

[31] – Qaradərəli A. Sevgilim Vətən. Bakı: “Mücrü” nəşriyyatı, 2021

[32] – Qaradərəli A. Cəbrayıl əfsanəsi (roman) // https://kulis.az/news/37265; https://kulis.az/news/37357; https://kulis.az/news/37442; https://kulis.az/news/37527; https://kulis.az/news/37528; https://kulis.az/news/37687; https://kulis.az/news/37774

[33] – http://www.azyb.az/admin/media/files/1623450775-ULDUZ%20jurnali%20MAY%202021pdf.pdf; http://www.azyb.az/admin/media/files/1623450775-ULDUZ%20jurnali%20MAY%202021pdf.pdf

[34] – https://edebiyyatqazeti.az/news/proza/6382-estafet-qarabag-hekayeleri-silsilesinde

[35] – “Azərbaycan” jurnalı, 2020, №12, s.22-45

[36] – “Ulduz” jurnalı, 2021, №5, s.81-88

[37] – “Azərbaycan” jurnalı, 2020, №11, s.3-6

[38] – https://edebiyyatqazeti.az/news/proza/6364-salam-turkun-bayragina-ve-yaxud-dagilan-ermeni-mifi

[39] – “Ədəbiyyat qəzeti”, 2020, 14 noyabr

[40] – “Ulduz” jurnalı, 2020, №10, s.3-4

[41] – https://azertag.az/xeber/Elchin_Xalqin_qelebesi_ve_xalqin_faciesi-1618219

[42] – https://edebiyyatqazeti.az/news/proza/6448-gozun-aydin-susam-gozumuz-aydin

[43] – Piri E. Müharibə gündəliyi // https://edebiyyatqazeti.az/news/proza/7110-muharibe-gundeliyi

[44] – http://www.azyb.az/admin/media/files/1609903498-Ulduz%20Dekabr2020.pdf; http://www.azyb.az/admin/media/files/1615501673-Ulduz%20Fevral.pdf; http://www.azyb.az/admin/media/files/1624950133-ULDUZ%20Iyun%202021.pdf

[45] – “Ulduz” jurnalı, 2021, №2, s.32

# «Əlincədə ətir saçan qızılgül»



***Şair Adil Qasımlının şeirləri haqqında***

Təəssüf hissi keçirirəm ki, bu çağacan Adil Qasımlı kimi bir şairin – özü də istedadlı bir şairin şeirlərindən söz açmamışam. İndi 83 yaşına çatmış Adil Qasımlının bəlkə də mənim bir yazıma ehtiyacı olmayıb. Çünki öncəki illərdə o, həm Naxçıvanda, həm də Bakıda, ümumən Azərbaycanda bir şair kimi tanınıb da, sevilib də. Xalqımızı «şair xalq» adlandıran Nikolay Tixonov vaxtilə «Azərbaycan gəncləri» qəzetinə verdiyi müsahibəsində Azərbaycanda gənc şair və yazıçıların əsərləri ilə tanış olduğunu qeyd edir, gənc şairlərdən üçünün – Fikrət Qocanın, Fikrət Sadığın və Adil Qasımlının adlarını çəkir. Azərbaycan yazıçılarının V qurultayında (1966) Xalq yazıçısı Mirzə İbrahimov geniş hesabat məruzəsində şeirimizin uğurlu sənətkarlıq axtarışlarından söz açarkən Adil Qasımlının şeirləri barədə də bir neçə kəlmə fikir söyləmiş, onun hər sözü yerli-yerində işlətdiyini, misraları mirvari kimi düzdüyünü nəzərə çarpdırmışdı. Naxçıvanda yaşasa da, onun yaradıcılığı təkcə muxtar respublikada deyil, Bakıda – qaynar ədəbi mühitdə də əsl qiymətini alırdı. Tofiq Bayram, Cabir Novruz, Bəkir Nəbiyev kimi tanınmış söz adamları, həmçinin Yusif Seyidov, Şirindil Alışanlı, Müseyib Məmmədov kimi dilçilər, ədəbiyyatşünaslar müxtəlif illərdə onun şeirlərindən söz açmışlar. Təbii ki, bütün bunların əksəriyyəti qısaca fraqmentlər olub. Ancaq akademik İsa Həbibbəylinin və Naxçıvan ədəbi mühitindən Akif Axundovun, Hüseyn Razinin, Məmməd Tahirin və b. məqalələrində Adil Qasımlının yaradıcılığı az-çox öz əksini tapıb.

Əlbəttə, bütün bunları heç də «xatirat dəftəri»nin səhifələri kimi mənalandırmayaq. Ona görə də bu yazını 60 illik yaradıcılıq yolu keçmiş bir şairin ədəbi portretinin bir neçə cizgisi hesab edin.

Adil Qasımlı deyəndə mən, ilk növbədə, Naxçıvanı düşünürəm.Dünyanın və təbii ki, Azərbaycanın bənzərsiz bir diyarı canlanır gözlərimin qarşısında. Təbiət burada sərtliyi və zərifliyilə, çılğınlığı və kövrəkliyilə elə vəhdətdədir ki, heyrətini gizlədə bilmirsən. Sərt qayalar, rəngli dağlar, gözəlliyi üzə çıxan bulaqlar, mineral sular, nadlir ağaclar, «Əshabü-kəf» ucalığı, duzdağlar… Orada yaşayan insanlar da elə bu qayalara, bu dağlara, bu bulaqlara, bu ağaclara

oxşayırlar. Naxçıvan şəhəri indi dünyanın ən gözəl, ən müasir şəhərlərindən heç də geridə qalmır.Və Naxçıvan deyəndə Hüseyn Cavidi, Mirzə Cəlili, Bəhruz Kəngərlini, Əliqulu Qəmküsarı, Yusif Məmmədəliyevi, Əziz Şərifi, Məmməd Arazı, İslam Səfərlini düşünürsən… Mən Naxçıvanda doğulan – istər Naxçıvanda yaşasın, istər Bakıda – heç bir şairin qədir-qiymətini aşağı salmıram. Amma Naxçıvan deyəndə indiki çağda ən çox Adil Qasımlının şeirlərini xatırlayıram. Çünki onun poeziyasında Naxçıvan canlı bir tarixdir, təbiətdir. Və əlbəttə, Naxçıvan Azərbaycandır deyirəm.

***Əlincədə –zirvədə bir qızılgül bitib.***
***Yüz tufandan qoruyubdu özünü,***
***Möcüzədir zərif gülün dözümü.***
***Bu ocağın qaralmayan közümü***
***Əlincədə ətir saçan qızılgül?***

***Sərt qayada sınıb neçə ildırım,***
***Yaralanıb, paralanıb sıldırım.***
***Zoğ ataraq yenə də baş qaldırıb***
***Əlincədə ətir saçan qızılgül.***

Hər bir şairin təbiətlə, torpaqla ünsiyyəti, doğulduğu məkanın hər qarışına sevgisi o deməkdir ki o, həmin təbiətin, həmin torpağın bir parçasıdır. Əgər Əlincədə, zirvədə bitən o ətir saçan qızılgül şairin öz içindəki güllərə, çiçəklərə oxşamasaydı, o şeir yaranmazdı. Adil Qasımlı öz şeirlərini çöl güllərinə oxşadır. Bu çöl güllərini Günəş özü çimizdirir, göydən od yağsa belə, solmurlar. Bu qərib çöllərin gül-çiçəkləri ilə şairin şeirləri – nəğmələri bir-birinə oxşar. Mən qətiyyən şübhə eləmirəm ki, Adil Qasımlı yağışlı bir gecədən də, çöl güllərindən də, torpaqdan da, aylı gecənin aydınlığından da yazanda ürəyinə köçürdüyü Naxçıvandan söz açır. İsa Həbibbəyli Adil Qasımlının şeirlərindəki «Naxçıvan coğrafiyası»nı belə müəyyənləşdirir: Mömünə xatın məqbərəsi, əfsanəli, nağıllı Arpaçay, zirvəli, qürrəli Şahbuz dağları, məğrur Əlincə qalası… Bütün bunları ana yurdun orijinal və parlaq poetik salnaməsi kimi qeyd edir. Qədim və müasir Naxçıvan haqqında minlərlə şeirlər yazılıb və yazılacaq, amma Adil Qasımlının bu şeiri o «Naxçıvannamələr»in ön sıralarındadır:

***O yer ki, dağları qranitləşib***
***Köksündə nizələr, oxlar kütləşib,***
***Qədim qalalardan zireh geyibdi…***
***Bütün ötkəmliyi, sərtliyi ilə***
***Vüqarı, dözümü, mərdliyi ilə***
***Məni göz açandan sehrləyibdi.***
***Köklənib dumduru məhəbbət üstə***
***Qəlbimin telləri çalınıb sim-sim.***
***Gah pay-piyada, gah da at üstə***
***Gəzdiyim torpaqdı ilk müəllimim.***

Adil Qasımlının təbiət şeirlərində bir misra belə mədh və tərənnüm yoxdur. O, ilin fəsillərinə, ya ağaca, dağa, güllərə şeir həsr edirsə, demir ki, qış, ya bahar gözəldir, ya da Əlincədəki zirvədə bitən qızılgülün vəsfini, tərifini vermir. Amma bədii təsvir vasitələri (ən çox təşbih və metafora) ilə poetik ustalıq nümayiş etdirir: Baxın «Qış eskizləri»nə:

***Yağışla yuyulan dərəyə, düzə,***
***Yenə narın-narın qar ələyir qış.***

***Budaqlar əsəndə sanıram bizə***
***Buzlu barmağını silkələyir qış.***

***Yalçın qayaların qardandır tacı,***
***Arxaca ağ duman sərilib indi.***
***Şəlalə – dağların dağınıq saçı***
***Şaxtanın əliylə hörülüb indi.***

***Bulaq nəfəsiylə qarı əridir,***
***Süzülüb axdığı dağ yaxasında.***
***Ləpirlər elə bil, düymə yeridir***
***Qarlı düzənlərin ağ yaxasında.***

Diqqət yetirmişəm ki, Adil Qasımlının şeirlərindən söz açan hər bir müəllif onun şeir dilinin gözəlliyindən, yəni ədəbi dillə canlı danışıq dilinin qovuşmasından yaranan vəhdəti xüsusi qeyd etmişlər. Bu isə o deməkdir ki, Adil Qasımlı şeirlərində heç bir kələ-kötür sözə, ifadəyə yol vermir, sadə, anlaşıqlı, amma poetik (lirik-emosional, bədii təsvir ustalığı) ifadə və məcazlarla diqqəti cəlb edir. Buna nail olmaq isə bədii təfəkkürün müasir ədəbi dil normalarına uyğunlaşması, mümkün qədər şablonlardan, belə deyək ki, ənənənin sxolostik «zorakılığından» qurtulması ilə müəyyənləşir. Adil Qasımlı «köhnə havalarda» təzə notlar səsləndirməyi bacarır, neçə qoşmasını, gəraylısını nümunə göstərə bilərəm ki, aşıq poeziyasının – xalq şeirinin yaşarı ənənələrinə necə sadiq qalıb, amma kimisə yasılamayıb. Onun bir sevgi şeirinə diqqət yetirin:

***Eşitmirsən sözlərimi,***
***Yoldan yığım gözlərimi.***
***Düşüb qalan izlərimi,***
***Dönüm, öpə-öpə gedim.***

***Çevrilmisən sal daşlara,***
***Mən nə deyim lal daşlara.***
***Al qəlbimi, çal daşlara,***
***Olsun qəlpə-qəlpə, gedim.***
***Yandırıb döndərdin külə,***
***Barı, sonda xoşbəxt elə, –***
***Gözlərimi əllərinlə***
***Bu dünyaya qapa, gedim.***

İndi qalır bir suala cavab vermək: istedadlı bir şair kimi təqdir etdiyin Adil Qasımlı – həm XX əsrin, həm də XXI əsrin şairi – yaşadığı bu dünyanı, Vətəni, həyatdakı reallıqları, cəmiyyətdə baş verən ictimai-siyasi prosesləri və əlbəttə, özünün Zamanla münasibətini necə ifadə edir? Axı, şair təkcə öz hisslərinin, duyğularının, şəxsi istək və arzularının təsvirçisi və tərənnümçüsü deyil, şair həm də öz içindən – o sırf intim aləmdən böyük aləmə, mübarizələr, münaqişələr, ziddiyyətlər dolu bir aləmə də körpü salmalıdır. Və ən başlıcası, «Mən kiməm?» sualına da cavab verməlidir (Azərbaycan poeziyasında bu suala cavab verməyən şair varmı görəsən?). Adil Qasımlı bir şeirində yazır:

***Bir gün kimliyimi soruşsa kimsə,***
***Bilmərəm nə deyim,***
***Bu deyil ki, sirr –***

***Ağacı tanıdan meyvəsidirsə,***
***Torpağı tanıdan bərəkətidir…***
***Mən nə eləmişəm, nə də deyəm ki,***
***Daim gileyliyəm, gileyliyəm ki,***
***Sinəmdə cücərən söz güllənməyib,***
***Şeirim zəmi-zəmi sünbüllənməyib,***
***Quru bir çubuqdür əlimdə qələm,***
***Hələ kimliyimi deyə bilmərəm.***

Bu şeiri Adil Qasımlı nisbətən cavan yaşlarında qələmə alıb, ya sonrakı illərdə, bunun elə bir əhəmiyyəti yox; amma elə şeirləri var ki, həmin kimlik məsələsinə heç bir şübhə yeri qalmır: «Mən elə ağacam, elə otam ki, Ancaq bu torpaqdan bitə bilərdim», «Mənim igidliyim, mənim mərdliyim Koroğlu köklüdü, Babək özüllü». Ümumiyyətlə, əksər şairlərimizə xas olan özündən və ən çox öz taleyindən narazılığı («Bircə ondan razıyam ki, Özümdən narazıyam» –B.Vahabzadə) Adil Qasımlının şeirlərində də gördük. Və həmçinin «Koroğlu köklü, Babək özüllü» azərbaycanlı olduğunu da izlədik. Hər hansı şairin müxtəlif əhval-ruhiyyədə, ovqatda olmasını da anlamalıyıq. Adil Qasımlını bir neçə şeirinə görə şikayətçi, etirazçı şair kimi qələmə vermək də olar ("Üstümə yüz yerdən ələnir daşlar, Hardasan, hardasan, a Simurq quşu?", «Gülünctək salındım ələ dünyada, Mənim nə işim var belə dünyada», «Kürəyimdə titrəyir «qardaşım» vuran bıçaq, Kimə etibar edim, inanım bundan belə?» və s.). Ancaq buna nə ehtiyac? Əgər bu dünyada ŞAİR öz ömür yolunu neçə-neçə aşırımdan, dolaydan keçirirsə, həyatda hamar, asan yolu seçmirsə, amma çətinliklər gədiyindən keçirsə, bu yollarda qarşısına uçurumlar çıxırsa… nə etməli?

***Ümid dolu, inam dolu***
***Bir ürəklə keçək gərək biz bu yolu.***

Və təbii ki, Şairi təkcə çətin yollar yolçusu kimi anlamayaq. Şairlər deyilmi bizə sevgini, dünyanın gözəlliyini, həyata, gerçəkliyə, yaşamağa ümidi artıran, Vətən eşqini, Azadlıq duyğusunu ürəyimizə səpələyən? «Qoy tanısın dünya məni» və «Azərbaycan» şeirlərində Adil Qasımlı vətənpərvər bir şair kimi diqqəti cəlb edirsə, «Səni səsləyirəm»də türkçü kimi çıxış edir, sevgi şeirlərində zərif bir ürək sahibi olduğunu nişan verir, «Yaşıl obanın nağılları» poemasında müharibə illərinin ağrı-acılarından söz açır (Adil Qasımlı özü də «müharibə uşağıdır»), «İydələr çiçəkləyəndə», «Torpaq» və onlarla şeirlərində təbiətin gözəlliyini, rəngarəngliyini misralarına köçürür, bir sıra şeirlərində isə həyatdakı neqativ halları tənqid hədəfinə çevirir. Bir sözlə, müasir şair nə yazmalıdır, nədən söz açmalıdır sualına şeirlərilə cavab verir.

Və sonda: Adil Qasımlıdan kiçik bir şeirlə bu yazını tamamlayıram:

***Bu torpağın qəhrini çək,***
***Yeri şumla, toxumu ək,***
***Zay olanı çürüyəcək,***
***Safları üzə çıxacaq.***
***Ruhum hələ coşur canda,***
***Gileyim yox təbimdən də.***
***Ən köhnə kitabımdan da***
***Sözlərim təzə çıxacaq.***

***Vaqif YUSİFLİ***







**SEYRAN SƏXAVƏT**
**“DAŞ EVLƏR”**
**BAKI, “QANUN” NƏŞRİYYATI, 2021**

Seyran Səxavətin “Daş evlər” romanı təkrar çap olunub. Yazıçı müxtəlif taleli insanların – müharibə veteranı Fərhad kişi, tələbə Akif, evdar qadın Zəkiyyə xala, taksi sürücüsü Əhməd, professor Əsgərzadə, tələbə qız Reyhanın qaynar həyatını maraqla təsvir edir.




**ZAHİD XƏLİL**
**“DƏMİR YUMRUQ DASTANI”**
**BAKI, “3 ALMA” TEAS PRESS NƏŞRİYYATI, 2021**

Görkəmli uşaq yazıçısı Zahid Xəlilin “Dəmir yumruq dastanı” Vətən müharibəsinə həsr edilib. Kitabda Azərbaycan ordusunun 44 günlük zəfər yürüşü bədii və publisistik üslubda təqdim olunur.




**BABA BABAYEV**
**“MİRZƏ FƏTƏLİ AXUNDZADƏNİN NƏSR YARADICILIĞI”**
**BAKI, “OPTİMİST” MMC ÇAP MƏRKƏZİ, 2021**

Filologiya elmləri doktoru Baba Babayev XIX əsr Azərbaycan ədəbiyyatı və ictimai fikir tarixinin görkəmli nümayəndəsi, milli dramaturgiya və realist bədii nəsrin banisi Mirzə Fətəli Axundzadənin (1812-1878) orijinal nəsr yaradıcılığından bəhs edir.




**VAQİF SULTANLI**
**“ПЕПЕЛЬНАЯ КЛЕТКА” (“KÜL QƏFƏS”)**
**SANKT-PETERBURQ,**
**“SUPER” NƏŞRİYYATI, 2021**

Vaqif Sultanlının Sankt-Peterburqun “Super” nəşriyyatında çap olunan “Kül qəfəs” (“Пепельная клетка”) kitabına müəllifin müxtəlif illərdə yazıb mətbuatda və antoloji toplularda dərc etdirdiyi “Zolaqlı yuva”, “Tərs axın”, “Ağ yol” və s. başqa hekayələri daxil edilib.

Real və şərti-metaforik üslubun qovuşuğunda qələmə alınan yazılarda müəllif mənsub olduğu ictimai mühitin əsirinə çevrilən insanların düşüncə, həyəcan, sarsıntı və qayğılarını əks etdirməyə çalışıb.

İnessa Lovkovanın redaktorluğu ilə yayınlanan hekayələri rus dilinə Natəvan Xəlilova, Mədinə Eldarova, Nadir Ağasıyev, Liliya Gərayzadə və Cavid Abbaslı çeviriblər.



**MÜBARİZ CƏFƏRLİ**
**“ZƏNCİR”**
**TƏBRİZ, “QARAÇUXA” NƏŞRİYYATI, 2021**

Mübariz Cəfərlinin “Zəncir” romanı Təbrizdə çap olunub. Romanın qayəsi adam dolu dünyada tənhalıqdan qurtula bilməyənlərin yaşadığı faciəvi sonuclardır...

Yazıçı rəvayətin gedişində xəyali-həqiqi olaylarla qəhrəmanın daxili dünyasını oxucuya çatdırır. Günümüzün insan tənhalığından törəyən fəsadlarının üstünü incə detallarla açır.

Əsəri ərəb əlifbasına Elyar Polad uyğunlaşdırıb.




**VÜSAL NURU**
**“KARAKAŞLI”**
**İSTANBUL, “ZƏNGİN YAYINCILIQ”, 2021**

Vüsal Nurunun “Qaraqaşlı”(“Karakaşlı”) romanı Türkiyədə çap olunub. Roman Qarabağ müharibəsindən bəhs edir. Əsərin qəhrəmanı on üç nəfərlik kəşfiyyat dəstəsinin komandiridir. Rusiyadakı hərbi xidmətini atıb öz kəndini qorumağa gələn komandir İbad atasının əlindən ailə yadigarı olan ov tüfənginin alındığını öyrənir, bütün kəndin düşmənə qarşı tərksilah edildiyi bir vaxtda döyüşlərə qatılır. Baş qəhrəman fonunda Birinci Qarabağ müharibəsində yaşamış ailələrin faciəsi, dağılmış həyatları, ağır güzaranları, müharibənin amansız təsiri görünür. Romanda düşmən qədər silahı olmayan, lakin Vətəni, yurdu, torpağı uğrunda canından keçən, igidlik göstərən Azərbaycan oğullarının bədii obrazları yaradılıb.

Romanı Türkiyə türkcəsinə yazıçı Yurtsevən Şən çevirib.